Ramiz Dəniz

# *Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi*

Bakı -2014

**Elmi redaktor:** **AMEA-nın müxbir üzvü, professor Eybali Mehrəliyev**
**Rəy: AMEA-nın müxbir üzvü professor Elbrus Əlizadə**
**Ön söz:** **professor Nizaməddin Allahverdiyev**
**Kompüterdə yığan:** **Sinay**
**Kompüter dizaynı:** **Sevinc**

**Ramiz Dəniz. "Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi". Bakı, "MM-S" müəssisəsi, 2014, 355 səh..**
**ISBN – 978-9952-8230-7-3**

510 il bundan əvvəl Xristofor Kolumb tərəfindən Amerika qitəsi kəşf edilsə də, çox hallarda hələ də həmin kəşfin bir çox qaranlıq tərəfi dünya ictimaiyyətini dərin düşüncələrə qərq edir. Saysız-hesabsız elmi əsərlərdə bildirilir ki, Kolumb kəşf etdiyi torpaqları Şərqi Asiyanın ərazisi ilə səhv salıbdır. Mən, bu əsərimdə sübut etməyə çalışmışam ki, Genuyadan olan məşhur dəniz səyyahı Atlantik okeanının qərb hissəsinə yola düşməmişdən əvvəl, görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi Qərbdə Köhnə Dünyaya məlum olmayan iri bir torpaq ərazisinin varlığından hali imiş. Bəli, bəli, Kolumb özünün transatlantik səyahətinə yola düşməmişdən 220 il əvvəl, dünya ensiklopediyasında şərəfli və layiqli yer tutmuş N. Tusi Marağa rəsədxanasında tərtib etdiyi xəritədə, Amerika qitəsinin konturunu coğrafi koordinatları ilə göstərmişdir. Bu dünyada ən fenomenal kəşflərdən biri sayılır və Kolumb praktik olaraq həmin kəşfi həyata keçirmişdir.

**D 4702060103**
**M 087-2014**
**© R.Dəniz 2014**

***Əsərin nəşr olunmasında mənə maddi və mənəvi yardım göstərdiyi üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyinə təşəkkür və minnətdarlığımı bildirirəm***

***Kitab Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ayırdığı qrant hesabına "Partnyor Elmin İnkişafina Dəstək" İctimai Birliyinin sifarişi əsasında çap olunmuşdur***

## Ön söz

Adından göründüyü kimi elmi tədqiqatlar, coğrafi kəşflər tarixində bu günədək bir çox cəhətləri müəmmalı qalmış, digər tərəfdən isə Azərbaycanın mintaliteti, elm tariximizin hələ lazımınca tədqiq edilməmiş, təbliğ olunmamış, milli iftixar və vətənpərvərlik tərbiyəsi baxımdan müstəqillik dövrümüzdə böyük aktual əhəmiyyət kəsb etmiş məsələlərə həsr olunmuşdur.

Maraqlısı bu cəhətdir ki, kitabın müəllifi Ramiz Əli oğlu Qasımov (Dəniz) Qarabağ müharibəsi veteranıdır və hazırda "Azərneftyağ" NEZ-də fəhlə işləyir. O, yalnız orta məktəbi bitirmişdir. Ədəbi yaradıcılıq işinə şəxsi mütaliəsi, öz üzərində yorulmadan işləməsi sayəsində nail olmuşdur. R. Qasımovun özünəməxsus həyatı və yaradıcılıq yolu vardır. Son iki ildə müəllifin yazdığı – trilogiya – **"Konkistadorların Mərkəzi Çili sahillərində faciəli ölümü"** (Bakı, 1999), **"Müqəddəs missiya"** (Bakı, 2001) və **"Cənnətə gedənlər cəhənnəmə düşürlər"** (Bakı, 2001) əsərləri çap edilmişdir. Tarixi macəra janrında yazılmış əsərlər Çingiz Abdullayev, Nüsrət Kəsəmənli, Natiq Rəsulzadə və digər görkəmli ədiblərin də maraq və diqqətini cəlb etmişdir. Tarixi-coğrafi macəra janrında yazdığına görə, Azər-

baycan Yazıçılar birliyinin katibi Çingiz Abdullayev Ramiz Qasımovu novator yazıçı adlandırmışdır.

Amerika qitəsinin kəşfinin üstündən 500 il ötsə belə, hələ də həmin mövzu bir çox mütəxəssislərin maraq dairəsini əhatə edir. Ona görə ki, aktual sayılan həmin məsələ hələ də tam açıqlanmayaraq, müəmmalı şəkildə qalır. Demək olar ki, R. Qasımov ağır sayılan həmin mövzunun öhdəsindən gələrək, Amerikanın kəşfinə dair bir çox məqamları açıqlamağa müəssər olmuşdu. Bu əsərdə, əsrlər boyu müəmma xarakterli sayılan bir çox sualların cavabını tapmaq olar.

Yaşadığımız dövrdə hər bir şagirdi, tələbəni, tarix, coğrafiya və digər ixtisas sahibini daim aşağıdakı suallar düşündürür:

Nə üçün 1492-ci ildə kəşf edilmiş Yeni Dünya sahilləri məşhur dəniz səyyahı Xristofor Kolumbun şərəfinə Amerika adlandırılır?

Nə üçün X. Kolumb Antil adalarını (Vest-Hindiyanı) Şərqi Hindistan adlandırmışdır?

Kolumb kimi savadlı bir şəxs, təcrübəli və bacarıqlı dənizçi Vest-Hindiyanın demək olar ki, çılpaq gəzən, heç bir kənd təsərrüfatı heyvanı bəsləməyən əhalisini, avropalılara yaxşı məlum olan yüksək mətbəxt, mənzil-məişət və

geyim mədəniyyətinə malik olan Çinin, Hindistanın əhalisi ilə "dolaşıq" salmışdır?

Kolumb kimi peşəkar naviqator və dəniz səyyahı, birinci səyahət zamanı Kuba adasının yerləşdiyi coğrafi enliyini təyin edərkən, necə olmuşdu ki, nə az, nə çox $18^0$ "səhv" etmişdi? Xəritəsində $22^0$ əvəzinə, $40^0$ göstərmişdi?

Maraqlıdır nə üçün Kolumb Yaponiyaya, Çinə və Hindistana çatmaq üçün $35^0$-$40^0$ şm. en dairəsi üzrə qərbə deyil, $20^0$-$25^0$ şm. en dairəsi üzrə cənub-qərbə tərəf hərəkət etmişdi?

Nə üçün Kolumbun qəbri beş dəfə Avropa və Amerikada olan müxtəlif şəhərlərə köçürülmüşdür?

Bütün dünyada hamını maraqlandıran bu suallara, məhz bu əsərdə tədqiqatçı-müəllif tərəfindən çox bacarıqla cavablar verilibdir. X. Kolumbun Yeni Dünya sahillərinə təşkil etdiyi səyahətlərinin nəticələrinin araşdırılması nəinki, Amerika və Avropa qitələrində yaşayan elmi mütəxəssisləri, hətta Amerika qitəsindən çox-çox uzaqlarda yerləşən Azərbaycan mütəxəssislərini də həddindən artıq maraqlandırır. Onlardan biri yazıçı Ramiz Qasımovdur. O, sübuta yetirmişdir ki, məşhur dəniz səyyahı X.Kolumb heç də təsadüf nəticəsində Amerika qitəsini kəşf etməyibdir. Bundan əlavə müəllif məhz bu əsərində qətiyyətlə bildirir ki, Kolumb Amerika qitəsini, dünyanın məşhur alimlər

sırasında duran, görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin Marağa rəsədxanasında tərtib etdiyi xəritəsinin köməyi ilə kəşf edibdir. R. Qasımov bu həqiqəti bir neçə faktlarla sübuta yetiribdir. Bir çox alimlər üçün aktual sayılan bu problemi, müəllif təkbaşına, titanik zəhmət çəkərək, bu əsərində həll etmişdi.

Bütün dünya ictimaiyyəti bilməlidir ki, 1492-ci ildə kəşf edilmiş Amerika qitəsinin kəşfində, İtaliya və İspaniya ilə yanaşı (Kolumb milliyyətcə italyan olsa da, lakin onun başçılığı altında, Yeni Dünya sahillərinə yollanan ekspedisiyanı İspaniya təşkil etmişdi.) Azərbaycan da, Nəsirəddin Tusinin sayəsinə müstəsna rol oynayıbdır. Bu həqiqətə şübhə ilə yanaşanlar R. Qasımovun yazdığı elmi əsərin diqqətlə nəzərdən keçirsinlər.

Əziz oxuculara bildirmək istəyirəm ki, keçid dövründən əmələ gəlmiş maddi çətinliklərə baxmayaraq, gənc yazıçı qeyd edilən və edilməyən bir çox suallara cavab tapmaq üçün sözün əsl mənasında uzun müddət çoxcəhətli araşdırmalar, axtarışlar aparmışdır.

Müəllif X. Kolumbun səyahətlərinə, o dövrün ticarət-iqtisadi əlaqələrinə, siyasi coğrafiyasına-qeopolitikasına, tarixinə dair saysız-hesabsız mənbələri, nadir biblioqrafik nüsxələri əldə edərək öyrənmiş, təhlil etmişdir. Əsl həqiqətləri aşkarlamaq üçün toplanılmış faktlar, məlumatlar,

tutuşdurmalar, müqayisələr və məntiqi mühakimlər yolu ilə ümumiləşdirilmiş və ağılabatan, oxucunu inandıra bilən nəticələr çıxarılmışdır.

R. Qasımov bu əsərində göstərir ki, Azərbaycanın dünya şöhrətli alimi Nəsirəddin Tusinin elmi irsindən bəhrələnən Kolumb Avropadan qərbə tərəf üzməklə Çinə, Yaponiyaya və Hindistana su yolu tapmaq adı altında İspaniyanın o zamankı monarxlarını – İzabella Kastiliyanı və Ferdinand Araqonlunu – məharətlə aldadaraq, ekspedisiyanın təşkil olunması üçün onları razı sala bilmişdir. Məşhur dəniz səyyahına Asiyanın şərqinə deyil, məhz Avropadan qərbdə yerləşən naməlum  böyük torpağa gedəcəyi gün kimi aydın idi. O, öz şəxsi mənafeyi naminə bu sirri ürəyində saxlayırdı. Digər tərəf – ekspedisiyanın xərclərini çəkən və ona himayədarlıq edən İspaniyanın monarxları da Kolumbu qabaqcadan aldatdıqlarını zənn etmişdilər. Nəzərdə tutulan ekspedisiya müvəffəqiyyətlə başa çatacağı halda müqavilədə nəzərdə tutulan imtiyazlardan imtina ediləcəyi müəyyənləşdirilmişdi.

Kolumb bu səfərə tam inamla başladı ki, bu da təsadüfi deyildi. Belə ki, XIII əsrdə nəinki Azərbaycanda, hətta dünyada böyük şöhrət qazanmış Nəsirəddin Tusinin elmi əsərlərindən, onun koordinatlar sistemindən, xüsusən də Marağa rəsədxanasında tərtib edilmiş xəritəsindən məşhur

dəniz səyyahının səhv məlumatı var idi. N. Tusinin hesabatında göstərilmişdir ki, Köhnə Dünyadan qərbdə, okeanın o tayında həddindən artıq böyük bir torpaq ərazisi yerləşir. Alimin xəritəsində isə bu torpağın konturları, Avropadan hansı məsafədə yerləşməsi, oraya getmək və qayıtmaq üçün istifadə edilə bilinəcək cərəyanların istiqamətləri belə məlum idi. Buna görə də, Kolumb qabaqcadan bilirdi ki, Avropalılara məlum olmayan torpağa onun gəmiləri nə vaxt çatacaqdır. Heç də təsadüfi deyil ki, Yeni Dünya sahillərinə az qalmış gəmilərdəki matroslar qiyam qaldırıb geriyə qayıtmağı tələb edəndə, Kolumb səyahəti davam etdirmək üçün cəmi üç gün möhlət istəyir. Həmin andan 26 saat keçəndən sonra həqiqətən də ispan ekspedisiyası – 1492-ci ildə oktyabrın 12-də - Baham adalarının tərkibində olan Quanahini adasını kəşf edir.

Azərbaycanımızın elm tarixini, vaxtı ilə dünyanın ən böyük elm mərkəzlərindən birini və tayı-bərabəri olmayan Marağa rəsədxanasını yaratmış Nəsirəddin Tusinin elmi irsini öyrənmək, onun ümumbəşəri əhəmiyyətini oxuculara, ictimaiyyətə çatdırmaq üçün misilsiz bədii yaradıcılıq nümunəsi göstərmiş R. Qasımov bənzəri olmayan bir əsər yaratmışdır. Bu əsəri həm də fundamental tarixi-coğrafi tədqiqat əsəri kimi qiymətləndirmək olar. Əsərdə Kolumb və Tusinin şəxsi nümunəsində dünyanın ədalətsizlikləri,

haqsızlıqları, haqqın-ədalətin öz yerini heç də həmişə tapmaması, böyük şəxsiyyətlərinin lazımınca qiymətləndirilməməsi şübhəsiz inkarı mümkün olmayan faktlar əsasında təhlil və tənqid olunur. Düzəldilməsi mümkün olan səhvlərin gec də olsa düzəldilməsi arzu edilir.

Titanik zəhmətlə və dərin milli vətənpərvərlik hissləri ilə yazılmış bu əsərdən geniş oxucu kütləsi, şagirdlər, tələbələr, ictimai xadimlər, alimlər, xüsusən elm tarixi, tarix və coğrafiya mütəxəssisləri tərəfindən maraqla oxunub istifadə ediləcəyinə əminəm. Çünki bu əsərdə həmin dövrdən əsas problemləri, Kolumbun və Tusinin dövri fəaliyyətləri, İspaniyadakı və Portuqaliyadakı siyasi vəziyyətin necə olması, Antik dövrdən başlamış, ta ki, XVI əsrin əvvəlinə kimi, xəritəşünaslıq, coğrafiya, astronomiya elmi ilə, coğrafi kəşflərlə məşğul olmuş, dünyanın ən məşhur alimləri və tərəqqipərvər insanların, dəniz səyyahlarının, tədqiqatçılarının, din xadimlərinin və monarxların adları hallanır, Yer kürəsinin bir çox coğrafi məntəqələrinin kəşf edilib aşkarlanmasında mühüm rol oynamış ən maraqlı səyahətləri göstərilir, Kolumbun səyahət ərəfəsində tutduğu məqsəd və məramı və bilə-bilə ki, qarşısındakı torpaq Köhnə Dünyaya məlum olmayan bir ərazidir, nəyə görə kəşf etdiyi torpaqların Asiya qitəsinin bir parçası elan etməsi açıqlanır. XXI əsrin ilk ilində yazılmış bu əsər,

bütün dünyada, xüsusən də İspaniyada, İtaliyada və ABŞ-da fəaliyyət göstərən Kolumbçular üçün böyük bir hədiyyədir və əminəm ki, Ramiz Qasımovun yaratdığı bu elmi iş dünyada böyük rezonansa səbəb olaraq, nəinki onun özünə, həm də bütün Azərbaycana və onun xalqına böyük şan-şöhrət gətirəcək.

**Nizaməddin Allahverdiyev**
**Azərbaycan Pedaqoji Universitetinin İqtisadi-Coğrafiya və Coğrafiya tədrisi metodikası kafedrasının professoru**



# Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi

***Təzadlarla bol olan Yer kürəsinin quruluşu, orta əsrdə yaşayan mütərəqqi və tərəqqipərvər insanlar üçün əsrarəngiz görünsə də, həmin adamlar duman pərdəsi altında olan səhnənin hansı şəkildə olmasını üzə çıxartmaqdan ötrü, coğrafi kəşflərin baş verməsinə böyük canfəşanlıq göstərirdilər. Möhkəm qapını xatırladan okean sularının arxasında gizlədilən dördüncü qitənin kəşf edilməsi üçün Kolumb həmin qapını açmağa müəssər olmuşdur. Lakin Yeni Dünyanın astanasında yerləşən həmin qapının açılması üçün, açarları dahi Azərbaycan alimi Nəsirəddin Tusi hazırlayıb bəşəriyyətə təqdim etmişdir.***

***Müəllif***

## Genuyada anadan olan Xristofor Kolumb və onun Portuqaliya səfəri

Antik dövrdən başlayaraq dənizə bağlı olan insanlar elə hey çalışırdılar ki, dənizin o tayındakı torpaqları mənimsəsin. Lakin bunun üçün hər bir havaya dözən keyfiyyət baxımından möhkəm olan gəmilər istehsal etmək lazım idi.

Xristofor Kolumbun özü dahi səyyah olsa belə onun həyatı əsrarəngiz səhifələrlə doludur. Onun nə istədiyini başa düşmək çətin deyildi, lakin heç kim deyə bilməz ki, o, ömrünün sonuna qədər daxilində olan sirləri dünya ictimaiyyətinə tam açıqlayıb, yoxsa alimləri maraqlandıran bir çox aktual həlli olan məsələlərin açarını özü ilə axirət dünyasına aparıb? Mənə elə gəlir ki, apardığım uzun müddətli tədqiqat işində Kolumbun axirət dünyasına apardığı sirlərin bir çoxunu dünya ictimaiyyəti üçün açıqlamağa müvəffəq olmuşam. Mərhələ-mərhələ mən həmin açıqlamaları hamının diqqətinə çatdıracağam. Lakin ilk növbədə onun uşaqlıq, gənclik və cavanlıq yaşlarında keçirdiyi həyatı yoluna nəzər salmalı olacağam.

Qədim zamanlarda və orta əsrlərdə hər hansı bir dahi şəxsiyyət peyda olanda ölkəsindəki bir çox şəhərlər mübarizə aparırlar ki, həmin adam məhz onların şəhərində anadan olubdur. Elə Kolumbun da ölümündən sonra belə

bir qəribə hadisə baş veribdir. Bildiyiniz kimi məşhur dəniz səyyahı 1451-ci ildə İtaliyanın şimal-qərbində Liquriya dənizinin sahilində yerləşən Genuya şəhərində anadan olmuşdur. Lakin başqa-başqa vaxtlarda və başqa-başqa yerlərdə Kolumbu özlərinki hesab edən 26 namizəd (14 italyan şəhəri və 12 millət) Genuya ilə mübarizə aparıblar.

Qırx il bundan əvvəl Genuya demək olar ki, birdəfəlik bir neçə əsr davam edən bu qəribə prossesi öz xeyrinə həll edə bilir. Lakin buna baxmayaraq indiki zamanda da Kolumbun vətəni və hər hansı bir millətin nümayəndəsi olması üçün bir çox vəkillər yalan fərziyyələri ortaya atırlar. 1571-ci ilə qədər Kolumbun harada anadan olmasında heç kimdə azacıq da olsun şübhə yox idi. O, dəfələrlə özünü Genuyadan olduğunu bildirirdi. Kolumbun genuyalı olmasına dair ilk fikri Ferdinand Kolon ortaya atır. O, Kolumbun taleyinə həkk olunmuş sosial vəziyyəti aradan qaldırmaqdan ötrü bu cür "alicənab" hərəkətə əl atmalı olmuşdu. Genuya belə bir eksperiment üçün yaramırdı, ona görə ki, həmin şəhərdə məşhur dəniz səyyahının soyadı hətta plebey ailələrinin siyahısında da yox idi. Məhz bunun üçün müəllif Kolumbun babalarının İatliyanın başqa şəhəri olan Pyaçentsadan olduqlarını bildirir, harada ki, XIV və XV əsrlərdə yerli Kolumb nəslinin tanınmış nümayəndələri yaşayırdı. Ferdinand Kolonun nümunəsi o

biri əsrlərin tarixçilərini həvəsləndirdi. Tarixçilər Pyaçentsadan əlavə başqa şəhərlərin də namizədliyini Kolumbun vətəni kimi irəli sürməyə başladılar. Əlbəttə belə bir fikirlər ciddi xarakter daşımır.

Xristoforun ata tərəfdən babası Çiavara şəhəri (Genuyadan 30 km. şərqdə yerləşir) yaxınlığında yerləşən Makonezi şəhərciyində toxucu işləmişdir. Kolumbun atası Domeniko həmin sənətə, Brabantdan olan, lakin Kvintoda yaşamış bir toxucu ustanın köməyi ilə yiyələnir. 1440-cı ildən o, Genuyanın şərqində Porta-del-Olivella yaxınlığında yaşamışdır və beş ildən sonra Susanna Fontanaroze adlı bir toxucu qızı ilə evlənir. Həmin nigah nəticəsində 1451-ci ildə Porta-del-Olivellada Xristofor anadan olub. Bir çox tarixçilərin fikrincə, çox güman ki, Xristofordan qabaq böyük uşaqlar anadan olubdur və onlar elə uşaqlıq vaxtında cürbəcür xəstəliklər nəticəsində öz dünyalarını dəyişiblər. Buna baxmayaraq Xristofor ailənin böyük övladı sayılırdı. Bartolomeo ondan iki yaş, Diyeqo isə on yeddi yaş kiçik idi.

Xristoforun 19 yaşı olanda (1470) atası Savonaya köçür və orada yenə də toxuculuqla yanaşı çaxır satmaqla da məşğul olur.

Atası Domeniko Kolombonun, varlı və hərəkətlərində düzgün adam olmadığını sübuta yetirən bir hadisəni qeyd etmək istəyirəm. Xristoforun bacısı Byankinettanın toyun-

da, pendir satışı ilə məşğul olan yezinəsi Domenikonu qızına söz verdiyi cehizin verməsini tələb edir. O, isə öz növbəsində bildirir ki, maddi vəziyyəti düzələn kimi verdiyi vədə əməl edəcək. O vaxtın notariat aktları təsdiq edir ki, həqiqətən də Kolumblar ailəsinin maddi vəziyyəti ürəkaçan deyildi. Xüsusən də təzə köçdükləri evə görə, Kolumb anadan olandan dörd il sonra həmin evin üstündə kreditorlarla böyük narazılıqlar baş verir. Maliyyə vəziyyətinin ağırlaşmasından atası, 1473-cü ildə Porta-del-Olivelladakı evini satmağa məcbur olur və həmin alqı-satqı bilavasitə Xristoforun özü iştirak etmişdi.

Ancaq bütün bu çətinliklərə baxmayaraq Xristofor öz aləmində olurdu; ən çox ona cürbəcür paltarlar geymiş, müxtəlif rəngli adamların toplaşdığı və bir çox növlərdə olan gəmilərin lövbər saldıqları liman təsir bağışlayırdı. O, sahildə nəzarətçi rolunda çox qalmadı. Artıq 14 yaşında Kolumb yunqa vəzifəsində Portofinoya, sonra isə Korsikaya üzməyə başlamışdı. Həmin dövrdə Liquriya dənizinin sahilində ən geniş yayılan ticarət malların natural dəyişməsindən (barter) ibarət idi. Domeniko da həmin ticarətdə iştirak edirdi, oğlu isə bu işdə balaca gəmidə öz vəzifəsini yerinə yetirə-yetirə atasına köməklik edirdi: onlar ticarət mərkəzlərinə parçalar aparırdılar, əvəzinə isə pendir və şərab gətirirdilər.



***Xritofor Kolumb (1451-1506)***

Qaynaqların əksəriyyətində göstərilir ki, Kolumb 1472-ci ilə qədər atası kimi yun sexində işləmişdi. Dəqiq bilinmir məşhur səyyah hər hansı bir məktəbdə oxuyub, ya yox? Ancaq təsdiq olunub ki, o dörd dildə oxumağı bacarırdı; italyan, portuqal, ispan və latın dillərində. Özü də Kolumb hər bir kitabı diqqətlə oxuyub mütaliə edirdi. Bundan əlavə sənədlərdə göstərilir ki, o, genuyalıların ticarət ekspedisiyalarında iştirak etmiş və 1474-1475-ci illərdə Egey dənizində Xios adasına üzmüşdü. Ticarət əlaqələrini genişləndirmək üçün o, Genuyada varlı ticarət ailələri sayılan Spinola və di Neqroların xidmətində olaraq, Xios adasına məhz həmin tacirlərin gəmilərində üzmüşdü. Kolumb toxucu olsa da, gəmidə üzə-üzə dənizçilik sənətinə böyük maraq göstərir. O, dərk etməyə başlayır ki, hər hansı bir tacir varlanmaqdan ötrü, hökmən dənizdə üzən yekə bir gəminin sahibi olmalı və ixtiyarında olan malları dünya bazarına çıxarmalıdır. Belə bir ticarət ilə məhz Spinolalar, di Çenturionilər və di Neqrolar məşğul idi.

1476-cı ildə Spinola və di Neqro ailələri mastiks ilə yüklənmiş donanmalarını Xios adasından Flandriyaya yola salırlar. Matroslardan biri Kolumb idi. May ayının 31-də donanma Genuyanın yaxınlığında yerləşən Noli limanından yola düşür və gəmilərin biri, Fransa kralının düşmənləri sayılan, hersoq Burqundiyalının və qraf Flandriyalının

bayrağı altında üzürdü. Avqustun 13-də Portuqaliyanın cənub sahilində laquşdan bir qədər aralıda fransız eskadrası onlara hücum edir. Genuyalılar silahlı olduqlarından tərəflər arasında döyüş başlayır. Kolumb həmin döyüşdə yaralanır və o, bir dirəyin köməyi ilə sahilə kimi üzə bilir. Laquşda Kolumbu müalicə edirlər və o, sonradan Lissabona yollanır. Portuqaliyanın cənubunda baş verən bədbəxt hadisədən sonra Genuyadan olan toxucunun İberiya yarımadası sahillərində yerləşən adalarla tanışlığı başlanır və o, gələcək taleyini burada yerləşən krallıqlar ilə bağlayır.

Lakin dünyanı seyr etmək üçün sayahətə çıxan Kolumb Pireney yarımadasında qalmaq fikrində deyildi. İmkan düşən kimi o, Portuqaliya sahillərini tərk etmək fikrində idi. Çox keçmədən belə bir imkan yaranır. 1477-ci ilin ilk günlərində Genuyadan İngiltərəyə yollanan kiçik bir donanma Lissabonda dayanmalı olur. Çox güman ki, Kolumb həmin donanmaya xidmətə keçir və oradan İngiltərəyə yollanır. O, Bristoldan İrlandiyanın Holuey limanına gedir. Ondan sonra Kolumb İslandiya sahillərinə də gedib çıxır. Bütün bu səyahətləri barəsində Kolumb özünün xatirə kitabçasında yazmışdır.

Beləliklə, gələcək admiral Avropanın şimal-qərb hissəsində yerləşən mühüm coğrafi məntəqələri gəzib dolaşmağa müvəffəq olmuşdu. Artıq o, adi yox, peşəkar bir dənizçi

kimi formalaşmağa başlayırdı. İslandiya sahillərinə gedib çıxsa da, Kolumba bəlli olmuşdu ki, dumanlı Albiondan (İngiltərə) qeyzerlər adasına (İslandiya) kimi dənizçilər həmin məsafəni əsasən balıqçı gəmilərində qət edirlər. Nə İngiltərədə, nə İrlandiyada, nə də ki, İslandiyada Kolumb Portuqaliyada olduğu kimi iri gəmilər görə bilməmişdi. Uzaq səyahətlərdə iştirak etmək üçün isə hökmən iri tonnajlı gəmilər lazım idi. İngiltərə ilə Portuqaliyanın apardığı ticarət əməliyyatları bir-birindən xeyli fərqlənirdi. Hindistan sahillərinə can atan Portuqaliya öz sərhədlərini Afrikanın qərb sahillərini kəşf etməklə genişləndirirdi. Portuqal gəmiləri Afrikanın Qvineya sahillərindən istiot, fil sümükləri, qızıl və qara dərili qullar gətirirdilər. Coğrafi kəşflərə böyük üstünlük vermiş Henrix Dəniz Səyyahı heç iyirmi il deyildi ki, öz dünyasını dəyişmişdi və onun gördüyü işləri, hakimiyyətə gəlmiş o biri krallar davam etdirirdilər.

1478-ci ilin yaz fəslində Kolumb yenə də Portuqaliyaya gəlir və orada birdəfəlik məskunlaşmağa qərara alır. Qardaşı Bartolomeo onu Teju (Taxo) çayının sahilində qarşılayır və gələcək planlarını Xristofora ərz edir. Qardaşların heç biri ataları kimi toxucu olmaq istəmirdilər. Bartolomeo həmin dövrdə zəmanəsinin savadlı adamlarından biri sayılırdı. O, Genuyada istedadlı xəritəşünaslardan təhsil

almış və bilavasitə xəritələrin tərtibatı ilə məşğul idi. Genuyanın xəritəşünaslıq məktəbi Avropada ən qabaqcıl məktəblərdən biri sayılırdı. Portuqal dəniz səyyahlarının kəşf etdikləri hər bir kəşfi onlar öz xəritələrində əks elətdirir və həddindən artıq baha qiymətə coğrafiya-şünaslara, losmanlara, şturmanlara və gəmi kapitanlarına satırdılar. Peşəkar xaritəşünas olmaq istəyən hər bir kəs üçün Portuqaliya vacib bir obyekt sayılırdı. Elə Bartolomeo da həmin məqsədlə Lissabona gəlmiş və bu işdə qardaşının ona yardımçı olmağını bildirmişdi. Kolumb hər hansı bir səyahətdə iştirak etməli və qardaşını lazımlı xəritələr ilə təmin etməli idi. Mənim fikrimcə, elə bu səbəbdən Kolumb öz həyatını dünya əhəmiyyətli səyahətə bağlayır. Bunun üçün o, Portuqaliyanın vaxtı ilə məşhur dəniz səyyahlarının ailələri ilə yaxından tanış olmalı və bir novator səyyah kimi özünə lazımlı məlumatlar toplamalı idi. Yaşının cavan olmasına baxmayaraq, Kolumb artıq özünü peşəkar bir dənizçi kimi doğrultmuş və Paolo di Neqronun etimadını qazanmışdı. Elə həmin genuyalı tacir ona tapşırır ki, Madeyradan qənd alıb Lissabona gətirsin.

Kolumb ya Madeyrada, ya da ki, Lissabonda gələcək həyat yoldaşı sayılan Felipa Moniz da Perestrella adlı bir senyorita ilə rastlaşır və tərəddüd etmədən, təxminən 1479-cu ildə onunla evlənir. Onun üçün həmin nigah göydən

düşmüş kimi olur. Kolumbun daxil olduğu evin sahibləri vaxı ilə Portuqaliyanın kralı Henrix Dəniz Səyyahının, ondan sonra gələn kralların təşkil etdiyi ekspedisiyalarda yaxından iştirak etmişdilər. Felipanın atası əslən Lombardiyadan idi və iyirmi il bundan əvvəl vəfat etmişdi. O, cavanlıqda Portuqaliyanın dəniz səyahətləri sayəsində göstərdiyi xidmətlərinə görə Henrix Dəniz Səyyahının əyanları sırasına qəbul edilmiş və Portu-Santu adasının qubernatoru vəzifəsinə qoyulmuşdu. Venetsiyalı tacir və dəniz səyyahı olmuş Ka da Mostonun söylədiyinə görə, Kolumbun qayınatası tanınmış müstəmləkəçi sahibkar olmuşdu. Atlantik okeanında portuqal dənizçilərinin müxtəlif səyahətlərinə dair bir çox sənədlər Kolumbun əlinə keçir və o, həmin sənədləri böyük dəqiqliklə nəzərdən keçirmək imkanına malik olur.

Kolumbun qaynı Portu-Santunun qubernatoru olduğuna görə, müvəqqəti olaraq, evlənənlər həmin adada qalır və orada da onların yeganə övladları, gələcəkdə ispan Amerikasının vitse-kralı təyin ediləcək Diyeqo anadan olur. Bir müddətdən sonra onlar Madeyranın paytaxtı sayılan Funşala köçürlər.

Praktiki naviqasiya üzrə ilkin məktəbini o, Madeyra adalarında Portu-Santuda keçir. Oradan Azor adalarına səyahət edəndən sonra dənizçilik elminin kursunu, 1482-ci

və yaxud da 1483-cü ildə Afrikanın Qvineya körfəzinə gedən ekspedisiyalarda başa çatdırır. Tarixi qaynaqlarda göstərilir ki, Qvineya sahillərinə üzərkən, Kolumb, qaynının onun haqqında Portuqaliya kralına göndərdiyi təqdimatına əsasən, iki gəminin komandanı təyin edilir və o, həmin səyahət zamanı, Diyeqo de Azambujun Qvineya sahillərində saldırdığı San-Jorji-da-Mina fortuna kimi gedib çıxır.

Öz məqsədlərini praktiki cəhətcə həyata keçirməkdən ötrü, Kolumb boş vaxtlarında coğrafiya, riyaziyyat və astronomiya elmlərini öyrənməklə yanaşı latın dilinə tam şəkildə yiyələnirdi. O, həmin elmlərə yiyələnməyini heç kimdən gizlətmirdi.

Elmi qaynaqların əksəriyyətində göstərilir ki, Kolumb, nəinki İtaliyanın, hətta bütün dünyanın məşhur səyyahlarından biri sayılan Marko Polonun **"Kitab**" əsəri ilə Portuqaliyada tanış olur və həmin kitab onun həyatında böyük dönüş yaradır. Həmin kitabda nə qədər ki, tarixi faktlara, coğrafi məntəqələrə və koordinatlara, Çində və ona yaxın bölgələrdə yaşayan xalqların və millətlərin adət-ənənələrinə yer verilmişdi, bir o qədər də fantaziyaya rast gəlmək olur. Marko Polonun, Zipanquda (Yaponiya) sarayların qızıl ilə bəzədilməsi, Çinin xanı Xubilayın sarayının möhtəşəm olması və ədviyyatların vətəni Hindistan barəsində yazdıq-

ları ifadələr Kolumba həddindən artıq böyük təsir göstərmişdi. Guya ki, həmin kitabı oxuyandan sonra onun beynində həmin ölkələrə yola düşmək planı yaranır.

Osmanlı Türkiyəsi Hindistana və Çinə gedən quru yollara nəzarət etdiyindən həmin ölkələrə dəniz yolu ilə getmək lazım idi. Lakin həmin ölkələrə getməkdən ötrü ilk növbədə Afrikanı dövrə vurmaq lazımdır. Portuqal dəniz səyyahları buna cəhd göstərsələr də hələlik buna nail olmamışdılar. Bir çox alimlərin dediyinə görə Yerin kürə şəklində olmasına Kolumbda heç bir şübhə yox idi, lakin onun fikrincə insanların məskunlaşdığı planet həqiqətdə olduğundan çox balacadır. Məhz bunun sayəsində o, elə bilirdi ki, Yaponiya Azör adalarından çox da uzaqda yerləşmir. Deməli, həmin ölkələrə, Afrikanı dövrə vurmadan Atlantik okeanını qərb istiqamətində üzməklə gedib çıxmaq olar.

Mən bu fikrin yanlış olduğuna təkzib verməyə hazıram, lakin hələlik tarixi xronikaları nəzərdən keçirmək məqsədə uyğundur.

Hindistana qərb yolu ilə getməyin mümkün olduğunu qeyd edən Kolumb 1484-cü ildə öz layihəsini Portuqaliyanın kralına təqdim edir. Onun fikri sadə idi; biri tam düzgün, o biri isə tam yanlışdır. Birincisi (düzgün) Yerin kürə şəklində olması, ikincisi isə (yanlış) Yerin böyük bir

hissəsi quru torpaqla Asiya, Avropa və Afrika materikləri ilə əhatə olunubdur. Bunu nəzərə alaraq Avropanın qərb sahili ilə Asiyanın şərq sahilləri arasında məsafə xeyli qısadır, yəni qısa müddət ərzində Atlantik okeanın qərb yolu ilə üzməklə gedib Hindistana, Çinə və Yaponiyaya çıxmaq olar. Lakin Avropa ilə Asiyanı ayıran okeanda təxminən 10000 km. (Yaponiyaya qədər) yol qət etmək lazımdır. Bu isə, dayanacaqdan istifadə etməyən hər hansı bir gəmi heyəti üçün həddindən artıq ağır bir iş sayılırdı.[1]

Bu cür təsəvvür Kolumbun yaşadığı dövrdəki coğrafiyaşünasların təsəvvürlərinə uyğun gəlirdi.

XV əsrdə yaşamış tanınmış coğrafiyaşünas Paolo Toskanelli də belə fikirləşirdi. Belə bir səyahətin reallığı barəsində fikri Aristotel, Böyük Pliniy, Strabon və Plutarx kimi dahilər bölüşdürürdülər. Orta əsrlər də isə Vahid okean nəzəriyyəsini kilsə də qəbul etmişdi. Bu cür nəzəriyyəni islam dünyası, o cümlədən onun məşhur coğrafiyaşünasları – Məsudi, əl-Biruni, İdrisi – bölüşdürürdülər.

Böyük Coğrafi kəşflər gəmiqayırmada, naviqasiyada və coğrafi biliklərin əldə olunan nailiyyətlər nəticəsində həyata keçirilməyə başladı. Portuqallar və ispanlar müasir gəmi sayılan açıq okeanda küləyə qarşı dalğalarla üzən, yüngül,

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий. II том. Москва, «Просвещение», 1982. стр.14

manevrli, itisürətli və çoxtutumlu karavellanı düzəltməyi öyrəndilər. Kompasdan istifadə etmək və xəritəşünaslığın inkişafı açıq okeanda üzməyə imkan verirdi. Həmin dövr üçün Yerin kürə şəklində olması fərziyyəsi beynlərə həkk olduğundan, dənizçilərin qərbə yollanıb, Şərqdə yerləşən nağıllar ölkəsinə çatmaq üçün əminlik yaradırdı.[1]

Kolumbun həyatında uğurlu günlər, uğursuz günlərdən çox olubdur. Portuqaliyada yaşayarkən o, 1484-cü ilin əvvəlində öz layihəsini kral II Juana təqdim edir. Lakin layihənin verildiyi vaxt Portuqaliyanın monarxı üçün münasib vaxt deyildi. Həmin dövrdə kral Portuqaliyada baş qaldırmış portuqal maqnatlarının xəyanətkarlarla qaldırdıqları qiyamı yatızdırmaqla məşğul idi. Müvəqqəti olaraq, onu böyük risqlə bağlı olan hər hansı bir iri ekspedisiyanın təşkil edilməsi maraqlandırmırdı. Həm də II Juan başqa ekspedisiyalardan fərqli olaraq, ən çox Afrikanın qərb sahilinə təşkil edilən ekspedisiyalara diqqət yetirirdi. Kral II Juan ilə Kolumb arasındakı danışıqlarda anlaşılmayan məqamlar çoxdur. Lakin məlumdur ki, o, öz xidmətlərinə və təşkil olunacaq ekspedisiya zamanı, gələcəkdə müvəffəqiyyətinə görə kraldan həddindən artıq çox imtiyazlar istəmişdi. O qədər imtiyazları hər hansı bir monarx-

[1] М. Л. Абрамсон, А. А. Кириллова, Н. Ф. Колесницкий и др.; Под ред. Н. Ф. Колесницкого. История средних веков: 2-е изд. испр. и доп. Москва, «Просвещение», 1986. стр. 391

dan istəmək sadəcə olaraq sırtıqlıq sayılırdı. İş ondadır ki, ona qədər heç kim hətta vətən qarşısında böyük xidmətləri olan tanınmış zadəganlar belə bir imtiyazları kraldan tələb etməmişdilər. Tələbləri nədən ibarət idi? O, məlum olan Okeanın baş admiralı, zadəgan rütbəsi, kəşf edəcəyi torpaqların vitse-kral vəzifəsini, həmin torpaqlardan əldə olunacaq ticarətdən gələn verginin səkkiz faizini və qızıl mahmızlar. Öz krallığının tanınmış zadəganlarını ciddi nəzarət altında saxlayan II Juan heç vaxt belə bir imtiyazları kiməsə verməzdi.

Portuqaliyanın xidmətlərində durmuş və coğrafi kəşflər sahəsində uğurlu addımlar atmışdılar. Manuel Pessanyo və ondan sonra gələn nümayəndələr Portuqaliyanın admiralları olmuşdular. XIV əsrdən başlayaraq, onların rəhbərliyi altında kral donanmaları Madeyra, Kanar və Azör adalarının kəşfinə mühüm rol oynamışdılar.

1341-ci ildə Kanar adalarına tədqiqat səyahətinə başçılıq etmiş admiral Nikoloso da Rekko, Henrix Dəniz Səyyahının ölümünə az qalmış Yaşıl Burun adalarını kəşf etmiş admiral Antonio da Noli, Portuqaliyanın müstəmləkə dövlətə çevirilməsində böyük xidmətlər göstərmişdilər. II Juan xarakterində olan başqa xüsusiyyətlərdən əlavə həm də müdrik hökmdar da sayılırdı və Kolumba inanaraq

sadəlöhv addımlar atmaq istəmirdi. Belə bir ciddi məsələdə kral özbaşına qərar çıxara bilməzdi.




***Pottuqaliya kralı II Juan (1455-1495)***

Gələcəkdə Kolumb həmin tələbləri, qızıl mahmızlardan başqa, İspaniya kraliçası İzabella Kastiliyalı ilə bağlanan müqaviləyə daxil etmişdi. Avtomatik olaraq ortaya belə bir sual meydana çıxır: Portuqaliyanın kralı II Juan bu qədər ciddi, tələbkar və sərt fikirli monarxdırsa, onda nəyə görə Kolumba birbaşa rədd cavabı verməmişdi? İş ondadır ki, Genuyadan olan dənizçilər daimi olaraq vicdanla və şərəflə

Məhz buna görə də o, hər ehtimala qarşı Kolumbun layihəsini, Seutanın arxiyepiskopu Diyeqo Ortits-de Villeqasın başçılığı altında, Portuqaliyanın ən istedadlı və bacarıqlı alimlərin və riyaziyyatçıların fəaliyyət göstərdikləri kiçik Lissabon akademiyasına – ***"Riyaziyyatçılar Xuntasına"*** – verir. Bu təşkilatın bir neçə üzvü yəhudi ailmləri idi: o dövrün astrolyabiyasını və sekstantını təkmilləşdirmiş usta Rodriqo və naviqasiya astronomiyasının ustası Xose Vitsinqo.[1] Həmin adamlar dəqiq bilirdilər ki, layihədə göstərilmiş uzunluq barəsindəki ölçülər və həmin ölçülərə dair verilmiş məsafələr düzgün ola bilməz. İş ondadır ki, onların özlərində də Yer kürəsinin uzunluğunun dəqiq ölçüsü yox idi, lakin alimlər əmin idilər ki, Kolumb öz hesabatlarında düzgün deyil. Lap dəqiq bilinmir həmin şura hansı qərar çıxarır. Lakin o məlumdur

[1] Ч. Верлинден. Покорители Америки. Ростов-на-Дону, «Феникс», 1997. стр. 21

ki, 1485-ci ildə çıxarılan qərar gözlənildiyi kimi Kolumbun xeyrinə olmayıbdır. Elə həmin ildə də onun həyat yoldaşı vəfat edir və Kolumbun maliyyə vəziyyəti pisləşməyə başlayır.

Portuqaliyada heç bir şey Kolumbun xeyrinə olmur. Lakin bir çox fürsətlərdən məharətlə istifadə edən portuqallar genuyalı dənizçinin layihəsini praktikada yoxlamağı qərara alırlar.

Bəlkə, Kolumb həqiqətən də düz deyir? Həmin ideyanı necə olsa da Eratosfeh, Ptolemey və axırda, Şərq alimlərinin fikiri nəzərə alınmadan, Paolo Toskanelli də irəli sürmüşdülər.

Kolumb çox yaxşı bilirdi ki, onun layihəsi qəbul olunmayandan sonra portuqallar qərbdə yerləşən torpaqların axtarışı ilə məşğul olacaqlar. Həqiqətən də elə olur. Atlantikanın şərq sahillərini ələk-vələk edən portuqallar çox çəkmədən okeanın qərb hissəsində axtarışlara başlamağı qərara gəlirlər.

Beləliklə, Kolumb Lissabondan uzaqlaşdırılandan sonra kral II Juan özü Atlantik okeanının qərb hissəsinə ekspedisiya yaratmaq fikirinə düşür. Həmin missiyanın həyata keçirilməsi üçün kral ekspedisiyanın rəbərliyinə, Portuqaliyada Fernando de Ulmo adı ilə tanınan, fələməngli dənizçi Ferdinand van Olmeni təyin edir.

Van Olmenin iki karavella ilə Atlantikadakı səyahəti 1487-ci ilin yazında başalmışdı.[1] Hələ ona qədər, keçmiş kral V Alfons Atlantik okeanın qərbində yerləşən torpaqları tapmaqdan ötrü 1462-ci ildə Voqadonun rəhbərliyi altında ekspedisiya təşkil edir. Həmin səyahət də müvəffəqiyyət əldə olunmur. Voqadoya nisbətən van Olmenin ekspedisiyası vətənə qayıtmır.

Genuyalı dənizçinin şübhələri özünü doğrultsa da, lakin arxayınlığı onu aldatmır. Kolumb əmin idi ki, portuqallar Atlantikanın qərb hissəsində axtarışlara başlasalar da, onlar uğur qazana bilməyəcəkdilər. Ona görə ki, bunun əsas səbəbi vardı.

Avropada məşhur alim kimi tanınan Biruni sıfırıncı meridianı Qrinviç meridianından $25^0$ qərb istiqamətində göstərdiyi üçün portuqal dənizçiləri Antiliya və Səadət adalarını məhz həmin meridianda və yaxud ona yaxın bir yerdə axtarmışdılar. Yəni, **“Riyaziyyatçılar Xuntası”**nın rəhbərliyinin göstərişilə Portuqaliyada təşkil edilən ekspedisiyalar Biruninin təyin etdiyi sıfırıncı meridianından qərb istiqamətində çox uzaqlaşmamalı idilər. Məhz bu səbəbdən Antiliya və Səadət adalarını axtaran ekspedisiyalar üçün, indiki Amerika qitəsi ilə üzləşmək, qeyri-real sayılırdı.

[1] Ч. Верлинден. Покорители Америки. Ростов-на-Дону, «Феникс», 1997. стр. 23

Portuqaliya özü üçün təyin etdiyi sıfırıncı meridianı sirr kimi saxlasa da, Kolumb portuqalların, Biruninin qoyduğu meridiandan başlanğıc meridianı kimi istifadə etmələrindən şübhələnmişdi. Belə olan halda Atlantik okeanının qərb istiqamətində gizlin qalan iri bir qitənin aşkarlanması mümkün deyildi.

Elə portuqalların Van Olmenin başçılığı altında 1487-ci ildə təşkil etdikləri ekspedisiyanın, okeanın qərb hissəsində axtarışlarla məşğul olması Kolumbu, azacıq olsun da narahat etməmişdi. Biruninin göstərdiyi sıfırıncı meridianda Antiliya və ya Səadət adaları yox idi. Portuqal dənizçilərindən fərqli olaraq, Kolumb Tusinin təyin etdiyi sıfırıncı meridiandan başlanğıc meridianı kimi istifadə etməsini, qarşısına bir məqsəd kimi qoymuşdu. O əmin idi ki, məhz həmin meridianın xətti naməlum iri bir torpağın şərq sahilindən keçə bilər.[1]

[1] Dəniz R. Əsrləri qabaqlamış alim - Nəsirəddin Tusi. Bakı, "Yurd" NPB., 2003. səh. 280-181

## Xristofor Kolumbun İspaniya səfəri

Portuqaliyada bütün ümidini itirən Kolumb 1485-ci ildə Kastiliyaya yola düşməyə qərara alır. O, yeddi yaşlı oğlu Diyeqonu özü ilə götürüb Palosa yollanır ki, yaxınlıqda yerləşən Uelve şəhərində yaşayan mərhum həyat yoldaşının qohumlarının yanında oğlunu qoysun. Paralel olaraq Kolumb qardaşı Bartolomeonu İngiltərəyə göndərir ki, o, Hindistana gedən qərb yolunun layihəsini VII Henrixə təqdim etsin. Kolumb ümidvar olur ki, həmin layihə İngiltərənin kralı VII Henrixi maraqlandıracaq.

Qucağında uşaqla uzun yol qət edən Kolumb həddindən artıq bərk yorulur və yorğunluğunu almaq üçün özünü Rabid monastırına çatdırır. Orada ürəyini boşaltmaqdan ötrü öz sirrini, monastrın sahibi, İspaniyanın monarxlarının yanında böyük nüfuzu olan, Antonio de Marçenaya (o, coğrafiya və kosmoqrafiya ilə həddindən artıq çox maraqlanırmış), açmalı olur. Kolumbun layihəsi Antonionu hərarətləndirir. Onun kral sarayı ilə əlaqəsi olduğuna görə entuziast adamı, kral ailəsinə yaxın olan nüfuzlu şəxslərin yanına, təqdimat məktubu ilə göndərir və paralel olaraq hersoq Medina Sidoniya ilə tanış edir. Hersoq isə öz növbəsində Kolumba, səyahətə başlamaq üçün eskadra verəcəyini söz verir, lakin öz sözünün üstündə durmur.



***Kolumb özünün transatlantik layihəsini müzakirə edir***

Monastırda mehribanlıq şəraitində qarşılanan Kolumbun sevincinin həddi-hüdudu yox idi. Oradan xoş təəssüratlarla ayrılaraq o, birbaşa Kordovaya yollanır. İspaniyanın monarxları İzabella Kastiliyalı ilə Ferdinand Araqonlunun iqamətgahları müvəqqəti olaraq Kordovada yerləşirdi.

Lakin İspaniyada Kristobol Kolonu (Xristofor Kolumbu İspaniyada belə adlandırırdılar) məyusedici və aldadıcı uzun illər gözləyirdi. Kral müşavirləri onun layihəsinin həyata keçirilməsinin mümkünsüzlüyünü bildirirdilər.

Əlbəttə, bunun əsas səbəbini izah etməyə heç bir ehtiyac yox idi. Monarxlar əsas diqqətlərini və güclərini İspaniyanın ərazisində qalmış, ərəblərin xırda dövləti olan, Qranadaya qarşı aparılan müharibəyə yönəltmişdilər. Kolumb çox yaxşı bilirdi ki, ərəblər darmadağın edilməyincə İspaniyanın hakim dairələri bu məsələyə ciddi yanaşmayacaqlar. Belə olan halda o, öz layihəsini İngiltərəyə, ondan sonra isə yenə də Portuqaliyaya təqdim edir. Bütün bu səylərə baxmayaraq hər iki dövlətdə Kolumbun layihəsinə ciddi əhəmiyyət verilmir.

Həmin prosseslər zamanı Antonio de Marçena, ümidini itirməyən Kolumbu, İspaniya monarxlarının yanında böyük hörməti olan Kastiliyanın qrandı sayılan, Qvadalkvivr çayının mənsəbindəki Puerto-Santa-Mariya limanında bir neçə gəmisi yerləşən, hersoq Medinaseli, don Luis de la Serda ilə tanış edir. Başqalarına nisbətən onun layihəsi hersoq Medinaselinin marağına səbəb olur. Hersoq ona kömək edəcəyinə söz verir. Lakin bütün bu təqdimatlar Kolumbun işinə yalnız böyük xələl gətirirdi. Hersoq Medinaseli kraliça İzabella Kastiliyalıdan xahiş edir ki, öz

hesabına həmin ekspedisiyanın təşkil edilməsinə icazə versin. Kraliça bu tədbirə şübhə ilə yanaşır; işdir həmin ekspedisiya böyük uğur qazansa, onda kraliçanın siyasi rəqibləri olan iri feodalların qüvvətlənməsinə və nüfuzlarının artmasına gətirib çıxaracaqdır. Əgər bu missiya kraliça özü baş qoşsa, onda bir qədər pul xərcləməli olacaqdır. Ancaq dəqiq bilinmirdi həmin ekspedisiya uğur qazanacaq, ya yox. İşdir, Kolumbun başçılıq etdiyi ekspedisiya müvəffəqiyyətsizliyə düçar olsa, onda kraliça İzabella qoyduğu maliyyədən məhrum olacaq, yox əgər kompaniya səyahət zamanı uğur qazansa, onda həmin kraliça, həm də İspaniya krallığı varlanacaq və bunun nəticəsində onun ölkəsi qonşu dövlətlərə nisbətən xeyli qüvvətlənəcəkdir. Bütün bu amilləri nəzərə alandan sonra İzabella Kastiliyalı Kolumbun özü ilə tanış olmağa qərara gəlir. Çox güman ki, kraliça 1486-cı ilin may ayının 1-də ilk dəfə Kolumbu, Kordovadakı Alkasar sarayına dəvət edir və maraqlı dialoqdan sonra onun layihəsini xüsusi komissiyanın müzakirəsinə verir.

Kraliça İzabella çox ağıllı, təkəbbürlü və qətiyyətli bir hökmdar idi. Kolumbun layihə üzərindəki çıxışı onun xoşuna gəlmişdi və söz vermişdi ki, o, genuyalı dənizçiyə öz köməyini göstərəcək. Kolumb əmin idi ki, tezliklə

ekspedisiya təşkil ediləcək və o, okeanın qərb sahilinə yollanacaqdır.

İzabellanın dini atası sayılan Ernardo Talaveranın (gələcəkdə Qranadanın arxiyepiskopu) başçılığı altında monarxlardan və kral əyanlarından təşkil edilmiş həmin komissiya dörd ildən sonra mənfi qərar çıxarır. İlk dəfə komissiya Kordovada, sonra isə məşhur universitet şəhəri sayılan Salamankada toplaşır. Kollegiyanın birinə, Seviliyanın gələcək arxiyepiskopu olacaq, dominikan ordeninin üzvü olan Diyeqo de Deza başçılıq edir. İlk növbədə Diyeqo de Deza həmin səyahətin baş tutmaması üçün kəskin çıxışlar edərək, Kolumbun hesabatlarının düzgün olmadığını sübuta yetirməyə çalışmışdır.

Həmin qərarın tam surəti gəlib bizə çıxmayıbdır. Lakin o məlumdur ki, komissiya üzvləri həmin layihənin həyata keçirilə bilməməsinin bir çox səbəblərini bəhanə gətirirdilərsə, amma Yerin kürə şəklində olmasına öz etirazlarını bildirmirdilər. Mənfi qərarın verilməsinə baxmayaraq, krallar bu məsələyə dair öz fikirlərini tam söyləməmişdilər. Qərar Kolumbun xeyrinə çıxarılmasa da o, 1487-1488-ci illərdə kral xəzinəsindən məvacib alırdı, lakin bütün bunlara baxmayaraq onun işində heç bir irəliləyiş yox idi.

1487-ci ilin avqust və ya sentyabr ayında Kolumb İspaniyanın monarxlarının dəvəti ilə Malaqada yerləşən

kral düşərgəsinə gəlir. Uzunmüddətli mühasirədən sonra Malaqa 1487-ci ilin avqustun 18-də ispan ordusu qarşısında kapitulyasiya etmişdi. Kolumb elə bilirdi ki, bu müvəffəqiyyətdən sonra İzabella ekspedisiyanın təşkil edilməsinə öz razılığını bildirəcək. Lakin müsəlmanlara qarşı aparılan müharibəyə başı qarışmış İzabella qətiyyətlə bildirir ki, İberiya yarımadası ərəblərdən tam azad edilməsə, heç bir ekspedisiyadan söz gedə bilməz.



***İspan monarxları Ferdinand Araqonlu və İzabella Kastiliyalı***

İşin uzandığını görən Kolumb 1488-ci ildə yenidən Portuqaliya ilə əlaqə yaradır, lakin çox çəkmədən ordan yox cavabını alır. Bildiyiniz kimi Bortolomeo Kolumb İspaniyaya qayıdanda, Xristofor qardaşını Londona, VII Henrixin yanına göndərir. O, İngiltərənin kralından Kolumbun ideyalarını müdafiə edərək, ekspedisiya üçün gəmilər istəyir. Amma kral müşavirlərinin ona şübhə ilə yanaşmaları həmin planı alt-üst edir. Növbəti təklif Fransaya verir, elə orada da heç bir müvəffəqiyyət əldə edilmir. Ondan sonra Bartolomeo Fontenbloda qalaraq xəritəşünaslıq sənətini davam etdirməyə başlayır.

Monarxlardan çox hersoq Medinaseli özü təkbaşına Kolumbun ekspedisiyanı təşkil etmək istəyirdi, lakin bunun üçün hökmdarların icazəsi lazim idi. Hersoq genuyalı dənizçiyə xüsusi hörmət ilə yanaşırdı, Komissiya qərar çıxarana qədər Kolumb bir ilə yaxın Medinaselinin evində qalmışdı. Lakin hərdən bir Kolumb Kordovaya gedirdi və orada özündən 15 il cavan olan Beatris de Qarana adli bir qız ilə tanış olur. Beatrisdən onun Ferdinand adlı bir oğlu olur (gələcəkdə Ferdinand məşhur dəniz səyyahının şəxsi bioqrafı olacaq). Beatrisdən olan uşaq onun qanuni uşağı sayılmırdı, ona görə ki, Kolumb heç vaxt Ferdinandın anası ilə evlənməmişdir. Bu nigahın olmamasının bircə səbəbi vardı, onlar qanuni yol ilə evlənsəydilər, onda Kolumb

üçün yuxarı təbəqəyə qalxan yol bağlı olacaqdı. Ancaq o, öz ailəsinə çox hörmət ilə yanaşmışdı.



***Kolumb öz layihəsini kraliça İzabella Kastiliyalıya təqdim edir***

Tarixi qaynaqlarda göstərilir ki, Kolumb oğlu Diyeqoya tapşırmışdı ki, 1502-ci ildən Beatrisə 10000 maravedilik illik renta versin. 1506-cı ildən isə Kolumbun göstərişinə əsasən Diyeqo onlara elə bir qayğı və yardım gösətrməli idi ki, Beatris lazımi şəkildə təmin olunmuş bir qadın kimi bu

həyatda ömür sürsün. Bütün bunlara baxmayaraq məşhur dəniz səyyahı Beatrisin ailəsi ilə xoş münasibət və mehribançılıq şəraitində yaşamışdı. Qızın böyük qardaşı Pedro de Qarana üçüncü səyahət zamanı ekspedisiyanın tərkibində olan karavellaların birinə başçılıq, əmisioğlu isə birinci səyahət zamanı bilavasitə iştirak etmişdi.

Amerikanın vitse-kralı olan Diyeqo nəinki Beatris üçün illik renta təşkil etmiş, hətta bunu öz vəsiyyətində də göstərmişdi. Diyeqo öləndən sonra həmin vəsiyyət onun dul arvadının (Diyeqonun arvadı ispan zadəganlarının ən yüksək təbəqəsindən idi) vasitəsi ilə Qarana ailəsinin üzvlərinə çatdırmışdı.

Kolumb uzaqgörən bir adam idi və çox yaxşı başa düşürdü ki, İspaniyanın monarxları hamı üçün ümdə sayılan məsələni sona çatdırmamış ona özlərinin kömək əllərini uzatmayacaqlar. Hələlik İspaniya ərəblərə qarşı aparılan müharibəni tezliklə başa çatdırmaq istəyirdi. Belə olan halda o, ispan maliyyəçiləri ilə yaxınlaşır və həmin addım Kolumbu qələbəyə doğru aparmağa başlayır. 1491-ci ildə Kolumb yenə də Palosa Rabid monastırına yollanır və Antonio Marçenanın köməyi ilə Palosun tanınmış və nüfuzlu gəmiqayıranı Martin Alonso Pinson ilə tanış olur. Eyni vaxtda onun kralın maliyyə müşavirləri, Seviliyanın tacirləri və bankirləri ilə əlaqələri möhkəmlənir.

Bir çox skeptiklər və alimlər qeyd edirlər ki, Kolumb təsadüf nəticəsində, bəxti gətirmiş bir dənizçi kimi Amerika qitəsini kəşf etmişdi. Yəni, həmin kəşfi hər bir gəmi kapitanı həyata keçirə bilərdi. Əlbəttə, mən belə bir fikir ilə razılaşa bilmərəm.

Səyahətin uzanmasını görən Kolumb ruhdan düşməyərək, nəzərdə tutulan ekspedisiya daha ciddi hazırlaşmaqdan ötrü boş vaxtlarında, yalnız elmi kitabları oxumaqla məşğul olur. Əksəriyyət ədəbiyyatını coğrafiyaya və kosmoqrafiyaya aid olan kitablar təşkil edirdi. Yəni o, yalnız maraqlandığı sahəni daha mükəmməl öyrənməyə çalışırdı. Xüsusən də Kolumb venetsiyalı Marko Polonun **"Səyahətnamə"** kitabını daha çox oxumuş və həmin kitabın səhifələrində çoxsaylı qeydlər qoymuşdu.

Yeni tarixin və müstəmləkəçilik dövrünün alimi professor Çarlz Verlinden **"Xristofor Kolumb"** əsərində yazır: Kolumb Plininin **"Həqiqi tarixin"** italyan tərcüməsini, Plutarxın və Ptolemeyin 1489-cu ildə yenidən çap edilmiş əsərlərini əldə edir. Lakin külli-miqdarda olan qeydlər, Seviliyanın Kolumbiya kitabxanasında saxlanılan, Marko Polonun latın nəşriyyatında olan əsərindən əlavə, Roma papası II Piy adı altında tanınmış olan Enea Silvio Pikkolominin **"Historia rerum ubique qestarum"** və Pyer de Ailyinin **"İmaqo Mundi" ("Dünyanın təsviri")** əsərlə-

rində də onun tərəfindən qeydlər qoyulmuşdur. Həmin əsərlərdə cəmisi 2125 qeyd var.[1]



***Marko Polonun yazıları. Kitabın səhifələrində Kolumb tərəfindən mürəkkəb ilə aparılmış qeydlər var. Həmin kitab Kolumbla birlikdə, Yeni Dünya sahillərinə olan birinci səyahət zamanı olmuşdur.***

C. Beyker qeyd edir ki, Kolumbun kosmoqrafik baxışları orta əsrlər xarakteri daşıyırdı. O, Pyer de Ailyinin “Traktatus **de imagine mundi” (“Dünyanın təsviri haq-**

[1] Ч. Верлинден. Покорители Америки. Ростов-на-Дону, «Феникс», 1997. стр. 32

**qında traktat”)** kitabından istifadə etmişdi, hansındakı Rocer Bekonun XIII əsrdə yazdığı **“Opus Majus”** kitabında çoxsaylı fikirləri vardı. Kolumda isə həmin dövr üçün “yeni” ideyalar yox idi.[1] Mənim fikirimcə bu yanlış fikirdir. Ona görə ki, Kolumb yalnız həmin əsərdən yox, ümumiyyətlə, Yerin təsviri və okeanlarla bağlı çoxsaylı kitabların səhifələrini nəzərdən keçirmişdi.

1410-cu ildə kardinal Pyer de Ailyi, humanistlər hələ Ptolemeyi yenidən kəşf edənə qədər, ümumi coğrafiya üzrə traktat yazmışdı. O, Tirdən olan Marinus kimi bildirmişdir ki, Asiya şərq istiqamətində daha çox uzanır və Avropadan ensiz okean ilə ayrılır. Bir fransız kosmoqrafı, Kolumbda olan, özünün yazılarından birində hətta belə bir fikir söyləyir ki, əlverişli küləyin vasitəsi ilə həmin okeanı bir neçə gün müddətinə qət etmək mümkündür. Genuyalı dənizçi həmin yeri xüsusi ilə qeyd etmiş və eləcədə orada həmin fikrə dair öz iradlarını bildirmişdi. **“İmaqo Mundi”** əsərində Kolumb, haradakı İspaniya ilə Hindistan arasında məsafə azdır və şərq qərbdən heç də uzaq məsafədə başlamır səhifələri var, əsasən həmin yerlərdə xüsusi və geniş şəkildə öz qeydlərini vermişdi. İspaniya və Hindistan barəsindəki fəsillərin başlıqları bütünlüklə səyyahın şəxsi

[1] Дж. Бейкер. История географических открытий и исследований. Пер. с англ. Москва, «Иностранная литература», 1950. IV глава.

yazıları ilə doludur. Deyəsən, qiymətli daşların və metalların, fillərin və başqa qorxunc məxluqların şəkilləri Kolumbu gipnoz halına salmışdı. Haradakı mirvari ilə dolu olan yerlər var, o, həmin yerləri bütünlüklə haşiyəyə alırdı. Kolumb tərəfindən çəkilmiş xəritələrdə isə okeanın ən dar yeri, xüsusi rənglərlə başqa yerlərdən fərqlənirdi.

Enea Silvionun **“Historia rerum”** əsərində bir abzasda Kolumbun belə bir qeydi var, Asiya Tulyanın yerləşdiyi enlikdə yerləşir, yəni İslandiya yerləşən enlikdə. Başqa bir abzasda qeyd olunub ki, çinlilər sülhsevər bir məxluq kimi göstərilibdir və o, bildirmişdir ki, Çin Hindistanın kənarında yerləşir, yəni “İspaniya ilə İrlandiyanın qarşısında”. Kolumb təxminən 18 yerdə uzunmüddət hakimiyyətdə olan Çinin monqol imperatoru Böyük xana maraq göstərmişdi, halbuki Enea Silvio Xubilay xanı öz əsərində xüsusilə əks elətdirmişdi. Bütün bunlar dəniz səyyahının Asiyaya qərb yoluna böyük marağının və həvəsinin olmasından xəbər verir.

Beləliklə, bununla açıq-aydın görmək olur ki, Kolumb hər hansı bir işi ilə məşğul olursa-olsun, həmişə boş vaxtlarını elmi kitabların arxasında keçirmiş və maraqlandığı sahənin daha da mükəmməl surətdə öyrənməyə çalışmışdı. Heç bir gəmi kapitanı və yaxud da hər hansı bir naviqator Kolumbun gördüyü işin öhdəsindən gələ

bilməzdi. Ona görə ki, onda olan fiziki və mənəvi enerji, öz məqsədinə nail olmaq üçün böyük bir entuziazm ilə səy göstərmək, gələcəyi gözləri özlərinə gətirmək, naviqasiya işlərinə peşəkarcasına yiyələnmək, Passat küləklərindən səmərəli istifadə etmək, Atlantik okeanının şərq hissəsindəki iqlimin necə cərəyan etdiyini əzbərləmək, Günəşdən, Aydan, Zöhrə (Qütb) ulduzundan və başqa göy cisimlərindən coğrafi koordinatların ölçüsündə necə ustalıqla istifadə etmək bacarığı, əlinin altında olan adamlar ilə xoş və təsirli rəftar etmək, dialoqa qoşulan narazı adam tam şəkildə razı salmaq keyfiyyətləri bütünlükdə demək olar ki, heç bir adamda yox idi. Çox güman ki, Yeni Dünya sahillərinin kəşfi bir neçə il, bəlkə də 100-150 il sonra baş verə bilərdi. Bu həqiqətən də elədir. Kolumba qədər bir neçə nəfər okeanı qərb istiqamətində qət etməyə çalışıblar. Lakin onların ekspedisiyaları uğursuzluğa düçar olmuşdu. Bütün bunları dürüst faktlarla sübuta yetirmək olar.

## Van Olmen, Kolumbun Portuqal kralı II Juana təqdim etdiyi layihəyə əsasən, Atlantikanın qərb hissəsinə səyahət etmişdi

Kolumb Portuqaliyada olarkən öz layihəsini Diyeqo-De Villeqasın başçılığı altında olan **"Riyaziyyatçılar Xuntası"**na təqdim edib etiraz cavabı alandan sonra, kral II Juan Genuyalı dənizçinin dediklərini yoxlamaqdan ötrü, Atlantik okeanının qərb sahilinə ekspedisiya təşkil etməyi qərara alır. Kral və onun müşavirləri bu məsələdə yekdil fikrə gəlmişdilər. O vaxt Atlantik okeanının qərb hissəsində yerləşən ***"Yeddi Şəhər adaları"***ndan çoxlu söhbətlər gedirdi. Lakin həmin işi Portuqaliyanın kralı Xristofor Kolumba yox, başqa bir adama, Portuqaliyada Fernan de Ulmo adı ilə tanınmış fələməngli Ferdinand van Olmenə tapşırır. Ona qədər həmyerliləri Azor adalarının birində qubernator olmuşdular. Elə van Olmen da ekspedisiyaya yola düşməmişdən əvvəl həmin adaların birində qubernator işləmişdir. Həmin dövrdə Portuqaliyanın xidmətində olan bir neçə dənizçilər, maliyyəçilər və ya tacirlər öz pullarına bir çox ekspedisiyalar təşkil edirdilər, məsələn Kortereal qardaşlarının 1500, 1502 və 1506-cı illərdə təşkil etdikləri ekspedisiyalar buna bariz nümunədir. S. Morison, Ç. Verlinden, Vadim Magidoviç və İosif Magidoviç özlərinin

elmi əsərlərində qeyd edirlər ki, “Van Olmen öz ekspedisiyasını təşkil etməkdən ötrü Madeyra adasından Estreyto adlı bir müstəmləkəçi ilə birləşir. Van Olmenin sözlərinə görə o, istəyirdi ki, Atlantik okeanın qərb hissəsində yerləşən bir neçə adanı və yaxud da bütün qitənin sahilini kəşf etsin. Həqiqətən də kəşf etmək istədiyi ölkənin adı onun üçün qaranlıq qaldığından van Olmen həmin yeri ənənəvi olaraq *“Yeddi şəhər adası”* adlandırırdı”.

Paolo Toskanellinin məşhur xəritəsi tərtib olunmamışdan əvvəl Portuqaliyanın hakim dairələri Atlantik okeanının naməlum qərb hissəsinə yetərincə diqqət yetirirdilər. Hamını bircə şey maraqlandırırdı, görəsən Atlantik okeanında Madeyra, Azör, Kanar və Yaşıl Burun adalarından qərb istiqamətində adalar yerləşir, ya yox? XV əsrin ortalarında portuqallar bir neçə dəfə Madeyra, Azör və Kanar adalarından qərb istiqamətinə səyahətlər təşkil etmişdirlər. Yuxarıda göstərildiyi kimi Portuqaliyanın kralı V Alfons 1462-ci ildə Voqado adlı bir kəsə, qərb istiqamətində yerləşən təxminən iki adaya sahib olmaq üçün böyük imtiyazlar verir. Telles adlı o biri dənizçi Antiliyanı və yaxud da Yeddi şəhər adasını axtarırdı. Bir çoxları onların ardınca səyahətə yollanır, amma heç kim müvəffəqiyyət əldə edə bilmir. Həmin dövrdə Portuqaliyada belə şaiyələr gəzirdi ki, heç bir adanı kəşf etmək mümkün olmasa da,

ancaq onlardan bir neçəsini okeanda görmək olur. Əlbəttə, bütün bunlara inanmaq olmur. İşdir həqiqətən də okeanda adalar qrupu görmək olsaydı, onda kral V Alfons həmin adaları tədqiq etməkdən ötrü heç olmasa, bir dənə ekspedisiya göndərirdi. Artıq heç kimdə, okeanın qərb hissəsində (yuxarıda adı çəkilən adaların yaxınlığında) adaların yerləşməsinə dair, şübhələr qalmamışdı. Bu fikri Kolumbun özü də bölüşdürürdü.

Lakin o, inanırdı ki, okeanın demək olar ki, ortasında Mifik Antiliya və ya başqa adalar var. O, Toskanellinin məktubuna əsaslanaraq belə düşürdü. Asiya qitəsinə qərb yolu ilə üzərkən okean keçidi zamanı həmin adalardan dayanacaq kimi istifadə etmək olar.

Van Olmen həm Voqadonun, həm də Tellesin səyahətlərinin nəticələri ilə tanış idi və çox yaxşı bilirdi ki, Hindistana qərb yolu ilə üzərkən yolda heç bir adalardan dayanacaq kimi istifadə edə bilməyəcək və təşkil etdiyi ekspedisiya səyahət zamanı böyük çətinliklərlə üzləşəcək. Məhz bu səbəbdən II Juan ekspedisiyanın təşkilinə icazə versə də, səyahət zamanı tam uğur qazanılmasına şübhə ilə yanaşırdı. Yoxsa, həmin ekspedisiyanı öz puluna təşkil edərdi.

1486-cı ildə kral ona, ekspedisiya uğurlu keçdiyi halda, bir çox imtiyazlar verir. Kral van Olmenə ona görə belə bir

imtiyazlar verirdi ki, o, nəzərdə tutulan ekspedisiyanı öz hesabına təşkil etmişdi. Hamı çox yaxşı bilirdi ki, Kolumbun Portuqaliya kralı II Juana təqdim etdiyi layihə Florentsiyalı kosmoqraf Paolo Toskanellinin verdiyi hesabatlar nəticəsində təşkil edilib. Məhz buna görə də Atlantik okeanının qərb hissəsinə nəzərdə tutulan səyahət, Paolo Toskanellinin verdiyi ölçülər sayəsinə həyata keçiril-məli idi. Həm van Olmen, həm Estreyto, həm də II Juan florentsiyalı kosmoqrafın 1474-cü ildə tərtib etdiyi xəritəni əsas tutaraq, Atlantik okeanının qərb hissəsini tədqiq etməyi qərara gəlmişdilər.

1487-ci ilin yay fəslində van Olmen iki karavella ilə Atlantik okeanının qərb sahilinə səyahətə başlayır. O, nəzərdə tutur ki, Atlantik okeanını 40 gün müddətinə qət edəcək. Xatırladaq ki, 1492-ci ildə Kanar adalarından Baham adalarına qədər məsafəni qət etmək üçün Kolumba cəmisi 36 gün vaxt lazım olub. Verlindən fələməng dənizçisinin verdiyi bu hesabatından heyrətlənərək, bunu onunla izah etmişdi ki, guya Portuqaliyanın dənizçiləri məxfi surətdə 1486-cı ilə qədər, Atlantik okeanının qərb hissəsinə ekspedisiyalar təşkil etmiş və təxmini də olsa bilirdilər ki, okeanın o tayında hansı adalar və yaxud da naməlum qitənin sahilləri yerləşir.

Şəxsən mən Verlindenin bu fikri ilə razı deyiləm. Əgər, van Olmen təxmini də olsa bilsəydi ki, Köhnə Dünyaya məlum olmayan adlar və yaxud da ki, iri bir torpaq ərazisi Atlantik okeanının hansı hissəsində yerləşir, onda çətinlik çəkmədən həmin coğrafi obyektləri kəşf edərdi. Həm də portuqal dənizçiləri Amerika qitəsinin şərq sahil zolağının harada yerləşdiyini bilsəydilər, onda Roma papası 1493-cü ildə öz bullası ilə Yer kürəsini iki dövlət arasında bölərkən, Portuqaliyanın nümayəndələri təxmini də olsa göstərməliydilər ki, demarkasion xətt Atlantik okeanının hansı meridianı üzrə keçməlidir. Əgər bu belə olsaydı, onda Tordesilyasdakı (1494) danışıqlarına heç bir ehtiyac qalmazdı. Tarixdən bilindiyi kimi Roma papasının vasitəsi ilə Yer kürəsi bir neçə dəfə Portuqaliya ilə İspaniya arasında bölünübdür. 1493-cü ilin bölgüsünə əsasən demarkasion xətti, Azör adalarından 100 liq qərb istiqamətində çəkmişdi. Bir ildən sonra hər iki krallığının nümayəndələri Tordesilyasda görüşür və demarkasion xəttinin Yaşıl Burun adalarından 370 liq qərb istiqamətində keçməsinə dair ümumi razılığa gəlirlər. İşdir, hər bir şey Verlindenin dediyi kimi olsa, onda portuqallar elə 1493-cü ildə tərəddüd etmədən, demarkasion xəttinin Yaşıl Burun adalarından Cənubi Amerikanın şərq sahillərinə qədər ən azı 300 liq, Vest-Hind adalarının yerləşdiyi Mərkəzi Amerika sahilləri-

nə qədər isə ən azı 450 liq qərb istiqamətində çəkilməsini tələb edərdilər. Deməli, portuqalların Atlantik okeanındakı yerləşən Kanar, Madeyra, Azör və Yaşıl Burun adalarından başqa heç bir coğrafi obyektlərdən xəbərləri yox idi. Van Olmenin Atlantik okeanını 40 gün müddətinə qət etməsi fikrinə gəldikdə isə bunun səbəbini başqa bir şeydə axtarmaq lazımdır.

Unutmaq lazım deyil ki, Kolumb Portuqaliyada olarkən qətiyyətlə bildirmişdi ki, Asiya qitəsinin şərq sahillərinə çatmaq üçün, Atlantik okeanını 30 və ya həmin müddətdən bir qədər çox vaxta qət edəcəyini bildirmişdi. Van Olmen də onun layihəsi ilə tanış olandan sonra həmin fikri kral II Juana söyləmişdir. Deməli, fələməngli dənizçinin başçılıq etdiyi ekspedisiya Paolo Toskanellinin tərtib etdiyi layihəsinə görə Atlantik okeanının qərb hissəsinə səyahətə yollanmışdır. Əlbəttə, bir çox mütəxəssislər mənim bu qənaətim ilə razılaşmaya bilərlər. Lakin bütün araşdırmalar, gətirib buna çıxarır ki, van Olmen bir dənizçi kimi Toskanellidən çox Kolumbun hesablamalarına bel bağlaya bilərdi. Ona görə ki, florensiyalı kosmoqraf teoretik olaraq, Yer kürəsinə dair ölçüləri vermiş və özünün 1474-cü ildəki məşhur xəritəsini tərtib etmişdir. Ona nisbətən isə Kolumbun dəniz səyahətlərində, ən əsas da ki, Atlantik okeanın şərq sahilində bir çox səyahətlərdə iştirak etməklə,

böyük təcrübə toplaması, həmin sularda bir neçə cərəyanların istiqamətini öyrənməsini və naviqasiya sahəsində bir çox sirlərə yiyələnməsi, genuyalı dənizçinin layihəsinə böyük üstünlük verirdi. Deməli, van Olmen Kolumbun Portuqaliya kralı II Juana təqdim etdiyi layihəsinə əsasən Atlantik okeanının qərb hissəsinə səyahətə yollanmışdır.

Nəzərdə tutulan səyahətə ciddi hazırlaşmış van Olmen ekspedisiyanın Portuqaliya sahillərinə altı aydan sonra qayıdacağını planlaşdırmışdı. Bütün bu hazırlıqlara baxmayaraq, Olmenin səyahəti müvəffəqiyyətsizliyə düçar olur və Amerika qitəsini açmaq şərəfi ona yox, məhz Kolumba qismət olur. Van Olmen ilə Estreytonun uğursuzluqla üzləşməsi, onalrın ilin münasib olmayan vaxtında yola düşmələri və Kolumb kimi Atlantik okeanındakı hərəkət edən passatlardan lazımi səviyyədə istifadə etməmələri ilə izah etmək olar. Onların buraxdıqları bu səhvlərlə razılaşmaq çətin deyil.

Kolumbun müasiri sayılan, Yeni Dünya sahillərinin konkistadorlar tərəfindən işğal olunmasının ilk salnaməçilərindən biri Bartolomeo de Las Kasas hekayələrinin birində Ernan de Olmosun (çox güman ki, o, Ferdinand van Olmenin özü olur) səyahətindən xəbər verir. Yazıçı yazır ki, “həmin səyahət onu bir dəfə İrlandiyanın qərb sahilləri-

nə, Kolumbun gələcəkdə qoyduğu marşrutdan xeyli şimala, gətirib çıxarır”.

Van Olmenə həmin səyahətdən qayıtmaq qismət olmamışdı. Verlinden qeyd edir ki, “bütün bunlara baxmayaraq Amerikanı, Kastiliyanın xidmətində olan genuyalıdan qabaq, Portuqaliyanın xidmətində olan fələmǝngli kəşf edə bilərdi. Qərbin tarixi tamamilə başqa cür olardı. Əgər, Olmen öz məqsədinə nail ola bilsəydi, onda nəinki Braziliyada, hətta 17 latınamerikan respublikalarında danışıq dili portuqallara məxsus olacaqdı. Bəzən tarixin taleyi bir adamın taleyindən asılı olur!” İş orasındadır ki, II Juan vaxtı ilə başqa Genuyalılar kimi Kolumbun da təklifini qəbul etsəydi, onda hazırda Atlantik okeanının qərb hissəsində yerləşən keçmiş müstəmləkələrin əksəriyyətində portuqal dilində danışacaq-dılar.

Bütün bunlara baxmayaraq mən qətiyyətlə bildirmək istəyirəm ki, Kolumb fələməngli dənizçiyə nisbətən həmin ekspedisiyaya daha ciddi hazırlaşmış və öz zəhməti hesabına qarşısına qoyduğu məqsədə tam nail ola bilmişdir. Kolumbun təşkil etdiyi ekspedisiya Atlantik okeanında uğur qazanandan sonra Lissabonda yerləşən **“Riyaziyyatçılar Xuntası”**nın bütün üzvləri, genuyalı dənizçinin layihəsini rədd etdiklərinə görə, uzun müddət həmin səhvi özlərinə bağışlaya bilməmişdilər.

Vaxtilə bütün bu narazılıqların olmasına baxmayaraq, Portuqaliyanın kralı ilə Kolumb arasındakı münasibətlər çox yaxşı qalmışdı. Van Olmenin ekspedisiyasının yola düşməsinin üstündən on ay keçəndən sonra genuyalı dənizçi yenə də həmin təklif ilə kral II Juana müraciət edir. O, hətta Lissabona gəlməyə də öz razılığını bildirir. Təki, ekspedisiyanın hazırlanması zamanı hər hansı bir vaxt uzanmasına görə kraldan zəmanət istəyir. Çox güman ki, Kolumb nədənsə yaman bərk çəkinirmiş. Ya o, tərtib etdiyi layihənin əlindən alınmasına böyük ehtiyat edirmiş, ya da ki, vaxtı ilə Portuqaliyada olarkən kimlərə isə pul borclu qaldığından? Lakin bütün bu nüanslara baxmayaraq, məktublarının birində kral onu özünün dostu olduğunu bildirir və Kolumbda olan fitri istedadı tərifləyir. Kral rəsmi halda söz verir ki, Lissabona gəldiyi bir vaxtda Kolumb heç bir şeyə görə həbs olunmayacaq.

Axı, nəyə görə Kolumb İspaniyada monarxlarla danışıq apara-apara birdən-birə Portuqaliyanın kralına 1488-ci ildə belə bir məktub göndərir? İş ondadır ki, Van Olmen altı aylıq ərzaq götürdüyü halda, on ay idi ki, səyahətdən qayıtmamışdı. Seviliyada olarkən əlbəttə, genuyalı dənizçinin bu haqda məlumatı vardı. Ona görə ki, Lissabon ilə Seviliya arasında müntəzəm olaraq əlaqə saxlanılırdı. Məhz bu səbəbdən Kolumb öz bəxtinə yenə də Portuqaliyanın

krallar sarayında yoxlamağa qərara alır. Öz planlarını həyata keçirməkdən ötrü o, birdən-birə həm İspaniyaya, həm də ki, Portuqaliyaya səyahət haqqında öz təklifini verir. Kolumb elə başa düşürdü ki, belə bir variant ilə o, tezliklə Atlantik okeanının o tayına ekspedisiya təşkil edəcək.

Bəs, nəyə görə Portuqaliyanın kralı vaxtı ilə layihəsinə əhəmiyyət verilməyən bir adamı bu dəfə öz ölkəsinə dəvət edir? II Juan van Olmenin başçılıq etdiyi ekspedisiyasının məhvə düçar olduğunu zənn edərək belə bir addımı atmağa məcbur olmuşdu. O, artıq inanırdı ki, həmin ekspedisiyanın uğurlu keçməsi üçün Kolumb hansısa bir sirrə malikdir. İşdir, İspaniya onun layihəsini qəbul etsə, onda genuyalı dənizçi həmin səyahəti uğurla başa çatdıracaq və İspaniya Atlantik okeanının o tayındakı ərazilərin sahibi olacaqdır.

Lakin bütün bunlara baxmayaraq Kolumb həmin zaman Portuqaliyaya yollanmağa tələsmədi və yalnız 1488-ci ilin dekabrında Lissabonda peyda olur. Artıq həmin vaxt Bartolomeo Diaş Afrikanın cənubunda yerləşən Ümid burnunu kəşf edərək Lissabona qayıtmışdır. Bununla da Kolumb özünün əlverişli məqamını əldən verir. Hindistana gedən şərq yolunun açıq olduğunu görən II Juan, qərb yoluna ehtiyac qalmadığından Kolumbun xidmətindən imtina edir. Qərb yolu Portuqaliyada maraq doğurandan

sonra isə Kolumb İspaniyanın bayrağı altında Yeni Dünya sahillərini kəşf edir.

## Kolumbun layihəsini müdafiə edən varlı maliyyəçilər

1491-ci ilin axırında Kolumbun layihəsi yenidən komissiyanın ixtiyarına verilir. Bu dəfəki komissiyanın tərkibində ruhani və kosmoqraflardan başqa tanınmış hüquqşünaslar da iştirak edirdi. İnadkarlığından əl çəkməyən Kolumb ispan monarxlarına verdiyi tələblərin yumşalmasına heç bir səy göstərmir. O, həddindən artıq böyük imtiyazlar istədiyindən onun layihəsi rədd edilir və məcburiyyət qarşısında qalan İzabella Kastiliyalı ilə Ferdinand Araqonlu həmin qərara qoşulurlar. Bu qərardan inciyən və İspaniyada heç bir perspektivin olmadığını görən Kolumb əlacsız halda Fransaya yola düşür.

Lakin elə həmin günü Kolumbun həyatında böyük dönüş yaranır. Onun kor-peşiman halda Qranadanı tərk etməsi, krallığın ən iri ticarət mərkəzinin başçısı, Ferdinand Araqonlunun ən yaxın maliyyə müşaviri Luis Santanhelə

pis təsir göstərir. Təxminən elə həmin məqamda Luis Santanhel monarxlara başa salır ki, Kolumbun layihəsi qəbul edilməlidir, əks təqdirdə o, özü həmin səyahəti maliyyələşdirəcək.[1]

Hər bir ciddi məsələyə optimistcəsinə yanaşan Luis Santanhel kraliçaya izah edir ki, İspaniyanın hər iki monarxı bağışlanılmaz bir səhvə yol verirlər. İş ondadır ki, Kolumbun layihəsindən Avropanın başqa bir monarxları, xüsusən də İspaniyanın düşmənləri istifadə edə bilər və bunun İspaniya üçün nə qədər təhlükəli olduğunu anlamaq çətin deyil. İzabellanın nə dərəcədə ifrat dini katolik olduğunu anlayan maliyyə müşaviri həm də izah edir ki, ən dəhşətlisi də odur ki, həmin torpaqlarda əsl dini yaymadığına görə o, Allahın qəzəbinə düçar olacaqdır. Şəxsən o, özü ekspadisiyanın təşkil edilməsinə görə məhkəməsinə verilməsini öz boynuna götürür. Maliyyə müşavirinin bu təklifindən razı qalan İzabella Kastiliyalı Kolumbun ardınca polis göndərir. Kral qasidi, gələcəkdə dünyanın tanınmış dəniz səyyahı olacaq şəxsi, Qranadadan 6 mil kənarda körpünün üstündə yaxalayır və şad xəbəri verəndən sonra onunla birlikdə, Qranadanın yaxınlığındakı Santa-Fe qalasının kənarında müvvəqəti düşərgə qurmuş,

[1] Ф. Дж. Купер. Мерседес из Кастилии или путешествие в Катай. Одесса, «Маяк», 1985. стр. 91

monarxların yanına gəlir. İzabella Kastiliyalı Kolumbun müvəffəqiyyətinə böyük inamı yaranır və bu məsələ barəsində müəyyən sorğu-sual aparmalı olur.

Deyirlər ki, əksəriyyət hallarda Kolumbun bəxti gətirirmiş. Luis Santanhel olmasaydı, çox güman ki, genuyalı dənizçinin layihəsi həyata keçirilməyəcəkdir. Nəyə görə araqonlu maliyyəçi Santanhel Kolumbun layihəsinə belə bir ciddi maraq göstərmişdir?

Professor Çarlz Verlinden **"Xristofor Kolumb"** əsərində yazır ki, "Santanhel öz taleyini yoxlamaqdan ötrü Kolumbun laiyhəsini həyata keçirməyi qərara alır və inanırdı ki, həmin layihə onun üçün ən lazımlı bir proyektdir. Bundan əlavə o, genuyalı dənizçinin yeni torpaqların kəşfinə və var-dövlətin əldə edilməsinə möhkəm inanırmış... Həmin dövrün xəzinədarları kimi Santanhel işguzar adam sayılırdı və Genuyanın ticarət adamları ilə sıx əlaqədə idi. Onlardan biri İspaniyada Pinelo adı ilə tanınan Françesko Pinelli, saray administrasiyasında onun həmkarıydı. Santanhel ilə birlikdə Pinelli, dövlətin siyasi polis rolunu oynayan müqəddəs Ermandanın (İspaniyada yaranmış şəhərlərin və kəndli icmalarının ittifaqı, polis funksiyalarını həyata keçirirdi) xəzinəsini idarə edirdilər. Onlar birlikdə razılığa gəlirlər ki, Kolumbun səyahətinə 1400000 "maravedi" pul qoysunlar. Pinelli tərəfindən

məlumatlandırılan başqa genuyalılar Kolumbun adına 150000 “maravedi”-lik kredit açırlar. Ümumilikdə, ona 2000000 “maravedi” pul lazım olduğu halda səyahətə başlamaq üçün hələ də 350000 “maravedi” pul çatmırdı, hansını ki, Santanhel özü Araqon xəzinəsindən avans şəklində gələcək admirala verir. Əlbəttə, həmin pulu almaqda Kolumb ilə varlı maliyyəçilər arasında xüsusi razılaşma baş vermiş və onlar həmin ekspedisiyanın uğurlu keçməsindən xeyli mənfəət əldə etməli idilər...

Gələcəkdə həmin ekspedisiyalardan xeyli xeyir götürən Pinelli, artıq 1503-cü ildə İspaniyada Hindistanı idarə edən Ticarət palatasının ***(“Casa de Contratacion”)*** yaradan ilk təşkilatçılardan biri olur”.[1] Məhz həmin ərəfədə Apennin yarımadasındakı şəhərlərdə olan bir çox varlı bankirlər öz sərmayələrinin bir hissəsini Yeni Dünya sahillərinə yollanan ekspedisiyalara yatızdırmağa başladı.

Heç də demək olmaz ki, Santanhel ilə Pinelli öz bəxtlərini yoxlamaqdan ötrü Kolumba kömək əllərini uzatmışdılar. Onlar öz şəxsi mənafelərindən əlavə həm də dövlət maraqlarını da nəzərə alır, Portuqaliyanın Hindistanla dəniz əlaqəsi yaratmamışdan, həmin yolun məhz Kolumb

[1] Ч. Верлинден. Покорители Америки. Ростов-на-Дону, «Феникс», 1997. стр. 38

tərəfindən kəşf edilməsinə çalışaraq ekspedisiyanı təşkil etməyə məcbur olmuşdular.

Santanhel həqiqətən də uzaqgörən mühüm işlərdə risk etməyi xoşlayan bir adam idi. Bartolomeo Diaş Afrikanın cənubunda yerləşən Ümid burunu kəşf edəndən sonra, Portuqaliya Hindistana gedən dəniz yolunu birinci olaraq kəşf edər və Uzaq Şərqi Asiya ölkələrindən gətirilən ədviyyat mallarının monapoliyasını öz əlində saxlaya bilərdi. İspaniyanın hakim dairələri və maliyyəçiləri hər tərəfdən bu tandemin qarşısını almaq və Hindistan ilə birinci olaraq əlaqə yaratmaq istəyirdilər. Lakin onların arasında da bəzi məsələlərə dair fikir ayrılığı yaranırdı:

1. Kraliça İzabella Kastiliyalı ekspedisiyanın yaradılması üçün köməklik göstərəcəyinə söz versə də, bunun yalnız İspaniyada yaranmış rekonkista hərəkatını başa çatdırandan sonra mümkünlüyü bildirmişdi. Buna Kolumb, Malaqa ərəblərdən alınandan sonra, tam əmin olmuşdu.

2. Kral Ferdinand Araqonlu öz xəzinədarı (Santanhel) ilə məsləhətləşmə apararaq həmin ekspedisiyanın yaradılması üçün böyük səy göstərəcəyini vəd edir, lakin o, da bütün bunların rekongista hərəkatı başa çatandan sonra mümkün olduğunu qətiyyətlə bildirir. Bundan əlavə kral sarayında əyanlar arasında Kolumbun İspaniyadakı fəaliyyətinə şübhə ilə yanaşanlar, van Olmenin ekspedisiyasının uğursuzluqla

nəticələndiyini Ferdinand Araqonluya xatırladaraq, İspaniyanın hesabına ayradılacaq ekspedisiyanın da uğursuzluqla nəticələnəcəyini qətiyyətlə bildirirdilər.

3. Hər iki monarx bildirirlər ki, ərəblərə qarşı müharibənin davam etdirilməsi üçün əsgərlərə maaş verməkdən ötrü hər bir xırda pula ehtiyac olduğu bir halda, onlar heç vaxt çoxlu pul tələb edən heç bir ekspedisiyanın təşkil edilməsinə köməklik göstərə bilməzlər. Bunula belə Portuqaliyada olduğu kimi elə İspaniyada da fərdi və fiziki şəxslərin öz hesablarına müstəqil şəkildə ekspedisiya yaradılması üçün böyük bir zəmin yaranır. Lakin II Juandan fərqli olaraq İspaniyanın monarxları, dövlət maraqlarını əhatə edən bir kompaniyanın təşkilində iştirak etməkdən ötrü, öz xəzinələrindən az da olsa, sərmayə qoyulmasına çalışırdılar. Necə olsa da, Kolumb İspaniyada olan müddətin bir neçə ilini kraliça İzabellanın göstərişi ilə, Kastiliya xəzinəsindən əcnəbi dənizçiyə dolanmaq üçün ssuda verilirdi.

4. Santanhel ilə Pinelli isə monarxlara bildirirdilər ki, maliyyənin əsas hissəsini onlar öz üzərlərinə götürür və həmin ekspedisiyanın təşkili üçün yalnız rəsmi surətdə icazə verilməlidir. Elə Kolumbun layihəsinə dair dövlət komissiyası müsbət qərar çıxararkən, hər iki maliyyəçi komissiya iştirakçılarına böyük təsir göstərmişdilər.

1492-ci ildə aprelin 17-də İspaniyanın monarxları İzabella Kastiliyalı ilə Ferdinand Araqonlu Xristofor Kolumbun layihəsini həyata keçirrilməsi üçün yazılı surətdə öz razılıqlarını bildirirlər. Aprelin 30-da Kolumba rəsmi surətdə "don" titulu verilir (o, zadəgan təbəqəsinə qaldırılır) və həmin titul yuridik halda nəsildən-nəsilə keçməlidir. Bir çox əyanlar əcnəbi bir adama bu qədər imtiyazların verilməsinə görə öz narazılıqlarını gizlədə bilmirdilər. İşdir, Kolumbun missiyası uğurla nəticələnsə onda o, titullarına görə bir çox qrandları arxada qoyacaq. Bütün bunlara baxmayaraq həm Ferdinand Araqonlu, həm də İzabella Kastiliyalı əmin idilər ki, belə bir gedişatla Kolumbun həmin imtiyazların yarısından çoxuna yiyələnə bilməyəcək. Ona görə ki, o, müstəqil dövlətlərin torpaqlarında tədqiqat işləri aparmaqla ərazilərin mənimsənilməsindən uzaq olacaq. Bu amili Kolumbun özü də yaxşı dərk edirdi.

Kolumbun başçılıq etdiyi ekspedisiyanın hansı məqsəd güddüyü barəsində bir çox ədəbiyyatlar var. Maraqlı odur ki, bəzilərinin iddia etdiyi kimi Kolumb 1492-ci ildə Asiya qitəsinə çatmaq məqsədini qarşısına qoymuşdır. Bu fərziyyənin nə dərəcədə düzgün olduğunu təyin etmək üçün ilk növbədə, məşhur dəniz səyyahı ilə iki kral arasında bağlanan müqaviləyə nəzər salmaq lazımdır. O, nəzərdə

tutduğu titulları və imtiyazları yalnız dünya əhəmiyyətli kəşfi həyata keçirəndən sonra İspaniyanın monarxlarından ala bilərdi. Yəni, həmin müqavilədə nəinki Asiya və yaxud onun hər hansı bir hissəsi, hətta orada heç bir coğrafi ad da göstərilməyib, lakin bunun əsas səbəbini başqa bir şey ilə izah edirlər.

Roma papası IV Sikst 21 iyun 1481-ci ildə öz bullası **"Aeterna Regis"**lə Yer kürəsini Kastiliya və Portuqaliya arasında böləndə, portuqal dənizçiləri Kanar adalarından cənub və şərq istiqamətində, Kastiliyanın dənizçiləri isə həmin coğrafi məntəqədən qərb və şimal istiqamətində ekspedisiyalar təşkil etmək hüququ qazanırlar.

Belə olan halda İspan monarxları Kolumb ilə bağlanan müqavilədə heç vaxt Asiyanın hər hansı bir hissəsinin adını çəkə bilməzdilər. Ona görə ki, həmin qitənin demək olar, bütün ərazisi Portuqaliyanın ixtiyarına verilmişdir. Müqaviləyə görə isə söhbət yalnız Asiya qitəsindən gedə bilərdi. İş ondadır ki, qədimdəki və ilkin orta əsrlərdəki təsəvvürlərə görə Avropadan qərb tərəfdə Atlantik okeanının o tayında yalnız Asiya materiki yerləşə bilməzdi.[1]

Yeni Dünya sahillərinin kəşfinə dair bir çox məlumatlar məxfi material kimi İspaniyanın və Portuqaliyanın kral

[1] Ф. Дж. Купер. Мерседес из Кастилии или путешествие в Катай. Одесса, «Маяк», 1985. стр. 237

arxivlərində saxlanılır və bunula da bütün bəşəriyyət əsl həqiqətdən məhrum olunur. Lakin bir çox alimlərin hadisələrin tədqiqatı ilə məşğul olaraq əsl həqiqətləri üzə çıxarmağa çalışırlar. Bəzi tədqiqatlarla yanaşı mən məşhur dəniz səyyahı Xristofor Kolumbun dövri fəliyyəti ilə məşğul olmuşam. Necə ki, onun əqidəsi, məqsədi-məramı əsrarəngiz idi, eləcə də onun kəşfinin mahiyyəti bütün adamlara sirr kimi görünürdü. Əlbəttə, verəcəyim açıqlamalar bir çoxları üçün gözlənilməz olacaq. Çünki bu açıqlama sensassiya xarakterli bir məlumatdır.

Kolumb öz layihəsini tərtib edən zaman bilavasitə florensiyalı alim və humanist Paolo del Pottso Toskanellinin tərtib etdiyi xəritəni əldə etmişdir. Alimin tərtib etdiyi xəritənin əsl nüsxəsi və ümumiyyətlə, əsl surəti gəlib bizə çatmayıbdır. Toskanellinin verdiyi hesablara və ölçülərə əsasən onun 1474-cü ildə tərtib etdiyi xəritənin özü rekonstruksiya olunub. Hazırda tərtib edilən xəritə, guya alimin 1474-cü ildə tərtib etdiyi xəritənin identik şəkildə surətini təşkil edir. Məhz həmin xəritənin surəti ilə həm Kolumb, həm Portuqaliyanın kralı II Juan, həm də İspaniyanın monarxları İzabella Kastiliya ilə Ferdinand Araqonlu tanış idilər və təxmini olsa da bilirdilər ki, Zipanqu və Çin hansı meridianlarda yerləşir, Avropanın qərb sahili ilə Asiyanın şərq sahilindəki məsafə neçə

kilometr təşkil edir. Lakin əsas məsələ var ki, onu nəzərdən qaçırmaq lazım deyil. İş ondadır ki, yuxarıda qeyd edildiyi kimi Kolumb İtaliyanı tərk edəndən sonra Afrikanın Qvineya sahillərində, Azör, Madeyra, İslandiya, İrlandiya və Britaniya adalarından olmuşdur və Atlantik okeanının şərq hissəsində fəaliyyət göstərən okean cərəyanlar ilə yaxından tanış idi. Başqalarına nisbətən onun bu sahədə böyük təcrübəsi vardı və o, çox yaxşı bilirdi ki, hansı cərəyan necə bir sürətlə hansı istiqamətdə hərəkət edir. Buna dair Kolumb iri həcmli gündəlik tutmuşdu. Yəni, Atlantik okeanını qət etmək üçün Kolumb yeganə dənizçi idi ki, həmin iş üçün tam hazırlaşmışdı. Hər hansı bir krallıq Hindistana qərb yolu ilə ekspedisiya göndərməyə cəhd göstərsə, həmin missiyanın öhdəsindən müvəffəqiyyətlə yalnız Kolumb gələ bilərdi. II Juandan və VII Henrixdən fərqli olaraq, İspaniyanın monarxları bu amili çox yaxşı anlayırdılar, məhz buna görə də onlar Kolumb kimi peşəkar dənizçini öz ölkələrindən uzaq buraxmaq istəmirdilər. Münasib bir vaxt gələn kimi İspaniya krallığı Kolumbdan istifadə edəcəkdir.

## Nəsirəddin Tusinin hesablamaları və Paolo Toskanellinin tərtib etdiyi məşhur xəritəsi

Kolumb hələ İtaliyada olarkən əvvəlcədən florentsiyalı alim Toskanellinin 1474-cü ildə tərtib etdiyi xəritəni əldə etmişdir. Təhlilə başlamazdan əvvəl qeyd etmək istəyirəm ki, Kanar adalarından Baham adalarına kimi məsafə təxminən 950 liqdir. Kolumbun hesablamalarına görə Zipanquya (Yaponiya) çatmaq üçün ən sərfəli yol Kanar adalarından qərb istiqamətində Şərqi Asiyaya doğru təxminən 800 liq məsafə qət etmək lazımdır. Artıq belə başa düşmək olar ki, Kolumb fərdi şəkildə öz hesablamalarını aparandan sonra Toskanellinin xəritəsinə heç bir əhəmiyyət verməyibdir. Yəni o, florentsiyalı alimin hesablamalarına bel bağlamağa heç bir ehtiyac duymurdu.

Artıq məlumdur ki, Kolumbda Toskanellinin xəritəsindən başqa bir dənə də naməlum xəritə vardı. Mənim fikrimcə, genuyalı admiral bir çox alimlərin hesablamaları sayəsinə, xüsusən də həmin naməlum xəritənin sayəsinə, şəxsən fərdi üsulda özü də xəritə tərtib edib və çox güman ki, səyahət zamanı bilavasitə həmin xəritədən istifadə etmişdi. Kanar cərəyanının və Passat küləklərinin köməyi ilə gedib Yeni Dünya sahillərinə çatanda Kolumbun əlində kifayət qədər dəlillər vardı ki, həmin torpaqları Asiya qitəsi

adlandırmasın. Yuxarıda qeyd edildiyi kimi o, İspaniyada təşkil etdiyi ekspedisiyaya ciddi hazırlaşmışdı və qardaşından başqa, heç kim ilə özünün əsas qənaətləri ilə bölüşməmişdi. Başqa sələflərinə nisbətən o, çox yaxşı bilirdi ki, Atlantik okeanının o tayında Asiya qitəsinin şərq sahili yox, məhz Köhnə Dünyaya məlum olmayan nəhən bir torpaqdır.

Uzun illərdən bəri apardığım tədqiqat nəticəsində mən özüm də belə bir qənaətə gəldim ki, Kolumb kəşf etdiyi torpaqların Asiya qitəsi yox, naməlum torpaq olduğunu əvvəlcədən bilirdi.

Yuxarıda qeyd etdiyim kimi bəzi azərbaycanlı alimlər iddia edirlər ki, Paolo Toskanelli məşhur xəritəsini yaradanda Nəsirəddin Tusinin köməyindən istifadə edib. Florentsiyalı xəritəşünas xəritəsində ilk dəfə olaraq göstərir ki, Atlantik okeanını qərb istiqamətində qət etməklə, Avropadan Hindistana qərb yolu ilə gedib çıxmaq olar. Bu onu bir daha sübut edir ki, o vaxtkı mütərəqqi insanlar Yer planetinin kürə şəklində olmasına inanır və onu öz materiallarında, xəritələrində və apardıqları tədqiqat işlərində əks etdirirdilər. Baxmayaraq ki, bu işdə onlara maneəçilik göstərənlərin sayı həddindən artıq çox idi.

Tarixdən məlumdur ki, Avropa ölkələrindən Çinə və Monqolustana gedən elçilər, Asiya qitəsində məşhur olar,

bir neçə ölkələrin ərazisindən keçən “ipək yolu”ndan istifadə edirdilər. Həmin “ipək yolu”nun da bir hissəsi qədim ölkə sayılan Azərbaycandan keçirdi. Söz yox ki, elçilər Azərbaycanda olarkən bu ölkənin mədəniyyəti, incəsənəti, ədəbiyyatı, adət-ənənələri, elmi və tarixi şəxsiyyətləri ilə həm nəzəri, həm də əyani cəhətcə tanış olur və özləri üçün müəyyən bir arayış toplayırdılar.

Şübhəsiz ki, XIII əsrin ortalarında, Avropanın monarxlarının nümayəndələri Azərbaycanda olanda, nəinki bu ölkədə, hətta bütün Yaxın Şərq ölkələrində öz elmi nailiyyətləri və insani keyfiyyətləri ilə məşhurlaşan Nəsirəddin Tusi haqqında bir çox xəbərlər eşitmiş və onun haqqında bir çox məlumatlar toplamağa çalışmışdılar. Öz missiyalarını Uzaq Şərqi Asiya ölkələrində başa çatdıran həmin nümayəndələr öz ölkələrinə qayıdandan sonra ən mühüm, maraqlı hadisələri və lazımlı şeyləri öz sələflərinə ərz edirdilər. Belə olan təqdirdə məşhur Azərbaycan alimi Tusinin şanı-şöhrətinin Avropada yayılmasına şübhə etməmək olar. Onunla ilk növbədə astronomiya, corafiya və riyaziyyat elmləri ilə məşğul olan mütəxəssislərin maraqlanması labüd idi. O, cümlədən də Florentsiyalı alim Paolo Toskanelli. Alim öz həmkarlarının elmi fəaliyyətinə biganə qala bilməzdi.

Tusinin Amerika qitəsinin kəşfində bilavasitə mühüm rol oynadığı üçün mən, onun dövrü fəaliyyətinə toxunmaq istəyirəm. Çünki dünya haqqında elmi nəzəriyyələr, Yer kürəsinin quruluşu, ölçüsü və fəaliyyəti hərtərəfli olaraq, onun rəhbərliyi ilə Marağa rəsədxanasında çalışan bütün alimlərin diqqət mərkəzində idi. Məhz bu səbəbdən Tusi dördüncü qitənin varlığını müəyyən etmiş və onun koordinatlarını **"Zic Elxani"** əsərində göstərməyə müvəffəq olmuşdu

Alimin irsi bütün Yaxın və Orta Şərqin ensiklopedik bilik xəzinəsi olmaqla bərabər Şərqin tərkib hissəsi kimi Azərbaycan xalqının düşüncə tərzinin formalaşması və inkişafında da özünəməxsus yer tutur. Onun elmi-bədii irsinə mədəniyyət tariximizin Renessans (İntibah) dövrünə məxsus mənəvi sərvətlərimizin tərkib hissəsi kimi baxmağa və qanuni varislik hüququmuzu bildirməyə haqqımız var.[1]

---

[1] Azərbaycan Beynəlxalq Universiteti. Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika konfransının materialları. Bakı, 2001. Professor M. F. Bayramovun məruzəsi, səh. 264

## Florentsiyalı kosmoqraf Paolo Toskanellinin Yer kürəsi barəsində verdiyi ölçülər Kolumbun həyatında böyük dönüş yaradır

Portuqaliyada təcrübəli kapitanlar, kosmoqraflar, şturmanlar, losmonlar və sıravi dənizçilər çox idi və cürbəcür ekspedisiyalar zamanı praktik təcrübə görən dənizçilər, öz işlərinin peşəkar ustaları kimi yetişirdilər. Lakin İspaniyada peşəkar dənizçilərə böyük ehtiac vardı və dənizçilik işlərinə rəhbərlik edən bir çox məmurlar Kolumb kimi dənizçiləri əldən buraxmaq fikrində deyildilər. O, da öz növbəsində bilirdi ki, vaxt gələcək İspaniya onun köməyindən və təcrübəsindən istifadə edəcəkdir.

Hələ Qvineya sahillərinə yola düşməmişdən əvvəl Kolumb florentsiyalı alim Paolo Toskanelli ilə yazışmalar aparmışdı. Alimin genuyalı dənizçiyə göndərdiyi iki məktub onun üçün xüsusi əhəmiyyət kəsb etmişdi.

Bir çox tarixi qaynaqlarda göstərilir ki, ənənəvi fərziyyə olaraq X. Kolumb hələ 1474-cü ildə məsləhət almaqdan ötrü Paolo Toskanelliyə müraciət etmişdir. Bu məsləhət əsasən "Hindistana qısa dəniz yolu"ndan ibarət idi. Həmin dövrdə florentsiaylı alim nəinki İtaliyada, hətta Portuqaliyada da kosmoqrafiyanı yaxşı bilən bir mütəxəssis kimi

tanınırdı. Gördüyü işlər barəsində bir çox şəhərlərdə yaşayan həmkarları ilə yazışmalar aparırdı.

Orta əsrlərdə hər zaman bir yenilik baş verəndə tərəqqipərvər insanlar həmin yeniliyin dərinliyinə can ataraq tədqiqatla məşğul olurdular. Xüsusən də coğrafi kəşflər sahəsində. Venetsiyalı tacir Marko Polo Çinə səayhət edəndən sonra Portuqaliyanın dəniz səyyahları Atlantik okeanının şərq sahillərində məlum olmayan coğrafi obyektlərin tədqiqinə başlayırlar və bununla da Yer kürəsinin quruluşundakı müəyyən dəyişikliklər üzə çıxmağa başlayır. Bir çox xəritəşünaslar kəşf olunmuş yeni torpaqların xəritəsini kağız üzərində çəkərək, onu dünya ictimaiyyətinə çatdırırlar.

Orta əsrlərdə liman şəhərlərində yaşayan xəritəşünaslar üçün bu ən əlverişli qazanc yeri sayılır. Həmin işlə məşğul olan mütəxəssislərin çoxunda dəniz səyyahları və coğrafiyaşünaslarla böyük əlaqələri vardı. Yer kürəsinin quruluşundakı dəyişikliklər həm də kilsə xadimlərini də ciddi maraqlandırırdı. Lissabonda yerləşən bir məbədin, Fernan Martins adlı bir kanoniki vaxtı ilə Romada, Portuqaliyanın kralı V Alfonsun səlahiyyətli nümayəndəsi kimi işləmiş və orada Paolo Toskanelli ilə tanış olmuşdu. O, dərhal Yer kürəsinin ölçüləri ilə, xüsusən də Asiyanın şərq sahili ilə Avropanın qərb sahili arsındakı məsafə

barəsində maraqlanmışdı. Paolo Toskanelli Yer kürəsinin səthinin ölçüsü barəsində layihəni işləyərkən, antik dövrün məşhur yunan alimi İsgəndəriyyə şəhərində yaşayıb yaratmış Klavdiy Ptolemeyin uzunluq barəsində verdiyi ölçüdən çox, Marko Polonun verdiyi ölçüyə daha çox istinad etmişdi. Halbuki həmin dövrdə coğrafiyaşünasların və kosmoqrafların əksəriyyəti yunan aliminin verdiyi ölçülərinə daha çox istinad edirdilər. Marko Polo İsgəndəriyyəli alimə nisbətən Asiyanın sahilini təxminən $30^0$ şərq istiqamətində göstərmişdi.

Toskanellinin verdiyi ölçülər elə Portuqaliyanın kralı V Alfonsun özünü də maraqlandırır. Portuqaliya kralının tapşırığı ilə Fernan Martins, Lissabona qayıdandan sonra Florentsiyalı alim ilə həmin mövzu ətrafında yazışmalar aparır. Eyni vaxtda Kolumbun özü də həmyerlisi ilə məktublaşırdı. Fernan Martinsə ünvanlanan məktubun surətini florentsiyalı kosmoqraf Kolumba da göndərmişdir. Həmin məktubda Toskanelli qeyd edirdi ki, portuqalların Afrika ətrafında Ədviyyat adalarına (Molukk adaları) axtardıqları yoldan başqa Atlantik okeanını qərb istiqamətində keçməklə daha qısa yol var. “Mən bilirəm ki, Yer kürə şəklində olan halda bu yolun mövcudluğu təsdiq oluna bilər. Lakin buna baxmayaraq, işinizi yüngülləşdirmək ötrü mənim tərəfimdən tərtin olunan xəritəni sizə

göndərirəm. Həmin xəritədə qərb istiqamətində üzməyin marşurutu, istədiyiniz adalar və sahillər göstərilib, hansı yerə gedib çıxacağınız da qeyd edilib. Ekvaotrdan və qütbdən də nə qədər aralı üzəcəyiniz göstərilib. Təəccüblənməyin ki, ədviyyatların harada bitməsini və daş-qaşların olduğu ölkəni mən qərbdə göstərirəm, halbuki hamı həmin yerləri şərq deyə adlandırırlar. Əgər quru torpaqla getsələr, onda dediyim yerə şərq istiqamətində çatmaq olar..."

Kolumb elə gənc yaşlarından dənizçilik işləri ilə maraqlanırdı. Hər hansı bir qlobal məsələnin üzərində işləmək üçün o, çox götür-qoy edərdi. Həmişə də ciddi-cəhdlə uzaq səyahətlər arzusunda idi. Ola bilsin ki, Kolumb öz layihəsi barəsində Toskanelliyə xəbər vermişdi, o, da ki, əvəzində genuyalıya yazırdı: "Mən sizin qərbdən şərqə üzmək layihənizi alicənab və şərəfli addım kimi qiymətləndirirəm. Çox şadam ki, məni yaxşı başa düşüblər".

Bu sətirlərdən sonra adamda elə təəssürat yaranır ki, guya Kolumb Portuqaliyada olarkən Paolo Toskanellinin kimliyini və nəçi olduğunu bilmişdir. Halbuki o, hələ İtaliyada olarkən florentsiyalı alimin necə istedadlı və aqil adam olduğundan agah idi. Deyilənə görə Kolumb elə İtaliyada olarkən Toskanellinin özü ilə görüşərək hər dəfə onunla maraqlı mövzular barəsində söz mübadiləsi

aparmışdı. Genuyalı dənizçi bilavasitə alimin gördüyü iş ilə maraqlanmış və onun tərtib etdiyi xəritələrin konturlarını nəzərdən keçirməyi xoşlayırdı.

Bir çox alimlərdən fərqli olaraq Toskanelli öz fikirləri ilə dost və tanışlarını ehtirasla hali edirdi. Lakin hansı qaynaqlardan istifadə etməsini hətta ən yaxın adamlarından gizlədirdi ki, heç kim onun kəşflərinə şərik çıxmasın. Mənə elə gəlir, Kolumb Florentsiyada olarkən o, Toskanellinin apardığı bəzi işləri ilə yaxından tanış idi. Xüsusən də 1474-cü ildə tərtib etdiyi Şərqi Asiya ilə Qərbi Avropa arasındakı ərazinin xəritəsini ciddi-cəhdlə nəzərdən keçirmişdi. Bu məsələnin təhlilinə başlamazdan əvvəl mən qısa tarixi xronikanı yada salmaq istəyirəm. Bu bilavasitə Toskanellinin fəaliyyəti ilə əlaqədardır.

XV əsrdə hələ heç kim torpaqların və okeanların Yer kürəsində necə birləşdiyini bilmirdi. Məhz bunun əsasında Toskanelli alim olmasına baxmayaraq, Asiya qitəsinin qərb ərazisini qərbdən-şərqə doğru iki dəfə böyütmüş, lakin Cənubi Avropa ilə Çin arasındakı okeanın enini xeyli kiçiltmişdi. Onun hesablamalarına görə Avropadan Çinə qədər olan məsafə düz 2000 liqdir (12000 km.). Zipanqu (Yaponiya) Çindən təxminən 333 liq (1998-2000 km.) şərqdə yerləşir. Həmin bu keçiddə Azör, Kanar və Mifik Antiliyadan etap kimi istifadə oluna bilərdi. Kolumb

astronomiya və coğrafiya kitablarına arxalanmaqla müstəqil şəkildə öz hesabatlarını aparmışdı; Zipanquya çatmaq üçün ən sərfəli Kanar adalarından qərb istiqamətində Şərqi Asiyaya doğru təxminən 800 liq (4,5-5 min km.) yol qət etmək lazımdır. Bunun özü fenomenal bir fikir sayılır. XVIII əsrdə yaşayıb fəaliyyət göstərmiş fransız coğrafiyaşünası Jan Anvil bu barədə belə bir fikir söyləmişdir: "Bu böyük bir səhvdir və həmin səhv böyük bir kəşf ilə nəticələnmişdi".

Qəribə bir paradoks alınır, belə çıxır ki, Kolumb bu səhvə görə coğrafiya aləmində ən böyük kəşf etmişdir? Əgər bu elədirsə onda bu möcüzədir ki? Belə bir qənaətdən sonra bu cür səpkili ifadə yarana bilər: Amerika qitəsi 1492-ci ildə Xristofor Kolumbun başçılıq etdiyi ekspedisiya tərəfindən təsadüf nəticəsində kəşf edilmişdi. Lakin bu cür fikir ilə heç cürə razılaşmaq olmaz. Təsadüf nəticəsində dünya əhəmiyyətli kəşf baş vermir.

Tarixi və coğrafi kitablarda yazılır ki, Xristofor Kolumb ömrünün axırına kimi elə bilib ki, kəşf etdiyi Yeni Dünya sahilləri Şərqi Asiyanın torpaqlarıdır. Elə məktəbdə oxuduğumuz dərsliklərdə də bu ifadələrlə üzləşirik. Yalnız pessimist fikirli adamlar bu cür hesab edə bilər. Elələri də var ki, həmin fakta şübhə ilə yanaşırlar. Lakin dərinliyə

varmadan bunun çox mübahisəli məsələ olduğunu bəyan edirlər.

Əlbəttə, həmin deyinlərə heç cürə inanmaq olmur. Elə mənim özüm də hələ orta məktəbdə oxuduğum illərdə tarixə düşmüş həmin faktla razılaşa bilmirdim və o dövrdən həmin hadisələrin tədqiqi ilə məşğul olmağa başladım. Əlbəttə, elə bir şeyə çətin inanmaq olur ki, Kolumb kimi təcrübəli bir admiral, astronomiya ilə dərindən maraqlanan bir adam və peşəkar dənizçi Yeni Dünya sahillərinə dörd dəfə səyahət etsin və bir dəfə də şübhələnməsin ki, qarşısındakı torpaq Köhnə Dünyaya məlum olmayan Yeni bir qitənin ərazisidir. Lakin bir çoxları izah edirlər ki, acı da olsa bu həqiqətdir.

## Azərbaycandan olan məşhur alim Nəsirəddin Tusi və onun bəşəriyyət elmi qarşısındakı xidmətləri

Hamı çox yaxşı bilir ki, məşhur səyyah özünün birinci səyahətinə (1492) başlayanda tanınmış italyan astronomu Paolo Toskanellinin tərtib etdiyi xəritəni köçürərək Yeni

Dünya sahillərinə yollanmışdı. Lakin əsrimizin bir neçə alimləri iddia edirlər ki, onda başqa xəritə də olubdur. Mən müəyyən araşdırmalar aparandan sonra belə qənaətə gəldim ki, Kolumb şəxsən özü fərdi üsulda, bütün dost-tanışlardan ciddi-cəhdlə gizlətdiyi, bir xəritə tərtib etmişdir. O, həmin xəritəni tərtib edəndə, XIII əsrin ən dahi astronomu və riyaziyyatçısı azərbaycan milliyyətindən olan Nəsirəddin Tusinin astronomik hesablamalı ilə tərtib edilmiş xəritəsindən istifadə etmişdir. Lakin Azərbaycanda yaşayan bəzi alimlər iddia edirlər ki, Nəsirəddin Tusinin XIII əsrdə tərtib etdiyi xəritə hansısa bir vasitə ilə Paolo Toskanellinin əlinə keçmişdir və o, həmin xəritənin sayəsinə özünün 1474-cü ildə tərtib etdiyi xəritəni yaratmışdır. Əlbəttə, bu mübahisəli bir məsələdir. Bu məsələyə başlamazdan əvvəl biz Nəsirəddin Tusinin tərcümeyi-halı və onun dövrü fəaliyyəti ilə maraqlanmalıyıq.

XIII əsrdə, zəmanəsinin görkəmli filosofu, astronomu və riyaziyyatçısı, tarixçisi, maliyyəçisi və hüquqşünası olan Azərbaycan alimi Tusi ləqəbini götürmüş Əbu Cəfər Mühəmməd ibn Mühəmməd ibn Həsən Nəsirəddin Tusi (1201-1274) Azərbaycanın mərkəzində yerləşən Marağa şəhərindəki, şəxsən özü-öz layihəsi ilə tikdirdiyi rəsədxanada işləmişdir.



*Azərbaycanlı alim Nəsirəddin Tusi (1201-1274)*

Onu da qeyd etməliyəm ki, Tusinin anadan olması ilə bağlı bəzi müxtəlifliklər var. Akademik Ziya Bünyadov bu barədə yazmışdır: "Bu günə qədər böyük alimin təvəl-lüd tarixi ənənəvi olaraq yanlış göstərilib. Lakin mənbələr təsdiq edir ki, Nəsirəddin Tusi 1201-ci ildə deyil, daha əvvəl anadan olmuşdur. Ən nüfuzlu və dəqiq orta əsr tarix-çilərindən Əl-Məqrizi **"Kitab əs-süluk"** əsərinin birinci cildinin ikinci hissəsində yazır ki, Nəsirəddin Tusi cəmadi-yal əvvəl ayında, 577-ci ildə (12 sentyabr – 11 oktyabr 1181) anadan olmuşdur.[1]

Qütbəddin Yunini **"Zeyl mirat əz-zaman"** əsərində göstərir ki, Nəsirəddin Tusi 25. VI. 1274-cü ildə Bağdadda vəfat edərkən onun yaşı səksəndən çox idi".[2]

Təhsilini Xorasan vilayətinin Tus qəsəbəsində aldığına görə "Tusi" təxəllüsünü götürmüşdü. İllik müəllimi atası, sonrakı müəllimləri isə Bəhmənyar və Əbu Əli İbn Sina məktəbinə mənsub olan müəllimlər olmuşdur. Aldığı hər-tərəfli və dərin biliklər Tusini az bir vaxtda elmi mühitdə məşhurlaşdırır.

Tarixi qaynaqlarda göstərilir ki, hələ gənc yaşlarından etibarən o, bir sıra hökmdarların diqqətini özünə cəlb edir. Otuz yaşında ikən Kuhistan ismaililərinin rəhbəri Nəsirəd-

[1] Əl-Məqrizi "Kitab əs-süluk" I cild. Qahirə, 1936, səh. 614
[2] Q. Yunini "Zeyl mirat əz-zaman", III cild. Heydərabad, 1960, səh. 790

din Möhtəşəm onu sarayına qonaq çağırır və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edir. 1240-cı ildə Nəsirəddin Tusi, sonralar ona dünya şöhrətini gətirən və bir çox dillərə tərcümə olunan məşhur **“Əxlaqi-Nasiri”** əsərini tamamlayır.

Tusinin **“Əxlaqi-Nasiri”** əsəri haqqında xüsusi tədqiqat aparmış Cəlaləddin Hümayi həmin təqlidi kitabların bəzilərinin adını çəkməklə onların **“Əxlaqi-Nasiri”**yə nisbətən çox aşağı səviyyədə olduqlarını qeyd edir. Bunların içərisində **“Əxlaqi-Cəlali”, “Əxlaqi-Möhsini”, “Əxlaqi-Mənsuri”** və **“Əxlaqi-Cəmali”**ni xüsusi olaraq qeyd edir və deyir ki, son yeddi yüz əlli beş ildə yaradılmış bu tipli kitablar heç **“Əxlaqi-Nasiri”**nin yüzdə bir səviyyəsinə yüksələ bilməmişdir.[1]

Ancaq həmin kitab hökmdarın xoşuna gəlmir və Tusi həbs olunaraq “Əlamut” (“Qartal yuvası”) qalasına aparılır. O, burada sürgün həyatı keçirir. Qəsirdən çıxmaq hüququ əlindən alınmış Tusi ismaililərin yanında keçirdiyi 12 ildən bir qədər artıq müddətdə dözülməz mənəvi sıxıntılara baxmayaraq, bir neçə elmi əsər yaza bilir. Alim 1242-ci ildə tamamladığı **“Şərhül-İşarət”** (Əbu Əli ibn Sinanın **“İşarət”** adlı fəlsəfi risaləsinə şərhlər) əsərinin sonunda

[1] Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Rəhim Sultanovun ön sözü. Bakı, “Lider Nəşriyyat”, 2005. səh. 14

yazır: “Mən bu kitabın əksər fəsillərini olmazın dərəcədə ağır bir şəraitdə yazdım. Ürək bundan artıq sıxıntı çəkə bilməzdi”.

1253-cü ildə Çingiz xanın nəvəsi Hülaku xanın Yaxın Şərqə yürüşü başlayır. Hələ Azərbaycanın sərhədinə yaxınlaşanda xanın göndərdiyi cəsuslar Tusinin nə dərəcədə müdrik insan və görkəmli alim olduğunu hökmdara izah edirlər. Alimlərə və ümumiyyətlə müdrik insanlara möhkəm pərəstiş edən Hülaku xan bir çox qalalarla yanaşı, “Əlamut” qalasını ələ keçirməyi qərara gəlir. Onun qoşunları fətholunmaz “Əlamut” qalasını da tutur, Tusini və digər alim məhbusları azad edirlər. Ümumiyyətlə, alim öz nüfuzundan istifadə edərək, qalada qan tökülməsinin qarşısını almağa müvəffəq olmuşdu. Məhz buna görə də “Əlamut”da yaşayan mülki əhalisi arasında kütləvi qırğın baş verməmişdi.

Rəşidəddinin sözlərinə görə Hülaku xan elmləri çox sevir və sarayında alimləri, müdrik adamları saxlamağı xoşlayır və onların biliyindən istifadə edərdi.

Hülaku xanın xüsusiyyətində mərdlik, zəhmlilik və qəddarlıq xeyli seçilir, lakin ona yaltaqlanmağı xeyli xoşlayırdı... Dostlarına qarşı ürəyiaçıq, düşmənlərinə qarşı isə çox

rəzil, mali-mülkə hərisli olan Hülaku xan belə bir rəngarəng fiqur idi.[1]

Cüveyni oradakı əl işləri ilə tanış olandan sonra Hülaku xana məsləhət görür ki, həmin kitabxanaya heç bir zərər dəyməsin. Bütünlüklə oradakı elmlə bağlı olan işlər tarixçinin öhdəsinə verilir. Cüveyni əmr edir ki, "Ələmut" kitabxanasında olan astronomik alətlər, Quran, qiymətli əlyazmalar saxlanılsın, yalnız ismaili cərəyanı ilə əlaqəli olan bütün əsərlər yandırılsın. Lakin bir neçə ismaili əsərlərini tarixçi öz elmi işlərinə daxil edir. Məsələn, Ələmut dövlətinin təməlini qoyan Həsən ibn Səbahdan bəhs edən **"Sərgüzeşt-i seyidna"** əlyazmasından o, öz əsərində istifadə etmişdi.[2]

Azərbaycan aliminin həddindən artıq aqil insan olduğunu görən Hülaku xan Tusini ilk vaxtı öz məsləhətçisi təyin edir. Elə ilk günlərdən alim Hülaku xanın bir çox vacib siyasi tədbirlərinin həyata keçirilməsində məsuliyyəti öz üzərinə götürür. Hülaku xan sahibi olduğu dövlətinin sərhədlərini genişləndirməkdən ötrü, hökmən Abbasilər Xilafətinin paytaxtı, möhtəşəm şəhər sayılan Bağdadı ələ keçirməli idi. Bağdada hücüm xana ya tam uğur, ya da ki,

---

[1] Л. В. Строева. Государство Исмаилитов в Иране в XI-XIII вв. Москва, «Наука», 1978. стр. 243

[2] Л. В. Строева. Государство Исмаилитов в Иране в XI-XIII вв. Москва, «Наука», 1978. стр. 243

tam məğlubiyyət gətirməliydi. Bu işdə Tusi hökmdara lazımi məsləhət vermişdir. Uzun müddət müsəlman aləminin müqəddəs şəhəri sayılan Bağdada hücum etməyə çəkinən hökmdar, yalnız Tusinin elmi cəhətdən əsaslandırılmış fikirlərindən sonra bu addımı atmağa cürətlənir.

Bağdad ələ keçiriləndən sonra Hülaku xan öz möhtəşəm dövlətinin mərkəzini 1260-cı ildə Azərbaycanda salır. İlxanilər adlanan bu yeni dövlətin başçıları "ilxan"lar (el xanları) idi. Hülaku xan öz dövlətinin paytaxtı kimi əvvəlcə, Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Marağanı, sonra isə Təbrizi seçir. Elə həmin vaxt Tusi Marağa rəsədxanasının tikintisinə başlayır. Hülaku xan Tusinin müdrikliyinə və idrakına inanmasaydı, böyük xərc tələb edən rəsədxananın tikintisinə icazə verməzdi.

Nəsirəddin Tusi yaşadığı dövrdə monqollar Azərbaycanı işğal etmişdilər və orada yerləşən bütün inzibati və mədəni obyektlər monqolların nəzarəti altında olmuşdu. Bu ondan xəbər verir ki, azərbaycanlı alimin özü və gördüyü işlər də monqolların nəzarəti altında idi. Elə Tusinin özü də monqolların hakimi sayılan Hülaku, sonra isə Abaqa xanın saraylarında vəzir vəzifəsində işləmişdir. Həmin vəzifələrdə işləməsinə baxmayaraq Tusi adı çəkilən xanların sevimlisinə çevrilmişdir.

1265-ci ildə Hülaku xanın ölümündən sonra hakimiyyətə keçən Abaqa xan (1265-1282) Tusini özünə vəzir təyin edir. 9 il, ömrünün axırına qədər İlxanilər dövlətində yüksək vəzifə tutan alim-vəzir ona verilmiş geniş imkanlardan istifadə edərək "dövlət" və "cəmiyyət" haqqında bir sıra nəzəri fikirlər irəli sürmüş və Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəsi olduğunu göstərmişdir.[1]

Riyaziyyatçı alimin ən məşhur əsərləri arasında **"Şəklülqita" ("Bütöv çoxtərəfli haqda risalə"),"Came ül-hesab" ("Lövhə və tozun köməyi ilə hesab toplusu"), "Dairənin ölçüsü" ("Evklid "Başlanğıc"ının təsviri")** kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət **"Zic Elxani" ("İlxanilərin astronomik cədvəlləri")** əsəri isə alimin adını dünya astronomiya tarixinə salmışdır. Adı sadalanan elmi əsərlərin əksəriyyətini Tusi rəsədxana tikilməyə başlayandan işləyib başa çatdırmışdı. Bu ondan xəbər verir ki, alim eyni zamanda bir çox işlərlə məşğul olaraq, vaxtını boş keçirmək iqtidarında deyildi.

Çağdaş tədqiqatçıların bir çoxu Nəsirəddin Tusini hər şeydən öncə, riyaziyyatçı hesab edir. Onun əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamışdır. 1594-cü ildə

---

[1] Azərbaycan Beynəlxalq Universiteti. Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika konfransının materialları. Bakı, 2001. Professor İ. M. Zeynalovun məruzəsi, səh. 270-271

Romada ərəb, sonra isə latın dilinə tərcümədə çap olunan **"Evklid "Başlanğıcı"ının təsviri"** əsəri Tusi ideyalarının Avropada yayılmasına böyük iş görmüşdür. Alimin beş kitabdan ibarət yazdığı **"Bütöv dördtərəfli haqqında risalə"** də Avropada triqonometriyanın inkişafında əhəmiyyətli rol oynamış əsər kimi məşhurdur. Dünya elmi tarixində ilk dəfə bu əsərdə triqonometriyaya müstəqil elm sahəsi kimi yanaşılır. Bu risalə ingilis, rus və fransız dillərinə tərcümə olunmuşdur. Nəsirəddinin cəbr sahəsində araşdırmaları içərisində bütün dərəcələrdən kökalma metodu və Binom düsturu daha çox tanınır. Bundan başqa alimin tarixə, minerologiyaya, fizikaya, tibbə, iqtisada, coğrafiyaya, musiqiyə və təbii ki, astronomiyaya dair çoxsaylı əsərləri də diqqəti nəzərə çarpdırır. Bunların arasında **"Bağdadın tarixi", "İşığın əks olunması və sınması haqqında risalə", "Evklid optikası", "Göy qurşağının örənilməsinə dair risalə", "Qiymətli daşlar haqqında kitab", "Dövlət maliyyəsi haqqında risalə", "Xoşbəxt günlərin seçilməsi"** (astrologiya) və başqa əsərlərin adı çəkilə bilər.

Nəsirəddinin bir çox əsərləri bu günə qədər öz araşdırıcısını gözləməkdədir. Onun əsərləri dünyanın müxtəlif nöqtələrinə səpələnmişdir. Bunlara Bakı, Paris, Florentsiya, Tehran, Qahirə, İstanbul, Moskva, Sankt-Peterburq, Kazan

şəhərlərinin muzey və kitabxanalarında rast gəlmək mümkündür.[1]

Hələ məlum deyil Tusinin neçə əsəri aşkar edilməmiş şəkildə dünyanın neçə dövlət və şəxsi kitabxanalarında və yaxud da dövlət əlyazmalar fondunda saxlanılır. Çox güman ki, Marağa rəsədxanasında yaradılan elmi əsərlərin bəziləri başqa bir müəlliflərin adı altında Təbriz, Tehran, Pekin və Nankin şəhərlərinin müəyyən bir inzibati obyektlərində saxlanılır. Vaxt gələcək alimin bütün işləri üzə çıxacaq və bəşəriyyət tarixi onun zəhmətinə lazımınca layiqli qiymətini verəcək.

Burada bir məsələyə toxunmaq olardı. Azərbaycanın görkəmli siyasi xadimi və tarixçisi Rəşidəddinin öz səlnamələrində yazdığına görə həmin dövrdə Cəmaləddin Buxariyə də Pekində rəsədxana qurmaq tapşırılmışdı. Lakin o, bu tapşırığın öhdəsindən gələ bilmirdi. Nəhayət Çin alimi Fao Mun-Çi ilə birlikdə Marağaya gəlib, Nəsirəddin ilə məsləhətləşmələr apardıqdan və rəsədxana tikilişi üçün zəruri olan alətlərin çertiyojlarını əldə etdikdən sonra Pekində də işlər başa çatdırılır.

Nəsirəddinin şöhrəti Pekinə gəlib çatmış və onu möhtəşəm bir mərkəz kimi düşünülmüş rəsədxananın

---

[1] Ç. Qacar. Qədim və orta əslər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, “Nicat”, 1997. səh. 124

tikintisinə kömək etməkdən ötrü paytaxta dəvət etmişdilər. Tusi isə Pekinə getməkdən imtina etmiş və Hülaku xanı rəsədxananın ilk növbədə imperiyanın deyil, İlxanilərin paytaxtında "Marağada tikilməsinin vacibliyinə inandırmışdı".

Nəsirəddin Tusi bu məsələdə bir növ peşəkar diplomat kimi hərəkət etmişdir. Nəhəng imperiyanın (Yuan) hökmdarı Xubilay xan möhtəşəm bir rəsədxananın Çində tikilməsini istədiyi bir vaxt azərbaycanlı alim elə edir ki, həmin rəsədxana həmin dövrdə məhz Azərbaycanda tikilir. Xubilay xan çox yaxşı bilirdi ki, Marağadakı rəsədxana işə salınandan sonra həmin elmi ocağın nəzdindən astronomiya, coğrafiya və riyaziyyat elmini inkişaf etdirmək üçün mütəxəssislər hazırlanacaq. Belə olan halda gələcəkdə Çində tikiləcək rəsədxananın işlədilməsi üçün Azərbaycandan gətirdiləcək mütəxəssislər əsas işlərin öhdəsindən gəlməlidirlər. Əlbəttə, Tusi məktəbinin yetirmələri nəinki Çində və ümumiyyətlə, dünyanın hər bir yerində fəaliyyət göstərməli idilər. Azərbaycandakı bir növ bütün dünya üçün astronomiya, coğrafiya və riyaziyyat elmi üzrə kadrlar yetişdirlməsinin institutu sayılırdı.

Onun rəhbərliyi ilə elmin müxtəlif sahələrinə aid bir sıra qiymətli əsərlər yaradılmışdır. **"Zic Elxani"** əsərində planetlərin geosentrik orbitinin əsas elementləri verilmiş,

onların sutkalıq orta hərəkəti öz dövrünə hətta bir neçə əsr astronomik müşahidələrinə nisbətən dəqiq təyin edilmişdir. **“Zic Elxani”** əsəri bir neçə əsrlərdə astronomiya elminə dair yaradılan unikal bir əsər sayılır. Təəssüflər olsun ki, həmin əsər vaxtında tərcümə olunaraq dünya ictimaiyyətinə çatdırılmamışdı. Lakin bəzi alimlər onun əsəri ilə maraqlanaraq tərcüməçilərin vasitəsi ilə həmin elmi iş ilə tanış olurdular. Onun ölümündən çox keçməmiş ərəb və fars alimləri Tusinin əsərlərini oxuyub təhlil edir və əsərin elmi mahiyyətini öz şagirdlərinə başa salaraq əsərin genişlənməsinə şərait yaradırdılar.

## Marağa rəsədxanası XIII əsrdə dünyanın ən böyük akademiyası sayılırdı

Rəsədxana 12 ilə tikildi və 1271-ci ildə istismara verildi. Marağada olan hər bir alim üçün işləməyə böyük zəmin yaradıldı. Rəsədxananda çoxlu cihazlar vardı. Bu cihazlardan bəziləri rəsədxananın özündə ixtira olunmuşdu. Bəziləri isə başqa ölkələrdən alınmışdı. Elmin inkişafına

böyük səy göstərən Nəsirəddin Tusi Marağa rəsədxanasının banisi kimi, orada işlədilən cihazların başqa ölkələrdə də istifadə edilməsinə şərait yaradırdı. Azərbaycan taxt-tacında əyləşən Abaqa xan rəsədxanada görülən bütün işlərdən razı idi və hərtərəfli orada çalışan sıravi əməkdaşlara və mütəxəssislərə yardım əlini uzadırdı. Hökmdarın bu iltifatından və xeyirxahlığından demək olar ki, hamı razı idi.

Tusi tərəfindən astronomiyaya aid çoxlu kitablar və traktatlar yazılıb. **“Zic Elxani”, “Astrolyabiya haqqında traktat”, “Təhrir Məcəsti”, “Astronomiya xatirələri”, “Otuz fəsil”** və s.

**“Astrolyabiya haqqında traktat”**a dair akademik F. Maqsudovla H. Məmmədbəyli yazırlar: “Astrolyabiya – daşınan astronomik alətdir. Onun köməyi ilə müşahidə aparan dayandığı yerin coğrafi koordinatını təyin edə bilərdi. Tusinin bu kitabı geniş yayılmışdı. Tusinin başqa astronomik əsəri **“Otuz fəsil”** adlanır. Onun planetlərin hərəkətinin nəzəriyyəsinə həsr etdiyi vacib nəzəri işi “**Astronomiya xatirələri”** sayılır...

Lakin adi suala cavab vermək vacib olardı. Bütün nəzəri suallarda Nəsirəddin Tusi, planetlərin heliosentrik nəzəriyyəsinə əsaslanırdı. Kopernikin helosentrik sistemi planı

yaranandan sonra da Nəsirəddin Tusinin astronomik işləri öz əhəmiyyətini itirməmişdi”.[1]

Tusinin tikdirdiyi rəsədxana öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyur. Marağa rəsədxanasında çalışan əməkdaşların elmi fəaliyyəti əsasən Ay, Günəş və ulduzların hərəkətini müşahidə etməkdən ibarət idi və həmin astronomik müşahidələr zamanı **“İlxanilərin astronomik cədvəlləri” (“Zic Elxani”)** adlandırılan kollektiv əsərin aranması baş vermişdir. Bu cədvəllərin sonuncusu 1284-cü ildə, Nəsirəddin Tusinin vəfatından 10 il sonra tərtib edilmişdir. Buna oxşar cədvəllər Avropada 400 il sonra yarandı.

Cədvəllər 4 kitabdan ibarətdir. Birinci kitabda yunan, fars, yəhudi, ərəb və türk təqvimləri təsvir olunur və bir təqvimdən digərinə keçməyən qaydaları göstərilirdi. İkinci kitab ulduzların hərəkətinə və onların ekliptik koordinatlarının yerləşməsinə həsr olunur. Elə buradaca sinus və tangenslərin cədvəlləri, habelə 256 məntəqənin yerləşdiyi uzunluq və en dairəsi göstərilir. **“Cədvəllər”**in üçüncü və dördüncü kitabları astrologiya məsələlərinə həsr olunur. Tusi uzunluq dairəsinin ölçüsünü Qrinviçdən 34-35$^0$ qərbdən götürərək, Cənubi Amerikanın şərq hissəsindən

---

[1] Ф. Максудов, Г. Дж. Маммедбейли. Мухаммед Насирэддин Туси. Баку, «Гянджилик», 1981. стр. 29-30

keçirir. Professor H. C. Məmmədbəyli buna əsaslanaraq, belə bir ehtimal sürmüşdür ki, o dövrün astronomiya və coğrafiya mütəxəssisləri hələ Kolumbdan çox-çox qabaq Qərb yarımkürəsində sonralar Amerika adlandırılmış materikin varlığından xəbərdar imişlər.

Söz yox ki, belə bir xəritə Azərbaycanda tərtib ediləndə Atlantik okeanın qərb hissəsində naməlum bir iri torpaq ərazisinin mövcudluğundan yalnız İlxanilər dövlətinə və ona yaxın bir ölkələrdə yaşayan alim təbəqəli adamlar xəbərdar idilər. Belə bir məlumatın qısa bir müddət ərzində Avropa ölkələrinə gedib çıxması əlbəttə inanılası deyil. Bunun üçün bir zəmin yaranmalı idi, ilk növbədə Avropa ölkələrinin İlxanilər dövləti ilə diplomatik əlaqələrinin qurulması və ticarət əlaqələrinin yaradılması vacib hal sayılırdı.

Mən, belə qənaətə gəlmişəm ki, Kolumb Amerikanı kəşf edərkən, Tusinin tərtib etdiyi cədvəllərdən istifadə etmişdir. Buna şübhə etməmək olar, Marağa rəsədxanasına, zəmanəsinə görə kifayət qədər bacarıqlı və təcrübəli alimlər yığılmışdı ki, Yerin və Göy fəzasının quruluşu barəsində lazımi qədər məlumatlar toplasınlar. Elə məhz həmin alimlər ilə birlikdə Tusi ulduzların göydə yerləşməsi sayəsinə belə qənaətə gəlmişdir ki, Atlantik okeanın o tayında iri bir torpaq ərazisi yerləşir və hətta həmin torpağın

konturunu kağız üzərində çəkməyə müvəffəq olmuşdu. Məhz həmin xəritəni əsas tutaraq, Kolumb Yeni Dünya sahillərinə yollanmış və Atlantik okeanının qərb sahillərində dördüncü qitəni kəşf etmişdir.

Yuxarıda qeyd etdiyim kimi Marağa rəsədxanasında ulduz qlobusu hazırlanmışdı. Müəyyidəddin Ordinin oğlu Məhəmməd tərəfindən hazırlanmış göy qlobusundan biri bizim günlərə qədər çatmış və hal-hazırda Almaniyanın Drezden şəhərində məşhur ***“Rəsm-qalereya”*** muzeyinin riyaziyyat-fizika salonunda saxlanılır və orada saxlanılan qlobuslar arasında ən qədimi sayılır. Marağa rəsədxanasının banisi və başçısı Nəsirəddin Tusi vəfat edəndən sonra (1274) onun üçüncü oğlu Sədrəddin Əli Tusi adı çəkilən rəsədxanaya başçılıq edir və həmin dövrdə Müəyyidəddin Ordinin oğlu Məhəmməd də həmin rəsədxanada işləyib fəaliyyət göstərmişdi. O, da atasının yolu ilə gedərək, astronomik cihazları hazırlanması sahəsində tanınmış mütəxəssislərdən biri olmuşdur. Onun düzəltdiyi qlobusda, ulduzların yerləşmə vəziyyətinə əsasən onun hazırlanma ilini müəyyənləşdirmək mümkün olmuşdur – 1279-cu il. Avropanın bir çox alimləri unikal sayılan həmin qlobusun tədqiqi ilə məşğul olmuşlar. Bürüncdən düzəldilmiş və qızıl-gümüş suyu ilə naxışlanmış bu qlobus həm də XIII əsr Azərbaycan dekorativ sənətinin incilərindən biri sayılır.



***Marağada düzəldilən Göy qlobusu (1279) Drezden muzeyi***

Müəllif bəlli olduğundan, artıq dünya ictimaiyyəti, dünyanın ən qədim Göy qlobusunun Azərbaycanda (Marağa rəsədxanasında) düzəldiyini qəbul edibdir. Buna alternativ bir ixtira yoxdur. Bəzi tarixi mənbələrin göstərdiyinə əsasən Marağa rəsədxanasında həm ulduz qlobusları,

həm də Yer kürəsinin qlobusları var imiş. Əlbəttə, Tusinin rəhbərlik etdiyi elmi kollektiv ulduz qlobusu düzəltdiyi halda, şübhəsiz ki, həmin dövrdə Yer kürəsinin qlobusunu da ixtira edərək, Marağada saxlayırdılar. Yerin kürə şəklində olması Tusiyə bəlli idi və çox güman ki, o, tərəddüd etmədən Yer planetini əks etdirən qlobus düzəltmiş, həmin qlobusun vasitəsilə planeti iki yarımkürəyə bölmüşdü. Çünki onda Yerin uzunluq səthinin ölçüləri də vardır. Sadəcə olaraq həmin maketlər gəlib bizim dövrümüzə qədər çatmayıblar. Lakin elə yazılarla üzləşmək olur ki, orada birbaşa Yer qlobusu ixtiraçısının adı ilə üzləşirsən.

Tarixi mənbələrdə göstərilir ki, alman coğrafiyaşünası, kosmoqrafı və dəniz səyyahı, Nürnberqli Martin Behaym (1459-1507) Afrika sahillərinə nəzərdə tutulan ekspedisiyalardan Avropaya qayıdandan sonra 1492-ci ildə ilk dəfə dünyada, Yer qlobusunun maketini düzəldibdir. Halbuki professor N. Əbdülqasımova bildirir ki, Yer qlobusunu ilk dəfə azərbaycanlı alim ixtira edib. O, yazır: "Elm tarixində müxtəlif cihazların avropalılara məlum olması tarixi Marağa rəsədxanasında çalışan alimlərin əlyazmalarından aydın görünür. Məsələn: coğrafi və ulduz qlobuslarının yaranma tarixi buna parlaq misaldır. 1266-cı ildə coğrafi qlobusun ilk yaradıcısı Marağa rəsədxanasının əməkdaşı

azərbaycanlı alim Kərimәddin Əbubəkr ibn Mahmud Səlmasidir”.[1]

Bu sahədə fundamental araşdırmalar aparan professor Eybali Mehrəliyev də ilkin Yer qlobusunun müəllifinin Kərimәddin Əbubəkr Səlmasinin olduğunu iddia eərək, bunu öz əsərlərində göstərmişdir.

Mənə elə gəlir, peşəkar alimlərin sayəsinə Marağada onlarla belə qlobuslar düzəldilə bilərdi.

Məhəmməd Ordi ixtira etdiyi qlobusu qızıldan və gümüşdən bəzədiyinə görə, həmin maket qiymətli bir sənət əsəri kimi tarixin yaddaşında qorunub saxlanılmışdı. Belə bir üsul ilə alim özünün uzaqgörənliyini nümayiş elətdirmişdi. Elə ulduz qlobusu da Drezdenin ***“Rəsm Qalereya”*** muzeyində salamat vəziyyətdə saxlanılmasaydı, onda bir çox mütəxəssislər, ümumiyyətlə, Marağa rəsədxanasında heç bir qlobusun düzəlmədiyini bəyan edərdilər. Deməli, dünyada ilkin dəqiq koordinatlı bölgülü olan qlobusların Azərbaycanda düzəldilməsi labüd idi.

Marağa rəsədxanasında hazırlanmış cədvəllər əsasında Ay və Günəşin tutulmasını qabaqcadan xəbər vermək olurdu. Həmin cədvəllərin əksəriyyəti çalışan tələbələrə paylanılırdı. Asiyanın və Avropanın başqa regionlara

[1] Azərbaycan Beynəlxalq Universiteti. Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika konfransının materialları. Bakı, 2001. Professor N. Ə. Əbdülqasımovanın məruzəsi, səh. 22




***Akademik M.S. Bulatovın (1907-2004)***
***Marağa rəsədxanasının hazırladığı maket***

nisbətən Ayın və Günəşin nə vaxt tutulmasında, yalnız Azərbaycanın hüdudlarında yaşayan müəyyən təbəqənin insanları hali idilər və həmin elm barəsində öz tanışları ilə söz mübadiləsi aparırdılar. Onu da qeyd etmək isəyirəm ki, həmin dövrdə astronomiya və astrologiya elmləri məhz Azərbaycanda həddindən artıq yüksək dərəcədə inkişaf etmişdi. Marağa rəsədxanası dövrünün ən yaxşı, ən qabaqcıl rəsədxanalarından biri idi.

Tusi rəsədxanada çalışan alimlər üçün zəngin kitabxana düzəltmişdi. Kitabxanada 400 min əlyazması vardı. Əlyazmaların əksəriyyəti Azərbaycanda, yerdə qalan hissəsi isə ölkənin hüdudlarından kənarda yazılmışdı. Marağa kitabxanası Yaxın Şərqdə yerləşən ən böyük kitabxanalardan biri sayılan və orada saxlanılan əlyazmaların əksəriyyətinin öz tarixçəsi var. Ona görə ki, həmin əsərlərin müəllifləri dünya elminə və mədəniyyətinə xidmət etmiş, tarix qarşısında öz çəkisi olan müdrik, adil və aqil insanlar idi. Həmin kitabxanada Tusinin 100-ə qədər ərsəyə gətirdiyi əsəri olmuşdur. Rəsadxanada çalışan alimlərin əksəriyyəti Tusinin əsərlərindən bir elmi mənbə kimi istifadə edirdilər. Çindən, Hindistandan, Ərəb ölkələrindən, Monqolustanda, Avropadan gələn alimlər burada geniş elmi iş aparırdılar. Rəsədxananın müdiri Çindən olan Fao Mun-Çi adlı bir gənc alimə istedadlı bir alim kimi baxırdı və ona

astronomiya ilə riyaziyyat elmlərinin bütün incəliklərini öyrətmişdi. Elə rəsədxananın özündə də əsas işləri demək olar ki, Fao Mun-Çi aparırdı. Axı, alimlər təkcə göy cisimlərini müşahidə etmirdilər, elmin bütün sahələri ilə məşğul olurdular. Elə Marağa rəsədxanasında görülən işlərin dünyaya yayılmasında Fao Mun-Çinin rolu böyük olmuşdur. Orada tərtib olunan bir çox astronomik və coğrafi xəritələri, Marağa rəsədxanası tikilən zaman Fao Mun-Çi (rəsədxananın görkəmli alimlərdən biri Cəmaləd-din əz-Zeydi Buxari də onunla birlikdə Çinə getmiş və orada Çin təqviminin yeni, mükəmməl variantını tərtib etmişdir.) özü ilə Çinə apararaq, öz ölkəsində həmin materialları həmkarları arasında nümayiş etdirmişdi.

Tusi tədqiqatçılarından biri olan akademik Maqsud Əliyev Marağa rəsədxanası və onun banisi Tusi barəsində bu sözləri söyləmişdir: "Nəsirəddin Tusi XIII əsrdə Marağa rəsədxanasında əsl Milli Elmlər Akademiyası yaratmışdır. Burada astronomiya, astronomiyanın müxtəlif sahəsi – cihazqayırma, müşahidə alətləri, nəzəri işlər – riyaziyyat, coğrafiyaşünaslıq, minerologiya, hüquq elmləri, yerşünaslıq, təbiətşünaslıq, ailə və əxlaq problemləri, fəlsəfə, musiqi, həndəsə, triqonometriya, sferik triqonometriyanın əsası qoyulur. Dünyada o vaxt belə bir zəngin Elmlər

Akademiyası olmamışdır. Avropada belə bir müəssisə yalnız XV, XVI əsrlərdə yaranmağa başlamışdır.[1]

## Xristofor Kolumbun birinci səyahəti

Yuxarıda qeyd edildiyi kimi Kolumb səyahətə, bir çox həmkarlarından fərqli olaraq, çox ciddi hazırlaşmışdı. Ekspedisiyanın tərkibinə daxil olan gəmiləri və həmin gəmilərin heyətini demək olar ki, o, özü seçmişdi. Bu haqda mən, həmin ekspedisiyanın təşkil edilməsi barəsində tarixi sənədlər əldə etmiş S. Morisonun, C. Beyklesin və Ç. Verlindenin yazdıqları əsərlərindən bir mənbə kimi istifadə etməli olacağam.

Ekpedisiyanın iki gəmisini İspaniyanın monarxları verirlər, birini isə Kolumbun özü icarəyə götürür. Gəmilərin ikisi - *“Pinta”* və *“Ninya”* - “karavella” tipli, birisi isə həmin dövrdə, ağır “nao” tipli gəmi sayılan *“Santa-*

[1] Azərbaycan Respublikası “Təhsil” Cəmiyyəti 2002 il 28 iyunda dahi Azərbaycan alimi Nəsirəddin Tusinin 800 illik yubileyinə həsr olunmuş “Nəsirəddin Tusinin elmi xidmətləri və Nəsirəddin Tusi yazıçı-tədqiqatçı Ramiz Qasımov yaradıcılığında” mövzusunda keçirilən elmi-praktik konfransda akademik Maqsud Əliyevin çıxışı.

*Mariya"* idi. Monarxlar ilə müqavilə bağlanandan sonra Kolumb Qalisiyanın Santonya limanında yaşayan Xuan de la Kosa adlı bir gəmi sahibindən *"Santa-Mariya"*nı icarəyə götürür. *"Pinta"* ilə *"Ninya"* isə Əndəlüsün Palos limanında yaxın bir yerdə Rio-Tinto gəmi tərsanəsində düzəldib istifadəyə verilmişdi.

Tarixi sənədlərdə göstərilir ki, *"Pinta"*nın sahibi Paloslu Kristobal Kintero, *"Ninya"*nın sahibi isə Mogeralı Xuan Ninyo idi. Ekspedisiya zamanı hər bir matrosun taleyi gəmi kapitanının ixtiyarında idi. Donanmanın komandanı vəzifəsindən əlavə Kolumb eyni zamanda *"Santa-Mariya"* gəmisinin kapitanı funksiyasını yerinə yetirirdi. Onun ən yaxın köməkçiləri gəminin sahibi Xuan de la Kosa və şturman Peralonso Ninyo idilər. *"Pinta"*nın kapitanı Martin Alonso Pinson idi, ikinci zabit (yəni, kapitanın köməkçisi) Fransisko Martin Pinson və gəminin şturmanı Kristobal Qarsia Sarmiyento təyin edilmişdilər. *"Ninya"*nın kapitanı isə Visente Yanyes Pinson idi, ikinci zabit Xuan Ninyo və gəminin şturmanı Sanço Ruis de Qama təyin edilmişdilər.

Göründüyü kimi Kolumbun ekspedisiyasında Pinsonlar və Ninyolar nəslinin bir neçə nümayəndəsi iştirak edirlər. Birincilər, şəxsi ambisiyalarını fikirləşdiyi halda, Ninyolar nəslinin nümayəndələri, səyahət zamanı hərtərəfli admirala sədaqətlə xidmət etmişdilər ki, həmin ekspedisiyanın

sonluğu uğurla nəticələnsin. Martin Alonso Pinson peşəkar bir dənizçi kimi həmişə arzulayırdı ki, uzaq səyahətlərdə iştirak etsin və həmin səyahətlərdən vətənə yalnız triumfator kimi qayıtsın. O, çalışırdı ki, müstəqil şəraitdə hər hansı bir iri torpaq sahəsini kəşf etsin və bununla da Marko Polo, Bartolomeo Diaş, Diyeqo Kan kimi məşhur dəniz səyyahları sıralarına daxil olsun. Martin Alonso İspaniya qarşısında göstərdiyi xidmətlərə görə krallığı idarə edən monarxlar qarşısında böyük hörmətə sahib olmağı və ispan hərbi dəniz donanmasında əsas vəzifələrdən birinə yiyələnmək məqsədi güdürdü.

Alonso Pinson da bir çox peşəkar dənizçilər kimi həmin dövrdə məşhur əsər sayılan Marko Polonun **"Səyahətnamə"**sini oxumuş və avropalılardan birinci olaraq Zipanquya çatmaq arzusunda idi. Məhz buna görə də o, tərəddüd etmədən Kolumbun ekspedisiyasında iştirak etməyə öz razılığını bildirmiş və həmin kompaniyada iştirak etməyə, qardaşlarını da dəvət etmişdi. Elə səyahət zamanı çox vaxt o, Kolumbun bir çox qərarları ilə razılaşmır və hər bir şeyə müdaxilə etməyi xoşlayırdı. Ekspaedisiya Baham adalarını kəşf edəndən sonra Alonso Pinson müstəqil şəkildə həmin səyahəti davam etdirməyə çalışmış və geri qayıdanda da birinci olaraq, İspaniya sahillərinə çatmağı istəyirmiş ki,

hamıdan birinci uğurlu səyahət barəsində monarxlara şad xəbər çatdırsın.



***Kolumbun ekspedisiyası İspaniya sahillərini tərk edir***

Pinsonun kiçik qardaşı Visente Yanyes Pinson 30 yaşında olmasına baxmayaraq, Kolumbun birinci səyahəti

zamanı özünü peşəkar dənizçi və nümunəvi bir işçi kimi göstərmişdir. Sonradan 1499 və 1500-ci illərdə o, Yeni Dünya sahillərinə müsəqil şəkildə səyahətlərə çıxmış və Amazonkanı kəşf etmişdi.

Bir çox tarixçiləri və corafiya elminin mütəxəssislərini maraqlandıran əsas məsələlərdən biri odur ki, Kolumbun ekspedisiyasına daxil olan gəminlərin dəqiq ölçüləri necə idi? Bu haqda mütəxəssislərin fikirləri müxtəlifdir. S. E. Morisonun fikrinə görə *"Santa-Mariya"*nın su tutumu 100 t., *"Pinta"*nın 60 t., *"Ninya"*nın isə 50 t-dur. Gəmilərin su tutumlarına və ölçülərinə görə Kolumb əmin idi ki, belə bir donanma ilə istənilən hər hansı bir səyahətlərdə iştirak etmək olar.

Üç gəminin içərisində o, əsasən ekspedisiyanın ən kiçik gəmisi olan *"Ninya"* karavellasına böyük ümid bəsləyirdi. Ekspedisiyanın komandoru çox yaxşı bilirdi ki, okean keçidindən sonra qarşısına çıxan ilkin torpaq ərazisi, yalnız xırda şəkilli adalar qrupu olacaqdır. Həmin adaların arasında yaxşı manevr və sürətlə hərəkət etmək üçün yalnız *"Ninya"* kimi kiçik gəmi lazım idi. Məhz buna görə də Kolumb Kanar adalarına çatan kimi gəminin sürətini artırmaqdan ötrü, karavellanın iki dorundakı üçkünc formasında olan latın yelkənlərini dördkünc yelkənlərlə

əvəz edir. Həmin rekonstruksiyadan sonra *"Ninya"* gəmisi donanmanın ən sürətli gəmisinə çevrilir.

Alisa Baçe Qouldun apardığı tədqiqatı nəticəsində Kolumbun birinci ekspedisiyasında iştirak edən 90 nəfərlik heyət üzvinin 87 nəfərinin adını müəyyən etmək olubdur. Onlardan 40 nəfəri *"Santa-Mariya"*nın, qalan iki gəminin hərəsində isə 25 nəfər adam olub. Onlardan dördü ispan olmayıbdır: biri Taviradan olan portuqal, qalanları italyan – venesiyalı, kalabriyalı və genuyalı ilə baskdan başqa, qalan dənizçilər Əndəlüs vilayətinin Seviliya, Kadis, Puerto-Santa-Mariya, Xeres, Kordova, Palos və Mogera şəhərlərindən idilər.

Bu ekspedisiyanın təşkili rəsmi xarakter daşıdığına görə eskadranı bir "escribano" (katib) və bir kral nəzarətçisi – "veedor" – müşaiyət edirdi. Ekspedisiya müvəffəqiyyət qazandığı halda, kəşf edilən adaların elan edilərək rəsmi sənədə salınması və xarici hökmdarlarla danışıqlar səlahiyyəti katibə, qızıl və qiymətli daş-qaşlar əldə edildiyi halda isə monarxların hüquqlarını müdafiə etmək səlahiyyəti kral nəzarətçisinə həvalə edilmişdi. Bundan əlavə hər gəmidə bir "alguacil" (polis məmuru) vardı. *"Santa-Mariya"* gəmisində həmin funksiyanı Kolumbun məşuqəsi sayılan Beatrisin qardaşı Diyeqo de Qarana yerinə yetirirdi.

Bütün ekspedisiyada kəşf ediləcək əcnəbi ölkələrdə danışıqlar aparmaq üçün azacıq ərəb dilində danışmağı bacaran, Luis de Torres adlı xristianlaşdırılmış bir yəhudi vardı. Maraqlı cəhətdə ondan ibarətdir ki, səyahət zamanı Çin, Yaponiya və Hindistan kəşf edildiyi halda ərəb dilində danışmağı bacaran bir tərcüməçi Kolumbun nəyinə gərək idi? Axı, Marko Polonun kitabından bəlli idi ki, Afrikanın şərq sahilində və Ərəbistan yarımadasında yerləşən ölkələrdə yalnız ərəb dilində istifadə olunurdu.

Hər bir gəmidə həkim olduğu halda səyahət zamanı onların köməyindən istifadə olunmadı. Lakin ən maraqlısı da o idi ki, birinci səyahət zamanı ekspedisiyanın tərkibində bir nəfər də olsun, ruhanilərin nümayəndəsi yox idi.

1492-ci ilin avqustun 3-də donanma Palos limanını tərk edir və tezliklə Kanar adalarına çatır. Orada müəyyən edilir ki, *"Pinta"* gəmisinin böyürləri su buraxır, sükan isə tez-tez sıradan çıxır. Gəminin təmirinə görə ekspedisiya Kanar arxipelaqının Homer adasını yalnız sentyabrın 6-da tərk edə bilir və sonradan üçgünlük ştilə düşür. Ştildən sonra qərb istiqamətində elə külək əsdi ki, matroslar tezliklə Yerro adasını gözdən itirirlər. Bütün işlərdə öz ehtiyatını möhkəm tutan marşurutun məsafəsini bir qədər zamanı donanma uzun yol qət edir.

Sentyabrın 16-da okeanda dənizçilərin qarşısında dəstə-dəstə otlar çıxmağa başladı. Bəzi yerlərdə ot o qədər çox idi ki, sanki onlar düzənliyə gəlib çıxmışdılar. Suya lot atsalar da dənizin dibini müəyyən etmək mümkün olmurdu. Lakin bu sularda üç həftə üzsələr belə, onlar torpaqla sərhədi olmayan, dünyada yeganə dəniz sayılan Sarqass dənizi kəşf edilir.

Buna baxmayaraq Kolumb yalnız qərb istiqamətində irəliləyirdi. Oktyabrın birinci həftəsində eskadranın sürəti kifayət qədər artır, təxminən günə 142 mil məsafə qət edilirdi. Ondan sonra kompasın əqrəbini yana meyl etməsindən istiqamət cənub-qərbə tərəf tuşlanır. Bu bir tərəfdən ekspedisiya iştirakçılarının xeyrinə olur. Maraqlı cəhət ondan ibarətdir ki, oktyabrın 7-də, göydə, Şimali Amerikadan Bermud adaları istiqamətində quşların böyük dəstəsi uçuşurdu. Lakin buna baxmayaraq hələ də torpağı görmək olmurdu. Sanki okeanın bu hissəsində torpaq yerləşmirdi. Əvvəlcə, Sarqass dənizi kəşf edilir, sonra isə göydə quşların dəstəsinin görünməsi qarşıda yalnız torpaq olduğundan xəbər verirdi. Ancaq torpaq görünmürdü ki, görünmürdü. Məhz quşlar görünəndən sonra Kolumb onların istiqaməti ilə ekspedisiyanın kursunu qərbə-cənub-qərbə tərəf döndərir və bununla da bu kompaniyanın uğurla

başa çatması üçün ekspedisiyanın müqəddaratını həll etmiş olur.

Torpaqla üzləşməsinin bütün bu əlamətlərinə baxmayaraq ekspedisiya iştirakçıları səyahətin çox uzandığını görüb və Hindistana olan məsafənin həddindən çox olduğunu bəhanə gətirərək, komandordan tələb edirlər ki, torpaq görünmədiyi üçün donanmanın kursu geriyə İspaniyaya döndərilsin. Hətta aqressiv hərəkətləri ilə fərqlənən bəzi matroslar Kolumbu fiziki cəhətcə məhv edilməsini də tələb edirdilər. Onlar bunu onunla əsaslandırırlar ki, ekspedisiyanın komandoru əcnəbi bir adamdır və o, heç vaxt ispan dənizçilərinin qaydına qala bilməz.

Natiqlik bacarığı ilə bir çox həmkarlarından ustalıqla fərqlənən Kolumb hamıya izah edir ki, ekspedisiya geri döndüyü halda, bura qədər neçə liq yol qət ediblərsə, İspaniyaya kimi bir o qədər yol qət etmək məcburiyyətində qalacaqlar. İşdir, heyət üzvləri onu öldürməyə qərara alsalar, onda vətənə qayıdan kimi həmin adamları İspaniya monarxlarının əmrləri ilə edam edəcəklər. Komandor qətiyyətlə bildirir ki, İspaniyanı bir yerdə tərk edənlər, elə bir yerdə də vətənə qayıdacaqlar. Lakin çıxışının sonunda torpağın kəşf edilməsi üçün onlardan üç gün möhlət istəyir və hamıya bəyan edir ki, üç gün müddətinə torpaq üfüqdə

görünməsə, onda o, tərəddüd etmədən donanmanın kursunu İspaniyaya döndərəcək.

Doğrudan da Kolumbun taleyi onun üzünə gülümsəyirdi və çox zaman çıxılmaz bir vəziyyətlərdə onun bəxti gətirirdi. Heyət ilə aparılan danışığın üstündən bir gün keçəndən sonra oktyabrın 11-də külək xeyli güclənir və gəmilərin sürəti avtomatik olaraq artır. Torpaq ilə üzləşməyin yeni əlamətlərin okeanda görünür. Gəmilərin yanından üstündə çiçək olan budaqlar və yonulmuş çubuqlar keçir. Deməli, haradasa yaxınlıqda insanlar yaşayır. Kolumb əmin olur ki, axtardığı torpaq gözlənildiyindən də xeyli yaxınlıqda yerləşir. Oktyabrın 11-dən 12-nə keçən gecə göydəki ay bütün qüvvəsi ilə yeri işıqlandırır və növbədə dayanan matrosların işini xeyli yüngülləşdirir.

Amerika qitəsinin Kolumb tərəfindən kəşf edilməsi anını, tanınmış amerikan tarixçisi C. Beykles **“Amerika kəşf edənlərin gözləri qarşısında”** belə təsvir etmişdi: “1492-ci ilin oktyabrın 11-də gecəyarısı idi. Cəmi iki saatdan sonra – bütün dünya tarixinin gedişatına dönüş yaradacaq bir hadisə baş verəcəkdir. Gəmilərdə heç kim bu anı anlamırdılar, lakin admiraldan tutmuş ta ki, yunqaya kimi hamı gərgin həyəcan içində idilər. Kim ki, qarşıda peyda olacaq torpağı birinci görsə, həmin adama 10000 maravedi məbləğində mükafat verilməsi boyun alınmışdı

və artıq hamıya bəlli olmuşdu ki, uzun səyahətin sonuna az qalıb... Sutka tamamlanmaq üzrə idi və ulduzlu gecədə üç gəmi, əlverişli istiqamətdə əsən küləyin altında, iti sürətlə irəli şığıyırdı...”

Bütün ömrünü əsas bir şeyə həsr edən Kolumb nəhayət, Kanar adalarından 33 gün aralanandan sonra, 1492-ci ilin oktyabrın 12-də öz məqsədinə nail olur. Təbiət tərəfindən Köhnə Dünyadan gizlin saxlanılan dördüncü qitə, *“Pinta”* gəmisinin buşpriti ağzında dayanan növbətçi matros Rodriqo de Triana tərəfindən kəşf edilir. Gəmidən 6 mil aralıda Amerika qitəsi yerləşirdi.

Ekspedisiyanın təhlükəsizliyini nəzərə alan Kolumb əmr edir ki, gəmilərdə olan bütün yelkənlər aşağı salınsın. Günəş çıxanda onların qarşılarında uzunluğu 20 km. eni 10 km. olan, Baham adlarının tərkibində yerləşən Quanahini adlı mərcan adası görünür. Artıq sübut olunub ki, həmin ada $24^0$ şm.en dairəsində və $74{,}30^0$ şərq uzunluğunda yerləşən indiki Uotlinq (Vatlinq) adasıdır – Kolumb həmin dövrdə adanı San-Salvador adlandırır.

Məşhur dəniz səyyahı həmin adaya çıxandan sonra öz gündəliyində bu sözləri yazır: “Bu ada çox böyük və düzdür. Burada çoxlu yaşıl ağaclar, sular var və adanın ortasında böyük bir göl yerləşir. Lakin burada hər hansı bir dağlar yoxdur”.

Kəşf edilən adada insanların yaşadıqları bəlli olur və onların dəriləri avropalılara nisbətən qırmızıya çalırdı. Bu haqda ekspedisiyanın komandoru öz gündəliyində qeydlər aparır: "Onların hamısı, hətta qadınlarda anadan doğulduqları kimi lüt gəzirlər... Mən gördüyüm adamların hamısı, yaxşı bədən quruluşuna malik olan, qəşəng sifətli, lakin saçları qısa və at tükləri kimi kobud və qalın olan 30 yaşından yuxarı olmayan cavan adamlar idi... Sifətlərinin quruluşu düz, cizgiləri isə xoş təbəssümlü idi... Həmin adamların dərisi isə qara yox, Kanar adalarında yaşayan əhalinin dərisi kimi qırmızıdır..."

Ekspedisiyanın komandoru adada yaşayan lüt aborigenlərin qarşısına çıxaraq, adanın sahilində katib Rodriqo de Eskobedanın və kral nəzarətçisi Sançes de Seqoviyanın iştirakı ilə həmin adanı Katolik krallarının mülki elan edir. Yuridik olaraq Kolumbun başçılığı altında kəşf edilən torpaqlar İspaniyanın mülkiyyətinə çevrilir. Elə həmin an, ekspedisiyanın komandoru Kolumba, Qranada yaxınlığında İspaniyanın monarxları tərəfindən vəd verilmiş bütün imtiyazları elan edilir və həmin gündən etibarən o, İspaniyanın admiralı və kəşf edilmiş torpaqların vitse-kralı kimi tanınmağa başlanır. Məhz həmin tarixi hadisədən sonra Qərb yarımkürəsində yerləşən nəhəng torpaq ərazisi-nin tarixində yeni era başlanır. Dünyanın bu hissəsində yaşayan

xalqların həyatında böyük dönüş yaranır. Artıq burada yaşayanlar öz qanunları ilə deyil, şərqdən gələn missionerlərin gətirdikləri qanun ilə yaşamağa sövq ediləcəklər.

## İspan ekspedisiyası Yeni Dünya sahillərini kəşf edir

Kolumb San-Salvador adasını kəşf edəndən sonra oktyabrın 14-də, tarixi sənədlərə əsasən Zipanqu adasını tapmaq üçün, cənub-qərb istiqamətində yola düzəlir. Axşama qədər o, indiki Ram-Ki adlanan Santa-Mariya-de-Konsepsiyen adasına yan alır. Səhər açılan kimi ispanlar ikinci kəşf edilmiş adaya çıxırlar, sonra isə indiki Lonq-Aylend adası sayılan Fernandina adasını kəşf edirlər. Hər bir yerdə də ispanları xoş məramla qonaqpərvərliklə qarşılayırlar. Gəmilərin göyərtələrinə qalxan hindular qonaqların verdikləri şəkər şirəsini içərək böyük ləzzət alırdılar. Çünki həmin dövrdə Amerika qitəsində şəkər çuğunduru əkilmirdi. Lonq-Aylend adasında avropalılar özləri üçün qamakı kəşf edirlər.

Kolumb açdığı hər bir adaya yaxınlaşaraq ayaq basırdı. Oktyabrın 27-də admiral hava qaranlığında dağlıq sahil görərək ertəsi günü səhər tezdən gül-çiçəklərlə dolu olan enli bir çayın mənsəbinə daxil olur. O, elə başa düşür ki, guya həmin ada Zipanqudur. Əgər bu elədirsə, orada möhtəşəm məbədlərin və sarayların binaları yerləşməliydi. Lakin bu adada belə bir nəhəng tikintilərdən heç bir əsər-əlamət yox idi. Adanın içərilərini tədqiq etməkdən ötrü, o, mərkəzə tərcüməçi Luis de Torresin başçılığı altında böyük bir dəstə göndərir. Həmin yürüşdə Torresi, vaxtı ilə Qvineyanın kralının yanında olmuş və belə bir missiyalarda böyük təcrübəsi olan Rodriqo de Xeres müşaiyət edirdi. Adanın tədqiqi vacib olduğu üçün Kolumb bir çox yerlərdə dəstələr göndərirdi. O, dəqiq bilmək istəyirdi ki, adanın hər hansı bir hissəsində hansı yaşayış məntəqələri yerləşir və həmin yaşayış məntəqələrində hansı tayfalar yaşayır. Halbuki tarixçilər qeyd edirlər ki, guya iri adalarda Böyük Çin xanını tapmaqdan ötrü admiral həmin yerlərə dəstələr göndərməyə məcbur olurdu.

Bütün bu axtarışlar matrosları əldən salırdı. Fürsətdən istifadə edən Martin Alonso Pinson noyabrın 22-də, özünə və komandası üçün böyük təhlükə yaradan axtarışlara başlamaqdan ötrü, *"Pinta"* gəmisi ilə gözdən itir. O, özü

müstəqil şəkildə Zipanquda və Çində olan qızıllara və zinət əşyalarına yiyələnəmək istəyirdi.

Kolumb məcburiyyət qarşısında qalaraq, Visente Yanyes Pinson ilə birlikdə iki gəmidə səyahətini davam etdirir və Kubanın şimal sahilinin ucqar şərq hissəsini arxada qoyaraq, dekabrın 8-də üfüqdə Haiti adasının sahili ilə üzləşir. Ertəsi günü admiral həmin adanı Espanyola adlandırır.

Dekabrın 16-da ispanlar yerli kasikin biri ilə əlaqə yaradanda, nəhayət Espanyola adasında qızıl tapmağa müvəffəq olurlar. Həmin qızıl əl boyda plastinkadan ibarət olur. Başqa yüksək rütbəli kasik *"Santa-Mariya"*ya təşrif buyuranda özü ilə bir qədər qızıl gətirərək, gəmidəki ispanlarla başqa əşyalara dəyişdirir. Kasiklərlə baş verən hər bir səhnəni Kolumb öz gündəliyində qeyd edərək, öz himayədarı üçün dürüst bir hesabat hazırlayırdı. Admiral gündəliyində, yerli hinduların Avropadan gələnlərə olan etimadından xüsusi ilə xəbər verərək, İspaniyada olan hakimlərə, ərazilərin necə asanlıqla işğal edilməsinin mümkünlüyünü bildirirdi. Hindular Kolumbu və onun dənizçilərini yuxarıdan gəlmiş elçilər kimi qəbul edir, avropalılar isə onlara, gələcəkdə özlərinin qulları kimi baxırdılar.

Dekabrın 24-də gecənin yarısı, Xuan de la Kosanın günahı ucbatından Espanyola adasının qarşısında *"Santa-Mariya"* gəmisi rifə düşərək qəzaya uğrayır. Səhər tezdən

gəmidə olan bütün ərzaq ehtiyatı, lazımlı tikinti materialları, silah və sursatlar sahilə çıxarılır. Kolumbun əmri ilə gəminin qalıqlarından La-Navidad fortu Yeni Dünya sahillərində ispanların ilk yaşayış məntəqəsi sayılırdı.

Fortda könüllü qalanların sayı gözlənildiyindən də artıq oldu. Onlar, ikinci ekspedisiya gələnə qədər burada qalıb özlərinə çoxlu qızıl toplamaq arzusunda idilər. Fortda 39 nəfər qalmaq üçün öz razılığını bildirdilər. Fortun komendantı Diyeqo Qarana təyin edilir. Qalanların arasında tərcüməçi Luis de Torres və öz missiyasını artıqlaması ilə yerinə yetirmiş katib Eskobeda (çünki bundan sonra ekspedisiya iştirakçıları, bu səyahət zamanı bir daha adalar kəşf etməyəcək və bir başa İspaniyaya yollanacaqlar.) da vardı.

1493-cü ilin yanvarın 4-də Kolumb La Navidad fortunu tərk edərək, İspaniya sahillərinə üz tutur. Dünya əhəmiyyətli kəşf nəinki monarxlara, hətta bütün ispan xalqına da çatdırmalı idi. Kolumb monarxların və öz himayədarlarının etimadlarını artıqlaması ilə doğrultmuşdu.

Admiral gəmisinin funksiyasını artıq *"Ninya"* yerinə yetirirdi. Yanvarın 6-da La Kobra adasının qarşısında *"Ninya"* gəmisi *"Pinta"* ilə rastlaşır. Alonso Pinson guya heç bir ciddi şey baş verməyərək, *"Ninya"* gəmisinə qalxır və Kolumbdan üzr istəyib, hadisənin könülsüz halda baş

verdiyini bildirir. Elə o, da qızıl tapdığını admirala xəbər verir. Arada baş verən bütün inciklikləro baxmayaraq, bir-biriləri ilə görüşdüklərindən, onlar daxildə olan sevinc hissini gizlədə bilmədilər. Çünki vətənə qayıtmaq üçün hər ikisinə yol yoldaşı lazım idi.




***Kolumbun ekspedisiyası Yeni Dünya sahillərini tərk edir***

Çərşənbə günü, yanvarın 16-da günəşin çıxmasına 3 saat qalmış admiral açıq dənizə çıxaraq, kursu nord - nord-ost (şimal - şimal-şərq) istiqamətinə tutur. Kolumbun gündəliyində göstərilir ki, fevralın 2-dən 3-nə keçən gecə gəmilər güclü küləyin təsirinə düşür, fevralın 4-dən 7-nə qədər isə gəmilərin sürəti 598 milə çatırdı. Səyahət zamanı bu ən böyük sürət sayılırdı.

Fevralın 12-də hava kəskin surətdə pisləşdi, iki gündən sonra isə külək *"Pinta"*nı başqa istiqamətə yönəldərək, gəmiləri bir-birindən ayırır. Gündəliyində aparılan qeydlərdən məlum olur ki, Kolumb özünü həlak olmuş hiss edir. Fevralın 15-də Azör adalarından biri olan Santa-Mariya görünür. Dörd gün dalbadal keçirdiyi yuxusuzluqdan sonra admiral fevralın 16-da gecə vaxtı yatmağa yollanır.

Yalnız fevralın 18-də tezdən *"Ninya"* gəmisi Santa-Mariya adasının şimal-şərqində yerləşən Nossa-Senyora-Duş-Anjuş məntəqəsində lövbər dayana bilir.

Həmin ada portuqallara məxsus olsa da, açıq okeanda təbii fəlakətlə mübarizə aparan ispanlar müvəqqəti olaraq orada sığınacaq tapırlar.

Adada portuqallarla baş verən balaca bir münaqişədən sonra Kolumb fevralın 24-də səyahətini davam etdirir. 250 mil şərq istiqamətində irəliləyəndən sonra okeanda yeni bir fırtına başlayır. Sanki təbii fəlakət ekspedisiya iştirakçıla-



***“Ninya” birinci səyahətdən qayıdır***

rını, ağır səyahəti başa vurmağa maneəçilik törədirdi. Martın 2-dən 3-nə keçən gecə, fırtına öz gücü ilə *“Ninya”*da olan bütün yelkənləri cırıq-cırıq edir. Nəhayət martın 4-də

Kolumb Lissabonun yerləşdiyi Teju çayının mənsəbinə daxil olur. Beləliklə, o, bir daha axırıncı illərin ən dəhşətli fırtınasından yaxa qurtara bilir.

Portuqaliyanın kralı II Juan ispan ekspedisiyanın uzaq səyahətdən qayıtdığını görən kimi, Kolumbu, Lissabondan 45 km. aralıda yerləşən müvəqqəti iqamətgahına dəvət edir. Həmin ərəfədə Lissabonda taun xəstəliyi tüğyan etdiyindən, kral Müqəddəs Xeyirxah Mariya monastırında sığınacaq tapmışdı. Vaxtı ilə Kolumbu Portuqaliyadan öz etirazı ilə uzaqlaşdıran II Juan, bu dəfə mərhəmətlə qarşılamalı olur. Atlantik okeanının qərb hissəsinə edilən səyahətin nəticələri ilə tanış olandan sonra Portuqaliyanın monarxı admirala izah edir ki, Portuqaliya ilə Kastiliya arasında 1479-cu ildə Alkasovasada bağlanan müqaviləyə əsasən, Kolumb tərəfindən kəşf edilmiş ərazilər, yuridik olaraq, portuqal taxt-tacına məxsusdur. Diplomatik bacarığa malik olan dəniz səyyahı krala bildirir ki, həmin müqavilə bağlanan zaman o, danışıqlarda iştirak etməmişdi. Lakin onun himayədarları Qvineya sahillərinə üzməyi qadağan qoyanda admiral həmin göstərişə əməl etmişdi. Məhz ondan sonra Kolumb İspaniyaya üz tutmuşdu. Görünür, o, bu sözləri rişxəndlə söylədiyindən əyanlar krala, Kolumbu məhv etməyi məsləhət görürlər. İspaniyanın monarxları ilə sıx dostluq əlaqəsində olan II Juan məğrur dəniz səyyahını

sağ-salamat öz iqamətgahından buraxır. Hətta Kolumb İspaniyaya yola düşməmişdən əvvəl bir dəfə də kralın yanına dəvət olunur. Təklikdə aparılan uzun söhbətdən sonra kral hinduları sorğu-suala tutaraq, onlardan nə qədər adaların kəşf edildiyini öyrənmək istəyir. Hinduların biri cavab verməkdən ötrü masanın üstündə qurulmuş lobyaları ovcuna götürərək, kralın qarşına tökür. Məhz ondan sonra portuqallar "Yeddi şəhər adası"ndan və Antiliyadan aparılan söhbətləri öz yaddaşlarından silirlər.

Martın 11-də Portuqaliyanın kralı Kolumb üçün vida audiyensiyası təşkil edir. Ertəsi günü isə ona, İspaniyaya quru yol ilə qayıtmaq təklifi barəsində, kralın göstərişi çatdırılır. Həmin təklifdə təhlükənin olduğunu hiss edən admiral, martın 13-də *"Ninya"* ilə Teju çayının mənsəbini tərk edərək, İspaniyaya yollanır. Martın 15-də Kolumb otuz iki həftəlik səyahətdən sonra, Rio-Tinto çayının mənsəbinə (Palos limanı həmin çayın mənsəbində yerləşirdi) daxil olur.

Elə həmin günü Martin Alonso Pinson da *"Pinta"* gəmisində Palosa yan alır. Lakin o, gözlənildiyindən də tez, fevral ayının sonunda İspaniyanın sahillərinə - Qalisiyanın Bayon limanına – çatmışdı. Hətta Pinson admiraldan da tez kəşf haqqında vermək üçün, monarxların əyləşdiyi saraya getmək istəyirdi. Lakin ona, müəyyən səbəblərə görə, bu

imkan verilmədi. Həmin etirazdan məyus olan Pinson bir aydan sonra sarsıntılar içində vəfat edir.

32 həftə davam edən ağır səyahət nətiəsində dünya əhəmiyyətli kəşf baş verir. Həqiqətən də qısa müddət ərzində bir çox coğrafiyaşünaslar, xəritəşünaslar, kosmoqraflar, tarixçilər və tərəqqipərvər ispanlar üçün xüsusi əhəmiyyət kəsb edən bir kəşf edilmiş və Yer kürəsində sayılan bir hissənin sirri dünya ictimaiyyətinə açıqlanmışdı.

Artıq Atlantik okeanının, təxmini olsa da, eni müəyyən edilmiş və Köhnə Dünya üçün nəhəng sayılan su hövzəsinin qərb hissəsində iri bir torpaq ərazisinin yerləşdiyi hamıya agah olmuşdu. Kolumb özü də bunun mahiyyətini dərk etmişdi, məhz buna görə də o, öz gündəliyini belə bir sətirlərlə yekunlaşdırmışdı: "Əlahəzrətlər, Sizin sarayınızda olarkən bu səyahətin cəfəngiyyat olduğunu bəyan edərək, baş tutmasına görə məmurlarınız tərəfindən çoxlu təzyiqlərə məruz qalmışdım. Lakin göydəki Allah özü möcüzə yaradaraq, həmin məmurların təzyiqinə tab gətirdim və səyahətə yollanıb İspaniya üçün uğur gətirdim. Mən əminəm ki, Allahın köməyi ilə bu səyahət xristian dünyasına böyük şan-şöhrət gətirəcək".

## Amerika qitəsinin kəşfi və həmin kəşf zamanı baş verən bir çox sirlərin üzə çıxarılması

Həmin kəşfi analiz etmək üçün bəzi məqamlara toxunmaq istəyirəm. Kolumbun başçılıq etdiyi ekspedisiyanın hansı məqsəd güddüyü barəsində bir çox ədəbiyyatlar var. Maraqlısı odur ki, bəziləri iddia edirlər ki, Kolumb 1492-ci ildə Asiya qitəsinə çatmaq məqsədini ümumiyyətlə, qarşısına qoymamışdır. Bu fərziyyənin nə dərəcədə düzgün olduğunu müəyyən etmək üçün ilk növbədə Kolumb ilə iki kral arasında bağlanan müqaviləyə nəzər salmaq lazımdır. O, nəzərdə tutduqları titulları və imtiyazları yalnız dünya əhəmiyyətli kəşfi həyata keçirəndən sonra İspaniyanın monarxlarından ala bilər. Yəni, həmin müqavilədə nəinki Asiya və yaxud onun hər hansı bir hissəsi, hətta orada heç bir coğrafi ad da göstərilməyib. Lakin bunun əsas səbəbini başqa bir şey ilə izah edirlər.

Roma papasının 1479-cu ildə Kastiliya və Portuqaliyanın arasında Yer kürəsini böləndə portuqal dənizçiləri Kanar adalarından cənub və şərq istiqamətində, Kastiliyanın dənizçiləri isə həmin coğrafi məntəqədən qərb və şimal istiqamətində ekspedisiyalar təşkil edirdilər. Belə olan halda Kastiliyanın monarxları Kolumb ilə bağlanan müqavilədə heç vaxt Asiyanın hər hansı bir hissəsinin adını

çəkə bilməzdilər. Ona görə ki, həmin qitənin demək olar ki, bütün ərazisi Portuqaliyanın nəzarəti altında idi. Lakin onu da qeyd etmək lazımdır ki, həmin müqavilədə yalnız Asiya qitəsindən söhbət gedə bilərdi. Ona görə ki, qədimdəki və orta əsrlərdəki təsəvvürlərə görə Avropadan qərb tərəfdə Atlantik okeanının o tayında yalnız Asiya qitəsi yerləşirdi. Yəni, Avropanın həm şərqində, həm də ki, qərb tərəfində Asiya qitəsinin ərazisi yerləşirdi. Məhz buna görə də Kolumb Kanar adalarının Yerro adasını tərk edən kimi ekspedisiyanın kursunu bir başa qərb istiqamətinə tutur. Bundan əlavə qeyd etmək lazımdır ki, tərəflər arasında bağlanan müqavilədə İspaniyadan yola düşəcək ekspedisiya okeanın o tayındakı torpaqlardan mirvari, qiymətli daşlar, qızıl, gümüş, ədviyyat malları... gətirməli idi. O vaxtki təsəvvürə görə yuxarıda adı çəkilən mallar yalnız "Hindistan"da olurdu.

İ. P. Magidoviç və V. İ. Magidoviçin **"Coğrafi kəşflərin tarixi oçerkləri"** əsərinin II cildində göstərilir ki, "ekspedisiyanın heyətinin təşkili əsasən hər hansı bir ölkənin işğal edilməsi üçün yaradılmamışdı, həmin heyət yalnız kəşf ediləcək ölkə ilə ticarət əlaqəsi yaratmaqdan ötrü təşkil edilmişdi. Kolumbun ekspedisiyası okeanın o tayında xristian olmayan ölkə ilə (müsəlman ölkəsi nəzərdə tutulur) ticarət əlaqəsi yaratmalı və mümkün dərəcədə bəzi

adaların mənimsəməsinə səy göstərməli idi. Artıq hələ əvvəlcədən bilmək olardı ki, az saylı ekipaj, ekspedisiyanın tərkibində peşəkar döyüşçülərin olmaması, silah-sursatın gəmilərin tərkibində zəif təşkil edilməsi ondan xəbər verir ki, həmin ekspedisiya böyük hərbi əməliyyatlar aparmayacaqdır. Bundan əlavə, Kolumbun təkidinə baxmayaraq, ekspedisiya qarşısına xristian dininin yayılması üçün təbliğat işlərinin aparılmasına məqsəd qoymamışdı. Ekspedisiyanın tərkibində ərəb dilini qismən bilən xristianlığı qəbul etmiş bir yəhudidən başqa, bir nəfər olsun belə nə rahib, nə də ki, monax yox idi".

Bir nüansa toxunmaq lap yerinə düşərdi, nə Brazil, nə də ki, Antiliya adalarında ərəb dili lazım idi. Lakin həmin dil müsəlmaların ümumi dili sayıldığına görə Şərqi Asiyda ispanlara lazım olacaqdı. Deməli, əvvəlcədən bilirdi ki, İspaniya monarxlarının və Kolumbun ümumi razılığına əsasən, həmin ekspedisiya yalnız Hindistana və ona yaxın olan bölgələrə gedib çatmağı nəzərdə tutmuşdu. Monarxların əsas istəyi, məhz Hindistanla ticarət əlaqəsi yaratmaq idi.

Rəsmi xronikalarda göstərilir ki, Kolumb birinci səyahətdən sonra (1493) xəbər verir ki, o, Avropadan qərb tərəfdə "Hindistanı" kəşf edib və oradan yerli əhali olan hindulardan bir neçəsini gətirib. Kolumb inanırdı ki, həmin

regionda olub, yəni onu hara göndərmişdilər və özü hara düşmək istəyirdisə məhz həmin yerə gedib çıxmışdır. Bu cür, birinci ekspedisiyanın təşkilatçıları və iştirakçıları fikirləşirdilər. Məhz bu səbəbdən tezliklə böyük bir ekspedisiyanın yaradılamsına bütün krallıq böyük səy göstərməyə başladılar. Həmin dövrdə spektiklər yox idi, onlar sonradan peyda olurlar.

İspanlardan fərqli olaraq, portuqallar şübhə edirdilər ki, Kolumb ümumiyyətlə, gedib Şərqi Asiyaya çıxıb. Bəzi alimlər Kolumbun getdiyi marşurutu təhlil edəndə inana bilmirdilər ki, Yer kürəsinin uzunluğu bu qədər qısadır. Lakin İspaniyanın özündə də təklikdə fəaliyyət göstərən skeptiklər vardı. Həmin illərdə Barselonada yaşamış, kral sarayına yaxın olan italyan humanisti Pyetro Martire (Əzablı Pyotr), öz yerliləri ilə yazışmalar aparırdı. 1493-cü ilin noyabrın 1-də yazdığı məktubda belə bir ifadələr var: “Kolon (Kolumb) adlı birisi özünün bildirdiyi kimi, Hindistan sahilinə qədər, qərb antipodlarının yanına gedib çıxıbdır. O, kosmoqrafların fikirləşdikləri kimi... Şərq okeanının o tayında Hindistana yaxın bir yerdə yerləşən çoxsaylı adalar kəşf edibdir. Mən bu haqda iddia aparmaq istəmirəm. Halbuki Yer kürsəninin ölçüsü başqa qənaətə gətirir çıxarır”.




***Paolo del Pottso Toskanelli (1397 – 1482)***

Deməli, X. Kolumb səyahətə yola düşməmişdən əvvəl və Paolo Toskanellinin Yer kürəsinin ölçüsü barəsində verdiyi hesabatlarının əksinə olaraq, Pyetro Martire tamam başqa fikirdə idi. Söz yox ki, astronomiya və coğrafiya elmləri ilə dərindən maraqlanan Kolumb da Paolo Toskanelli kimi yox, Pyetro Martire kimi fikirləşə bilərdi.

Mən özüm belə qənaətə gəlmişəm ki, Kolumb çətin ki, florentsiyalı alimin dedikləri ilə razılaşsın. Məşhur dəniz

səyyahı bu barədə ilk növbədə Yer kürəsi çevrəsinin uzunluğunun ölçüsü ilə razılaşa bilmirdi. Deməli, Asiya qitəsi bilavasitə, P. Toskanellinin fikirləşdiyi kimi Atlantik okeanında, Kanar adalarından qərb istiqamətində, 10000-12000 km. məsafədə yerləşirdi. Lakin Kolumb fərdi şəkildə hesablamalar aparmışdı ki, Atlantik okeanının qərb hissəsində yerləşən quru ərazi Avropadan təxminən 4500-5000 km. aralıdadır. Deməli, həmin torpaq Köhnə Dünyaya bəlli olmayan, tamamilə başqa bir torpaqdır. Dəniz səyyahı belə bir qənaətə təsadüf nəticəsində gəlməmişdir. O, Nəsirəddin Tusinin xəritəsini ələ keçirəndən sonra azərbaycanlı alimin fikirləri ilə tam şəkildə razılaşaraq, qərara almışdı ki, Atlantik okeanının qərb hissəsindəki torpaq Avropadan təxminən 4500-5000 km. aralıda yerləşir. Həmin məsafəni də ki, təxminən 30-35 gün müddətinə qət etmək olar.

İtalyan alim-humanist, kosmoqraf və astronom Paolo del Pottso Toskanelli (1397 – Florentsiya – 10 may 1482), humanist Nikkolo Nikkoli tərəfindən vətəndaşların ümumi istifadəsi üçün yaratdığı kitbxananın qoruyucusu və rəhbəri olmuşdu. Qədim və orta əsrlər kosmoqraflarının yaratdıqları əsərlərini öyrənir, Yer planetinin kürə şəklində olmasının tərəfdarı olub və Hindistana qərb yolu ilə gedib çatmağın ideyasını irəli sürmüşdü. Astronomik **“Alfonso**

**cədvəlini"** (XIII əsr) astrologiya elementlərinin təmizlənməsi və düzəlişini etmişdi. Toskanelli bir çox alimlərin gördükləri elmi işləri ilə tanış olsa da, o, müəmmalı səbəblərdən Yer kürəsinin ölçüsünü xeyli kiçiltmişdi. O vaxt florentsiyalı alim səhv edə bilərdi, çünki həmin dövrdə bu məsələ ilə məşğul olanların sayı çox az idi. Ona görə də Yer kürəsinin çevrəsinin uzunluğunu tapmaq çətin idi. Sonradan, yəni, 1525-ci ildə fransız milliyətindən olan cavan həkim, astronomiya elmi ilə dərindən maraqlanan Jan Fernel (1497-1558) Yer kürəsi çevrəsinin uzunluğunun dəqiq ölçüsünü tapandan sonra belə bir qənaətə gəlmək olar ki, Toskanellinin verdiyi hesabatlar tamamilə yanlışdır.

Şəxsən mən, bu cür səhvə görə heç vaxt Toskanelliyə bəraət qazandıra bilmərəm. Ona görə ki, o, 1474-cü ildə öz xəritəsini tərtib edəndə elementar səhvlərə yol vermişdi. Bir çox əsaslar vardı ki, Toskanelli həmin səhvlərə yol verməsin. Yunan alimi Eratosfen b.e. əvvəl III əsrdə, əsası b.e. əvvəl 332-ci ildə Makedoniyalı İsgəndər tərəfindən qoyulmuş, İsgəndəriyyə şəhərində yaşayıb yaratmışdı. Həmin şəhər başqa ölkələrdən bir çox alimləri və səyyahları özünə cəlb edirdi.

Eratosfenin hesablamalarına görə Yer kürəsinin dairə uzunluğu 43625 km-dir, Yerin radiusu isə 6943 km-dir. Söz yox ki, Kolumb bu məlumat ilə yaxından tanış idi. Kolumb



***Yunan alimi Eratosfen (təx. b.e.ə. 276-194)***

özü astronomiya elmi ilə dərindən maraqlandığına görə, əlbəttə, həm Eratosfenin, həm də Toskanellinin hesablamalarını nəzərə alaraq ümumi məxrəcə gəlmiş və hər bir şeyi özündə götür-qoy edəndən sonra uzaq səyahətə yola düşmüşdü. Entuazist dənizçi, Atlantik okeanının qərb hissəsində torpaq axtaran dənizçilərdən fərqli olaraq, təşkil edəcəyi səyahət zamanı yalnız uğur qazanmağı və bununla da adının bəşəriyyət tarixinin səhifələrində qızıl hərişlərlə yazılmasını planlaşdırırdı.




***Paolo Toskanellinin 1474-cü ildə tərtib etdiyi xəritə (Kremerin rekonstruksiyası)***

Yuxarıda göstərildiyi kimi fransalı Jan Fernel Yer kürəsi çüvrəsinin uzunluğunu 39816 km., Yerin radiusunu isə 6337 km. göstərmişdi.[1] Belə başa düşmək olar ki, Toskanelli bir astronom kimi böyük bir səhvə yol vermişdi. Çünki onun hesablamasına görə Yer çevrəsinin uzunluğunun ölçüsü təxminən 29000 km-dir. Mənim zənnimcə, Kolumb səyahətə yola düşməmişdən əvvəl təcrübəli bir şturman, astronom kimi N. Tusinin **"Zic Elxani"** əsərini tam olmasa da, müəyyən bir parçalarını oxuyub (astronomiya və coğrafiya elmi ilə dərindən maraqlanan alimlərin köməkliyi ilə), tanışlığı vardı.

Həmin dövrdə dünya əhəmiyyətli mühüm elmi əsərlər, xüsusən də astonomiyaya və Yer kürəsinin ölçülərinə dair yazılmış əsərlər, bütünlüklə olmasa da, lakin qismən tərcümə olunaraq, çox baha qiymətə, həmin sahə ilə maraqlanan alimlərə satılırdı. Dünya əhəmiyyətli ekspedisiyaya hazırlaşan Kolumb Azərbaycandan olan alimin nəinki **"Zic Elxani"** əsəri ilə, hətta onun tərtib etdiyi xəritə ilə də yaxından tanış idi və həmin xəritənin surətini göz bəbəyi kimi özü üçün qoruyub saxlayırdı. Çünki həmin xəritədə verilmiş torpaqların ölçüləri və konturları, ekspedisiyanın əldə edəcəyi nəticəyə böyük təsir göstərməli idi. Məhz bu

---

[1] О. Коротцев. Глобус, как измеряли землю. Ленинград, «Д.Л», 1980. стр. 312

səbəbdən o, florentsiyalı alimin hesabatı ilə razılaşmayaraq, yunan alimi Eratosfenin verdiyi ölçünü və Tusinin xəritəsindəki konturları əsas götürür. Bununla da, belə başa düşmək olar ki, Kolumb astronomiya elmini və dünya coğrafiyasını Toskanellinin özündən yaxşı dərk edibmiş.

Mənim söylədiyim hipoteza ciddi xarakter daşıyır. Deyək ki, Azərbaycandan olan alimin xəritəsi məxfi şəkildə Florentsiyanın kitabxanasında saxlanılırdı və həmin kitabxananın müdiri Paolo Toskanellinin özü idi. Mənə elə gəlir həmin material Toskanellinin vasitəsi ilə Kolumbun əlinə keçə bilməzdi. Baxmayaraq ki, onlar yaxın tanış idilər, ancaq alim həmin materialı heç kimə göstərməzdi. Lakin gün kimi aydındır ki, Kolumb həmin xəritədən okean keçidi zamanı istifadə etmişdi və maraqlısı odur ki, həmin xəritə onun əlinə necə keçibdir?

Tusinin xəritəsi Florentsiyanın kitabxanasında olduğu bir zaman onun **“Zic Elxani”** əsəri həmin kitabxanada ola bilməzdi? İşdir, Kolumb həmin əsər ilə tanış olubdursa, bəs onda həmin əsər onun əlinə necə keçə bilərdi? Bu sual həddindən artıq mürəkkəb olduğu üçün onun cavabı da bir o qədər mürəkkəbdir. Lakin, bu sualın mürəkkəbliyinə baxmayaraq, mən cavab verməyə çalışacağam.

Kolumb Tusinin tərtib etdiyi xəritəsi ilə tanış olduqdan sonra çox güman ki, o, azərbaycanlı alimin tərcümeyi halı

və həmin dövrdə hansı elmi işlərlə məşğul olması ilə maraqlanmağa başlayır. Həmin ərəfədə Kolumb yaxın Şərqə və İranla, Azərbaycana gedən tacirlərin və səfirlərin iş mahiyyəti ilə və oradan gətirdikləri təəsüratlarla, ən əsas isə həmin regiondan gətirilən elm adamlarının gördükləri əl işləri ilə maraqlanmamış olmazdı. Bu haqda başqa bir hipoteza da söyləmək olar. Tusinin xəritəsi Kolumbun əlinə keçəndən sonra o, bilavasitə həmin alimin dövrü fəaliyyəti və astronomiya, coğrafiya elmləri sahəsində gördüyü əl işləri ilə maraqlanmaq üçün, yuxarıda adı çəkilən bölgələrə yollanan tacirlərə və səfirlərə müəyyən sifarişlər edə bilərdi və bunun əsasında çox güman ki, **"Zic Elxani"** və **"Əxlaqi Nasiri"** əsərləri ilə tanışlığı yarana bilərdi. Bundan əlavə o, Tusinin fəaliyyəti ilə təkcə Florentsiyada və İtaliyanın başqa şəhərlərində maraqlanmamışdır. Bu fəaliyyətini Kolumb Portuqaliyada və İspaniyada olarkən davam etdirmişdir. Sirr deyil ki, həm Portuqaliyanın, həm də İspaniyanın iri şəhərlərində iri kitabxanalar və arxiv sənədləri saxlanılan inzibati binalar vardır. Hamıya da məlumdur ki, o, boş vaxtının əksəriyyətini, elmi və maraqlı kitabları oxumaqla keçirirdi. Lakin dəqiq bilinmir, həmin dövrdə Tusinin əsərləri İspaniyanın və Portuqaliyanın şəhərlərində olub, ya yox?

## Alonso Sançes de Uelva və Xristofor Kolumb

Roma papası IV Sikstin 1481-ci ildəki **"Aeterna Regis"** bullası qüvvəyə minəndən sonra, nəzəri olaraq Florida yarımadasının yarısı, Antil adaları, Meksika, Cənubi Amerika bütünlüklə Portuqaliyanın tabeliyinə keçir. Tarixçilər qeyd edirdilər ki, 1481-ci ilə qədər Amerika qitəsi portuqal dənizçiləri tərəfindən kəşf edilmiş və bu kəşfi münasib vaxta kimi gizlin saxlamağı lazım bilmişdilər. Bu fikri XVI əsrin bütün səlnaməçiləri – Bartolome de las Kasas, Fransisko Lopes de Qomara, Qonsalo Fernandes de Ovyedo-i-Valdes müdafiə edirdilər, peruan səlnaməçisi Qorsilaso de la Veqa (Estremaduralı idalqonun və ink şahzadəsinin oğlu), hətta portuqal şkiperi Alonso Sançes de Uelvanı həmin kəşfi həyata keçirən bir dənizçi kimi onun adını dəqiqliklə göstərir. Bundan əlavə Jorj Blon, Fransisko-de-Qomara Alonso və başqaları Uelvanın Kolumbla görüşdüyünü də bildirirlər.

Təxminən 1484-cü ildə Nyebla qraflığının Uelva məntəqəsindən olan Alonso Sançes Uelvalı sahibi olduğu böyük olmayan bir gəmisi ilə İspaniyadan Kanar adalarına müəyyən mallar daşıyırdı. Kanar adalarında meyvə doldurub Madeyraya aparır, oradan isə şəkər və mürəbbə yükü ilə İspaniyaya gedirdi. Belə bir üçkünc marşrutu ilə

üzən Alonso Sançes Kanar adalarından Madeyraya gedəndə, yolda gözlənilmədən şiddətli qasırğa ilə üzləşir. O, müqavimət göstərməkdə aciz olduğu üçün həmin qasırğanın əhatəsində, 28 və ya 29 gün getdiyini bilmədən... okeanda naməlum bir adaya yan alır. Güman edilir ki, bu indiki Santo-Dominqo adlandırılan ada idi. Kanar adalarında başlanan qasırğa (şərq küləyinin) solanonun istiqamətilə hərəkət etdiyindən və Santo-Dominqo həmin enlikdə yerləşdiyindən belə qənaətə gəlmək olur.[1]

Bir dəfə tale Portu-Santunun sahilinə qəzaya uğramış gəmini çıxarır. Bir neçə sağ qalmış dənizçinin arasında tamamilə zəifləyib əldən düşmüş şturman Kolumbun diqqətini özünə cəlb edir. Matrosun biri sayaqlamış vəziyyətdə aramsız mahnı oxuyan rəngarəng quşların mahnılarından, naməlum heyvanlardan və qaradərili adamlardan danışırdı. Gəmi isə qərbdən gəlib sahilə çırpılmışdı. Diqqətlə qulaq asan Xristofor Kolumb həmin an can verən şturmanı evinə aparmaq üçün göstəriş verir. O, bacardıq qədər şturmanın qulluğunda durur və onun adının Alonso Sançes de Uelva olduğunu öyrənir. Özünə gələn dənizçi başına gələn odisseyanı Kolumba danışır. Fırtına zamanı onlar Qaranlıq dənizində (həmin dövrdə Atlantik okeanını belə adlandırır-

---

[1] Горсиласо де ла Вега. Текст воспроизведен по изданию, История государства Инков. Л. «Наука». 1974. стр. 16-17

dılar – R. D.) azır və gəlib məftunedici bir adaya çıxırlar. Sançes öz xilaskarına xəritədə adanın harada olduğunu göstərir və ora getmək üçün hesablamaları verir.[1] Lakin həmin söhbətdən sonra Sançes dünyasını dəyişir. Sahilə yan alan o biri dənizçilər də qısa müddət ərzində vəfat edir, şturman isə Kolumbun evində ölür.[2]

Alonso Sançes de Uelvanın okeandakı macərası barəsində Peruan səlnaməçisi Qorsilaso de la Veqa qeyd edir ki, tarixçı Fransisko Lopes de Qomara **"Hindistanın ümumi tarixi"** əsərində tam olmasa da, lakin yığcam məlumat veribdir. İnk şahzadəsinin oğlu həmin yazıya dair belə bir irad bildirir: "De Qomara bu haqda sahildə gəzişən, Yeni Dünya sahillərində olmuş cəmiyyətin sıravi təbəqəsində - dənizçi və mülki şəxslərdən, özü isə Uelvanın qeyri-adi sərgüzəştləri ilə bağlı söhbətləri atasından və atasının yanında olmuş yüksək vəzifəli şəxslərdən, o cümlədən, saraya yaxın olan adamlardan eşitmişdir".

Belə bir tarixçəni ilk dəfə yepiskop Cozef Akosta danışıbdır. O, Peruda olarkən eşidir ki, hansısa bir matros okeanda baş verən güclü qasırğanın təzyiqi ilə gedib Yeni Dünya sahillərini kəşf etmiş və oradan Madeyraya gələndə Kolumbun ona göstərdiyi hörmətə görə, həmin hadisəni

[1] Жорж Блон, «Атлантический океан», стр. 15.

[2] Франциско-де-Гомара. «Общая история Индий», 1552 г., XIII глава, «Первая открытия Индии».

genuyalıya ərz etmişdi. Kolumb isə öz növbəsində bu barədə bir neçə yaxın adama, o cümlədən, saraydakı əyanlara danışmış və onlar da ekspedisiyanın təşkil edilməsində ona yardım göstərmişdilər.[1]

Yeni Dünya sahilləri kəşf ediləndə İspan monarxları tərəfindən Kolumba verilən vədlər həyata keçirilməliydi. Yola düşməzdən əvvəl, həddindən artıq böyük imtiyazlar istəmiş genuyalı dənizçiyə maneələr törətməyə başladılar. Yəni, nəticə etibari ilə Kolumb həmin imtiyazlara qismən sahib olur. Saraya yaxın olan adamlar, birinci səyahətdən sonra admiral titulu alan genuyalını monarxların gözündən salmaq üçün, ona qarşı intriqalar yaratmışdılar.

Amerikanın kəşfi ilə bağlı konkistadorlar arasında belə şayiə gəzirdi ki, guya oranı Alonso Sançes (Uelva – R.D.) adlı bir nəfər kəşf edibdir. Bu ona görə edilirdi ki, həmin dövrdə Kolumbun varisləri ilə Kastiliya taxt-tacı arasında vərəsəlik davası (1510-1550) gedirdi. Məhz bu səbəbdən kral məmurları okeanın o tayındakı ərazilərin kəşfini Kolumbun yox, tamamilə başqa bir nəfərin adı ilə bağlamağa çalışırdılar.[2]

---

[1] Горсиласо де ла Вега. Текст воспроизведен по изданию, История государства Инков. Л. «Наука». 1974. стр. 17-18.

[2] Путешествие Христофора Колумба. М., 1956. Свет Я. Колумб. 1973.



***Alonso Sançes de Uelva***

Xristofor Kolumba qarşı düşmənçilik mövqeyində duran tarixçilər iddia edirlər ki, ola bilsin, gücbəla ilə fəlakətdən qurtulan həmin şturman qərbdə olduğu üçün, II Juan həmin ərazilərin kəşf edilməsini məhz ona həvalə edəcək. Bundan ehtiyat edən Kolumb, bu məsələdə rəqib olmasın deyə, həmin adamı zərərsizləşdirir. Axı, necə olsa da Atlantikanın qərb hissəsində yerləşən ərazilərin tədqiq edilməsi ilə bağlı məhz genuyalının özü layihə hazırlamışdı.

Bu çox qərəzli fikirdir. Ona görə ki, həmin dənizçilər sahilə yan alanda Kolumbdan başqa orada çox adam olubdur və sorğu-suallar bir neçə adamın yanında aparılmışdı. Peruan salnaməçisi Qorsilaso de la Veqa, Fransisko Lopes de Qomara, Jorj Blon Uelvanın adını çəkməklə və onun Kolumbla görüşdüyünü qeyd etməklə, heç də məşhur dəniz səyyahının şərəf və ləyaqətini alçaltmaq istəməmişdilər. Sadəcə olaraq dolayısı yolla vurğulamaq istəmişdilər ki, genuyalı dənizçi gələcəkdə transatlantik səyahətini həyata keçirmək üçün guya Uelvadan lazımi məlumatlar almışdı. Əslinə isə qalanda Kolumb kimi dənizçilik sənətinə həm nəzəri, həm də praktik cəhətcə yiyələnən bir naviqator heç vaxt belə bir qeyri-ciddi, dəqiqləşdirilməmiş məlumata inanmazdı. Çünki o, əmin idi ki, özünün nəzərdə tutduğu iri torpaq ərazisi Madeyra adalarından həddindən artıq uzaqda yerləşir və həmin yerin koordinatlarını təxmini olsa da bilməyəndə, ora gedib çıxmaq mümkün deyil. Sadəcə olaraq Alonso Uelva bir qədər aralıda olan hansısa ada ilə üzləşə bilərdi – bu çox güman ki, Yaşıl Burun adalarından biri olardı.

Qəribəliklərlə dolu olan həmin iddia Kolumbun taleyinə qaranlıq gətirə bilməz. Ona görə ki, Qorsilaso de la Veqanın kitabında göstərilibdir ki, Alonso Sançes qasırğaya düşəndə 28-29 gün naməlum istiqamətində, elə qasırğanın

təsiri ilə üzmüş və çox güman ki, indiki Santo-Dominqo adasının sahilinə çıxmışdı. Belə bir dəqiqlik onda haradan ola bilərdi? Onda belə çıxır ki, qərb istiqamətində qovulan gəmi Qolfstrim cərəyanına düşmüş və çox asanlıqla da həmin cərəyanın caynağından qurtara bilmişdi? Bu nədənsə inandırıcı görünmür. Ona görə ki, belə olsaydı, onda Kolumbun birinci səyahətinə qədər portuqalların Atlantikanın qərb hissəsində yerləşən naməlum torpaq ərazisi çoxdan kəşf olunardı. Necə olsa da həmin torpağın aşkarlanması üçün portuqallar okeanın məhz həmin hissəsinə Voqadonun, Tellesin, van Olmenin və başqalarının başçılığı ilə ekspedisiyalar göndərilmiş və heç bir səyahət uğurla nəticələnməmişdi.

Böyük və Kiçik Antil adalarının qarşısında baryer rolunu oynayan Qolfstrim cərəyanı Atlantikanın şərqində gələn hər bir nabələd gəmini caynağına alıb, dolayısı yolla həmin nəqliyyat vasitəsini, aparıb Avropa sahillərinə çıxara bilərdi. Ona görə ki, həmin dövrdə okeana çıxan hər bir gəmi hərəkət edərkən, istər-istəməz kurs üzrə hərəkət edən cərəyana daxil olub və müəyyən bir məsafəni qət etmək üçün məhz okean çayının köməyindən istifadə edirdi. Deməli, Şimal Yarımkürəsində şərqdən qərb istiqamətində fəaliyyət göstərən Şimali-Passat cərəyanından istifadə edən hansısa bir kapitan tabeliyində olan gəmini tanımadığı

Karib dənizi akvatoriyasına aparıb çıxara bilməzdi. Çünki Şimali-Passat Atlantikanın həmin enliyində bir qədər şimala doğru qalxır və orada Qolfstrimlə birləşir.

Kolumb Madeyraya gələnə kimi artıq naviqasiya sahəsində böyük təcrübə əldə etmiş və cərəyanların sürəti və istiqaməti onun üçün prioritet məsələlərindən biri sayılırdı.

Əgər, verilən məlumatlara inansaydıq, yəni, Uelvanın məlumatı Kolumbun layihəsinə müsbət təsir göstərsəydi, onda genuyalı birinci səyahəti zamanı Avropa sahillərini tərk edən kimi ekvatora yaxın bir yerdə, elə Cənubi-Passat cərəyanı ilə birbaşa Cənubi Amerika sahillərinə gedib Braziliyanı kəşf edərdi. Bu, qərbdə yerləşən materiki kəşf etmək üçün ən asan yol sayılırdı. Həm də vaxtilə Qvineya sahillərində üzmüş Kolumb həmin cərəyanın mövcudluğundan hali idi.

Gəmiqayırma, naviqasiya, coğrafi biliklərin inkişaf edilməsi Böyük coğrafi kəşflərdə yüksək nailiyyətlərin əldə edilməsinə gətirib çıxarıbdır. Uzun məsafəli səyahətləri həyata keçirmək üçün təcrübəli və bacarıqlı dənizçilər lazım idi. Zamanına görə həmin kriteriyalar Kolumbda vardı. Çox güman ki, o, (Kolumb – R. D.) sistematik təhsil almış, müəyyən bacarıq keyfiyyətlərinin sayəsində hər şeyə maraq göstərən adam kimi, dövrünün coğrafi elminə

yiyələnmiş, xəritəşünaslıq və naviqasiyadan yaxşı başı çıxırdı... o, Portu-Santu adasında portuqal dənizçinin qızı ilə evlənmiş və qayınatasından miras qalan dəniz xəritələri və gündəliklərini əldə edir.[1]

Yəni, bildirmək istəyirəm ki, bir çox namizədlərə nisbətən Kolumb transatlantik səyahətinə ciddi-cəhdlə hazırlaşmış və bunu çox böyük uğurla həyata keçirmişdir. Onun Alonso Uelvanın köməyinə heç bir ehtiyacı yox idi. Çünki o, əvvəlcədən yəni, 1484-cü ilə qədər öz layihəsini hazırlamağa başlamış və orada düzəlişlər etmək fikrində də deyildi. Mən, **"Əsrləri qabaqlamış alim – Nəsirəddin Tusi"** əsərində bu haqda dürüst məlumat vermişəm və axıra qədər də həmin ideyanın üzərində duracağam, hansında ki, Kolumbun məhz Nəsirəddin Tusinin Marağa rəsədxanasında tərtib etdiyi **"Zic Elxani"** astronomik kataloqundan istifadə etdiyini cəsarətlə qeyd etmişəm.

Braziliyanın həqiqi kəşfini kənara qoyanda, yəni, indiki yanlış saydığım rəsmi xəbərlərə istinad etsəm, onda deyə bilərəm ki, həmin ərazinin ilkin kəşf edilməsi yenə də İspaniyanın payına düşür. Lakin fransız tarixçiləri zənn edirlər ki, 1488-ci ildə onların həmyerlisi Jan Kuzenin

[1] История средних веков. Абрамсон М. Л., Кириллова А. А., Колесницкий Н. Ф. и другие. Под редакцией Колесницкого Н. Ф. – 2-е издание. исп. и доп. – М., «Просвещение». 1986. 393 стр.

gəmisi fırtına zamanı təsadüf nəticəsində Braziliya sahillərinə yan alır. Əlbəttə buna inanmaq çox çətindir, ona görə ki, həmin dövrdə fransızların gəmiləri portuqalların və ispanların qorxusundan nəinki ekvator xəttinə yaxın bir yerə, ümumiyyətlə Afrikanın şimal-qərb sahillərinə yaxınlaşmırdılar.

Kabraldan əvvəl Braziliyanın kəşf edilməsi ideyasını müdafiə edən alimlər demək olar ki, iki yerə bölünübdür. Əksəriyyəti bildirir ki, Kolumb hələ birinci səyahətinə yola düşməmişdən bir neçə il əvvəl portuqalar Braziliya sahillərində peyda olublar, az bir qismi isə qeyd edirlər ki, həmin ərazi 1492-ci ildən sonra Lissabon rəsmilərinə məlum idi. Bunu araşdırmaq üçün mən, ilk növbədə Kolumbun Lissabonda olan fəaliyyətini önə gətirdim.

Hadisələrin gedişatı ondan xəbər verir ki, Kolumb birinci səyahətindən evinə dönəndən sonra portuqalları Braziliya sahillərinə getmək üçün silkələmişdi. Yəni, məhz Kolumbdan sonra kral II Juan məxfi ekspedisiyanın yola düşməsinə qərar verməli olmuşdu.

## Nəsirəddin Tusinin elmi fəaliyyəti və Marağa rəsədxanasında tərtib olunmuş xəritə

Tusi təfəkkürünün mühüm səciyyəvi əlaməti onun elmi dərinliyi ilə yanaşı həm də ensiklopedik səciyyə daşımasıdır. Bütün Şərq aləmində gördüyü elmi işlərə görə Tusi dahi alimlər Əbu Əli ibn Sina, Əbu Reyhan Biruni və Hamid Əl Xocəndi qədər məlum və məşhur alim olmuşdur.

Onun irsinin öyrənilməsində **"Kebricin İran tarixi"** (ingilis dilində) adlı çoxcildli ensiklopediyanın müəllifləri böyük əmək sərf emişdilər. B. Baylın (Mançestr universiteti), A. Bauzənin (Neapolun şərqşünasılq institutu), Y. Rıpkanın və başqa alimlərin məqalələrində Tusinin çoxcəhətli elmi fəaliyyətinə yüksək qiymət verilib, onun tərəfindən yaradılan Marağa rəsədxanasının elmi nailiyyətləri geniş işıqlandırılır.

Tusinin elmin bir çox sahələrində göstərdiyi elmi fəaliyyəti zəmanəsinin və ondan sonrakı dövrdə yaşayan aqil insanları heyran etmişdir. Marağada böyük elmi mərkəz yaradılandan sonra XIII əsrdə Suriya tarixçisi Bar-Ebrey həmin şəhərə köçür və alimin dövri fəaliyyəti ilə yaxından tanış olur. Bar-Ebreyin **"Ümumi tarix"** əsərindəki bir neçə cümlələri xüsusi ilə qeyd etmək istəyirəm. Marağa rəsədxanasındakı kitabxanasının elm və mədəniy-

yət sahəsində necə əhəmiyyətli rol oynadığını görən Suriya tarixçisi yazır: “Əlverişli şərait yarandığından mən Suriya, ərəb və fars dillərində yazılmış kitablarla zəngin olan Marağa kitabxanasında işləmək imkanı qazandım. Kitabxananın içərisindəki toplu həcminə görə Misirdəki İsgəndəriyyə kitabxanasından geri qalır, lakin oradakı elmi əsərlərin çoxluğu dünyanın hər bir kitabxanasını geridə qoya bilər.” Bar-Ebrey bir tarixçi kimi həqiqətən də həmin ocaqda özünə lazım olan, tarix elmi üçün hədsiz dərəcədə əhəmiyyətli sayılan sənədli və tarixi materiallar ilə tanış olmuşdur.

On il boyunca kitabxananın qoruyucusu və açarcısı olmuş İbn əl-Füvati **“Təzkirə mai qəsədə əl-rəsədxana”** adlı əsərində minlərlə yerli və əcnəbi alimlərin, mütəxəssislərin adını əks etdirib. Həmin fundamental əsərin müxtəsər variantı dövrümüzə qədər gəlib çıxmışdır. Əsərdə indiyə qədər naməlum olan neçə böyük azərbaycanlı alimin adı çəkilir...

Tusi Hülaku xanın nüfuzundan istifadə edərək, rəsədxanada çalışan alimlər üçün zəngin kitabxana düzəltmişdi. Sahəsi 330 kv. metrə bərabər olan kitabxanada 400 min əlyazma vardı. Əlyazmaların əksəriyyəti Azərbaycanda, yerdə qalan hissəsi isə ölkə hüdudlarından kənarda yazılmışdı. Marağa kitabxanası Yaxın Şərqdə yerləşən ən

böyük kitabxanalardan biri sayılır və orada saxlanılan əlyazmaların əksəriyyətinin öz tarixçəsi var idi. Ona görə ki, əsərlərin müəllifləri dünya elminə və mədəniyyətinə xidmət etmiş, tarix qarşısında öz çəkisi olan müdrik, kamil və aqil insanlar idi.

Kitabxananın sahəsinə şübhə ilə yanaşan Bayram Rzayev yazır ki: "...Qazıntılar zamanı məlum olub ki, bu qədər kitab (400 min əlyazma – R. D.) kitabxanaya yerləşə bilməzdi. Yəqin ki, kitabların bir qismi də əsas binada saxlanılırmış.

Kitabxananın fəaliyyəti haqqında yazan Təbatəbai göstərirdi ki, kitabxana Əbu Səidxan Elxaninin dövründə də fəaliyyət göstərmişdi."[1]

Hülaku xanın qoşunlarının, ətrafda yerləşən ölkələrin şəhərlərinə edilən işğalçılıq yürüşlərdən bir çox mədəniyyət, incəsənət abidələri, elm mərkəzləri bərbad vəziyyətə düşürdü. Tusi belə bir ağır və təhlükəli vəziyyətdə sinəsini irəli verərək, həmin abidələrin və sənət əsərlərinin məhv olunmasının qarşısını almış və dünya mədəniyyəti üçün qiymətli sayılan sərvətləri Azərbaycana gətizdirərək, onların təhlükəsizliyini təmin etmişdir. Məhz bu səbəbdən Marağada belə bir zəngin kitabxana yaranmış, şəxsən

---

[1] B. Rzayev Bəşəri düha: Mühəmməd ibn Mühəmməd ibn Həsən – Nəsirəddin Tusi (XI) "ADPU nəşriyyatı", Bakı, 2014. səh. 69.

Tusinin 100-dən çox əsəri orada saxlanılmışdı. Rəsədxanada çalışan alimlərin əksəriyyəti, bir elmi mənbə kimi onun əsərlərindən istifadə etmişdilər.

Çin, Hindistan, Ərəb ölkələri, Monqolustan və Avropadan gələn alimlər burada geniş elmi iş aparırdılar.

Akademik Ziya Bünyadov Tusinin elmi-irsini araşdırarkən, alim barəsində belə bir fikirlər söyləmişdir: "Məşhur Marağa rəsədxanasının və və nəhəng elmi kitabxanasının yaradılması Nəsir əd-Din Tusinin adı ilə bağlıdır və yalnız bu fəaliyyəti onu ölməzliyə qovuşdurmuşdur.

Nəsir əd-Dinin çoxəhatəli elmi yaradıcılığı, astronomiya, həndəsə, triqonometriya və başqa dəqiq elmlərə həsr edilmiş çoxsaylı əsərləri, onun adını hələ Avropada elm yenicə inkişafa başladığı zaman artıq məşhur etmişdi.

Nəsir əd-Din Tusi elmin hərəkətverici böyük zəkalarından biri olmuşdur. Orta əsr elminin bir çox klassik sahələri onun nailiyyətidir".[1]

Renessans mədəniyyətini yalnız onun vətəni sayılan İtaliya (XIV-XVI əsrlərdə) və ya Avropaya (XV-XVI, hətta XVII əsrlərdə) aid edən baxış Şərqi bu prosesdən kənarda qoymağa çalışaraq, onun Qərb mədəniyyətindən gerililiyi,

---

[1] A. Rzayev. Nəsirəddin Tusi həyatı, elmi, dünya görüşü. Bakı, "İrşad" İslam araşdırmaları mərkəzi, 1996. səh. 4.

bununla da “Avropa mərkəzçiliyini” təsdiq etməyə cəhd göstərir.

Şərq Renessansı məsələsi Qərb alimləri arasında əsasən bu baxımdan mübahisə törədir ki, İslam Şərqində yaranan mədəniyyət Renessans mədəniyyətini səciyyələndirən əsas əlamətlərin heç də hamısına cavab vermir.

Lakin əvvəla, bu baxışı Qərbin heç də bütün şərqşünasları müdafiə etmir. Məşhur İsveçrə şərqşünası Adam Mets IX-X əsrlər İslam mədəniyyətinin tədqiqinə həsr etdiyi əsərini **“Müsəlman Renessansı”** adlandırmaqla, İslam aləmində “İntibah” adlandırılan bu mədəniyyətin Qərbdən xeyli əvvəl meydana gəldiyinə işarə edir...

İtaliya və bütövlükdə Avropa Ressansının ən səciyyəvi əlamətlərdən biri kimi həmin İtaliyanın özündə də qədim Yunanıstanda quldarlıq dövründə formalaşmış antik mədəniyyətə müraciət mühüm yer tutur. Bu baxımdan Şərq Qərbi xeyli qabaqlamış, artıq VIII-XII əsrlərdə Çində, habelə Hindistan və İranda, XII-XIII əsrlərdə Azərbaycanda güclü humanist fəlsəfə və ədəbiyyat yaranmış dünyəvi elm, o cümlədən astronomiya, riyaziyyat, minerologiya və başqa təbiət elmləri sahəsində Tusinin gətirdiyi mühüm yeniliklər özünü göstərir...

**“İslam astronomiyasının inkişafında Marağa rəsədxanasının rolu: “Renessansa qədər elmi inqilab”** əsəri-

nin müəllifi Kolumbiya universitetinin (ABŞ) alimi C. Saliba qeyd etmişdi ki, XX əsrin 50-ci illərinə qədər şərq astronomlarına olan belə bir münasibət, əsasən məqsədəuyğun sayılırdı. Ona görə ki, həmin dövrə qədər praktiki olaraq, XIII əsrdə Marağa şəhərində (İranın Şərqi Azərbaycan hissəsi) yaradılan "Marağa məktəbinin" nümayəndələrinə məxsus olan elmi əsərləri məlum deyildi. Alim haqlı olaraq qeyd edir ki, yarıməsrə yaxın "Marağa məktəbinin" fəaliyyətinə dair aparılan tədqiqat işlərindən belə nəticəyə gəlmək olar ki, ümumiyyətlə ərəb dövründəki astronomiyanın inkişafında "arxivarius" stereotipindən əl çəkmək lazımdır.

Bundan əlavə 1957-ci ildə amerikan alimi V. Roberts göstərmişdi ki, şərq astronomlarının təqdim etdikləri Kainatın modeli Kopernikin təqdim etdiyi modelinə böyük təkan vermişdi.

"Marağa inqilabına" dair həsr olunan çoxsaylı məqalələrin müəllifləri bildirirlər ki, Kopernik tərəfindən elmi inqilabı həyata keçirilməsində bəşəriyyət marağalıların fəaliyyətinə borcludur. Kopernikin, Marağa rəsədxanasının elmi irsinin öyrənilməsində heç bir şübhə yoxdur. Qətiyyətlə bildirmək lazımdır ki, Polşa alimi Marağa rəsədxanasının "ən yaxşı, istedadlı nümayəndəsi sayılır".

Söz yox ki, bu cür dünya şöhrətli alim Qərbdə yaşayan alimlərin, filosofların, mütəfəkkirlərin və ziyalıların diqqətindən kənar qala bilməzdi. Çünki azərbaycanlı alimin səsi-sorağı və şanı-şöhrəti orta əsrlərdə dillər əzbəri idi və onun elmi fəaliyyəti Çindən tutmuş ta ki, Avropa ölkələrinə kimi müzakirə obyektinə çevrilmişdir. Hələ orta əsrlərdə Avropanın iri kitabxanalarında onun haqqında lazımi qədər məlumatlar vardır. Deməli, bir çox kitabxanalarda qabaqcıl alimlərin əsərləri ilə maraqlanan Kolumb Tusinin də dövrü fəaliyyətini diqqət mərkəzində saxlamış olardı. Çox güman ki, onun əsərlərindən bir neçəsi italyan tacirlərinin vasitəsi ilə Apennin yarımadasına gətirilərək, müəyyən kitabxanalara satılmışdır. Nikkolo Nikkolininin yaratdığı kitabxana nəinki Florentsiyada, hətta bütün İtaliyada məşhur kitabxana sayıldığına görə, Tusinin əsərləri tacirlərdən pul ilə alınaraq orada saxlanılırdı.

Tusi açıqdan-açığa Köhnə Dünyanın qərb istiqamətində iri bir torpağın yerləşdiyini bilirdi. İkincisi Toskanelli həmin torpağın Asiya qitəsi olduğunu başa düşür. Ondan fərqli olaraq Kolumb yəqin edir ki, Atlantik okeanının o tayındakı ərazi Asiya qitəsi yox, məhz Köhnə Dünyaya məlum olmayan nəhəng bir torpaqdır.

Tusinin kəşfləri bir çox dünya alimlərini heyran etmişdir. Jurnalist-tədqiqatçı Oqtay Eldəgəzin tarixi qaynaqlara

istinad edərək, Tusi haqqında yazdığı məqalədən bir parçanı qeyd etmək istəyirəm... İ. Nyutonu və məşhur dünya astronomlarını dörd yüz il qabaqlamış azərbaycanlı alim sübut etmişdir ki, dənizlərdə və okeanlarda baş verən qabarma və çəkilmələr heç də təbiətin kor-koranə şıltaqlığı olmayıb, məhz Ayın çəpəki hərəkətindən və Yerin qütblərdəki batıqlığından irəli gələn vaxtaşırı, yəni il ərzində 24 dəfə özünü göstərən cazibə sıxılmasının sonuncu kimi özünü biruzə verir.

Tusi su-quru qovuşmalarını dahiyanə şəkildə önə çəkərək, qabarma və çəkilmələrin iç dənizlərdəki vüsəti və cizgiləriylə okeanlar daxilində gücü və sərhədləri arasındakı məsafə fərqlərini hesablamaqla insanlara, hələ məlum olmayan torpaqların mövcudluğunu qabaqcadan xəbər vermişdir.[1]

Marağa alimləri tapdılar ki, okean və dənizlərdə baş verən fırtınalar, qasırğalar və sunamilər heç də küləklərin, tufanların törəməsi yox, tam əksər hallarda Ay dövriyyəsinin fəsadlarıdır. Bu kəşflər gələcəkdə bir çox dəniz səyyahlarının işlərinə xeyli köməklik göstərmişdir. Elə Amerika sahillərinə birinci səyahət zamanı Kolumbun naviqasiyadan bir çox sələflərindən peşəkarcasına istifadə etməsi, ondan xəbər verirdi ki, o, bilavasitə azərbaycanlı

[1] Eldəgəz O. 2000-ci il avqustun 31., "168 saat" qəzeti,

alimin bir çox elmi işləri ilə tanış idi və onu dənizçilik praktikasında böyük bir ustalıqla tətbiq edərək, özünün məşhur səyahətində böyük müvəffəqiyyət qazanmışdır.

## Venetsiyalı səyyah Marko Polo və Nəsirəddin Tusinin məşhur xəritəsi

Dahi alimin vəfatından sonra o biriləri kimi, Mun-Çi də vətəni Çinə, Nankin şəhərinə qayıtmışdı. Azərbaycanda apardığı elmi tədqiqatlarla bölüşən Mun-Çi az zamanda nəinki yaşadığı əyalətdə, hətta imperator sarayında da böyük hörmətlə tanınır. Elmin bütün sahələrinə diqqətlə fikir verən Çin imperatoru Xubilay xan (1256-1295) cavan alimin gördüyü işlərlə tanış olur və ona fəaliyyətini davam etdirmək üçün yaxşı şərait yaradır. Mun-Çi vəfat edəndən sonra onun demək olar ki, əksəriyyət işləri eksponat kimi kitabxanalarda saxlanılır.

1272-ci ildə Çinə gələn Marko Polo, imperatorun sarayında astroloq işləmiş italyan milliyyətindən olan Aysenin təklifi ilə Xubilay xanın səfiri işləmişdir. Başqa-

larına nisbətən Venetsiyadan gələn tacir Çinin bir çox əyalətlərinə gediş-gəlişi vardı. Marko Polo hər şeydən əvvəl xüsusi əhəmiyyət kəsb edən Avropa bazarlarında həddindən artıq qiymətli sayılan əşyaları alıb aparmağı özü üçün məqsəd qoymuşdu. Hər bir əşyaya diqqətlə nəzər salan tacir Nankində olarkən, onun diqqətini Azərbaycandan gətirilmiş xəritə cəlb edir. Əlbəttə, həmin xəritə İtaliyada çıxan adi xəritələr kimi deyildi.

O zaman Venetsiyada yayılan xəritələrin əksəriyyəti Apennin və Pireney yarımadasının xəritələri idi. Burada isə birbaşa zolağının konturları verilirdi. Marko Polo çox yaxşı bilirdi ki, həmin xəritəni Çinə astronomiya üzrə alim sayılan Fao Mun-Çi gətiribdir. Çünki Çin imperatorunun yanında böyük hörməti olan Ayse Çində yaşayan alimlərin əksəriyyətini və dövlət məmurlarını Marko Poloya təqdim etmişdi ki, onlar haqqında venetsiyalı tacirin, heç olmasa azacıq anlayışı olsun. Çox güman ki, onun Çin alimi Fao Mun-Çi ilə də tanışlığı olubdur və alimdən Marağa rəsədxanasında görülən dünya əhəmiyyətli elmi-tədqiqat işlərindən müəyyən məlumat toplamışdı. Əgər alim Marağa rəsədxanasında işləyibdirsə, deməli həmin xəritə, bilavasitə astronomiya və riyaziyyat elmi üzrə dahi alim sayılan Nəsirəddin Tusinin iştirakı ilə tərtib edilmişdir. İş ondadır ki, Tusinin gördüyü dünya əhəmiyyətli kəşfləri gəlib Çinə

çatmışdır. Bununla yanaşı Azərbaycandan olan alimin adı nəinki Çindəki alimlər arasında, hətta imperator sarayında xidmət edən əyanların arasında da məşhur idi.

Elə Nankində o, Marağa xəritəsini görüb onu əldə edir. Lakin dəqiq bilinmirdi həmin xəritə orijinaldır, yoxsa dublikat? Bütün bunlara baxmayaraq mənə elə gəlir, məhz Fao Mun-Çidə olan orijinal nüsxə Çində yoxa çıxmış və həmin xəritə əvvəl Venetsiyada, sonra Genuyada, daha sonra isə Florentsiyada peyda olaraq, xəritəşünasların, coğrafiyaşünasların və ya sərgüzəşt axtaranların əlinə keçmişdir.

Azərbaycanda bir çox alimlər iddia edirlər ki, Tusi tərəfindən Marağa rəsədxanasında tərtib olunan xəritə Marko Polo tərəfindən Çində alınandan sonra İtaliyaya aparılır. Ümumiyyətlə, professorlar Həbibulla Məmmədbəyli, Elbrus Alizadə, Eybali Mehrəliyev, Nizaməddin Allahverdiyev və başqaları Kolumb Amerikanı kəşf edərkən, Tusinin xəritəsindən istifadə etdiyini dəfələrlə bəyan ediblər və əlbəttə ki, həmin nəzəriyyəni elmi əsaslarla sübut etməyə çalışıblar.

Mən belə bir qənaətə gəldim ki, həmin xəritə, İtalyan humanisti Nikolo Nikkolinin şəhər icimaiyyətinin geniş istifadəsi üçün Florensiyada yaratdığı kitabxanaya düşə bilərdi. Pololar nəslinin şəxsi əmlakı sayılan həmin xəritə

istifadəsiz qalmasın deyə, şəhər kitabxanasına verilməsi mümkün idi.

Əlbəttə, mənim söylədiyim hepotiza ciddi xarakter daşıyır. Tusinin xəritəsi Florensiyanın kitabxanasında olduğu bir zaman, onun **"Zic Elxani"** əsəri həmin kitabxanada ola bilərdi. İşdir, Kolumb həmin əsərlə tanış olubdursa, bəs onda həmin əsər onun əlinə necə keçə bilərdi? Bu sual həddindən artıq mürəkkəb olduğu üçün onun cavabı da bir o qədər mürəkkəbdir. Lakin bu sualın mürəkkəbliyinə baxmayaraq, mən cavab verməyə cəhd göstərəcəyəm.

Həmin ərəfədə Kolumb Yaxın Şərqə, İrana, Azərbaycana gedən tacirlərin oradan gətirdikləri təəssüratlarla, ən əsas isə həmin regiondan gətirilən elm adamlarının gördükləri əl işləri ilə maraqlanmamış olmazdı.

Bu haqda başqa bir hepoteza da söyləmək olar. Tusinin xəritəsi Kolumbun əlinə keçəndən sonra o, bilavasitə həmin alimin dövrü fəaliyyəti və astronomiya, coğrafiya elmləri sahəsində gördüyü əl işləri ilə maraqlanmaq üçün, yuxarıda adı çəkilən bölgələrə yollanan tacirlərə və səfirlərə müəyyən sifarişlər edə bilərdi və bunun əsasında çox güman ki, **"Zic Elxani"** əsəri ilə tanışlığı yaranardı. Bundan əlavə o, Tusinin fəaliyyəti ilə təkcə Florensiyada və ya İtaliyanın başqa şəhərlərində maraqlanmamışdır.

Bu fəaliyyətini Kolumb Portuqaliyada və İspaniyada olarkən davam etdirə bilərdi. Sirr deyil ki, həm Portuqaliyanın, həm də İspaniyanın iri şəhərlərində böyük kitabxanalar və arxiv sənədləri saxlanılan inzibati binalar vardı. Lakin həmin dövrdə Tusinin əsərlərinin həmin ölkələrin şəhərlərində olub-olmadığı məlum deyil.

İngiltərə, İrlandiya, İslandiya, Afrikanın Qvineya sahillərində və Madeyra adalarında üzən Kolumb üçün Tusinin xəritəsi və **"Zic Elxani"** coğrafi koordinatlar cədvəli xüsusi əhəmiyyət kəsb edirdi. Ona görə ki, orada çəkilən sahil zolağı onun üçün böyük bir yenilik sayılırdı və səyahət həvəsində olan bir dənizçiyə ekspedisiyaya yollanmağa böyük bir stimul yaradırdı. Kolumb nəyin bahasına olursa-olsun, həmin sahili axtarıb aşkarlamaq əzmində idi. Əgər həmin sahil ekspedisiya zamanı həqiqətən də Atlantik okeanının həmin hissəsində aşkarlansa, onda Tusi bütün dünyanın fenomenal bir alim kimi tanınar. Sonrakı illərdə həmin sahil zolağı həqiqətən də kəşf edilir, lakin Kolumb şəxsi ambisiyasına görə bəşəriyyət üçün lazımlı olan həqiqəti gizlətməli olur.

Mənim fikrimcə Kolumb Tusinin **"Zic Elxani"** koordinatlar cədvəlini və tərtib etdiyi xəritəni ələ keçirəndən sonra Azərbaycan aliminin fikirləri ilə tam şəkildə razılaşaraq, əmin olmuşdu ki, Atlantik okeanının qərb hissəisndəki

torpaq Avropadan təxminən 4500-5000 km. aralıda yerləşir. Həmin məsafəni də ki, 30-35 gün müddətinə qət etmək olar.

İllər keçdikcə, Marko Polonun yazdığı **"Səyahətnamə"** kitabı öz mahiyyətini yavaş-yavaş itirməyə başlayırdı. Ona görə ki, onun kitabında yazılan bütün faktlar ciddi xarakter daşımır və rəqəmlər həddindən artıq şişirdilmişdir. Mənim verdiyim ifadələri şübhə altına almamaqdan ötrü mən bir neçə tarixi fakt sadalamaq istəyirəm. Marko Polo Genuya həbsxanasından çıxandan səkkiz il sonra, 1307-ci ildə öz kitabının nüsxəsini Venetsiyada səfir işləyən fransız cəngavəri Tibo de Sepuaya bağışlayır. Fransız cəngavəri öz işini Venetsiyada başa çatdırandan sonra vətəninə qayıdır. Həmin kitabı Fransada köçürüb yaymağa başlayırlar və **"Səyahətnamə"** müzakirə obyektinə çevrilir. Lakin sonradan məlum olur ki, kitabın içərisindəkilər səhvlərlə doludur. Polonun yazdığı kitabın materialları başqa müəlliflər tərəfindən yazılan kitablarında istifadə olunurdu. Məsələn, Boduenin romanında Markonun yazdığı kitabdan birbaşa parçalar verilibdir.

Yalnız bir qədər keçəndən sonra səyahətçinin kitabı coğrafiyaşünasların əlinə keçir. Marko Polonun ölümündən 200 il keçəndən sonra səyahətçinin tərcümeyi-halı yazılır. Həmin tərcümeyi-halı Venetsiyada onluq şurasının katibi,

coğrafiyaşünas Ramuzino yazmışdır. O, Marko Polonun kitabını fransız dilindən italyan dilinə tərcümə edir və həmin əsəri **"Quruda və dənizdə olan səyahətlər"** adlı toplusunun ikinci cildinə daxil edir.

1320-ci ildə Marino böyuk – Sanudonun yazdığı **"Xaça sitayiş edənlərin sirli kitabı"** əsərində, yeni səlib yürüşünün başlanması üçün xəritə verilmişdir. Həmin xəritədə Avropanın, Suriyanın, Kiçik Asiyanın, Ərəbistanın təsvirləri real şəkildə vermişdir. Çox güman ki, o, Marko Polonun tərtib etdiyi xəritədən istifadə etmişdir. Venetsiyalı səyyah Gürcüstanın, Dərbəndin, Çinin yerlərini xəritədə düzgün vermişdir.

1375-ci ildə Portuolono Mediçinin tərtib etdiyi xəritə işıq üzü görür. Həmin xəritədə Marko Polonun səyahət etdiyi ölkələr və həmin ölkələrə dair verdiyi məlumatlara əsasən tərtib edilmişdir. Ölkələrin adları venetsiyalı səyyahın yazdığı kitabından götürülmüşdür, lakin buna baxmayaraq, həmin coğrafi adların yerləri səhv verilmişdir. Həmin xəritədə artıq Sumatra Kiçik Yava adı altında, Benqaliya Seylon və sairə vacib coğrafi məntəqələr göstərilibdir.

Şərqdəki ölkələr maraq dairəsini əhatə etdiyinə görə, Portuqaliyanın şahzadəsi Pedro 1426-cı ildə şəxsən özü Venetsiyada Marko Polonun kitabını axtarmışdır.

XV əsrdə Portuqaliyanın və İspaniyanın gəmiləri Atlantik okeanını fəth etməyə başlayanda Marko Polonun yazdığı kitab o qədər məşhurlaşdı ki, həmin kitab **“Böyük xan haqqında roman”** adı altında çıxaraq, maraqlananlar üçün sənədli material funksiyasını yerinə yetirməyə başladı.

Viktor Şklovskinin **“Torpağın kəşfiyyatçısı”** tarixi povestində yazır ki, “Xristofor Kolumb birinci səyahət zamanı İspaniyanın sahillərini tərk edəndə, onun kapitan kayutunda Marko Polonun **“Səyahətnamə”** kitabı da vardı və həmin kitab məşhur dəniz səyyahı üçün kompas və xəritə rolunu onayırdı”. Göründüyü kimi Kolumb venetsiyalı səyyahın kitabı ilə dərindən maraqlanmışdı. Çox güman ki, o, Marko Polonun Çindən gətirdiyi bütün sənədli materialları ilə tanış olmuşdu. Məhz təsadüf nəticəsində Kolumb venetsiyalı səyyahın gətirdiyi materialları arasında Nəsirəddin Tusinin Marağa rəsədxanasında tərtib etdiyi xəritə ilə üzləşmişdi. Həmin xəritə isə təyin olunduğu kimi, Kolumbun əlinə, yalnız Paolo Toskanellinin başçılıq etdiyi Florentsiyanın kitabxanasında keçmişdir.

Viktor Şklovskinin verdiyi ifadəsinin əksi olaraq mən xüsusi ilə qeyd etmək istəyirəm ki, Kolumb İspaniyanın sahillərini tərk edib Yeni Dünya sahillərinə yola düşərkən, onun kayutunda başqa materiallarla yanaşı olaraq, Tusinin tərtib etdiyi xəritə əsas yer tutmuşdu və həmin xəritə

səyahət zamanı məşhur dəniz səyyahı üçün kompas rolunu oynamışdı. Çünki məhz həmin xəritədə göstərilmişdir ki, Atlantik okeanın qərb hissəsindəki iri bir torpaq ərazisi Köhnə Dünya üçün məlum olmayan qitədir. Kolumb da bu əsas amili çox yaxşı dərk etmişdi.

Bu yerdə mən bir vacib haşiyə də vermək istəyirəm. Marko Polo Çində olarkən və Xubilay xanın yanında işləyərkən bu ölkənin dünya mədəniyyətinin və elminin inkişafında necə müstəsna rol oynadığını öyrənməyə başlayır. Xüsusən də onu Çinin şərq və cənub sərhədlərindən aralıda yerləşən ölkələr maraqlandırırdı. Avropanın həmin ölkələr barəsində heç bir xəbəri olmadığı halda, Çin bilavasitə qonşu ölkələrə donanma vasitəsi ilə ekspedisiyalar göndərərək, özü üçün münasib əlaqələr yaradırdı.

## Kolumbun sirri nədən ibarət idi?

Çox güman ki, çin səyyahları orta əsrlərdə daimi olaraq, Seylon, Tayvan, Filippin, İndoneziya adalarına, Malakka yarımadasına, Hindistana, Birmaya, Tailanda, Kampuçiya-

ya, Ərəbistan dənizi sahillərinə və hətta Afrikanın şərq sahilinə kimi gedib gəlirdilər. Kompası kəşf edən çinlilər həmin naviqasiya alətindən istifadə edərək, dənizlərdə yerləşən yaxın adalara yollanmaq üçün çətinlik çəkməzdilər.

Tarixi qaynaqlarda göstərilir ki, orta əsrlərdə ən möhtəşəm səyahəti, Çin imperatorunun səlahiyyətli nümayəndəsi Çjey Xenin (başqa transkripsiyada Çen Xo) başçılıq etdiyi, ekspedisiya təşkil etmişdi. O, heyəti 27 min olan – dənizçilər, əsgərlər, naviqatorlar, xəritəşünaslar – 317 gəminin təşkil etdiyi bir donanmaya başçılıq edərək, nəzərdə tutulan səyahəti müvəffəqiyyətlə həyata keçirmişdir.

XV əsrdə Çində istehsal olunan conkalar, Avropa ölkələrində istehsal olunan gəmilərdən ölçüsünə görə çox böyük, dənizçilik keyfiyyətlərinə görə isə çox yaxşı idi. Çin naviqatorları və xəritəşünasları peşəkar səviyyəyə çatmışdılar. Çjey Xenin başçılıq etdiyi ekspedisiya Cənubi-Şərqi Asiyanı, Hind-Çin yarımadasını, Malay arxipelaqının adalarını tədqiq etmişdi. Bir çox tarixçilər bildirirlər ki, ekspedisiyanın bəzi kəşfiyyat gəmiləri çox güman ki, Avstraliyanın şimal-qərb sahilinə də gedib çıxmışdılar.

Rudolf Balandin **"100 böyük coğrafi kəşflər"** kitabında **"Orta əsrlərin ən uzun müddətli səyahəti"** adlı fəsilində yazır: "Donanma Hind okeanına daxil olan kimi İndostanı, Fars körfəzini, Ərəbistan yarımadasını qət edərək, Afrika-

nın şərq sahili ilə keçmişdir. Çox güman ki, onlar Ümid burnunu da qət etmişdilər... iş ondadır ki, 1420-ci ildə tərtib edilmiş çin xəritəsində Afrikanın cənub qərb sahili demək olar ki, dəqiq şəkildə göstərilib.

1405-ci ildən 1433-cü ilə qədər Çjey Xe yeddi böyük səyahəti həyata keçirmişdi".

Məhz Çjey Xenin səyəsinə görə, hələ erkən vaxtı Avropada yaşayanlar Asiya qitəsində yerləşən mühüm coğrafi məntəqələrin harada yerləşdiklərindən hali olmuşdular. Elə Hind okeanında sərbəst halda üzən ərəb dənizçiləri onun səyahətləri zamanı tərtib edilmiş xəritələrdən istifadə etmişdilər. Şübhə yox ki, həmin xəritələrdən bir neçəsi, uzun müddət Çində işləmiş Marko Polonun vasitəsi ilə Apennin yarımadasına gətirilmiş və orada mütəxssislərin diqqətinə səbəb olmuşdu.

Yuxarıda qeyd edildiyi kimi Tusinin xəritəsi Toskanellidən əlavə Kolumbun da əlinə keçmişdi və hər ikisi həmin mühüm sənədi nəzərdən keçirərək, müxtəlif qərarlar çıxarmağa müvəffəq olmuşdular. Tusi tərtib etdiyi xəritədə təxmini olsa da göstərmişdir ki, Atlantik okeanının o tayındakı qitə hansı tərəfdə yerləşir. Toskanelli də bunun əsasında özünün xəritəsini tərtib etməyə nail olmuşdu. Lakin bir alim kimi o, azərbaycanlı alimin bir çox fikirləri ilə razılaşmamışdı. Tusinin xəritəsinə əsasən, 4500-5000

km. qərb istiqamətində göstərildiyi halda, Toskanelli qəti qərara gəlmişdi ki, həmin torpaq Asiya qitəsinin şərq hissəsidir və Köhnə Dünya sahillərindən 10000-12000 km. qərbdə yerləşir. O, belə fikirə əsaslanırdı ki, bir çox alimlərin iddia etdikləri kimi Yer planetində üç qitədən başqa bir nəhəng torpaq ərazisi ola bilməzdi. Lakin Tusinin hesablamalarına görə Avropadan qərb tərəfdə Şərqi Asiya-ya çatmamış naməlum iri torpaq yerləşir və Yerin başlanğıc meridianını da həmin qitənin ucqar şərq sahilindən götürür.

Florentsiyalı kosmoqraf Tusinin xəritəsini nəzərdən keçirən zaman elə başa düşmüşdü ki, Atlantik okeanının qərb hissəsində göstərilən torpaq yalnız Asiya qitəsinin bir hissəsi ola bilər. Məhz buna görə də o, Marağa rəsədxanasında tərtib edilmiş xəritədəki hesabatlarla razılaşmayaraq, belə qərara gəlmişdi ki, Yer kürə şəkilində olduğuna görə, Avropanı şərq istiqamətində qoyub qərb istiqamətində yola düşərkən, okeanda iri bir torpaq ərazisi peyda olanda, həmin torpağın Asiya qitəsinin bir parçası olduğunu başa düşmək çətin olmayacaq.

Toskanelli XV əsrin sonuna qədər yaşamış bir çox alimlərin iddia etdikləri kimi bildirirdi ki, Yer kürəsində üç qitədən başqa bir qitə mövcud ola bilməz. Əgər, dördüncü qitə mövcud olsaydı, onda onu çətinlik çəkmədən florent-siyalı kosmoqrafın yaşadığı dövrə qədər kəşf edib dünya

ictimaiyyəti üçün aşkarlayardılar. Deməli, Avropa qitəsindən qərb istiqamətində Atlantik okeanında yalnız Asiya qitəsinin şərq hissəsi yerləşə bilərdi. Həm də o, belə bir qənaətə gəlmişdi ki, iri bir torpaq ərazisi səyahətə yollanan dənizçilərin qarşısına, təxminən 10000-12000 km-lik məsafə qət ediləndən sonra peyda ola bilər.[1]

Bütün bunları nəzərə alan Kolumb Marağa xəritəsinin köməyi ilə belə qərara gəlmişdi ki, Atlantikadakı torpağı 5000 km-dən başlamış ta ki, 10000 km. məsafəni qət edəndən sonra kəşf etmək olar. Lakin Kolumb heç kimə bildirmir ki, okeanda yerləşən torpaq Köhnə Dünyaya məlum olmayan bir ərazidir. O, əvvəldən axıra kimi Toskanellinin ideyasını – Atlantik okeanının qərb hissəsində Asiya qitəsinin şərq hissəsi olmasını – müdafiə edir.

Bir çox alimlər qeyd edirlər ki, elə məşhur dəniz səyyahını çaşdıran həmin məsafə olub. Çünki florentsiyalı alim dürüst şəkildə bildirmişdir ki, həmin məsafəni qərb istiqamətində qət etməklə gedib Asiya qitəsinə çıxmaq olar. Məhz buna görə də Kolumb birinci səyahəti başa çatdırandan sonra Avropaya qayıdaraq, hamıya bəyan edir ki, o, həqiqətən də Atlantik okeanının o tayında Asiya qitəsi ilə üzləşibdir. Elə rəsmi xronikalarda bildirilir ki, Kolumb

[1] R. Qasımov. Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi. Bakı, "Çaşıoğlu", 2002. səh. 130-131

Yeni Dünya sahillərinə dörd dəfə səyahət edib – 1492-1493, 1493-1496, 1498-1500, 1502-1504-cü illərdə - və həmişə də elə bilib ki, üzləşdiyi torpaq Asiya qitəsidir. Belə bir ifadələrə demək olar ki, bütün qaynaqlarda rast gəlmək olar.

Mən isə bunun əksini fikirləşirəm. İndi çalışacağam ki, bunu mərhələ-mərhələ sübuta yetirim.

Kolumb elə birinci səyahət zamanı bilirdi ki, qarşısındakı torpaq naməlum bir ərazidir.

Bununla yanaşı artıq tarixşünaslıqda (görünür, XVI əsrdən) başqa bir "skeptik" (şübhəli) konsepsiya mövcuddur. Onun əsasını belə bir fikir təşkil edir – Kolumb 3 avqust 1492-cü ildə yola düşəndə, artıq Asiyaya aid olmayan, Atlantikanın o biri tayında torpaqlar barəsində dəqiq məlumatlar əldə etmişdi. XX əsrin xarici kolumbistikasında amerikalı A. Vinyo, argentinalı Romulo Karbia, fransız M. Andre, son zamanlar isə ispan R. Balyester Eskalas bu, konsepsiyanın tərəfdarı kimi çıxış edirdilər.[1]

Hamı çox yaxşı bilir ki, birinci səyahət zamanı İspaniyadan yola düşmüş ekspedisiya iştirakçıları Yeni Dünya sahillərinə çatana yaxın gəmilərdə qiyam qaldırmağa cəhd göstərirlər. Səyahət vaxtının çox uzandığını görən komanda

---

[1] В. Л. Афанасьев. Текст воспроизведен по изданию: Бартоломе де Лас Касас. История Индии. Ленинград, «Наука», 1968. стр. 18

tələb edir ki, Kolumb kursu geriyə, İspaniyaya döndərsin. Çünki nəzərdə tutulan məsafə artıq qət edilmişdi, amma torpaq hələ də görünmürdü.

Öz işində dəqiqliyi sevən ekspedisiya rəisi kayutunda məxfi saxladığı xəritəni nəzərdən keçirəndən sonra bütün komandaya bildirir ki, qərb istiqamətində hərəkəti davam etdirmək üçün ona üç gün vaxt versinlər. İşdir, üç gün müddətinə torpaq görünməsə, onda ekspedisiya kursu geriyə döndərəcək. Lakin Kolumb bu möhləti komandadan istəməmişdən əvvəl hamıya bildirir ki, bir aydan çoxdur onlar okean sularında üzürlər. İspaniyaya qayıtmaq üçün ekspedisiya iştirakçıları okeanda bir o qədər də vaxt itirəcəklər. Salamatı isə səyahəti davam etdirməkdir. Lakin bütün bu xəbərdarlığa baxmayaraq, Kolumb çox yaxşı bilirdi ki, okeanın o tayındakı torpaq yaxın günlərdə üfüqdə görsənməlidir.

Mən inana bilmirəm ki, hansısa bir dəniz səyyahı çətin bir vəziyyətdə qiyam qaldırmağa cəhd edən komandaya bildirsin ki, qarşıdakı torpaq üç gündən sonra peyda olacaq. Halbuki Kolumba qədər heç bir adam həmin sularda üzməmişdir. Nə qədər olsa da, ekspedisiya rəisinin komandadan istədiyi möhlətin 26 saatı keçmişdi ki, 1492-ci il oktyabrın 12-də beşinci günü gecə saat 2-də *"Pinta"* gəmisinin gözətçi matrosu Rodriqo de Triana Baham ada-

ları sisteminə daxil olan Quanahini adasını (indiki qaynaqlarda Uotlinq və ya Vatlinq adası) görərək – "torpaq", "torpaq" – deyə qışqırır və bununla da coğrafi kəşflər sahəsində böyük inqilab edir. Həmin gündən etibarən Dünyanın dördüncü qitəsi "Yeni Dünya" kəşf edilir.

Coğrafi kəşflər sahəsində böyük inqilab edən Kolumb öz mərdliyi, qorxmazlığı, bacarığı və biliyi sayəsində dördüncü qitənin varlığını Dünyaya bəyan etmişdir. Böyük tarixi hadisəyə səbəb olan həmin kəşf, okeanların və dənizlərin admiralının adı ilə bağlı olsa da, dördüncü qitə zəmanəsinin ən böyük avantüristi olan Ameriqo Vespuççinin adına adlanır. Halbuki o vaxt İspaniyada, Portuqaliyada və Avropanın başqa ölkələrində yaşayan tərəqqipərvər insanlar, coğrafiyaşünaslar, xəritəşünaslar və tarixçilər dördüncü qitəni, ədalət naminə bu işdə ağır zəhmət çəkən, ömrünün böyük bir hissəsini bu işə həsr edən bir adamın adını əbədiləşdirməkdən ötrü, "Kolumbiya" adlandırmalıydılar.

Antikolumbçular bildirirlər ki, o, təsadüf nəticəsində Yeni Dünya sahillərini kəşf edib və həmin torpağı Asiya qitəsi ilə səhv salır. Əlbəttə, bu cür fikir ilə razılaşmaq mümkün deyil. Ekspedisiyanın komandanı qiyam qaldırmağa cəhd edən zaman tələblərini Kolumba verəndə o, heyətdən üç gün yox, beş gün, bir həftə, iki həftə, hətta üç

həftə də vaxt istəyə bilərdi. Halbuki ekspedisiya rəisi üç gün vaxt istəməklə kifayətlənir. Deməli, belə qənaətə gəlmək olar ki, Kolumb hara getdiyini çox yaxşı bilirdi. Məşhur dəniz səyyahı Baham adalarına çatan zaman dəqiq deyə bilmərəm, ancaq təxminən 6000 km-ə qədər yol qət etmişdi. Toskanellinin xəritəsinə əsasən ekspedisiya iştirakçıları minimum 10000 km. – Zipanqu -, maksimum isə 12000 km. – Çin – məsafəni qət etməli idilər. Deməli, Kolumb Toskanellinin xəritəsi ilə yox, yalnız sərbəst halda hərəkət etmişdi, belə olan halda o, heç vaxt düşünə bilməzdi ki, qarşısındakı torpaq Asiya qitəsidir. Lakin ekspedisiyanın bütün iştirakçıları elə bilirdilər ki, oktyabrın 12-də kəşf edilən ada Zipanqunun bir hissəsidir.

Bir məsələyə toxunmaq lap yerinə düşərdi. Mən qiyamın baş verdiyi hadisəni diqqətlə araşdırandan sonra bir neçə müəmma xarakteri daşıyan sirrin açılmasına nail olmuşam. Artıq dəqiq məlumdur ki, qiyam oktyabr ayının 10-da mütəşəkkil surətdə qaldırılmışdır. Söz yox ki, həmin qiyamı, özünü admirala və gəmidə olan kral məmurlarına büruzə vermədən bir adam idarə edirdi. O da ki, kapitan Martin Alonso Pinson idi.

Artıq ayın 7-də şimaldan cənuba doğru quşların böyük bir dəstəsi uçurdu. Hər bir təcrübəli dənizçi üçün gün kimi aydın idi ki, haradasa yaxınlıqda torpaq olmalıdır. Elə

Pinson da qarşıda yaxın bir yerdə torpaq olduğuna əmin idi və çox gözəl bilirdi ki, iki – üç günə Kolumb naməlum torpaq ilə üzləşəcək. Belə olan halda həmin torpağın kəşfi Genuyadan gəlmiş bir dənizçinin adı ilə bağlı olacaq. Kapitan Alonso Pinsonun məqsədi-məramı tamamilə aydın idi. O, istəyirdi ki, öz vətənində böyük şan-şöhrət sahibi olsun deyə, bütün İspaniyada diqqətlə izlənən həmin səyahətin uğuru onun adı ilə bağlansın. Artıq okeanın bu hissəsinin müəyyən coğrafi koordinatları *"Pinta"*nın kapitanına bəlli idi və o, növbəti səyahət zamanı çətinlik çəkmədən Atlantik okeanının qərb hissəsində yerləşən naməlum torpaq ərazisini kəşf edəcək.

Məhz buna görə də ekspedisiyanın uğurla nəticələnməsinə az qalmış Pinson öz köməkçiləri ilə dənizçiləri qızışdıraraq, Kolumbun üstünə qaldırmağa müvəffəq olur. Lakin o, ağlına belə gətirə bilməzdi ki, əcnəbi bir kapitan ispan dənizçilərinin göstərdikləri hədə-qorxusuna tab gətirəcək, hələ üstəlikcə də həmin səyahətin davam etdirilməsi üçün, ehtirasları coşmuş, qəzəb içində olan komandadan üç gün möhlət istəyəcək. Hiddət içində olan heyət Kolumbun şərti ilə razılaşanda, Alonso Pinson özünün məğlub olduğunu dərk edir.

Quanahini adası kəşf ediləndə Kolumb sahilə çıxır və orada yarıçılpaq adamlarla üzləşir. O, gündəliyində qeyd

edir ki, aborigenlər sifətlərini və bədənlərini boyalarla rəngləyirlər. Onlar dəmir silahlardan məhrumdurlar və ümumiyyətlə, dəmirin nə olduğunu anlamırdılar. Kolumb aborigenlərə qılıncını göstərəndə, hindular ehtiyatsızlıq ucbatından ülgücündə, barmaqlarını kəsirdilər. Hindu tayfası aravaklar sivil həyatdan tamamilə uzaq idilər. O vaxtı hamı çox yaxşı bilirdi ki, Toskanellinin adladırdığı Zipanqu ölkəsi dəmirdən hazırlanmış yüksək keyfiyyətli samuray qılıncları ilə məşhurdur. Bundan əlavə Quanahini adasında yaşayan aborigenlərin dərisi Zipanquda yaşayanların dərisindən xeyli fərqlənirdi. Bütün bu fərqləri öz-özlüyündə yaxşı dərk edən Kolumb heç vaxt Quanahini adasını Zipanqunun bir hissəsi kimi hiss edə bilməzdi. Ondan sonra o, bütün şübhələri özündən rədd etmək üçün səyahətini davam etdirir və Espanyola ilə Kuba adalarını kəşf edir. Elə həmin vaxtı Kolumb qəti qərara gəlir ki, həmin adaların nə Zipanqu, nə Çin, nə də ki, Hindistan ilə heç bir əlaqəsi yoxdur.

Çox güman ki, belə bir tərzdə təkzib verilə bilər: Əgər, Kolumb həmin torpağı kəşf edibsə deməli, o, bilavasitə həmin torpağın varisi sayılırdı. İspaniya kralı ilə dəniz səyyahı arasında bağlanan müqavilədə həmin maddə xüsusi ilə qeyd edilibdir. Onun kəşf etdiyi torpağı heç kim yuridik yol ilə mənimsəyə bilməzdi. Deməli, admiralın həmin kəşfi

gizlətməyinin başqa səbəbi vardı? Bu ondan xəbər verir ki, Kolumb kəşf etdiyi torpaqların həqiqətən də Asiya qitəsinin ərazisi olduğunu güman edib. Yoxsa, admiral dərhal öz tələblərini irəli sürərdi. Bu haqda ətraflı məlumatı mən bir qədər aşağıda söyləyəcəyəm.

## Xristofor Kolumbun ikinci səyahəti

Kolumb Yeni Dünya sahillərinə təşkil olunan ekspedisiyaların monapoliyasını öz əlində saxlamaqla yanaşı, həmin ekspedisiyaların təşkil olunması üçün ispan taxt-tacından yeni-yeni subsidiyalar alırdı. İspaniyada monarxlar onun məmurları admiraldan ədviyyat malları və qızıl külçələri gözləyirlər. O, isə vətənə qayıdanda yalnız az miqdarda qiymətli metaldan gətirmişdi. İspaniyanın hakim dairələri belə bir nəticə ilə heç cürə razılaşa bilmirdilər. Lakin admiral istəsəydi xeyli çəkidə qiymətli metal gətirmək imkanına malik idi. Bu bir növ dəniz səyyahının öz günahı sayılırdı. Birinci səyahət zamanı Kolumb qan tökməyin qəti əleyhinə idi. O, bu qətiyyətli addımı ata bilsəydi, hindulara

qan uddura-uddura materikin içərilərinə girib yerli əhalidən çoxlu qızıl toplaya bilərdi.

Yalnız ikinci səyahət zamanı admiral qətiyyətsiz halda, aborigenlərin kor-təbii qırılmasına rəvac vermişdir. Lakin bəhrəsini başqa idalqolar görürdülər. Elə ondan sonra gələn dəniz səyyahları da ixtiyarlarında olan əsgərlərinə qarətə və talana əl atmaq üçün aborigenləri qırmağa icazə vermişdilər. Məhz qarət və talanın sayəsinə həmin səyyahların əksəriyyəti xeyli var-dövlət toplamışdılar. İşdir, Kolumb, həmin üsula əl ataraq İspaniyaya külli-miqdarda qızıl gətirsəydi, bəlkə də İspaniyanın hakim dairələri elə bilərdilər ki, genuyalı səyyah həqiqətən də Hindistana və Asiyanın şərqdə yerləşən başqa ölkələrinə gedib çıxıbdır.

Unutmaq lazım deyil ki, elə birinci səyahət zamanı Kolumbun İspaniyada kifayət qədər düşmənləri vardı, daha doğrusu onun işinə paxıllıq edənlər. Artıq İspaniyanın qədim zadəgan ailəsindən olan kübar adamlar dəqiq bilirdilər ki, əcnəbi bir dənizçi ispan monarxları tərəfindən təşkil edilən ekspedisiyanı uğur zirvəsinə çatdırandan sonra yeni torpaqların hakimi təyin olunacaq. Hamıya da bəlli idi ki, İspaniyanın hüdudlarından kənarda yerləşən torpaqların hakimi vəzifəsi, təxmini olaraq İspaniyanın kralı kimi hədsiz dərəcədə böyük səlahiyyətlərə və imtiyazlara malik idi. Köklü, əsli-nəcabətli olan kübar təbəqənin nümayən-

dələri xoşluqla barışa bilməzdilər ki, əcnəbi bir adam belə bir vəzifənin sahibi olsun. Hələ üstəgəl həmin vəzifə nəsildən-nəsilə həmin nəslin nümayəndələrinə keçməli idi.

Kolumbun elə birinci səyahət zamanı İspaniyanın dəniz donanmasında belə bir yüksək vəzifəyə qalxması və ispan qrandları səviyyəsinə qaldırılması, yalnız özünün dost-tanışları qarşısında, nüfuzunun aşağı düşməsinə gətirib çıxarırdı. Bu yüksəliş nəinki admiralın sağlığında, hətta ölümündən sonra da onun nüfuzuna xələl gətirmişdi. Məhz bu səbəbdən Kolumbun dünya əhəmiyyətli kəşflərinin üstündən xətt çəkmək üçün hamı, onun coğrafi kəşflər sahəsində böyük səhv buraxdığını bəyan etməyə başladılar. Həmin səhv isə bildiyiniz kimi səyyahın özünün bilərəkdən buraxdığı səhv idi – yəni, Yeni Dünya sahillərini Asiya qitəsi ilə səhv salması.

“Bilərəkdən buraxdığı səhv” dedikdə çoxları mənim bu ifadəmə şübhə ilə yanaşacaqlar. Halbuki yuxarıda bir neçə faktları sadalamaq ilə mən onun həmin “tarixi” səhvinin bilərəkdən olduğunu sübuta yetirmişəm və bundan sonra da sübuta yetirməyə hazıram.

Kolumbun Yeni Dünya sahillərinə təşkil etdiyi dörd ekspedisiyanın hər biri, biri-birindən fərqlənir. Əsas qaynaqlarda yalnız birinci ekspedisiya barəsində ətraflı məlumatlar verilir. Bu dəfə mən ikinci ekspedisiyanın,

səyahət boyu naməlum torpaqda üzləşdiyi bəzi məqamlarını qeyd edəcəyəm.

Birinci səyahət başa çatandan sonra Ferdinand Araqonlu ilə İzabella Kastiliyalı Barselonada, genuyalı səyyaha böyük ziyafət təşkil edərək onu öz taxt-taclarının yanında əyləşdirilər. Həmin ziyafətdən sonra Kolumb monarxlarla yanaşı sarayda yaşamağa başlayır. Monarxlar ona 1492-ci ildə verdikləri bütün imtiyazları və hüquqlarını təsdiq edirlər. 1493-cü il mayın 29-da yazılan instruksiyada don Kristoval Kolon (Kolumb) admiral, kəşf edilən torpaqların və materiklərin vitse-kralı və hakimi kimi çağırılmağa başlanır. Hətta elə olurdu ki, bəzi diplomatik məsələlərdə kral ilə kraliça, siyasətdən yaxşı başı çıxan dəniz səyyahından məsləhətlər alırdılar. Kolumbun şanı-şöhrəti bütün İspaniyaya yayılırdı. İspaniyada birinci şəxs və kral sarayında ən nüfuzlu adam sayılan Toledonun arxiyepiskopu admiralı günorta yeməyinə dəvət edərək, ona ən varlı ziyafət təşkil etmişdi.

Həmin vaxt Kolumb monarxlar tərəfindən, künclərdə kastiliya qəsri, leon şiri, adalar və lövbər şəkilləri çəkilmiş, şəxsi gerbini də alır. Qardaşları Bartolomeonu və Diyeqonu – kiçik qardaşı Cakomonu admiral Genuyadan çağırtdırır – “caballeros” ranqına qaldırırlar və həmin andan sonra onların adlarının qarşısına “Don” sözü qoyulurdu.



***Birinci səyahətdən qayıdandan sonra Kolumb İspan monarxlarının qəbulunda***

Tərəddüd edilmədən ikinci ekspedisiyanın təşkilinə icazə verilir. Ekspedisiyanın hazırlanması işlərinə, xoşxasiyyət xarakterli Seviliyanın arxidiakonu Xuan de Fonseka başçılıq edirdi. Həmin vaxtı o, doğrudan da möcüzə yaradır. Heyəti 1400-1500 nəfər olan 17 gəmi təşkil edir. Bu həqiqətən də əsl armadanı xatırladırdı. Armadanın tərkibin-

də 3 nao və 14 karavella (onların bəziləri su tutumuna görə kantabriya barkaları adlanırdılar) vardı.

Kolumb əcnəbi komandor kimi birinci səyahət zamanı ispan dənizçilərinin müqaviməti ilə rastlaşmışdı və həmin vaxtı onları razılığa gətirə bilmişdi. Hazırda isə onunla Yeni Dünya sahillərinə yüzlərlə ispan idalqoları yollanırdılar və şübhə yox ki, admiral onların nazı ilə istədiyi kimi oynaya bilməyəcək. Belə olan halda o, kəşf olunmuş torpaqlarda həddindən artıq böyük çətinliklərlə üzləşəcək. Ümumiyyətlə, bu səyahət ispan monarxları üçün siyasi məqsəd sayılırdı. Rekonkista hərəkatı (1492) İspaniyada başa çatandan sonra müharibədə öz qəhrəmanlıqları ilə fərqlənən idalqolar el arasında böyük hörmətə malik idilər və məğrurluqlarını hakim dairələrdən belə gizlətmirdilər. Onlar İspaniyada çox qalsalar, monarxlar tərəfindən adi narazılıqlarla üzləşsələr, onda çox güman ki, böyük və basılmaz bir ittifaq yarada bilərlər. Bu vəziyyətdən çıxış yolu tapmaq, monarxların mütləqiyyətinin möhkəmlənməsinə gətirib çıxarır. İspan mütləqiyyəti üçün çıxış yolunu Kolumb Yeni Dünya sahillərini kəşf etməklə tapmışdı. Məğrur və qorxmaz idalqolar yeni torpaqları işğal etmək üçün İspaniyanı tərk etməli olurdular.

Ən böyük gəmi sayılan *“Mariya-Qalant”*da (su tutumu 200 ton) Kolumb admiral bayrağını qaldırır və armada

1493-cü ilin sentyabrın 25-də Kadis limanını tərk edir. Bartolomeo Kolumb Fransadan vaxtında qayıda bilmədiyinə görə Kolumb kiçik qardaşı Diyeqo ilə səyahətə yollanır. Ekspedisiyada o, ən çox, elə Diyeqonun özünə etibar edirdi.



***Kolumbun kiçik qardaşı Diyeqo Kolon***

Həmin ekpedisiyanın bəzi üzvləri öz fəaliyyətləri ilə gələcəkdə bütün dünyada xeyli məşhurlaşırlar – gələcəyin dəniz səyyahları Alonso de Oxeda və Ponse de Leon, Poerto-Santa-Mariyadan olan xəritəşünas Xuan de la Kosa, salnaməçilər Seviliyadan olan həkim Diyeqo Alvares Çanka və Genuyanın yaxınlığındakı Savonadan olan Mikele Kuneo. Monarxlardan biri iyeronimit olan Ramon Pane hinduların ilk etnoqrafı olur. Bundan əlavə ekspedisiyanın tərkibində, Yeni Dünya sahillərində varlanmağa çalışan iki yüzə yaxın zadəgan vardır.

Kanar adalarında onlar şəkər çuğunduru və portuqalların təcrübəsindən istifadə edərək, insan ovuna çıxmaq üçün böyük itlər götürəndən sonra ekspedisiya oktyabrın 13-də Kanar arxipelaqının ən axırıncı adası olan Yerronu tərk edir.

Elə birinci səyahət zamanı Espanyola (Haiti) adasının sakinləri cənubi-şərq istiqamətində, qızıl ilə dolu olan "adamları yeyən kariblərin torpaqları" və "ərsiz qadınların adaları" torpaqların yerləşdiyini bildirirlər. Gəmilərin kursu, birinci səyahətə nisbətən $10^0$ cənuba doğru yönəldilir və həmin istiqamətlə də hərəkət edirlər. Tutduqları kurs ekspedisiya heyəti üçün hədsiz dərəcədə əlverişli olur: həmin istiqamətdə əsən küləkdən – şimal-şərqi Passat – istifadə edən Kolumb okeanı 20 gün müddətinə qət edir.

Gələcəkdə həmin yoldan Avropadan "Qərbi Hindistana" gedən yol kimi istifadə etməyə başlayırlar.[1]

Tarixi qaynaqlarda göstərilir ki, noyabrın 3-də dağlıq və meşə ilə örtülmüş ada görünür. Kəşf bazar (ispan dilində "dominika") günü baş verdiyinə görə Kolumb oranı Dominika adlandırır. Münasib liman olmadığına görə admiral kursu şimala tərəf döndərir və yaxınlıqda balaca ada (Mariya-Qalant) görərək, sahilə çıxır. Noyabrın 4-də Kolumb kəşf elədiyi adalardan ən böyüyü sayılan Qvadelupanı kəşf edir. Həmin adada ispanlar səkkiz gün qalaraq yaşayış məntəqələrini, evləri yoxlayırlar.

Ekspedisiyanın həkimi Diyeqo Alvares Çanka səyahət zamanı gördüyü maraqlı məqamları yazdığı məktublarda əks elətdirmişdi. O yazır: "Evlərdə biz, divarlarda qabqacaq asıldığı kimi çoxlu insan kəllələri və sümüklərinin asıldığını gördük. Kişilərin sayı bu kənddə çox az idi. Qadınlar izah etdilər ki, kişilər onlarla kanoelərə minib qonşu adalara soyğunçuluğa gediblər. Oradakı, adamlar başqa adalardakına nisbətən xeyli inkişaf etmiş kimi görünürdülər... Onlarda evlərin samanla tikilməsinə baxmayaraq, yaxşı salınmışdı və içəridə ev əşyaları da çox idi... Onlarda çoxlu pambıq və pambıq parçadan düzəldilmiş

---

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий, II том. Москва, "Просвещение", 1982. стр. 25

örtüklər vardı, hansı ki, heç də bizim kastiliya örtüklərindən geri qalmırdı.”



***Kolumbun donanması Qvadelupa adasına yan alır***

Əsir alınmış qızların dediklərindən belə çıxır ki, kəşf edilmiş hər üç adada kariblər yaşayırlar. Onlar silahsız yaşayan və sülh şəraitində yaşayan qonşu ararak hinduların üzərinə hücum edirlər. Silahları əsasən, ucları tısbağa çanağından və balıq sümüklərindən düzəldilmiş ox və kamanlardan ibarətdir. Daha sonra D. Çanka yazır: "Kariblər hücum etdikləri adalarda, kanoelərdəki boş yerlərin hamısını əsir qızlarla doldururlar ki, gələcəkdə onlardan həm qulluqçu, həm arvad kimi istifadə etsinlər, qadınlar o qədər çoxdur ki, 50 evdə yalnız hindu qızlarını gördük... Yerli qadınlar danışırlar ki, əsir düşən qadınlar uşaq doğanda kariblər həmin uşaqları yeyirlər. Kariblər yalnız öz qadınlarından olan uşaqları tərbiyə edirlər. Əsir düşən kişiləri özləri ilə doğma kəndlərinə aparırlar və orada onların hamısını yeyirlər. Bu cür onlar öldürülən düşmən ilə də rəftar edirlər". Söz yox ki, nə Kolumb, nə də ki, onun həmkarları kariblərin bu cür iyrənc və vəhşi həyat tərzi sürməklərinə biganə qala bilməzdilər. Sivil normalarına uyğun olmayan bu cür neqativ halları lokallaşdırmaq hər bir vicdanlı adamın mənəvi borcudur. Elə tipli adamların nazı ilə heç kim barışa bilməzdi.

XIX əsrin tarixçilərinin və etnoqraflarının fikrincə, Kiçik Antil adalarında yaşamış aravaklar özləri etiraf etmişdilər

ki, ispanlar onların inamını əlindən alaraq, kariblər haqqında bu qədər mənfi rəy – "adam yeyən", "yırtıcı" obrazı – yarada bilmişdilər. Həqiqətdə isə onlar heç də elə bir tayfa deyildilər. Sadəcə olaraq, konkistadorlar hinduları qula çevirmək üçün rəsmi İspaniyanın razılığını almaq istəyirdilər. Kiçik Antil və Böyük Antil adalarında yaşayan aborigenlərin kütləvi halda qırılmasının əsas səbəbi, onların İspaniyanın hakim dairələri qarşısında "adam yeyən" kimi qələmə verilməsi, rəvac vermişdi. Və bu işdə Kolumbu əsas günahkar kimi göstərirlər. Mən heç cürə bu fikir ilə razılaşa bilmirəm. Kolumb təbiətən zəif adamların qanını əbəs yerə tökülməyinin əleyhdarı idi. O, Yeni Dünya sahillərini kəşf edəndə, ilk növbədə, varisi sayıldığı həmin torpaqda sivil cəmiyyətin, sivil həyatın qurulmasını arzulayırdı. Bu işdə vitse-kral aborigenlərdən istifadə etməyi məqsədinə qoymuşdur.

Heç kimə sirr deyil ki, uzaq bir səyahət üçün nəzərdə tutulan hər hansı bir ekspedisiyanın təşkil olunmasına külli miqdarda pul xərclənirdi. Səyahət zamanı ekspedisiyanın tərkibində olan rəhbər vəzifəli şəxslər, xərclənən vəsaitin bir hissəsini kopensassiya etmək üçün, yerli hinduların qul kimi İspaniyanın bazarlarında satılması ideyasını ortaya atmışdılar. Onlar hər tərəfdən admirala təzyiq göstərirdilər ki, Kolumb İspaniyanın monarxlarına, aborigenlərin vəhşi

həyat tərzi sürdükləri barəsinə dair xüsusi sənədlər göndərsin. Həmin adamlar çalışırdılar ki, hinduların ram edilməsi üçün ən yaxşı vasitə onların qul bazarlarında satılmasıdır. Bunun üçün yalnız monarxlar (Ferdinand Araqonlu ilə İzabella Kastiyalı nəzərdə tutulur) razılıq bildirməlidirlər. Məhz bütün bu təzyiqlərdən sonra Kolumb tab gətirməyib hinduların sivil həyatında uzaq olduqları barədə İspaniyaya təqdimatlar göndərir. Həmin təqdimatlardan sonra nəinki İspaniya, hətta bir çox dövlətlərdə, nəinki kariblər, hətta Antil adalarında yaşayan bütün hindu tayfaları "adam yeyən" kimi tanınmağa başlayırlar.

Lakin buna baxmayaraq, dəniz səyyahının İspaniyadakı rəqibləri bu əlverişli imkanı əllərindən buraxmadılar. Onlar Kolumbu aborigenlərin qula çevirilməsində ittiham etməyə başladılar. Xüsusən də vərəsəlik haqqında məhkəmələr başlananda admiralın İspaniyaya göndərdiyi **"Xatirə yazısı"**nı ona qarşı istifadə etdilər. Məhz həmin **"Xatirə yazısı"**ndan sonra Yeni Dünya sahillərində yaşayan aborigenlərə qarşı divan tutulmağa başladı. Rəqiblər Kolumbu qaniçən, qəddar və amansız bir adam kimi adlandırırdılar. Lakin hər şeydə təmkinli olan dəniz səyyahı, Espanyola adasında yaranan vəziyyətlə əlaqədar olaraq, həmin **"Xatirə yazısı"**nı yazmağa məcbur olmuşdur. Bunun da ki, tarixçəsi çox qısadır.



***Kolumb ikinci dəfə Espanyola adasının sahilinə çıxır***

Yuxarıda qeyd edildiyi kimi Kolumb birinci səyahəti başa vuran zaman 1492-ci ilin dekabr ayında Espanyola adasında Navidad adlı fortu tikdirərək, orada ekspedisiyanın heyətində 39 nəfər adam saxlayır. İkinci səyahət zamanı ekspedisiya Navidad fortuna yaxınlaşmamış, matroslar Espanyola adasında şirin su doldurmaq üçün sahilə çıxırlar və orada çürümək halında olan 4 meyit görürlər. Meyitlərin boynu və ayaqları iplə bağlanmışdır. Meyidlərdən biri saqallı idi. Bununla da həmin meyidin avropalı olduğunu müəyyən etmək çətin olmadı.

## Espanyola adasındakı Navidad fortunun darmadağın edilməsi və ispanların hiddəti

Donanma forta noyabrın 27-də gecə vaxtı yaxınlaşır və topdan siqnal atəşi açılır. Lakin sahildən heç bir cavab atəşi açılmır. Ertəsi günü səhər tezdən Kolumb özü sahilə çıxır, ancaq orada yalnız fortun yanmış dirəklərini və meyit qalıqlarını görür. İspanların hansı şəraitdə həlak olmalarını dəqiq müəyyən etmək olmadı. Yalnız bircə şey məlum idi ki, onlar bilavasitə orada təşkil etdikləri qarətlərin və

soyğunçuluğun günahkarları sayılırdılar. Sahildə yaşayan hindular izah edirlər ki, hər bir müstəmləkəçi burada bir neçə arvad mənimsəmişdi və onların arasında hərc-mərclik baş verir. Məlum olur ki, cavan bir matros, orada saxladığı hindu qadınını ekspedisiyanın katibi Eskovedoya qısqanır. Onların hər ikisi qızıl və əlavə qız əldə etməkdən ötrü adanın içərisinə soxularaq, Kaonabo adlı bir kasikin ərazisinə daxil olurlar. Damarlarında vəhşi kariblərin qanı axan Kaonabo ispanların həyasızlığını görüb, onların hər ikisini öldürür. Ondan sonra hindu kasiki Navidad fortuna hücum edir. Həmin vaxtı Diyeqo de Qarana on döyüşçü ilə fortda (İspanların hərəsi beş hindu qızı saxlayırdılar) qalmışdı və hindulara kifayət qədər müqavimət göstərə bilməmişdir. Üç döyüşçü fortda öldürülür, qalanları isə sahilə qaçaraq, orada suda boğulurlar. Yerdə qalanları dağlara qaçırlar və orada hindular tərəfindən hamısı bir nəfərə kimi öldürülürlər.

Espanyola adasında baş verən faciə hər bir ispanlının daxilində dərin ağrı hissi yaradır. İspaniyadan gələn zadəganlar həlak olan həmyerlilərinin qisaslarını hindulardan almaq üçün Kolumba müraciət edirlər, o isə hələlik bunun lazımsız olduğunu bildirir. Əlbəttə belə qərar ilə heç bir idalqo razılaşa bilməzdi və onlar aborigenlərdən qisas almaq üçün əlverişli bir imkan axtarmağa başlayırlar.

1494-cü ilin yanvar ayında Kolumb yandırılmış fortdan şərq tərəfdə bir şəhərin təməlini qoyur və onu İspaniyanın kraliçasının şərəfinə İzabella adlandırır. Rütubətli tropik istisinin təsirindən ispanların ixtiyarında olan zaq korlanmağa başlayır. Müstəmləkəçilərin qərib torpaqda aclıqla üzləşməsi labüd idi. Yiyənlərin sayını azaltmaqdan ötrü, admiral qərara alır ki, Espanyolada beş gəmidən ibarət olan 500 nəfər adam saxlasın, qalanlarını isə 12 gəmidə Antonio Torresin başçılığı altında fevralın 2-də İspaniyaya göndərir. Admiral Espanyola adasında yazdığı **"Xatirə yazısı"**nı Torresin vasitəsi ilə İspaniyaya göndərir.

Həmin "yazıdakı" bir neçə cümləni xatırlamaq lap yerinə düşər. Kolumb yazır: "Kanilballların və Espanyolada yaşayan hinduların taleyini fikirləşəndə məni belə bir fikrə gətirir ki, nə qədər onlardan Kastiliyaya çox gətirsək, bir o qədər onların özlərin üçün xeyir olacaqdır... Əlahəzrətlər, bu diyarın çiçəklənməsi və torpaqların becərilməsi üçün, hər il buraya lazımi qədər karavellaların mal-qara və ərzaq malları gətirilməsinə icazə versinlər... Xərcin ödənilməsinin əvəzinə isə, yaxşı bədən quruluşuna malik olan amansız və vəhşi sayılan kaniballları, İspaniyaya göndərmək olar. Biz əminik ki, onlar öz ölkələrindən kənarda qul vəziyyətində olsalar, yavaş-yavaş vəhşi simalarını itirib, mədəni həyat tərzinə qurşanacaqlar".

Həmin yazıdan sonra Yeni Dünya sahillərindən İspaniyaya hindulardan ibarət olan qul axını başlayır və bu işdə hamı Kolumbu təqsirləndirirlər. Mən isə bildirmək istəyirəm ki, dahi dəniz səyyahı ispan taxt-tacı üçün kəşf edilmiş Böyük və Kiçik Antil adalarını kannibalizm (adam yemək) ilə məşğul olan hindulardan təmizləmək istəmişdir. Əksinə olaraq o, sülh şəraitində yaşayan hinduların hamısının müdafiəçisi kimi çıxış etmişdir.

Sovet etnoqrafları belə qənaətdədirlər ki, başqa xalqlarda olduğu kimi kariblərdə də matriarxatdan patriarxata keçid zamanı hərbi adət-ənənə kimi adamyeyənlik vardı. Onlar elə bilirdilər ki, əsir düşən düşmənin ürəyini və əzələlərini yeyəndə, həmin adamın cəsarətini, çevikliyini və başqa üstünlüklərini əldə etmiş olurlar.

Kariblərdən fərqli olaraq, Antil adalarında yaşayan hindu tayfalarının əksəriyyəti heç də vəhşi xarakterə malik deyillər. Halbuki Kolumbu yoldan çıxarmağa cəhd edən həmkarları hinduların hamısını vəhşi qaniçən kimi qələmə verirdilər. Səyahət zamanı admiralın apardığı xatirə qeydlərindən anlamaq olur ki, aborigenlər mərhəmətlərinə görə heç də avropalılardan geri qalmırdılar. Yeni Dünya sahillərinə təşkil edilən ikinci ekspedisiyanın iştirakçısı Bartolomeo Las Kasas Yamayka adasına çatanda yazırdı: "Ekspedisiya Kuba adasında olanda, yerli hindular bizə

izah etdilər ki, buraya yaxın bir yerdə (cənub istiqamətində), qızıl ilə bol olan Yamayka adası yerləşir... Həmin ada may ayının 5-də görünür. Kolumb onu Santyaqo adlandırır. Sir-sirfətlərini rəngli boyalarla rəngləmiş, başlarına lələkləridən düzəldilmiş baş örtükləri qoymuş, demək olar ki, lüt olan hindular, çəkinmədən təkağaclı çelnoklarda bizim gəmilərə yaxınlaşıb sahilə çıxmağımıza manə olmağa çalışırdılar. Kolumb onların üzərinə ox yağdırmağı əmrini verdi. Altı ya da ki, yeddi hindu yaralanandan sonra onlar müqaviməti dayandırmağa məcbur oldular... Bundan sonra bizim gəmilərə xoş məramla çoxlu hindu kanoeləri yaxınlaşdı. Aborigenlər özləri ilə ərzaq ehtiyatı və cürbəcür qarışıq mallar gətirərək, bizdə olan hər bir şeyə dəyişməyə başladılar. Hindular özlərini elə aparırdılar ki, sanki biz onların ən əziz qonaqları idik."

Hindular istər-istəməz qərib torpaqdan gələn ispanlara öz qonaqpərvərliklərini göstərirdilər. Lakin ispanlar adi bir incikliyə görə həmin torpaqların əsil sahiblərini məhv etməyə çalışırdılar. Bu işdə heç də Kolumbun təqsiri yox idi. Daha bir epizodu qeyd etmək üçün mən bir daha tarixi qaynaqlara müraciət etməliyəm. Bu haqda İ. P. Magidoviç və V. İ. Magidoviçin **"Coğrafi kəşflərin tarixi oçerkləri"** (II cild) əsrində də xüsusi qeydlər var. "Admiral Kuba adasının tədqiqi və Yamayka adasının kəşfi ilə məşğul olan

zaman onun qardaşı Bartolomeo Kolumb İspaniyadan Espanyola adasına, üç gəmidə ərzaq ehtiyatı ilə xeyli əsgəri qüvvəni gətirir. Yenicə gəlmiş əsgərlər adada dolaşaraq hinduları qarət edir, qadınları zorlayırlar. Onların bir hissəsi hindular tərəfindən öldürülürlər". Məhz bundan sonra X. Kolumb 1494-cü ilin mart ayında Espanyola adasının işğalına başlayır. Yeni Dünya sahillərinin vitse-kralı hərbi dəstəyə başçılıq edərək adanın içərilərinə yürüş edir. Çox keçmədən ispanlar münbit bir vadiyə gəlib çıxırlar. Vadinin gözəlliyi Kolumbu valeh edir və o, həmin yeri Veqa-Real (Kral vadisi) adlandırır. Vadinin ətrafında yüksələn dağların arasında Müqəddəs Foma adlı fort tikirlər. Fortun müdafiəsi üçün yaxınlıqda bir qalanın əsasını qoyurlar. Dominikan Respublikasının xəritəsində indiyənə kimi həmin yer Fortaleza adlanır. Müqəddəs Foma fortu qızıl ticarətinin mərkəzinə çevrilir.

Paralel olaraq müqavimət göstərən hindulara qarşı hərbi əməliyyatlar davam etdirilirdi. Hindular kəskin müqavimət göstərsələrdə, Espanyola tam şəkildə ispanların əlinə keçir. Kolumbun göstərişi ilə aborigenlər qızıl və pambıq ilə xərac verməli idilər. Bu göstərişə tabe olmayan adanın dağlıq ərazisinə çəkilərək orada gizlənməyə məcbur olurdular. Kim ki, gizlənə bilmirdisə, həmin adam ispanları quluna çevrilirdi. Dağlarda gizlənənlərin əksəriyyəti avropalıların

gətirdikləri naməlum xəstəliyin nəticəsində məhv olurdular. Əlbəttə, onların kütləvi şəkildə qırılmasında Kolumbu günahlandırmaq heç də düzgün deyil. Birincisi, Espanyola adası Avropalılar tərəfindən kəşf edildiyi üçün müstəmləkəyə çevrildi. İkincisi, adada yaşayan aborigenlər müstəmləkə qanunlarına uyğun olaraq, tam şəkildə ispanların qoyduqları bütün şərtlərə müvafiq qaydada əməl etməli idilər. Əks təqdirdə onları sözsüz halda ağır işgəncələrlə nəticələnən, sərt cəza tədbirləri gözləyirdi. İş ondadır ki, Kolumb Espanyola adasını, Yeni Dünya sahillərində kəşf edilmiş torpaqların paytaxtı elan etmək fikrində idi və bu minvanla da 1496-cı ildə həmin adada Amerika qitəsində ilk iri şəhər sayılan Santo-Dominqo şəhərinin əsasını qoyur.[1]

Kolumb kəşf elədiyi torpaqları avropalılar üçün cənnət diyarına çevirmək istəyirdi. Lakin İspaniyada gələn mühacirlər həmin yerin cəhənnəm məkanına döndərirdilər. Kolumb müstəmləkələrdə məskunlaşan mühacirlər ilə heç cürə bacarmırdı. Onlar ümumiyyətlə, vitse-kralın orada qoyduğu qanunlara riayət etmək istəmirdilər. Admiral, təkcə Espanyolada qalaraq bütün işlərini müstəmləkə yaratmaqda vaxtını keçirmək istəmirdi. Hazırda onun

---

[1] И. П. Магидович, В. И. Магидович. Очерки по истории географических открытий, II том. Москва, “Просвещение”, 1982. стр. 31-32

Espanyola adasından qərb istiqamətində yerləşən kiçik olmayan torpaq ərazisi maraqlandırırdı (Kuba adası nəzərdə tutulurdu). O, bilmək istəyirdi ki, həmin torpaq ərazisi adadır, yoxsa iri bir torpaq parçasının yarımadası? İzabella şəhəri üzərindəki idarəçiliyi Kolumb qardaşı Diyeqoya tapşıraraq, özü 1494-cü ilin aprelin 24-də üç gəmidə (admiral gəmisi yenədə *"Ninya"* olur və yolda həmin gəmini iki karavella müşahidə edirdi) dənizə çıxır.




***İspanların hindularla görüşü***

Qardaşının işini yüngülləşdirməkdən ötrü, admiral İzabellada özbaşınalıq edən 400 adamın Alonso Oxedanın başçılığı altında Müqəddəs Foma fortuna göndərir və bununla da İzabellada müvəqqəti nizam-intizam yaratmağa müvəffəq olur.

Kolumb Kubanın şərq sahilinə çıxan kimi orada taxtadan düzəldilmiş hündür bir xaç basdırır. Səyahət zamanı o, Yamaykanı kəşf edir. Maraqlı cəhət ondan ibarətdir ki, ispanlar hər hansı bir adanın sahilinə çıxanda, əksəriyyət halda aborigenlər onları xoş qarşılayırdılar. Kolumb səyahət zamanı kəşf elədiyi adalara çox çətinliklə yan alırdı, çox vaxt onun gəmilərinin altı dənizin dibinə dəyirdi. Bir çox adaların arası ilə karavella tipli gəmilərdə yox, ondan kiçik gəmilərlə keçmək lazım idi. Bunun üçün o, Espanyolaya qayıtmağa – sentyabrın 29-da – məcbur olur.

Kolumbun qardaşı Bartolomeo, artıq İspaniyadan İzabellaya gəlmişdir. Fransadan İspaniyaya qayıdandan sonra onu Ferdinand Araqonlu ilə İzabella Kastiliyalı çox məharətlə qarşılayırlar və özü ilə Xristoforun gətirdiyi hər iki oğullarını, İspaniyanın infantı sayılan don Xuanın pacları sırasına qəbul edirlər. Don Bartolomeo Avropada çox qalmaq fikrində deyildi və Espanyola adasına yollanan üç karavellanın rəhbərliyini öz üzərinə götürüb Yeni Dünya

sahillərinə yollanır. Bu, Espanyola adasında səbirsizliklə gözlənilən, ərzaqla dolu olan donanma idi.

Xristofor qardaşı Bartolomeo ilə İzabellada görüşən kimi tərəddüd etmədən ona Espanyolanın hakimi sayılan, “adelantado” titulunu verir. Bununla da Bartolomeo böyük hərbi və inzibati huquqlara malik olan adanın vacib səlahiyyətli nümayəndəsinə çevirilir. O, Xristoforun fəal köməkçisi olmalı idi. Admiral çox yaxşı bilirdi ki, qardaşı çox dözümlü, qətiyyətli və ekstremal vəziyyətlərdən asanlıqla baş çıxaran bir adamdır.

Admiralın ən kiçik qardaşı Diyeqo Espanyola adasında tək qalanda müstəmləkə işlərinin öhdəsindən çox çətinliklə baş çıxarırdı. O, xasiyyətcə çox yumuşaq adam idi və İzabellada qalan, qürurlu, hökümlü və həyasız idalqolarla bacara bilmirdi. Hər dəfə orada qarətlər, soyğunçular, hədə-qorxular, zorlamalar və davalar baş verirdi. Qalanın komendantı təyin olunmuş Marqarit adanı od və qan içində boğmuşdu. O, və rahib Buil hindularla heyvan kimi rəftar edirdilər. İş ondadır ki, Kolumb Espanyola adasına qayıdana qədər bir nəfər də olsun aborigen, xristianlığa qəbul edilməmişdir. Hələ bu azmış kimi Buil və Marqarit, Bartolomeonun adaya gəldiyi gəmilərə minib İspaniyaya yola düşürlər. İspaniyada onlar Kolumb qardaşlarını mümkün olan qədər böhtanla ləkələyirlər. İspaniyaya gedənlərin

hamısı bir nəfər kimi çalışırdılar ki, Kolumb qardaşlarının nüfuzu və hörməti İspan monarxlarının yanında düşsün. Onların siyasəti heç bir idalqonun xoşuna gəlmədi. Məşhur dəniz səyyahı başa düşmüşdür ki, məğrur idalqoları özü ilə Yeni Dünya sahillərinə aparması, onun tərəfindən bağışlanılmaz bir səhv sayılırdı.

Tarixi qaynaqlarda göstərilir ki, Kolumb Espanyola adasına qayıdanda, o, orada yaranmış xaos ilə üzləşir. İdalqolar Kolumb tərəfindən təyin edilmiş rəislərin göstərişlərinə əməl etməkdən boyun qaçırmışdılar. Əllərində silah admiralın qardaşı Bartolomeoya qarşı üsyan qaldırmışdılar. Onlar həzz almaqdan ötrü, hinduları atdıqları oxların nişangahına çevirib, "himayədarlıq" etdikləri yeni adamları əzab-əziyyətlə plantasiyalarda işlədir, onlarla quldan balıq tutmaq və heyvan ovlamaq üçün istifadə edir, özlərini hindulara, istirahət etməkdən ötrü qamaklarda daşıtdırırlar, qızları isə ev işlərində işləmək üçün qaldıqları evdə saxlayırlar. Hər bir idalqo yanında arvad kimi istifadə etməkdən ötrü on nəfərə yaxın hindu qızı saxlayırdı.

Burada yaranan özbaşınalıqları birdən-birə aradan götürə bilmədiyinə görə, Kolumb idalqolar ilə özü üçün alçaldılmış bir razılıq əldə etdi. Hər bir üsyankara iri bir torpaq ərazisi və həmin torpağı işlətməkdən ötrü kifayət qədər hindu qüvvəsi verilirdi. Beləliklə, kəşf edilmiş ərazinin

vitse-kralı Yeni Dünya sahillərində ilk dəfə torpağa təhkim etməklə, repartimiyento (bölünmə) adı altında təhkimçilik hüququnu yaratmışdır. Torpağa təhkim edilmiş adam boyunduruq altından qaçsa, sahib tərəfindən ya öldürülər, ya da ki, qul bazarında satıla bilərdi. Göründüyü kimi aborigenlərə qarşı tətbiq olunan bu cür aksiyalarda admiralın heç bir günahı yoxdur. Sadəcə olaraq, Yeni Dünya sahillərində məskunlaşan idalqolara qarşı mübarizə aparmaq, Kolumb üçün həddindən artıq çətin idi.

Espanyola adasında yaranmış anarxiyaya son qoymaq lazım idi. Hamını sakitləşdirməkdən ötrü, Kolumb, sahibini öldürmüş hinduların edam olunmasına icazə verir. Ondan sonra müstəmləkəçilərin əl-qolu daha da açılır və hindulara qarşı amansız tədbirlər geniş vüsət alır. Haiti, Kuba və Baham adalarının hinduları avropalılara göstərdikləri, mehriban münasibətlərinə görə bu cür mükafatlandırılırlar. Hindular öz hüquqlarını müdafiə etmək üçün qiyam qaldıranda demək olar ki, kütləvi şəkildə müstəmləkəçilər tərəfindən qılıncdan keçirilir, sağ qalanlar isə qula çevrilirdilər. 1494-cü ilin fevralın 24-də, Antonio de Torresin başçılığı altında Avropaya göndərilən 400 quldan 200 nəfəri Madeyra adaları ilə Kadis arasındakı yolda keçinirlər, sağ qalanları isə arxiyepiskop Fonseka Seviliyanın qul bazarında satır. Satınların əksəriyyəti İspaniyada naməlum

xastəliyə tutularaq, qısa müddət ərazində dünyalarını dəyişirlər.

Hindulara qarşı amansız rəftar tətbiq ediləndə, ispanlar vaxtı ilə Navidad fortunda öldürülmüş silahdaşlarının qisasını almağa başlayırlar, ilk növbədə ispanların ölümünə səbəb olmuş kasik Kaonabonun tutulması üçün əsl ov başlanır. Hamıdan bic tərpənən Alonso de Oxeda on süvari ilə hinduların düşərgəsinə gəlir və kasikə bildirir ki, İzabellanın kapellası üçün nəzərdə tutulan bürünc zəngi ona verməyə hazırdı. Sadəcə olaraq, Kaonabo ispanlara hər tərəfli yardım etməlidir. Hindular üçün möcüzə sayılan həmin zəng kasikin daxilində böyük həvəs yaradır və o, öz silahlı dəstəsi ilə ispanlarla yola düşməyi qərara alır. Yaxşı mühafizəsi olan Kaonabonu heç də ələ keçirmək asan iş sayılmırdı. Məhz buna görə də Alonso de Oxeda hiyləgər bir fənd işlətməyi qərara alır. O, kasikə bildirir ki, İspaniyada hakimiyyətdə olan kral taxt-tacında, əlləri və ayaqları zəncirlənmiş halda əyləşir. Oxeda həmin təklifi Kaonaboya da verir. Hakimiyyət hərisliyi ilə yaşayan hindu kasiki öz razılığını bildirir. Oxeda Kaonabonun əllərini və ayaqlarını qandallayaraq, öz altında düz arxasında əyləşdirir və kasikin bədənini öz bədəninə bağlayır. Hindu kasikinin tələyə düşdüyünü görən ispan komandiri cəld atı ilə İzabellada yerləşən ispan düşərgəsinə çapır, yerdə qalan

on süvari isə təqib olmasın deyə, Kaonabonun mühafizəçilərinə hücum edirlər. Hindu kasiki Espanyola adasında törətdiyi ən ağır cinayətlərə görə edam olunmaq üçün İspaniyaya göndərilməli idi.

Yeni Dünya sahillərinin inkişaf edilməsinə çalışan Kolumb, burada yeni sivilizasiyanın yaradılmasını göstərirdi. Əkilən taxıl və başqa bitkilər burada olan mülayim tropik iqlim şəraitində bol bar verir. Şəhərdə bir çox emalatxanalar açılır və neçə-neçə peşəyə yiyələnməkdən ötrü peşəkar sənətkarlar hazırlanır. Hətta həmin peşələrə Avropadan gəlmiş qadınlar da yiyələnirdilər. Burada gəmiqayırmaya xüsusi ilə diqqət yetirilirdi. Çünki Karib dənizində olan gəmilərin əksəriyyəti fırtına zamanı sıradan çıxmış və onların təmirinə böyük ehtiyac tələb olunurdu. Espanyolanın gəmi tərsanəsində, Yeni Dünya sahillərində ilk dəfə istifadəyə verilən, *"İndiya"* adlı karavella tikilərək suya buraxılır.

Lakin Espanyolada baş verən bütün bu inkişafa baxmayaraq, orada yaranan anarxiyanı tam aradan götürmək mümkün deyildi. Sadəcə olaraq, Kolumb inadkar sayılan idalqoların hamısının öhdəsindən gələ bilmirdi. İdalqolar təsərrüfatla məşğul olmaqdansa qul əzabına tab gətirməyən hinduların tutulub vəhşicəsinə öldürülməsinə böyük üstünlük verirdilər.

1495-ci ilin oktyabr ayında Kolumb anladı ki, o, ispan monarxlarına olan etibar və etimadını itiribdir. Avropaya narazı halda qayıdan idalqoların şikayəti öz “bəhrəsini” verirdi. İş ondadır ki, admiral, adanın mərkəzində qayda-qanun yaratmaqla məşğul olarkən, Katolik krallarının Aquado adlı səlahiyyətli nümayəndəsi Espanyola adasına qədəm qoyur və burada baş verən hadisələrin araşdırmasına başlayır. Məlum olur ki, burada yaşayanların hamısı hər nəyə görə isə narazıdır, əksəriyyəti Kolumba olan nifrətini gizlətmir və naməlum xəstəliklərə düçar olmuşdular. Həqiqətdə isə yalnız, özlərinə qul tutaraq qızıl axtarışı ilə məşğul olan, adanın mərkəzində məskunlaşan müstəmləkəçilərin güzaranı yaxşı idi.

Özünü Katolik krallarını yanında doğrultmaqdan ötrü Kolumb hökmən İspaniyaya yollanmalı idi. Yola düşməmişdən əvvəl o, qardaşına izah etdi ki, İzabellanı tərk edib, Espanyola adasının cənubunda yeni bir şəhərin əsasını (hazırda Dominikan Respublikasının paytaxtı Santo-Dominqo şəhəri) qoysun. Həmin yerdə münasib buxta, münbit torpaq və hətta axar suda qızıl da var idi.

İkinci səyahət zamanı 17 gəmidən ibarət olan donanma ilə Yeni Dünya sahillərinə gəlmiş məşhur dəniz səyyahı, bu dəfə İspaniyaya iki karavella ilə qayıdırdı – hələ də istifadə

olunan *“Ninya”*da və Espanyolanın gəmi tərsanəsində çıxmış Amerika qitəsinin ilk gəmisi *“İndiya”*.

İki balaca gəmidə, Espanyola adasında ağır həyat tərzində yaşamış 225 xristian və kasik Kaonabo onların tərkibində olaraq, 25 hindu qulu.

Birinci səyahətə nisbətən bu dəfə İspaniyaya qayıtmaq üçün münasib yol seçilməmişdi. 1496-cı ilin aprelin 6-da dənizdə dörd həftə keçirən admiral hələ də Kiçik Antil adalarının arasından çıxa bilməmişdi. Gəmilərdə olan ərzaq ehtiyatı tükənmək üzrə idi. Hamı elə başa düşürdü ki, Kolumb əvvəlki dənizçilik təcrübəsindən səmərəli istifadə edə bilmir.

Antil adalarının bəzilərində, zor gücünə olsa da, özlərinə müəyyən qədər ərzaq ehtiyatı toplayandan sonra nəhayət onlar aprelin 20-də Atlantik okeanında qərb istiqamətində yola düşürlər.

İspanlar qabağa çox ləng və qətiyyətsiz halda irəliləyirdilər. Bir aydan sonra onlar müəyyən edə bilmirdilər ki, okeanın hansı hissəsində yerləşirlər.

Qida qəbulunun gündəlik rasionunu 150 qr. çörək və bir badə su təşkil edirdi. Kolumbun yazdığı gündəlikdən məlum olur ki, gəmidə aclıq o həddə gəlib çatır ki, iyun ayının əvvəlində heyətin bəzi üzvləri gəmidə olan kaniballardan bir neçəsini yemək təklifini, bəziləri isə gündəlik yemək

rasionu artsın deyə, hinduları suya tullayıb boğmaq təklifini irəli sürürlər. Bütün təklifləri rədd etməkdən ötrü, iyun ayının 8-nə keçən gecə, admiral hamısına bildirir ki, (bu bir növ onun tərəfindən peyğəmbərcəsinə söylədiyi bir proqnoz olur) onlar ertəsi günü Portuqaliyanın Vinsenta burnunun yaxınlığında sahilə çatacaqlar. Bu proqnozu eşidən də gəmini idarə edənlər öz gülüşlərini saxlaya bilməmişdilər. Lakin həqiqətən də iyunun 8-də onlar Vinsenta burnundan 35 mil şimal istiqamətində Odemirə çatırlar. Bu möcüzə də sayılsa da, Kolumbun belə bir inandırıcı olmayan proqnozu hamının marağına səbəb olmuşdur. İş ondadır ki, o, Azor adalarının enliyində olarkən təxmini olsa da, Pireney yarımadasına haçan çatacağını müəyyən edə bilmişdir və onun bu ölçülərini özündən başqa heç kim hesablaya bilmirdi. Bu ondan xəbər verir ki, Kolumb həqiqətən də astronomiyanı çox gözəl bilir və ulduzların köməyi ilə açıq okeanda dəqiq hesablamalar aparmağa qadir olan bir ekspedisiya komandorudur.

İyunun 11-də o, iki balaca karavella ilə Kadisə yaxınlaşır. Gəmidə olan bütün bayraqlar ranqoutlardan asılır. Sahilə həddindən artıq zəifləmiş, əldən düşmüş dənizçilər çıxır.

İkinci səyahət başa çatandan sonra Kolumb özünə, Los-Palasiosdan olan rahib və və Katolik krallarının tarixçisi

sayılan Andres Bernaldesin evində sığınacaq tapır. Kralların dəvətini alana qədər admiral qonaqpərvər ev sahibinin yanında qalaraq, ikinci səyahətin demək olar ki, bütün hesabatları yazılmış gündəliyi məhz ona etibar edirdi.

Bir aydan sonra Kolumb krallardan, onu sarayda qəbul olunmasına dair məktub aldı. Vaxtı uzatmaq istməyən vitse-kral qardaşı Don Diyeqo (onun qardaşını Espanyola adasında Kaonabos adlandırırdılar) ilə birlikdə, hədiyyə üçün qızıl və tutuquşular götürərək, yola düzəlir. Don Diyeqo özü ilə altı yüz "castellarios" (köhnə qızıl pul vahidi, eyni olaraq ondan çəki kimi də istifadə olunurdu) çəkisində olan qızıl, boyunbağı aparırdı. Bundan əlavə onda lələklərlə bəzədilmiş tac, qiymətli qaşlarla düzəldilmiş maska və sairə maraqlı bəzək şeyləri vardı ki, həmin əşyalar qarşısına çıxan hər bir paxıl və simic adamın marağına səbəb olurdu.

Kral ilə kraliça məşhur dəniz səyyahını hüsn-rəğbətlə qarşılayırlar, lakin bu dəfəki qəbul birinci dəfəki qəbuldan xeyli fərqlənirdi. Artıq o, anlayırdı ki, növbəti ekspedisiya üçün gəmilərin və komandanın təşkili heç də qısa müddətə baş verməyəcək. Həqiqətən də yalnız iki ildən sonra üçüncü səyahətə yollanmaq üçün admirala gəmilər verilir. Həmin vaxtı 130 gəmi, Burqundiyada toyu olacaq Xuana Ağılsızı Flandriyaya yola salırdı. Elə o irilikdə də bir armada don

Xuanın nişanlısı Marqarita Avstraliyanı İspaniyaya gəlişində iştirak edirdilər.

Kolumb İspaniyada olarkən boş vaxtlarını elmi kitabların oxunmasına və naviqasiya hesablamalarına sərf edirdi. Çox vaxtı verdiyi proqnozlarla ətrafındakıları matməətəl edən Kolumb bu dəfə də sensassion bir məlumatı monarxlara xəbər verir. O, Marqarita Avstraliyanın İspaniyaya gələcəyi günün dəqiq tarixini söyləyir. Admiralın söylədiyi düz çıxır və onun hörməti İspaniyanın monarxlarının yanında daha da artır.

Kolumbun hüquqları yenidən bərpa olunur, maliyyə məsələlərində onun marağına diqqət yetiriləcək, maliyyə gəlirinin artmasına imkan yaradılır.

Dəniz səyyahının əsas istədiyi ondan ibarət idi ki, Yeni Dünya sahillərində yaradılan müstəmləkə, taleyin ümidinə qalmasın və orada fəaliyyət göstərənlərə hər tərəfli yardım edilməlidir. Oraya missionerlər göndərilməsə, onda həmin torpaqda yaradılan hər bir şey qısa müddət ərzində məhv olub gedəcəkdir.

Avropanı üçüncü dəfə tərk etməmişdən əvvəl admiral öz ailəsinə dair bütün işləri səliqə-səhmana salmalı olur. Hökümətin razılığı ilə o, səlahiyyətlərini və payında azacıq da olan mülklərini mayorat səviyyəsinə qaldırmağa müəssər oldu. Bütün bunlar Kolumbun qanuni oğlu Diyeqoya,

əgər Diyeqo vəfat etsə, onda qeyri-qanuni sayılan Ferdinanda keçməli idi. İşdir, hər iki oğlu vəfat etsə, onda Xristoforun qardaşları Bartolomeo ilə Diyeqo ardıcıllıqla sadalanan şeylərin varisləri sayılırlar. Bütün mayoratın varisi həm də okeanın admiralı tituluna yiyələnirdi. Lakin Kolumb bir Genuyalı kimi bir adət-ənənəni yaddan çıxartmamışdı. Onun varisi, admiralı doğma şəhərindəki di



***Kolumbun qeyri-qanuni oğlu Ferdinand***

San-Corcio bankına kapital qoymalı idi ki, orada yaşayan “vətəndaşların vergisi azalsın”. Bundan əlavə həmin adam Genuyadakı evdə Kolumb nəslindən olan hər hansı bir nümayəndəsi yaşayırsa, onun bütün xərclərini öz öhdəsinə götürməli idi.

Kolumb hər dəfə İspaniyanı tərk edəndə monarxlar onun vərəsəlik haqqındakı bəzi dəyişikliklərə əl atırdılar. Düzdür, o, bir səyyah kimi okeanların admiralı sayılırdı və bütün kapitanlarla, dəniz səyyahları Kolumbun qarşısında hesabat verməyə borclu idilər. Qubernatorluğa gəldikdə isə o, yalnız kəşf elədiyi adalara sahiblik edə bilərdi. Onun hüquqları sonra da kəşf ediləcək hər hansı bir iri torpağa və yaxud da ki, materikə yayılmırdı. Çünki həmin torpaqları admiral yalnız özü kəşf etməli və bu haqda monarxlara hesabat hazırlamalı idi. Məhz bu səbəbdən Kolumb Yeni Dünya sahillərinə yola düşməyə tələsirdi.

## Xristofor Kolumbun üçüncü səyahəti

Yenə də bildirmək istəyirəm ki, Kolumb kəşf elədiyi toraqları Asiya qitəsinin bir hissəsi kimi qəbul etsəydi, heç olmasa üçüncü səyahət zamanı o, İspaniya sahillərini tərk edən kimi Atlantik okeanında $25^0$-$30^0$ ş. enlikləri ilə qərb istiqamətində irəliləyərək, Yaponiyaya və yaxud da ki, Çinə çatmalı idi. Lakin üçüncü səyahət zamanı hər şeyin əksi baş verir.

Bunun üçün mən, Kolumbun üçüncü səyahəti barəsində anlayış olsun deyə, tarixi qaynağa müraciət etməli olacağam. İkinci səyahətə nisbətən üçüncü səyahət üçün gəmi heyətinin toplanmasında bir çox çətinliklər yaranır. İş o yerə çatır ki, hətta cinayətkarları, müəyyən bir cərimələrdən azad edilməsi üçün onlara söz verilir. Lakin laməzhəbləri, qatilləri və zorlama aktlarında iştirak etmiş cinayətkarların ekspedisiyada iştirak etməsinə heç bir təklif verilmirdi.

Badaxosun yepiskopu təyin edilmiş Fonkesa hərtərəfli cəhd göstərirdi ki, Kolumbun təşkil etdiyi növbəti səyahət baş tutmasın. Məhz buna görə də gəmilərin alınmasına admiral dörd ay vaxt sərf edir. Lakin bütün bu çətinliklərə baxmayaraq, üçüncü ekspedisiyanın yola düşməsi üçün altı gəmi – beş karavella və bir “nao” - əldə edir.

Məşhur dəniz səyyahı üçüncü səyahətinə 1498-ci ilin may ayının 30-da başlayır və həmin günü o, Qvadalkvivir çayının mənsəbini o qədər də iri sayılmayan donanma ilə - altı gəmidə - tərk edir. Artıq iyunun 7-də Kolumb Madeyra adalarındakı Portu-Santu limanına gəlir. Vaxtı ilə onun qayınatası bu adanın qubernatoru olmuş və mərhum həyat yoldaşı Felipa burada yaşamışdır. Madeyra adası 40 mil arada yerləşirdi və həmin məsafəni admiral üç gün müddətinə qət edə bilir. Kolumb vaxtı ilə tanıdığı adamların arasında altı gün qalır və onlarla birlikdə keçmiş xatirələri yad edirdi. Onun son illərdə qazandığı şan-şöhrətə heç kim paxıllıq etmirdi.

Tryumları su və odunla doldurandan sonra admiral kursu bir başa, 290 mil aralıda yerləşən Kanar adalarının Homera adasına tutur. İkinci səyahətdə olduğu kimi o, Dominika adasına üç gəmi göndərir. Sonra da həmin gəmilər Espanyola adasında yenicə salınmış Santo-Dominqo şəhərinə üz tutmalı idilər. Əvvəlcədən müəyyən edildiyi kimi həmin şəhərdə Bartolomeo Kolumbun özü olmalı idi. Lakin keçid zamanı, onlar yolda azırlar və Kolumb Espanyola adasına çatandan sonra, nəzərdə tutulan məntəqəyə gəlib çıxırlar.

İxtiyarında qalan üç gəmi ilə admiral iyunun 21-də kursu Yaşıl Burun adalarına tutur. Okeanda üzmək üçün hava şəraiti əlverişli olduğundan onlar altı gün müddətinə 750

mil məsafəni qət edə bilirlər. Boavişta buxtasında lövbər salırlar və həmin günü adada olan keçici xəstəliklərin ucbatından həmin məntəqəni tərk etməli olurlar. İyulun 1-də portuqalların böyük müstəmləkə yaratdıqları Santyaqo adasına gəlirlər və orada ət ehtiyatı əldə etmək istəyirlər. Lakin 8 gündən sonra heç bir şey əldə etmədən yollarını davam etdirməli olurlar. Afrikanın bu enliyində çoxlu qızıl tapıldığından, Kolumb elə bilirdi ki, okeanın o tayında elə həmin enliklərdə yerləşən torpaqlarda qızıl tapmağa müvəffəq olacaqdır.

9 gün müddətində gəmilər 380 mil məsafə qət edirlər. Bu enliklərdə hava həddindən artıq isti idi. Su və çaxır ilə dolu olan çəlləklər istidən çatlayır, ərzaq ehtiyatı isə vaxtından əvvəl korlanırdı. İyunun 22-də gözlənilmədən külək qalxır və gəmilər qərb istiqamətində sürətlərini xeyli artırmalı olurlar. Bu xoşbəxt təsadüfi görən Kolumb öz kayutunda dizləri üstə çökərək, Allaha dönə-dönə dua edir. Həqiqətən də ilin bu vaxtı bu enliklərdə küləyin qalxması xoşbəxt hal sayılırdı.

Yaşıl Burun adalarından admiral admiral donanmanın kursunu cənub-qərb istiqamətinə tərəf tutur ki, tezliklə ekvator xəttinə çatsın və həmin paralel boyu ilə bir başa Yeni Dünya sahillərinə yollansın. Kolumb istəyirdi ki, sahilə çatdığı təqdirdə Espanyola adası xeyli şimalda qalsın.

Lakin istiyə tab gətirməyən komanda $10^0$ ş.en. dairəsi ilə kifayətlənərək, həmin paralel ilə qərb istiqamətində yollarını davam etdirdilər.

İyulun 31-də Alonso Peres adlı bir matros admiral gəmisindən xeyli qabaqda, ucu şiş üç dənə yüksəklik görür və Kolumb həmən torpağı Trinidad *("Üçlük")* adlandırır. Avqustun 1-də gəmilər həmin adanın cənub sahili boyu keçərək, Qum burnuna (Trinidad adasının cənubi-qərbində yerləşən İkakos burnu) çatırlar. Qərb tərəfində torpaq görünürdü – Cənubi Amerikanın Orinoko çayının mənsəbi yerləşən hissəsi. Kolumb həmin yeri Qarsiya Torpağı adlandırır. Həmin "torpaqdan" Trinidad adası iki liq (12 km.) aralı idi.

Əlverişli əsən küləyin köməyi ilə gəmilər Boka-de-la-Syerpe *("İlanın ağzı")* boğazını qət etdilər. Oradan şimalda sular sakit idi, təsadüf nəticəsində oradan su götürəndə Kolumb gördü ki, həmin su şirindir. O, Pariya yarımadası-nın sahil boyu ilə şimala doğru üzərək, Trinidad adasını materikdən ayıran ikinci boğazı kəşf edir və onu Bokas-del-Draqon *("Əjdahanın ağızları").* Pariya yarımadası ilə qər-bə doğru irəlilədikcə, körfəzdəki su daha da içməli olurdu. Sahildə ispanlara məlum olmayan çoxlu meyvələr vardı və həmin ağaclarda çox saylı meymunlar istədikləri kimi atılıb-düşürdülər. Haradakı Pariya yarımadası enliləşir,

gəmilər orada lövbər salırdılar. Çox keçmədən hər tərəfdən gəmilərə çox saylı hindu kanoeləri yaxınlaşdı. Həmin səhnəni Kolumb öz gündəliyində qeyd edir. O, yazır: “Aborigenlər çox saylı kanoelərdə gəmilərə yaxınlaşaraq bizimlə ünsiyyət yaratmağa cəhd etdilər. Çoxlarının sinəsindən iri qızıl parçaları asılmışdır. Bəzilərinin qollarına mirvarilər bağlanmışdır. Hindular mənə izah etdilər ki, mirvarilər məhz burada, bu torpağın şimal hissəsində çıxarılır”.

Sahilə çıxan ispanları hindular ürəklə qarşıladılar. Qarsiya Torpağının ada olub-olmamasını yoxlamaqdan ötrü, admiral Pariya körfəzinin qərb sahilinə, üç gəmisindən ən balacasını – karavella *“Korres”* – göndərir. Orada dalan olduğunu görüb geri qayıdırlar.

Ondan sonra gəmilər, cənubi-şərq istiqaməti ilə hərəkət edərək, üç buxtanı – Amana, San-Xuan və Rio-Qrande çaylarının mənsəbi – yanından keçir və dördüncü buxtaya çatırlar. Sahildə su çox dayaz və həddindən artıq çox şirin idi. Kolumbun izahatından başa düşmək olar ki, onlar Orinoko çayı deltasının qərb qoluna tərəf çıxmışdılar. Orinoko çayının suyu ilə (şirin) Karib dənizinin suyunun (duzlu) qarışması nəticəsində iri vallar və böyük burulğanlar əmələ gəlirdi. Lakin Kolumbu başqa şey maraqlandırırdı; harada və necə bu qədər şirin sulu çay peyda ola bilərdi?

Bu izahatdan sonra xüsusi qeyd vermək istəyirəm.

Kolumb Pariya körfəzinə daxil olanda orada çoxlu miqdarda şirin suyun olduğunu görür və belə bir qənaətə gəlir ki, çoxlu miqdarda şirin suyu yalnız materikdə olduğu kimi uzun və iri bir çay gətirə bilər. Həmin miqdarda suyu olan çay adada ola bilməzdi. Deməli, Kolumb iri bir torpaq ərazisinə yaxınlaşmışdır. Bu isə yalnız materikin mövcudluğundan xəbər verirdi. Onun gündəliyində, 15 avqust tarixindəki yazısında qeyd etdiyi sətirlərində belə bir sözlər var; *Bu materikdir! Başqa Dünya?...*

Mənə elə gəlir ki, bu indiyənə qədər heç kimə bəlli olmayan, böyük naməlum bir qitədir, hansından ki, çoxlu şirin sulu çay axır. Əgər, bu çay cənnət diyarından axırsa, onda mən bildirirəm ki, həmin çay cənubda yerləşən, lakin heç kimə məlum olmayan iri bir torpaqdan axır...", yəni, həmin çay bol sulu olduğu üçün, naməlum cənub materikindən Pariya körfəzinə tökülür. Kolumb avropalılardan ilk adam idi ki, həmin materikin 400 km-lik sahil zolağını tədqiq etmişdir. Artıq onun iri bir materik ilə rastlaşmağında heç bir şübhə qalmamışdı. Bir çox alimlər qeyd edirlər ki, Kolumb həmin materiki təyin etməklə, onun Asiya olduğunu zənn etmişdi. Halbuki o, öz qeydlərində göstərir ki, "başqa Dünya". Etiraf etməliyik ki, bu elə belə sözlər deyil.




***Karib dənizi hövzəsinin xəritəsi***

Kolumb Pariya körfəzindən çıxandan sonra qərb istiqamətində yolunu davam etdirir. Dayanacaqların birində hindular admirala, boranıdan düzəldilmiş butulkanın içində çiçi (tünd içki, hazırda da Venesuellada sevimli içki sayılır) gətirirlər. Başqa bir dayanacaqda o, hindulardan, alış-veriş nəticəsində üzüklər və quanindən düzəldilmiş bəzək əşya-

larını əldə edir. Quanin qızılın, gümüşün və misin qarışığı ilə birgə əridilərək, xüsusi məhlulun köməyi ilə düzəldilirdi. İspanlar hər tərəfli, çoxlu qızılların mənimsəməsinə böyük səy göstərirdilər. Maraqlısı da o idi ki, orada yaşayan hindular qızıla nisbətən misdən düzəldilmiş əşyalara böyük üstünlük verirdilər. İş orasındadır ki, misi onlara başqa yerdən gətirirdilər, qızıl isə öz torpaqlarından çıxırdı.

Kolumb Cənubi Amerikanın şimal sahilində artıq vaxt itirməmək üçün cəld gəmilərin kursunu Espanyola adasına yönəldir. Yolda, Espanyolaya az qalmış, o, qardaşı Bartolomeo ilə rastlaşır. Avqustun 31-də hər iki qardaş Ozaliya çayının mənsəbində yerləşən yeni paytaxtın limanına daxil olur.

Əlbəttə, Kolumb üçüncü səyahət zamanı özünün ən böyük kəşfini həyata keçirmişdir. Artıq cürbəcür həcmli adalar yox, böyük bir torpaq ərazisi ispanlar tərəfindən müşahidə olunmuşdur. Bu haqda hökmən əməli bir tədbir görmək lazım idi. Başqalarının diqqətini bura cəlb etməkdən ötrü admiral öz gündəliyində qeyd edir ki, həmin ərazi bir neçə adadan ibarət olan bir arxipelaqdır. Mən qətiyyətlə bildirirəm ki, məşhur dəniz səyyahı bilərəkdən belə bir səhv fikiri gündəliyində əks elətdirmişdir. Halbuki bir çox alimlər bunu, Kolumbun növbəti dəfə səhv etdiyini qeyd edirlər. Admiral peşəkar bir dənizçi kimi çox yaxşı

bilirdi ki, Karib dənizinə tökülən bol sulu olan Orinoko çayı, hətta iri bir adanında tərkibində ola bilməzdi. Deməli, o, Tusinin Atlantik okeanının qərb hissəsində göstərdiyi naməlum iri bir torpağın ərazisini kəşf edə bilmişdi və həmin ərazini mənimsəmək üçün xüsusi fəaliyyətə başlamaq lazım idi. Həmin kəşfin əhəmiyyətini özü və İspaniya üçün vacib olduğunu dərk edən Kolumb, hələ sahilə çıxmamış, kral notariusunun vasitəsi ilə, rəhbərlik etdiyi gəminin göyərtisində qarşıdakı ərazinin İspan krallığının mülkiyyəti elan etdirir.

## Kolumba qarşı qurulan xəyanət

Espanyolada hər iki qardaşı ağır sınaqlar gözləyirdi. Adada yaradılan hər bir şey demək olar ki, dağıdılaraq məhv edilmişdir. Müstəmləkəçilər, Kolumbun adanın "alkalde mayor" (baş hakimi) təyin etdiyi Fransisko Roldanın başlığı altında, qiyam qaldırmışdılar. Onun ətrafında bütün narazı olanlar birləşmişdilər. Onların sayı gözlənildiyindən də çox idi. Sərt tropik iqlimə uyğunlaşa bilməyən

nizam-intizama ciddi yanaşan "adelantado" Bartolomeonun tələblərinə tab gətirməyənlər qiyam qaldırmağa üstünlük vermişdilər. Fransisko Roldan hindu kasiki Quariones ilə birlikdə adanın mərkəzini ələ keçirirlər. Bartolomeo ixtiyarında olan əsgərləri toplayaraq onlara qarşı yürüş etdi.

Kolumbun hələ Atlantik okeanın şərq sahilində Espanyolaya göndərdiyi üç gəmi gözlənilmədən Roldanın əlinə keçir. Kapitanların naviqasiya hesabatları düzgün aparılmadığından gəmilər küləyin və cərəyanların təsirindən Espanyola adasından xeyli kənarda, Roldanın ələ keçirdiyi adaya yan alır. Onlar qiyamdan xəbərsiz olduğundan paytaxt üçün gətirdikləri ərzaq ehtiyatının hamısını qiyamçılara verməli olurlar.

Qardaşından burada baş verən bütün bu hadisələri öyrənəndən sonra admiral İspaniyanın monarxları üçün üçüncü səyahətinin nəticələri haqqında hesabat hazırlayır və onlardan qiyamı yatızdırmaqdan hələlik heç kimə sərf etmirdi. Hakim dairəsi, bir də məmurlar həmin qiyamın vasitəsi ilə Kolumbun inadkarlığına son qoymaq istəyirdilər.

İspaniyadan köməyin gəlişini gözləməyən Kolumb, qiyamçılara qarşı qətiyyətli addımlar atmaqdansa, onların başçıları ilə danışığa başlayır. Vəziyyəti belə görən Roldan özünü admiralın qarşısında hökmlü apararaq, ondan İspani-

yaya göndərdiyi şikayət məktubunun geri qaytarılmasını və qiyamda iştirak edən hər bir adama, işçi qüvvəsi sayılan hindularla birlikdə torpaq sahələrinin verilməsini tələb edir. Kolumb qiyamçının tələbini yerinə yetirməklə, böyük səhvə yol verir. Bundan sonra hər bir inadkar idalqo öz istədiyinə nail olmaq üçün qiyam variantından istifadə etməyə cəhd göstərəcəkdir.

Həmin razılıqdan sonra hər bir müstəmləkəçi yanında, hindulardan ibarət bir neçə işçi saxlayaraq, özləri üçün qızıl çıxartdırır və ixtiyarlarında olan torpağı becərtdirirlər. Bu sistemi "repartimyento" və yaxud da "enkomyenda" adlandırırdılar. Həmin sistem bütün ispan Amerikasında yayılır.

Kolumbun qətiyyətsizliyi onun başına bir çox işləri açdı. İspaniyaya xəbər göndərir ki, Espanyoladakı xaos ondan asılı olmayaraq baş vermişdir və bütün bu işlərin səliqə-səhmana salınması və adamların idarə olunması üçün admiral hakim dairələrindən məsləhətçi göndərilməsini xahiş edir. Bununla da o, özünü bacarıqsız bir adam kimi qələmə verir.

Monarxlar, Fransisko Bovadilya adlı məhkəmə müstəntiqini Yeni Dünya sahillərinə göndərməyi qərara alır. O, 1500-cü il avqustun 25-də Santo-Dominqoya gəlir. Bu vaxtı Kolumb adanın içərilərində, Roldanın tərəfdarların-

dan biri sayılan qiyamçı Adrian de Moksikaya qarşı mübarizə aparırdı.



***Kolumb kəşf etdiyi torpağı İspan taxt-tacının mülkiyyəti elan edir***

Yeddi nəfər qiyamçının dar ağacından asıldığı ilk növbədə Bovaldiyanın gözünə dəyir. Onda belə çıxır ki, deyilənlərin hamısı düzdür. Kolumb ispan adamlarının qanını axıtmışdır. Admiralın kiçik qardaşı Diyeqo, ölüm hökmü çıxarılmış beş qiyamçının Bovadiliyaya verməkdən

imtina edir. Bundan sonra kral nümayəndəsi qanuna arxalanaraq qarşıdakı qalanı silah gücünə ələ keçirir və Diyeqonu həbs elətdirərək, qandallayır. Kolumb Santo-Dominqoya qayıdan kimi aqibəti qardaşınkı kimi olur. Lakin onu gəmilərin birində saxlamağı qərara alırlar. Müdafiə olunmaq üçün Bartolomeonun ixtiyarında kifayət qədər silahlı qüvvə vardır ancaq o, Xristoforun göstərişinə əməl edərək, Bovadilyaya təslim olur.

1500-cü il oktyabrın əvvəlində, Kolumbu məhkəməyə vermək üçün İspaniyaya göndərirlər. Limandan aralanan kimi gəminin kapitanı hörmət əlaməti olaraq admiraldan qandalları çıxartmaq istəyir. Lakin Kolumb bundan imtina edərək qətiyyətlə bildirir ki, - qandalları hakimlərin göstərişi ilə taxıblar, elə onların da göstərişi ilə çıxaracaqlar. Kadis limanına onlar ayın axırında çatırlar. Kolumba qibtə edənlər, hər tərəfli ona kömək əllərini uzadırdılar. Admiral bu ağır sınaqdan qürurla çıxır.

İspaniyaya gətirilən kimi Kolumbun tərəfdarları monarxlara xahişlə müraciət edərək, məşhur dəniz səyyahının haqsız halda həbs olduğunu bildirirlər. Əlbəttə, İspaniya qarşısında xüsusi xidmətləri olan admiralı dərhal azad edirlər və onun imtiyazları bərpa etməyə məcbur olurlar. Kolumb özü Yeni Dünya sahillərində baş verən anarxiya barəsində hakim dairələrinə həm yazılı, həm də şifahi

izahat verir. Deмək olar ki, onun günahsızlığı sübut olunmuşdu. Lakin monarxlar admiralın Espanyola adasındakı fəaliyyətindən tamamilə narazı idilər. Ən əsası da maliyyə gəlirinə görə. Ona qarşı hiylə quranların da sayı az deyildi. Xüsusən də Yeni Dünya sahillərində öz şəxsi mənafelərini güdənlər. Həmin prosesi analiz etmək lap yerinə düşərdi.

Vaxt keçdikcə Kolumb hər tərəfdən sıxışdırılmağa başlanırdı. Kral xəzinəsi yeni müstəmləkədən az gəlir əldə edirdi. Həmin ərəfədə isə Portuqaliya Vasko da Qama həqiqi Hindistana gedən yolunu kəşf (1498) etmişdi. Portuqaliyanın məşhur dəniz səyyahı səfər zamanı Hindistanla ticarət əlaqəsi yarada bilmiş və vətəninə qiymətli ədviyyat yükü ilə qayıtmışdı. Artıq bəzi adamlar, xüsusən coğrafi elmi ilə məşğul olan alimlər anlamağa başlayırdılar ki, Kolumbun kəşf elədiyi torpağın varlı Hindistanla heç bir əlaqəsi yoxdur və İspaniyada belə bir fikir yaranır ki, admiral hansısa naməlum bir torpağı kəşf edibdir. Kolumb həmin adamların qarşısında yalançı və boşağız bir adam kimi tanınmağa başlayırdı. Yeni Dünya sahillərindən ona qarşı gizli təqdimatlar göndərilirdi ki, guya adamlar kral xəzinəsinin müəyyən gəlirinin gizlədilməsini həyata keçirir. Bundan əlavə Espanyoladan kral sarayına, Kolumb tərəfindən zadəganların edam edilməsi və orada narazılıq zəminində baş vermiş qiyamlar barəsində məlumatlar

göndərilirdi. Kolumbun kəşf elədiyi Hindistandan, heç bir gəlir ilə İspaniyaya qayıdan idalqolar bildirirdilər ki, "bədbəxtçiliyi xatırladan kəşf edilən ölkə kastiliya zadəganlarının qəbristanlığına çevrilibdir". Kraliçanın pajları olan Kolumbun oğulları həmin idalqolar tərəfindən fitə basılırdı. Admirala qarşı çoxlu ittihamlar yürüdülürdü.

İspaniyanın monarxlarında, Atlantik okeanının o tayında kəşf edilmiş torpaqların Hindistan olmadığına dair azacıq şübhə yaranan kimi, onlar 1499-cu ildə Kolumbun əlindən, yeni kəşf edilmiş torpaqların monapoliyasını aldılar. Həmin qərarda admiralın bir çox həmkarları istifadə edərək, rəqib qismində dərhal həmin torpaqlara ekspedisiya təşkil etməyə başladılar. İspaniyanın monarxları başa düşəndə ki, Kolumb Yeni Dünya sahillərinə üzərinə düşən öhdəliklərlə bacarmır, onda şəxsi təqdimatlara əsasən başqa səyyahlara səyahətə yollanmaq üçün şərait yaratdılar.

Söz yox ki, ekspedisiyalara yalnız təcrübəli və ağır səyahətlərdə iştirak etmiş dənizçilər yollanmalı idilər. Bir çox namizədlərin içərisində Alonso de Oxeda ilə Xuan de la Kosanın fiqurları seçildi. Onlar dərhal Karib dənizinin cənub sahilinə göndərildilər və 1499-cu ildə Venesuelanın şimalında yerləşən Kurasao, Aruba və Bonayre (hazırda həmin adalar Hollandiyaya məxsusdur) adalarını kəşf

edərək, orada çoxlu mirvari ələ keçirirlər. Maraqlısı da odur ki, Oxeda həmin kəşf barəsində admiralı xəbərdar etmir.

Oxedadan bir qədər sonra monarxlar, Kolumbun üç ekspedisiyanın iştirakçısı Pedro Alonso (Peralonso) Ninyoya (bir gəmidə), Yeni Dünya sahillərinə ekspedisya təşkil etməyə icazə verirlər. O, Venesuellanın şimalında yerləşən Marqarita adasını, Araya yarımadasını, Karyako körfəzini kəşf edərək, orada yaşayan aborigenlərdən 38 kq. mirvari ələ keçirir və İspaniyaya aparır. Daha sonra Visente Yanyes Pinson 1500-ci ilin yanvarın 26-da Braziliyanın San-Roka ($5^0$ c.en. dairəsi) burnunu və bir neçə gündən sonra isə Amazonka çayını kəşf edir. Bütün bu kəşflər, axtarışlar və tapıntılar Kolumbdan gizlin saxlanılırdı və həmin tədqiqatlar barəsindəki hesabatlar xüsusi olaraq monarxlara təqdim edilir.

Bundan əlavə Espanyolaya, kral Ferdinand tərəfindən kral məmuru Fransisko Bovadilya böyük səlahiyyətlərlə göndərilir. Admiral yeni hakimə orada olan bütün qalaları, silahları, atları və ərzaq ehtiyatlarını təhvil verməli idi. İş ondadır ki, F. Bovadilya kraldan şifahi və yazılı tapşırıqlar almışdı. Yazının biri bir başa Kolumbun özünə ünvanlanmışdır. Orada yazılmışdır ki, "Biz Bovadilyaya izah etmişik ki, bizim adımızdan Sizə bəzi şeylər söyləsin... Onun sözlərinə inana bilərsiniz və çalışın hər şeydə ona tabe

olun”. Espanyolada xaos ilə mübarizə aparan admiral artıq başa düşmüşdü ki, buradakı rəqiblərinin köməyi ilə İspaniyada ona qarşı xəyanətkarlıq ediblər.



***Səlahiyyətləri əlindən alınan admiral Kolumb***

Kolumbun evində məskunlaşan Bovadilya müstəmləkədə olan bütün hakimiyyəti əlinə alır və paralel olaraq, admiralın bütün əşyalarını və sənədlərini ələ keçirir. Özünü

bütün mühacirlərin qarşısında yaxşı etmək üçün o, hamının zəhmət haqqını ödəyir. Ucuz yol ilə şan-şöhrət qazanmaq istəyən yeni hakim, hər bir ispana 20 il müddətinə kral xəzinəsinə yarı hissədən az keçirtməklə (Kolumbun əmrinə əsasən əldə olunan qızılın üçdə iki hissəsi kral xəzinəsinə verilirdi), qızıl əldə etməyi icazə verir. Bundan əlavə özünü Kolumbun tərəfdarlarından qorumaq üçün admiralı qardaşları Bartolomeo və Diyeqo ilə birlikdə həbs elətdirir və qandallayır. İki aylıq istintaqdan sonra Bovadilya belə bir qənaətə gəlir ki, Kolumb həddindən artıq "amansız və rəzildir. Bu cür xarakterə malik olan adam hər hansısa bir ölkəni idarə edə bilməz". Onun əmri ilə üç qardaş qandallarda İspaniyaya göndərilir.

Belə bir vəziyyətdə yeni torpaqların varisi özünü həddindən artıq alçaldılmış hiss edirdi. Necə olsa da onun ispan taxt-tacı qarşısında göstərdiyi xidmətlər miqyasına görə misilsiz sayılırdı. Lakin o, anlaya bilmirdi ki, Bovadilya və ona bənzər paxıl adamlar admirala qarşı böyük bir xəyanətkarlıq hazırlamışdılar. Bu xəyanətkarlıqda kral Ferdinandın özü də qiyabi yol ilə iştirak edirdi. Hamının məqsədi bircə o idi ki, el içində qısa müddət ərzində şan-şöhrət qazanmış Kolumbu el içində də yalan ittihamlarla rüsvay etsinlər. Ağır mənəvi zərbə alan məşhur dəniz səyyahı əmin idi ki, haqq-ədalət yerdə qalmayacaq və bu

işdə bir başa, İspaniyanın kraliçası, Kolumbun fəaliyyətinə pərəstiş edən, İzabella Kastiliyalı onun hüquqlarını müdafiə edəcəkdir.

1500-cü ilin oktyabr ayında Kolumb qardaşlarını gətirən gəmi Kadis limanına daxil olur. Lakin Kolumbun yeni torpaqda apardığı kompaniyasında maraqlı olan nüfuzlu maliyyəçilər, hər şeydən məhrum edilmiş Dəniz-Okean admiralının xeyrinə "xalqın rəyini səfərbər" edə bilirlər. Məhz ondan sonra krallar Kolumbu azad etməyə əmr edir və onun belə bir vəziyyətə düşdüyünə görə təəssüfləndiklərini bildirirlər. Onlar, admirala qarşı belə kobud rəftar etdiklərinə görə riyakarcasına öz narazılıqlarını bildirir və saraya yaxşı görkəmdə gəlməkdən ötrü, üst-başını düzəltməyə 2 min qızıl pul verirlər. Bundan əlavə söz verirlər ki, onun əlindən alınmış bütün hüquqları və imtiyazları bərpa olunacaq. Lakin sonradan tarix göstərir ki, monarxlar öz vədlərinin üstündə durmurlar.

İspan müstəmləkəçilərinin, min illərlə Yeni Dünya sahillərində yaşamış aborigenlərin kütləvi surətdə xüsusi amansızlıqla məhv edilməsində, tarixçilərin əksəriyyəti Kolumbu təqsirləndirirlər. Bunu onunla izah edirlər ki, vitse-kral ilk dəfə həmin torpaqlara ayaq basıbdır. Ancaq Kolumb öz həyatını risqə qoyub ağır bir səyahətə yollanmasa idi, onda Yeni Dünya sahilləri uzun müddət

Avropa dünyası üçün naməlum bir sahə kimi qalacaqdır. Yerli hinduların kütləvi sürətdə amansızcasına qırılmasında Kolumbu ittiham etməyə gələndə isə, mən əvvəlki kimi dəniz səyyahını müdafiə etməyə hazıram.

F. Bovadilya heç bir məntiqə sığmayan öz missiyasını yerinə yetirəndən sonra Espanyola adasının hakimi Nikolas Ovanda təyin edilir. Müstəmləkə ilə aparılan bütün ticarət əsasən İspan taxt-tacının monapoliyasına çevrilməli idi. Bovadilyanın qoyduğu qanunlar öz qüvvəsində qalmışdır. Hindulara hökumət filiz mədənlərində işlədiklərinə görə qazanc da verilirdi. Bununla belə İspaniyaya Espanyoladan çıxarılmış qızıl, Mirvari sahilindən isə mirvari gətirilməyə başlandı. Məhz buna görə, yüngül qazanc əldə etməkdən ötrü Antil adalarına yüzlərlə mühacirlər axışdı. 25 min adam yeni hakim ilə "Qərbi Hindistana" getməkdən ötrü müraciət etdilər. Onları okeanın o tayına keçirtmək üçün 30 dənə gəmi lazım oldu. Həmin vaxtdan Antil adalarının mühacirlər tərəfindən kütləvi məskunlaşması başlandı. 1502-ci ilin aprel ayında Ovandonun donanması Santo-Dominqoya gəlib çatır.

## Nikolas Ovandonun Espanyolanın hakimi təyin edilir və hindulara qarşı başlanan soyqırım

Məhz həmin axından sonra aborigenlərin kütləvi sürətdə qırğını başlanır. Hindulara qarşı edilən vəhşi rəftar və qəddarlıq heç heyvanlara qarşı da tətbiq edilmirdi. Espanyolada məskunlaşan yepiskop Bartolomeo Las Kasas "Qərbi Hindistanın darmadağın edilməsinin qısaca hekayəti" adlı pamfletində, öz həmvətənlərinin vəhşiliyi haqqında qəzəblə yazırdı: "Xristianlar öz atları, qılıncları və nizələri ilə hinduların arasında qırğın yaradır və hədsiz dərəcədə amansızlıqlar törədirlər. Hər hansı kəndə daxil olanda, onlar heç kimi sağ buraxmırdılar, hətta qocalara və uşaqlara da aman verilmirdi. Xristianlar bir-birilərinin arasında mərc edirdilər ki, kim bir dəfəyə qılıncının bir zərbəsinə adamı para bölər və ya başını üzər, ya da ki, içiçalatını yerə tökər. Anasının qucağında olan körpəni ayağından tutub yuxarı qaldıraraq var gücü ilə başı üstə daşın üstünə çırpırdılar, ya da ki, körpəni anası ilə birlikdə çaya tullayıb boğurdular. Müəyyən bir vaxt keçəndən sonra meyidlər onların qarşısına çıxırdı... Hündür dar ağacları çəkərək hinduları elə asırdılar ki, ayaqları azacıq yerə dəyirdi. Hər dar ağacından on üç nəfər hindu asandan sonra, onları diri-diri yandırır-

dılar. Bəzilərini quru samanla bağlayaraq, həmin samanı yandırırdılar. Başqalarının hər iki əlini kəsib bədənlərindən asaraq onlara deyirdilər ki, gedin bu məktubları qaçaq düşənlərin arasında yayın... Beləliklə kim qaçmağa imkan tapırdısa, qaçıb meşələrdə və dağlarda gizlənirdilər. Hinduları görən gözləri olmayan, insanlıq simasını itirmiş, quduzlaşmış itlərə dönmüş, vəhşi, amansız, qəddar adamlardan qaçıb gizlənmək hər bir aborigenin ümdə vəzifəsi idi. Bundan əlavə xristianlar özləri ilə xüsusi hazırlaşdırılmış itlər gətirmişdilər. Hər bir yeri viran edən, yaşayış yerlərində ölüm saçan həmin itlər hinduları görüb dərhal üstlərinə atılıb və parça-parça edirdilər. Hərdən bir elə olurdu ki, hindular öz arasında sövdələşərək - ədalət naminə - xristianlardan kimi isə öldürməyə müvəffəq olurdular. Belə olan vəziyyətdə hindular tərəfindən öldürülmüş bir xristianın əvəzinə, xristianlar yüz nəfər hindunu qətlə yetirməli idilər...”.

Haiti adasının əhalisi tarixdə analoqu olmayan bir tezliklə yoxa çıxmışdır. 1515-ci ildə həmin adada 15 minə yaxın adam yaşayırdı, XVI əsrin ortasına kimi isə Haiti adasının əhalisi məhv edilərək, yer üzündə yoxa çıxır. Espanyola adasına Kiçik Antil adalarında yaşayan “adam yeyənlərin” və adam yeyənlərlə tay tutulan (adi həyat tərzinə öyrəşməmiş) Kuba, Yamayka və Porto-Riko

adasından "vəhşiləri" qul kimi gətirməyə başlayırlar. Məhz ondan sonra Cənubi Amerikanın Karib dənizi sahilində yaşayan hinduların ələ keçirilməsinə icazə verilir. Əlbəttə, bu çıxış yolu sayılırmırdı. Bir qədər sonra Las Kasasın təklifi ilə Espanyola adasına Afrika zənciləri gətirdilər. Bütün bu günahlarda Kolumbun azacıq olsa da, təqsiri yox idi. O, Yeni Dünya sahillərinin belə bir şəkildə dünya sivilizasiyasına bağışlamaq istəməmişdir. Kolumbun ən böyük səhvi ondan ibarət idi ki, o, ilkin vaxtlarda öz düşmənlərini tanımamış və onları lazımi dərəcədə qiymətləndirməmişdir. Onlar da özlərinin iyrənc hərəkətlərini çəkinmədən həyata keçirmişdilər. Admiral onlara qarşı ciddi tədbirlər görmək əvəzinə, çox zaman güzəştlərə gedirdi. Nəticədə aborigenlər rəhm edilmədən, amansızcasına kütləvi şəkildə qırılmağa başlayırlar.

Bartolomeo Las Kasas bütün bu vəhşiliklərin tam şahidi olmuşdur və bütün bu amansız qətillərlə nəticələnən iri miqyaslı faciəli hadisələr, Kolumb İspaniyada olarkən başlanmışdır. Söz yox ki, bütün bu amansız qırğınların əsl baiskarları Fransisko Bovadilya ilə Nikolas Ovando idilər. Onlar aborigenləri  ümumiyyətlə adam yerinə qoymurdular.

Həmin hadisələrə dair şəxsən mənim fikrim budur ki, Kolumb orada qalsa idi və onun yaratdığı qayda-qanunlar işləsəydi, Yeni Dünya sahillərində (əsasən Mərkəzi Ameri-

kada) yaşayan aborigenlərə qarşı bu cür qeyri-insani üsullar tətbiq olunmazdı. Həmin torpaqların varisi sayılan Xristofor Kolumb Avropanın inkişaf etmiş ölkələrindəki sivil həyatı, həqiqətən də dördüncü qitənin mərkəzi regionunda yaratmaq arzusunda idi. Belə bir nümunəvi ölkəni yaratmaq istəyən bir adam heç vaxt yerli əhalinin qırılmasına rəvac verməzdi. Əlbəttə, hindular yaşadıqları torpaqların əsl varisləri kimi, heç vaxt okeanın o biri tayından gələn əli silahlı adamların ağalığına biganə qala bilməzdilər və hər vasitələr ilə onların öz ölkələrindən çıxıb getməklərinə səy göstərəcəkdilər. Lakin buna baxmayaraq, insani keyfiyyətləri ilə bir çox həmkarlarından fərqlənən Kolumb, aborigenlərə qarşı qeyri-insani üsullar tətbiq etməzdi.

İspaniyadan gəlmiş başqa zadəganların və sıravi adamların törətdikləri vəhşiliklərin hamısı, Kolumbun səyahət zamanı uğur qazandığına paxıllıq edənlər, onun şərəf və ləyaqətini alçatmaqdan ötrü, məşhur dəniz səyyahının boynuna yıxırdılar. Bir ispan zadəganı Hines de Sepulveda hindular haqda bu fikirləri söyləmişdir. – "Onlar qərar qəbul etməkdə və dərrakə barəsində ispanlardan çox-çox aşağıda dururlar. Qadın kişinin qarşısında və uşaq böyüyün qarşısında aciz göründüyü kimi, özlərini ağıllı göstərənlər də o cür bizim qarşımızda aciz görünürlər. İnsan ilə meymun arasındakı fərq bir o qədərdir". Özlərini sivil

dünyanın nümayəndələri hesab edən ispan müstəmləkə-çiləri, Yeni Dünya sahillərinin əsl sahibləri sayılan hindular barəsində bu cür iyrənc fikirlər söyləyirdilər. Belə bir fikirlərdən sonra Avropanın bir çox ölkələrində hindulara qarşı qeyri-insani münasibətlər yaranırdı. Sanki aborigen-lər, dəmir barmaqlıqlar arasında saxlanılan heyvanlar idilər. Ona görə də Avropadan Amerikaya gələn müstəmləkəçilər, yerli əhali sayılan hinduları, cüzi bir səhvə görə aman vermədən qılıncdan keçirirdilər.

Sonradan katolik kilsəsi və ispan kralı yenicə kəşf edilmiş qitədən aborigenlərin azaldılmasından narahat olaraq, hinduları müdafiəsinə qalxır və onların əbəs yerə öldürülməsinin qarşısını almaq üçün tədbirlər görməyə başlayırlar. 1537-ci ilin iyunun 9-da Roma papası III Pavelin xüsusi bullasına əsasən hinduların hamısı insan kimi tanınır və onların xristianlığa qəbul olunmalarına razılıq verilir. Beləliklə, qismən olsa da, min illər iki okean arasındakı qitədə yaşayan aborigenlərin başlarına açılan müsibətlər səngiyir. Elə həmin dövrdən də fransiskan monarxı Bartolomeo Las Kasas, Avropa işğalçılarının Amerika qitəsində yaranmış xaosun qarşısını almaq və orada ədalətin bərpa olunmasına böyük səy göstərmişdir.

Haiti və Karib dənizinin şərq sahilində yerləşən adalar müstəmləkəçilərin ixtiyarına veriləndən sonra orada

yaşayan aborigenlər, ağılasığmaz dərəcədə, həddindən artıq qısa bir müddətdə yer üzündən yox oldular.

Yerli əhalinin iştirakı ilə ən əlverişli iqlimə mənsub olan Haiti adasını cənnətə çevirməyə çalışan Kolumb, oranı öz həmyerliləri tərəfindən cəhənnəmə çevrildiyinin şahidi oldu. Beləliklə də o, özünü dördüncü qitənin kəşf edilib, Köhnə Dünyaya birləşdirilməsinə görə lənətləyirmiş.

Bütün bu vəhşiliklərə tab gətirməyən Kolumb, hətta həyatını risqə qoyaraq bir neçə əmrə tabe olmayan zadəganı edam da elətdirir. Həmin edamın nəticəsində isə qiyam baş verirdi. Espanyola bir anlığa qiyamçıların diyarına çevrilir. Orada yaranan gərgin vəziyyətin sabitləşməsinə ümid etməyən admiral, Karib dənizinin başqa regionunda yeni müstəmləkə yaratmaq fikrinə düşür. Elə bir müstəmləkəni Panama sahillərində yaratmağa çalışır, lakin onun vaxtsız ölümü həmin tədbirin həyata keçirilməsinə imkan vermir və nəticədə Espanyola adasında yaranan xaos Karib dənizinin bütün regionlarına yayılır.

Düzdür, sonradan bir çox xristian missionerləri hinduların müdafiəsinə qalxırlar və aborigenlərin məsələsini İspaniyada kral qarşısında qaldırırlar. Axı, əvvəlcədən nəzərdə tutulmuşdur ki, Kolumbun ekspedisiyası Atlantik okeanının qərb hissəsində hər hansı bir torpaqları kəşf etsə həmin torpaqlarda yaşayan əhali xristian dinini qəbul

etməli, Vatikanda qalan Roma papası isə onların qarantı olmalıdır. Gələcəkdə elə olur ki, Roma papası həqiqətəndə hinduları mənasız qətillərdən müdafiə etmək üçün xüsusi qərar verir. Lakin ömürlərini bir çox qanlı döyüşlərdə keçirən ispan idalqoları hinduları bir çox hallarda şərləyə-rək qılıncdan keçirmək prinsipini davam etdirirdilər.

1. Kolumbun Yeni Dünya sahillərinə yola düşməzdən əvvəl əsas məqsədi ondan ibarət idi ki, ədviyyat bitkiləri ilə və qiymətli metallarla bol olan varlı ölkə sayılan Hindistana qərb yolunu tapıb İspaniya krallığı üçün kəşf etsin. Birinci və ikinci səyahətdən məlum olur ki, o, Atlantik okeanının qərb hissəsində yalnız çoxsaylı adalardan ibarət olan torpaq ərazisi kəşf edir. Külli-miqdarda qoyulan xərc hesabına yaradılan ekspedisya nəticəsində arzu olan qitə torpağı dənizçilərin gözü qarşısında peyda olmur. Yalnız üçüncü səyahət zamanı ekspedisiya həmin missiyanın öhdəsindən gələ bilir, lakin müəmmalı səbəblərə görə admiral həmin fürsətdən istifadə etməkdən boyun qaçırır. Bir çox alimlər iddia edirlər ki, işdir Kolumb bilsə idi ki, Trinidad adasını naməlum torpaq ilə ayıran boğazlar, doğrudan da adanı materik ilə ayırırsa, onda admiral dərhal sahilə çıxıb oranın tədqiqatı ilə məşğul olardı.

Axı həmin səyahət zamanı Kolumb Pariya körfəzinə daxil olmaqla, Cənubi Amerika materikinin şimal sahili ilə

üzləşir. Sahilə çıxıb tədqiqat işləri ilə məşğul olmamasının isə səbəbi onda idi ki, o, ekspedisiya iştirakçılarının qarşısındakı torpağın materik olmasının bilməsini istəmirdi. Çünki sahilə çıxan kimi dənizçilər sahil zolağında, Çində və Hindistanda olduğu kimi iri və möhtəşəm şəhərlərin axtarışı ilə məşğul olacaqdırlar. Həmin şəhərlərlə rastlaşmadıqları təqdirdə onlar İspaniyaya qayıdan kimi hamıya bəyan edəcəkdilər ki, Atlantik okeanın qərb hissəsində tapılan materikdə heç də Asiyada olduğu kimi iri şəhərlər yoxdur. Bunun isə İspaniya monarxları tərəfindən Kolumba necə mənfi təsir göstərməsini isə təsvir etmək heç də çətin deyil. Həmin yalana görə admiral üçün ən yüngül cəza, onun əlindən Yeni Dünya sahillərinə olan monapoliyanın alınması idi.

Kolumb çox yaxşı bilirdi ki, Trinidad adasından cənubda yerləşən torpaq, məhz Nəsirəddin Tusinin xəritəsində göstərilən, Köhnə Dünyaya məlum olmayan materikin bir hissəsidir. Belə olan təqdirdə orada iri və möhtəşəm şəhərlərin varlığından söhbət gedə bilməzdi. Onun fikrincə, həmin materikdə Avropada olduğu kimi hələ də sivilizasiya yaranmamış və elm ilə texnika inkişaf edilməmişdir. Əgər həmin hallar həmin materikdə baş versə idi, onda oranın sakinləri avropalılardan birinci olaraq Asiya, Avropa və

Amerika qitələrinə, istehsal etdikləri gəmilərdə yan ala bilərdilər.

2. Pariya körfəzinin cənub sularının iri bir materikin şimal sahilinin yuyulmasını bilən admiral həmin materikin varlığını müvəqqəti olaraq öz həmkarlarından gizlətməsini sübuta yetirmək mənim üçün heç də çətin deyil. Bildiyiniz kimi səyahətlər zamanı kəşf edilən torpaqlarda qiymətli materialların aşkar edilib ələ keçirilməsi, Kolumba hava-su kimi lazım idi. İş ondadır ki, Pariya körfəzinin qərb sahilində (Pariya yarımadasının şərq və cənub sahilində) ekspedisiya iştirakçıları, çox saylı hindu kanoeləri ilə rastlaşırlar. Aborigenlərin üstündə çoxlu qızıl və mirvari vardı. Çox güman ki, avropalılar üçün qiymətli sayılan həmin əşyalar sahildə yerləşən hindu yaşayış məntəqələrində çox idi. Kolumbun dünya əhəmiyyətli coğrafi kəşf zamanı başqa səbəbləri olmasa idi, o, bütün işlərini atıb sahil boyunda yerləşən yaşayış məntəqələrində qiymətli əşyaların toplanması ilə məşğul olardı. Belə olan təqdirdə gəmidə olan kapitanlar, şturmanlar və başqa vəzifəli dənizçilər başa düşəcəkdilər ki, ayaqlarını basdıqları torpaq iri bir materikdir. Çünki onlar üçün həmin torpaqda Orinoko çayının deltası yerləşirdi. Belə bir iri deltaya malik olan çay isə heç vaxt ölçüsündən asılı olmayaraq, hər hansı-sa bir adada fəaliyyət göstərə bilməzdi. Kolumbun dənizdə

gəldiyi qənaətə, onun həmkarları sahilə qədəm qoyduqdan sonra gələ bilərdilər. Heç kim heç nə başa düşməmiş, illər boyu gizlin saxlanılan sirr açılmamış, Kolumb tərəddüd etmədən gəmiləri Pariya körfəzindən uzaqlaşdırır.

3. Üçüncü səyahət zamanı Cənub materikinin kəşf edilməsi ilə Kolumb tam əmin oldu ki, Tusinin Atlantik okeanının qərb hissəsində göstərdiyi iri torpaq ərazisi boş xülya deyil. Orinoko çayının deltası ilə üzləşməklə o, bunun əsl həqiqət olduğunu anlamışdır. Artıq praktik cəhətcə Kolumb əmin olmuşdur ki, Atlantik okeanından qat-qat uzaqlarda Nəsirəddin Tusi nəinki zəmanəsinin, hətta ölümündən sonrakı əsrlərdə nə dərəcədə fenomenal qənaətlər əldə etməyi bacaran unikal, kəşflərə yiyələnən, bacarıqlı və istedadlı alim imiş. Lakin məşhur dəniz səyyahı dünya əhəmiyyətli sayılan həmin kəşfi bütün bəşəriyyətdən gizlətməklə, tarixdə bağışlanılmaz səhvə yol vermişdir və bununla da dahi alim sayılan Tusinin kəşfi başqa adamların ünvanına yazılır. Bu haqsızlığın da bütün məsuliyyəti məhz Genuyadan olan dəniz səyyahı Xristofor Kolumbun üzərinə düşür. Çünki səyahət zamanı Tusinin xəritəsindən gizlin istifadə edən admiral həmin kəşfi gələcəkdə öz adı ilə bağlamaq arzusunda idi. Çox güman ki, vicdan sahibi sayılan dəniz səyyahı, Azərbaycandan olan dahi alimin adını ən mötəbər məclislərdə yüksək səviyyədə hallandıra-

caqdır. Ona görə ki, nəinki İspaniya üçün, hətta bütün Avropa ölkələri üçün də tarixi və coğrafi baxımından həddindən artıq əhəmiyyətli sayılan həmin kəşfi Kolumb Tusinin köməyi ilə həyata keçirmişdir. Bu cür halı isə bəşəriyyət aləmindən gizlətmək qeyri-mümkündür. Bütün mütərəqqi fikirli adamlar çox yaxşı bilirlər ki, heç vaxt haqq-ədalət ayaq altında qalıb tapdanmır və üzə çıxamasına isə çox vaxt tələb olunmur.

4. Cənubi Amerikanın tədqiqatı üçün Kolumb daxilində iri miqyaslı planlar tərtib etmişdi. Lakin Espanyolaya qayıdanda onun planları alt-üst olur. Fransisko Roldanın böyük bir qüvvə ilə adada qaldırdığı silahlı qiyam admiralın Yeni Dünya sahillərindəki hegomonluğuna son qoyur. Qiyamçılarla danışıq masasında əyləşən Kolumb öz qətiyyəstizliyini nəinki düşmənə, hətta öz tərəfdarlarına da nümayiş elətdirdi. Paralel olaraq o, adalarda idarəçilik sisteminin qurulmasında İspaniyadan kömək istəyir. Buna baxmayaraq admiral Cənub materikinin tədqiqinə başlamaq üçün hazırlıq işi görür, lakin İspaniyadan gələn Bovadilya onu qardaşları ilə bir yerdə həbs elətdirib Avropaya göndərir.

## Xristofor Kolumbun dördüncü səyahəti

Üçüncü səyahətdən sonra Kolumbun bütün hüquqları, yalnız vitse-kral vəzifəsindən başqa, bərpa ediləndən sonra admiral növbəti ekspedisiyaya hazırlaşmaqdan ötrü, İspaniyanın hakim dairələrinə yenidən müraciət etməli olur. Lakin yuxarı dairələr onun bu müraciətinə baxmağa tələsmirlər. Yeni Dünya sahillərinə tamamilə başqa-başqa adamlar xüsusi icazə ilə ekspedisiyaların başında göndərilir. Artıq 1502-ci ilin sentyabrın 3-də Nikolas Ovando, rəsmi surətdə "Hindistan"-ın qubernatoru təyin edilir. O, vitse-kral deyildir, lakin Kolumb da həmin titulu daşımırdı, baxmayaraq ki, həmin titul İspaniyanın kralı tərəfindən qadağan edilməmişdi.

Kolumb İspaniyada qeyri-ixtiyari qaldığı halda Rodriqo de Bastidad Cənubi Amerikanın şimal-qərb sahilini, Venesuelladan tutmuş ta ki, Daryen bərxəzinə kimi olan bir hissəni kəşf edir. Portuqaliyalı dəniz səyyahları Korterial Şimali Amerikanın Nyufaundlend adasını, Pedro Kabral isə Braziliyanı (1500-cü il aprelin 22-də) kəşf edirlər.

Dördüncü səyahətə yollanmaq üşün o bir dənə də olsun gəmi tapmadığı halda, şəxsən özü 1502-ci ilin fevralın 13-də və müstəmləkəçilərin yerləşdiyi 30 gəminin – 24

karavella, 5 “nao” və 1 bark -, necə yola düşdüyünün şahidi olur.

Monarxları inandırmaq üçün Kolumb yeni planlara əl atmağa qərara alır. O, növbəti dəfə özünün yalan vədi ilə Katolik krallarını aldatmağa planlaşdırır. Yuxarıda qeyd edildiyi kimi, artıq Rodriqo de Bastidas Karib dənizinin qərb hissəsində baryer şəklində olan Daryen bərxəzini kəşf edir. Kolumb monarxları inandırır ki, Bastidasın kəşf elədiyi torpaqlar güman ki, Hind-Çin yarımadasının bir hissəsidir və həmin yerdə Hindistana getmək üçün bir boğaz yerləşməlidir. Kolumb Karib dənizinin qərb hissəsində həmin boğazı tapsa, onda Hindistana gedən yolu kəşf ediləcək, nəticədə isə o, özü ədviyyat malları ilə yüklənmiş gəmiləri elə qərb yolu ilə Ümid burnunu dövrə etməklə, İspaniyaya qayıdacaq. Əlbəttə, bu plan katolik kralları üçün çox inandırıcı görünür. Bu bir növ Hindistanı qərb tərəfdən kəşf etmək üçün məşhur dəniz səyyahının layihəsi sayılırdı. Düzdür, Kolumbdan yaxa qurtarmaqdan ötrü, onlar bu missiyanı başqa bir kapitana da tapşıra bilərdilər. Lakin məşhur dəniz səyyahında olan dənizçilik təcrübəsi, naviqasiya anlayışı və astronomik hesablamaları əsl alim kimi aparmaq bacarığı heç bir kəsdə yox idi. Sözsüz halda bu cür ağır missiyanın öhdəsindən yalnız Kolumb kimi peşəkar bir dənizçi gələ bilərdi. İspaniya üçün hava-su kimi lazım olan,

Hindistana gedən dəniz yolunu məşhur dəniz səyyahı axtarmağa başlamış, elə o, da başa çatdırmalı idi.

Dördüncü səyahətə yola düşməmişdən əvvəl Kolumbun mənəvi hisslərini alçaldan bir əmr verilmişdir. Ona nəinki İspaniya üçün, hətta bütün Dünya üçün kəşf etdiyi Espanyola adasına ayaq basmağa qəti qadağan edilmişdi. Geriyə qayıdan zaman yalnız kritik vəziyyətdə olarkən həmin adaya dönə bilərdi. Bu əlbəttə, onun vaxtı ilə Espanyola adasında məskunlaşmağa cəhd göstərmiş və hazırda İspaniyaya qayıtmış şəxsi düşmənlərin kral sarayında toxuduqları hörümçək toru idi.

Sonuncu səyahətə yollanmaq üçün Kolumbun ixtiyarına, 140 nəfər heyəti olan 4 gəmi verilir. Komandanın əksəriyyəti Palosdan və onun ətraf yerlərindən çıxmış əndəlislilər idi. Əvvəlki səyahətlərə görə zadəganlar və müstəmləkəçilər admiraldan uzaqlaşsalar da, lakin dənizçilər hələ də təcrübəli komandora etibar edirdilər. Çünki Kolumb kimi naməlum sularda, fırtına zamanı yelkənlərindən ustalıqla istifadə etməyi, dünyada bir neçə adam bilərdi. Bundan əlavə admiralın bu səyahətinə, əksəriyyəti cavan dənizçilərdən ibarət olan heyət təşkil olunmuşdu. Kolumb çox yaxşı bilirdi ki, böyük risq tələb edən ekspedisiyaya, yalnız heç bir şeydən qorxmayan, böyük bir enerjiyə malik olan cavan dənizçilər cəlb edilməlidir.

1502-ci ilin mayın 11-də admiral Kadisi tərk edərək açıq dənizə çıxır. İki gündən sonra o, Mərakeşin Artsil limanına gəlir və oradan kursu bir başa Qran-Kanariyaya tutur. Mayın 25-də Kanar adalarından Antil adalarına başlanan keçid, 15 iyunda, üfüqdə Martinika adasının görünməsi ilə başa çatır. Dörd səyahətin içərisində bu ən tez sayılan bir keçid idi. Ondan sonra Kolumb Kiçik Antil adalarının sırasından keçərək, kralın göstərişinə heç bir əhəmiyyət vermədən iyunun 23-də Santo-Dominqoya yaxınlaşır. Lakin adanın qubernatoru Ovando məşhur dəniz səyyahının limana daxil olmasına icazə vermir. Qubernator çəkinirdi ki, admiralın sahilə çıxması ilə, limana Kolumbun çoxlu tərəfdarları toplaşacaq və nəticədə Espanyolada sakinlər arasında ikitirəlik yaranacaq.

Kolumb Espanyolanın qubernatorundan inciyərək bu sahilləri tezliklə tərk edə bilərdi. Lakin o, vicdanlı bir vətəndaş kimi namusla borcunu yerinə yetirməmiş Santo-Dominqo limanından uzaqlaşa bilməzdi. Admiral kapitanlarının birinin vasitəsi ilə Ovandoya xəbər göndərir ki, havanın sakit olmasına baxmayaraq bu gün tornado baş verəcək. Bununla əlaqədar olaraq, qubernator sahildə dayanan gəmiləri təhlükəsizlik yerə göndərməlidir. Lakin Ovando nəinki Kolumbun xəbərdarlığına əhəmiyyət verdi, hətta ağır mallarla yüklənmiş 30 möhkəm və keyfiyyətli

gəminin İspaniyaya yola düşməsinə sərəncam verdi. İki il bundan əvvəl Kolumbun həbsinə sərəncam verən, məşhur dəniz səyyahının düşməni Bovadilya flaqman gəmisində idi. Eskadra yenicə Espanyola adasının şərq sahillərini tərk etmişdir ki, yolda gəmilər qasırğanın caynağına düşür. Qısa müddət ərzində 20 möhkəm gəmi 500 nəfərlik adam ilə suyun dibinə qərq olur. Həmin faciədən Kolumbun düşməni Bovadilya da balıqların yeminə çevrilir. Faciədən xilas olan qalan gəmilər zədələnsələr də, Santo-Dominqoya qayıdırlar. Yalnız bir gəmi heç bir xəsarət almır. O da ki, İspaniyaya öz tryumunda 4000 qızıl peso aparan, eskadranın ən balaca gəmisi idi. Bovadilya həmin pulları Kolumba verməli idi. Söz yox ki, kral nümayəndəsinin başına gələn faciə, taleyin onun amansız hərəkətləri üçün hazırladığı hökm idi. Kolumbun halallıqla qazandığı pulları ondan gizlətmək üçün Allah təala Bovadilyanı cəzalandırmışdır.

Espanyolanın qubernatoru Ovando, naviqasiya üzrə bənzərsiz usta sayılan Kolumba qulaq asmadığına görə günahkar sayılırdı. Lakin bütün bunlara baxmayaraq o, həyasızlıq edərək, admiralı təqsirləndirməkdən ötrü onu cadugar adlandırdı. Guya Kolumb onunla düşmən olduğuna görə, İspaniyaya yollanan donanma mənzil başına çatmasın deyə, admiral cadugarlıqdan istifadə edərək, həmin günü

qasırğanı dənizdə yaratmışdı. Axı, hamı çox yaxşı bilirdi ki, həmin günü hava çox sakit və aydın idi, ümumiyyətlə dənizdə, nəinki qasırğanın, hətta fırtınanın da baş verməsi üçün heç bir zəmin yaranmamışdır. Əksinə olaraq Kolumbun heyətinin üzvləri, qasırğanın əvvəlcədən baş verməsinin admiral tərəfindən xəbərdar edilməsini görüb onun peşəkar dənizçi olduğuna daha da əmin olmuşdular. Qasırğanın baş verməsinə baxmayaraq, məşhur dəniz səyyahı gəmiləri adanın təhlükəsiz hissəsinə aparır və bütün komandanın həyatını xilas edir. Gəmilər zədələnsələr də, lakin hamısı salamat qalır. Onların təmir edilməsi üçün Ovandodan gizlincə, adanın balaca buxtası sayılan Puerto-Eskondidoya yan alır. Bundan sonra Kolumb Yamaykanı qərb istiqamətində qoyaraq, Hondurasa tərəf kursu tutur və oraya iyulun 27-də çatır. Heyət istirahət etmədən Karib dənizindən çıxmaq üçün şərq istiqamətində yollarını davam etdirdi.

İspan krallarının adından avqustun 14-də Kolumb çox saylı hinduların qarşısında Hondurasın kəşf olunmasını elan edir. Sonra donanma şimşək, ildırım və leysan yağışı altında sahil zolağı ilə yolunu davam etdirir. Fırtına ardı-arası kəsilmədən 28 gün davam edir. Həmin müddət ərzində ispanlar yalnız 170 mil yol qət edə bilirlər. Belə bir havada gəminin istiqamətini düz tutmaq üçün sükanı dörd

nəfər adam idarə edirdi. Kolumb həmin sahil zolağında qərb istiqamətinə gedən boğazı axtardığından gəmilərin sürəti ləng olurdu. Yoxsa o, bu sahilləri çoxdan tərk etmişdi.



***Kolumb Hondurasın sahillərinə çıxır***

Nəhayət donanma Hondurasın elə bir yerinə gəlib çatır ki, orada sahil cənuba tərəf burulur. Admiral həmin burunu Rio-de-los-Desastres adlandırır. Sentyabrın 25-də donanma, indiki Kosta-Rikanın La-Xuerta adasına gəlib çatır və ispanlar orada yenə də hindularla üzləşirlər. Aborigenlər bu yerləri Kvirekvetana adlandırırdılar. Kolumb burada misin hesabına çoxlu qızıl əldə edə bilir.

Admiral hindulardan öyrənir ki, ispanlar hansısa ensiz bir bərxəzin yanındadırlar. Bərxəzin o biri tayında sahil kənarında yerləşən ölkə Siquare adlanır. Bir çox qaynaqlarda göstərilir ki, Kolumb həmin ölkəni Çinə oxşadır. Lakin ondan sonra dəniz səyyahı bərxəzin axtarışını dayandıraraq, sahil zolağında qızıl toplanması ilə məşğul olur. Artıq o, həmin ərəfədə beşinci səyahət barəsində düşünürdü. Lakin vaxtsız ölümü məşhur dəniz səyyahının bu ideaysını həyata keçirməyə qoymur.

Oktyabrın 17-də Kolumb Veraqua sahilinə çatır. İş ondadır ki, 1536-cı ildə onun nəvəsi Veraqua hersoqu titulunu alır və həmin titulu indiyə qədər Kolumbun nəsli daşıyır. Pis hava şəraiti olduğuna görə ispanlar Veraquada 3 ay vaxt keçirirlər. Çox çətinliklərlə qarşıdakı məsafəni qət edərək, Kolumb noyabrın 2-də gəmilərin istirahəti üçün əsl buxta sayılan, Puerto-Beloya çatır. İspanlar həmin buxtada özlərinə münasib sığınacaq tapırlar.

Noyabrın 9-da hava şəraiti yaxşılaşan kimi yenə də yola düzəlir və ayın 26-da Retrete adlandırdığı kiçik buxtada lövbər salır. İspanlar hinduların qadınlarına xüsusi maraq göstərdiyindən aborigenlər onları düşmən kimi qarşılayırlar. Bütün sahil alliqatorlarla bol idi. Kolumb burada qızıl axtarışının mənasızlığını başa düşərək, yenə də Veraquaya qayıtmalı olur. Lakin hava həddindən artıq pisləşdiyindən, ispanlar yolda olmazın çətinliklərlə üzləşirlər. Səyahət boyu onlar bu cür fırtınalara və küləklərə rast gəlməmişlər.

1503-cü ilin əvvəlində  növbəti fırtına başlanan kimi Kolumb gəmiləri Panama bərxəzinin ən ensiz yerində yerləşən buxtaya gətirir və burada müvəqqəti sığınacaq tapır. Sakit okeanı ispanlardan yalnız bir neçə kilometr yol ayırır, lakin həmin məsafəni qət etməkdə heç kimdə hal qalmamışdı. Hamı əldən düşərək, vaxtını ancaq isirahət etməklə keçirirdi. Həm də Kolumb özü istəmirdi ki, belə bir qüvvə ilə bu dəfə Panama bərxəzini qət etsin. Admiral həmin keçidi beşinci səyahət üçün saxlayırdı. Bir çox alimlər qeyd edirlər ki, Kolumbun fikrincə, hindulardan sorğu-sual edəndən sonra o, elə bilirdi ki, Panama bərxəzinin o biri tərəfində məhz Çin və ya Hindistan yerləşir. Lakin mənim fikrimcə, Kolumb çox yaxşı bilirdi ki, həmin bərxəzdən o tayda, bu qitə ilə Asiyanı ayıran iri bir su hövzəsi yerləşir və çox güman ki, Kolumb həmin su

hövzəsinin kəşf edilməsini beşinci səyahətə saxlayırdı. İş ondadır ki, həmin su hövzəsini elə bu ekspedisiya zamanı da kəşf edə bilərdi. Lakin Kolumb entuziast və hər bir şeyə diqqətlə yanaşan bir adam idi. Panama bərxəzini keçəndən sonra hökmən o, həmin su hövzəsində tədqiqat işləri aparmalı idi. Onun ixtiyarında nə gəmi, nə də ki, həmin gəmiləri istehsal edən ustalar vardı. Beşinci səyahət zamanı isə məşhur dəniz səyyahı bir başa Karib dənizinin qərb sahilinə gələcək və tərəddüd etmədən gətirəcəyi gəmi ustaları ilə birlikdə Panama bərxəzini keçəcək. Gəmilər hazır olandan sonra isə o, nəhəng su hövzəsini ya şimal, ya da ki, cənub istiqamətində öz səyahətini davam etdirəcək. Çox güman ki, Kolumb həmin səyahətin marşrutunu cənub istiqamətinə yönəldəcək. Bunun səbəbini mən aşağıda açıqlayacağam.

Yanvarın 6-da ispanlar bir çayın mənsəbində lövbər salırlar və Kolumb həmin yeri Belen adlandırır. Burada o, qala saldırmaqla, möhkəm bir yaşayış məntəqəsi yaradır. Əsasən bu ondan ötrü edilir ki, yaxınlıqda olan hindulardan çoxlu qızıl toplasınlar. Lakin onlar az miqdarda qiymətli metaldan tapırlar. Kolumb çox yaxşı başa düşürdü ki, İspaniyadan əlavə kömək gəlməmiş o, buradakı missiyanı öhdəsindən müvəffəqiyyətlə gələ bilməyəcək. Admiral Belendə qardaşı Bartolomeonu yerinə qoyub özü isə

İspaniyaya yollanmaq istəyirdi. Lakin Kolumb axırıncı səyahət zamanı həddindən artıq bərk zəifləmişdi.



***Kolumbun ekspedisiyası Atlantik okeanını qət edir***

Başqalarına nisbətən Bartolomeo böyük fiziki gücə və tükənməz ehtirasa malik olan bir adam idi. Qiymətli

metalın axtarışını bir saatlıq olsun o, dayandırmırdı. Axtarış zamanı bir günün içində Bartolomeo qarşıda olan çayı qırx iki dəfə oyanbuyan keçmişdi. Qızıl axtarışları ilə paralel olaraq, ispanlar Santa-Mariya-de-Belen yaşayış məntəqəsinin əsasını qoyurlar.

Yağışlar səngiyəndən sonra dəniz sakitləşdi və fürsətdən istifadə edən admiral həmin yeri tərk edib İspaniyaya yola düşmək istədi. Lakin çayın mənsəbində su o qədər öz səviyyəsindən aşağı düşür ki, karavellalar dayazlıqdan dənizə çıxa bilmirlər. Hindular başa düşəndə ki, ispanların bir qismi burada qalacaqlar, onların avropalılara olan münasibətləri kəskinləşir. Aborigenlər hətta ispanları mühasirəyə də alırlar. Vəziyyəti belə görən qorxmaz və cəsarətli Diyeqo Mendes adlı bir idalqo igidlik göstərərək, hinduların düşərgəsinə yaxınlaşır və orada pusqu qurur. O, yerli kasiki və kasikin əlaltılarından 30 adamı əsir alaraq onları hindu döyüşçülərinin qarşısından, özü ilə Kolumbun yanına gətirir.

Buna baxmayaraq kasik əsirlikdən qaça bilir və çox keçməmiş ispanlardan qisas alır. Gəmi kapitanlarından biri olan Diyeqo Trisdan yanında bir matrosla birlikdə çaydan su dolduran zaman hindular tərəfindən öldürülür. Çayın axını meyidləri mənsəbə tərəf aparıb çıxarır. Kolumb bu vaxtı ağır xəstə halda uzanmışdı və heç cürə darda olanlara

köməkliyini göstərə bilmirdi. Hindular sahilə hücum edəndə Bartolomeo yaralanır. Aborigenləri yalnız topların atəşləri geri qayıtmağa məcbur edir. Fürsətdən istifadə edən əsirlərin yarısı tryumun lükunu sındıraraq həbsdən qaçırlar, qalanları isə həmin imkandan məhrum olduqda özlərini öldürürlər. Artıq Kolumbun əlində bir nəfər olsun belə əsir yox idi. Sahildə qalan ispanları hinduların kəskin hücumları gözləyirdi. Lakin Diyeqo Mendes növbəti dəfə qəhrəmanlıq göstərir: aborigenlərin əsas hücumunu öz üzərinə götürərək, silahdaşların hamısına, gəmiyə qalxmağa imkan yaradır. Bu igidliyinə görə Kolumb onu, həlak olmuş Diyeqo Tristanın başçılıq etdiyi gəmisinə kapitan təyin edir.

1503-cü ilin aprelin 16-da 3 karavella ispanlar üçün münasib olmayan Beleni tərk edir. Dördüncü karavella çürüdüyündən onlar gəmini yandırırlar.

Sonuncu səyahət zamanı Kolumbun demək olar ki, bəxti gətirmirdi. O, Espanyolaya gedib orada dincəlmək istəyirdi. Lakin gəmi bir də sıradan çıxdı və admiral aprelin 23-də növbəti karavellanı Puerto-Beloda, məcburi olaraq yandırdı. Yerdə qalan iki gəmi də yararsız halda olur. Bundan əlavə sahilə çıxmaq üçün ispanların ixtiyarında cəmisi bir qayıq qalır.

Mayın 1-də iki gəmi şimal istiqamətində yola düşür və ayın 12-də Kuba sahillərinə yaxınlaşırlar. Gəmilər demək

olar ki, tamamilə sıradan çıxmışdılar. Tryumlara dolan suları matroslar dayanmadan pompaların gücü ilə boşaldırdılar. Admiral başa düşür ki, belə bir gəmilərlə Espanyolaya çatmaq mümkün olmayacaq. Odur ki, kursu Yamayka adasına döndərir və iyunun 25-də Puerto-Santa-Qloriya buxtasına gəlib çıxır.

Bu liman ispanlar üçün çox münasib bir yer sayılırdı, şirin su, 1 km. aralıda hindu kəndi və yumşaq iqlim. Ekspedisiyanın tərkibində hələ 116 nəfər adam vardı və onların hamısını ərzaqla təmin etmək lazım idi. Qorxunun nə olduğunu bilməyən, mərd, şücaətli Diyeqo Mendes qətiyyətlə hindularla danışıqlara gedərək, öz silahdaşları üçün ərzaq əldə edir. Lakin gəmilərin düzəlişi və təmiri barəsində düşünmək, sadəcə olaraq sadəlöhvlük sayılırdı. Ona görə ki, səyahət zamanı alətlər itirilmiş, gəmi ustaları isə Veraqua sahilində hindular tərəfindən öldürülmüşdür. Son nəticədə isə axırıncı qayığı da itirirlər. Kömək üçün aborigenlərin qayıqlarında Espanyola adasına adamlar göndərilməli idi. Bu o demək idi ki, əks cərəyan istiqamətində 450 mil üzmək lazım olacaqdır. Belə bir ağır əməliyyata kim könüllü olaraq yollanacaqdı? Əlbəttə, öz mərdliyi ilə hər bir adamdan fərqlənən Diyeqo Mendes. Hamı imtina edəndən sonra o, özü ilə bir ispan və altı nəfər hindu götürərək, bir qayıqda səyahətə yollanır. Yamayka-

nın şərq qurtaracağında, sahilə çıxanda hindular onları mühasirəyə alır. Lakin Diyeqo onların əlindən qaça bilir. O, Espanyolaya tək də yollana bilərdi, ancaq bunu təkbaşına edə bilməyəcəyini dərk edib Puerto-Santa-Qloriyaya qayıdır. Bu dəfə onunla, karavellaların birinin kapitanı genuyalı Bartolomeo Fiyeski də yollanmağı qərara alır və onlar iki hindu qayığında (hər qayıqda yeddi nəfər ispan və on nəfər hindu vardı) Yamaykanı tərk edirlər.

Bir tərəfdən havanın isti olması, digər tərəfdən içməli suyun az olması avar çəkənlərin işini xeyli ağırlaşdırırdı. İkinci gecədə hindulardan biri susuzluqdan dünyasını dəyişir. Dördüncü günü onlar balaca bir adada qayaların arasında içməli su tapırlar. Hindulardan bəziləri o qədər su içirlər ki, onların ürəyi tab gətirməyib partlayır. Bütün bunlara baxmayaraq onlar ertəsi günü Espanyolanın qərb sahilinə çatırlar. Həmin yerdən Fiyeski Yamaykaya qayıdıb səyahətin uğurlu keçdiyini Kolumba xəbər verməli idi. Lakin növbəti keçiddə heç kim onu müşayiət etmək istəmədi. Məhz buna görə də admiralın onların aqibətindən heç bir məlumatı olmur. Artıq vaxt itirmək istəməyən Mendes, cəld qubernator Ovandonu Espanyolanın daxili rayonlarında tapır və Kolumbun düşdüyü ağır vəziyyətdən onu hali edir. Qubernator admiralın üzləşdiyi uğursuzluqlarını eşidən kimi öz hərarətini gizlətmir. Lakin o, kömək

əlini uzatmaq əvəzinə Mendesi düz yeddi ay öz düşərgəsində saxlayır. Orada olarkən qorxmaz kapitan, Ovandonun hansı metodlarla adada "sülh" əldə etdiyinin şahidi olur. 1504-cü ilin mart ayında Mendes piyada Santo-Dominqoya gəlir və limanda bir karavellanı görür, lakin qubernator gəmini götürməyi ona qadağan edir.




***Kolumbun Yeni Dünya sahillərinə olan dörd səyahəti***

Kolumbun işi həddindən artıq çətinləşirdi. Santa-Qloriyada qiyam baş vermək üzrə idi. Gəmi kapitanlarından biri Fransisko Porras pis dənizçi olduğundan səyahət boyu Bartolomeo onu kapitan vəzifəsində əvəz edirdi. Heyətin

yarısı onun başçılığı alında qiyama qalxır. Porras onlardan İspaniyada kömək kimi istifadə etmək fikrində idi. Hətta iş o yerə gəlib çatır ki, qiyamçılar, xəstə vəziyyətdə çarpayıda uzanan admirala öldürmək hədə-qorxusu gəlirlər. Sonradan onlar, Espanola adasına qayıqlarda getmək üçün hindulara qarşı zor tətbiq edirlər. Qiyamçılara Karib dənizini qət etmək müəssər olmur, halbuki qayıqlar yüngəlləşsin deyə, onlar hinduların yarısını qayıqdan suya atırlar. Üç cəhdən sonra onlar adaya qayıdıb, orada hindu kəndlərinə basqınlar təşkil etməyə başlayırlar.

1504-cü ilin mart ayında Santa-Qloriyada, Ovandonun göndərdiyi bir karavella görünür. Qubernator əmin olmaq istəyirdi ki, həmin karavella ona Kolumbun ölüm xəbərini çatdıracaq. Çünki gəminin kapitanı Espanyolanın hakimindən xüsusi göstəriş almışdı ki, Yamaykada olan bir adamı da göyərtəyə qaldırmasınlar. Elə həmin vaxtı Porrasın başçılığı altında hücum edərək, düşərgəsini ələ keçirirlər. Onların çoxu öldürülür, başçıları isə əsir alınır.

İspaniyadan Santo-Dominqoya üç gəmidən ibarət eskadra gələn kimi Mendes şirin vədlərlə gəminin birini admiralın köməyinə göndərməyə müvəffəq olur. Özü isə, Kolumbun məktublarını monarxlara çatdırmaq üçün, İspaniyaya yollanır.

Bir il və bir gün məcburi şəkildə Yamaykada qalan dənizçilər, nəhayət iyulun 26-da adanı tərk edirlər və avqustun 13-də Santo-Dominqoya gəlirlər. Kolumbun acığına Ovando qiyamın başında duran Porrası qandallardan azad edir. Artıq admiral açıq-aydın başa düşür ki, qubernatordan heç bir yaxşılıq gözləmək mümkün olmayacaq. Sentyabrın 11-də Kolumb, oğlu Ferdinand, qardaşı Bartolomeo və 22 nəfər dənizçi öz hesablarına bir gəmi tutaraq İspaniyaya yollanırlar. Okean keçidi əvvəlki səyahətlərə nisbətən həddindən çox uzanır və onlar 56 gündən sonra noyabrın 7-də San-Lukar-de-Barrameda limanına çatırlar.

Məşhur dəniz səyyahını bu dəfə dövlət məmurlarından heç kim qarşılamır və paralel olaraq onu hətta saraya da dəvət etmirlər.

## Xristofor Kolumbun əldə etdiyi tarixi nailiyyətlər monarxlar tərəfindən lazımi səviyyədə qiymətləndirilmir

Kral sarayında vəziyyət pis olduğundan admiralı ora dəvət etmirlər. Kolumbun himayədarı sayılan İzabella Kastiliyalı ölüm yatağında idi. Admiral səyahətdən 19 gün idi qayıtmışdı ki, noyabrın 26-da kraliça vəfat edir və bununla da Köhnə Dünyaya böyük bir qitəni bağışlayan məşhur dəniz səyyahının, sərbəst fəaliyyətinə son qoyulur.

Xristofor Kolumbun Yeni Dünya sahillərinə təşkil etdiyi dörd səyahətinin qısa xronologiyasını ona görə qeyd etdim ki, hamı bir nəfərə kimi bilməlidir, onun kəşf elədiyi iri torpaq ərazisi və minlərlə ada asan başa gəlməyibdir. Admiralın sahil zolağından ayrılaraq uzun açıq okeandan naməlum torpaq parçasının axtarışı ən böyük cəsarət və fədakarlıq sayılır. Ümumiyyətlə, hər hansı bir coğrafi kəşfi əldə etməkdən ötrü açıq okeanı qət etmək nəinki hər bir dənizçinin, hətta hər bir dəniz səyyahının da işi deyildi.

Kolumb öz layihəsinin Portuqaliyanın və yaxud da İspaniyanın monarxlarına təqdim etməklə, Atlantik okeanın qərb istiqamətində qət edəcəyini qətiyyətlə bildirir və bununla da Yer planetinin kürə şəklində olması ideyasını

ortaya atmaqla, bunu praktik cəhətcə sübut etməyin mümkünlüyünü üzə çıxarır.

Kolumb Şərqi Asiyada yaşayan böyük xalqların mərdliyinə, döyüşkənliyinə cürbəcür ədəbiyyatların vasitəsi ilə tanış idi. İstəyirdi bilsin ki, Avropa Dünyasına məlum olmayan yeni qitənin sakinlərində də bu cür xarakterlər var, ya yox? İnsan xarakterində əsas rol oynayan müsbət keyfiyyətlərin öyrənilməsi, kəşf olunan torpaqların varisini hədsiz dərəcədə çox maraqlandırırdı. Ona görə ki, burdakı aborigenlərin əsarət altına alınmasının sürəti məhz həmin torpaqlarda yaşayan hindularda olan xarakterdən asılı idi. Döyüşkənlik və cəsarət böyükdürsə, onda işğalçılıq prossesi ləng gedəcək.

Həm birinci, həm də ikinci səyahət zamanı hər bir şeydə diqqətli olan Kolumb, hindularla görüş baş verəndə, ilk anda aborigenlərin, ispanları görüb simalarında yaranan reaksiyalara nəzər yetirmişdi. Hinduların sivil torpaqdan gələn adamlar və onların üst-başlarına təəccüb hissi ilə nəzər yetirlmələri admiralın diqqətindən yayınmırdı. İkinci səyahət zamanı bir epizodu yada salmaq istəyirəm.

Qvadelupa adası kəşf ediləndən sonra Kolumb noyabrın 11-dən 13-nə qədər Montserrat, Antiqua, Nevis, Sant-Kitts, Sant-Estatius, Saba və Santa-Kruz adalarını kəşf edir. Axırıncı adada –ispanlar uzaqdan səliqə ilə becərilmiş əkin

sahələrini görürlər. Espanyolaya çatmaq və başqa mühüm adaları kəşf etməkdən ötrü Kolumb buradan bələdçi götürməyi qərara alaraq, sahilə silahlı adamlarla dolu olan bir bot göndərir. İspanlar sahildən bir neçə nəfər qadın və oğlan uşaqları (kariblərdən) götürməyə müvəffəq olurlar. Lakin geri qayıdan zaman onlar kariblərin kanoesi ilə üzləşirlər. Kariblər dənizdə böyük gəmiləri görəndə təəccübdən yerlərində donub qalırlar. Onlar inana bilmirdilər ki, həyatda o irilikdə gəmi ola bilər. Onların qəribə hislərlə dolu olan təəccübü Kolumbun diqqətindən yayına bilməzdi. Admiral çox yaxşı bilirdi ki, Asiya qitəsinin ucqar şərqində conka və başqa tipli yelkənli gəmilərin görməsi adi hal sayıla bilərdi.

Aborigenlər gəmiləri görəndə, təəccübdən əlavə, bərk qorxaraq təşvişə düşürlər və belə zənn edirlər ki, qarşılarında olan adamlar tamamilə başqa diyardan gələn insan məxluqudurlar. Espedisiyanın həkimi Diyeqo Çanka Santa-Kruz adasında yaşayan aborigenlərin ispanlarla görüşü haqqında növbəti yazılarını qeyd edir: "Sahildən bot, dənizdən isə gəmi hinduları əhatəyə alanda hindular müqavimət göstərməyi qərara alırlar. Hindu qayıında altı nəfər idi - dörd kişi və iki qadın. Bizimkilər isə iyirmi beş nəfər. Hindular görəndəki qaçmağa imkan yoxdur, onlar kamanlarını hazırlıqlı vəziyyətə gətirərək, bizimkiləri ox

atəşinə tuturlar. İş ondadır ki, qadınlar da kişilərdən geri qalmırlar. Onlar bizimkilərdən iki nəfərini yaralayırlar. Əgər, bizim gəmi hindulara yaxınlaşıb onların kanoesini aşırmasaydıq, onda bizim itkilərimiz daha da çox ola bilərdi. Aborigenlər dayaz yerə çıxıb oradan bizi ox ilə vurmağa başlayırlar... onlardan yalnız birini, nizə ilə yaraladıqdan sonra, əsir ola bildik". Bu onu sübut edir ki, hindular yenilməz bir tayfa kimi öz azadlıqları uğrunda ölüm-dirim mübarizəsi aparırdılar. Kolumb belə qənaətə gəlir ki, onların yaşadıqları torpaqların asan yol ilə zəbt etmək mümkün olmayacaq. Həqiqətən də kariblər aravaklara nisbətən həddindən artıq mübariz tayfa sayılırdılar. Bütün bunlara baxmayaraq sonrakı etaplarda Antil adalarına həddindən artıq döyüşkən ispan idalqoları gəlir və min illərlə yaşadıqları dədə-baba torpaqlarında, hinduları qılıncdan keçirirlər. İlk növbədə müstəmləkəçilərə hörmətlə yanaşan, onlara etibar edən hindu tayfaları kütləvi surətdə məhv edilirlər. Antil adalarında yaşayan aborigenlərin sayı kəskin surətdə azalmağa başlayır. Yalnız Espanyola adasında, 1492-ci ildən 1548-ci ilə qədər, yüz minlik əhalidən cəmisi 500 nəfər adam sağ qalır. Hinduların başına gələn bütün bu müsibətlərdə Kolumbu günahlandırmaq yersiz sayılır. Məşhur dəniz səyyahı Yeni Dünyanı tamamilə

başqa cür görmək istəyirdi – Köhnə Dünyadan heç də geri qalmayan Sivil Dünya.



***Admiral Kolumb yaşlı çağında***

Lakin Atlantik okeanının o tayındakı qitə 1492-ci ildə kəşf olunmaya da bilərdi. Sadəcə olaraq, həmin qitə məşhur

dəniz səyyahının böyük ustalığı sayəsində kəşf edilmişdi. Kolumbun yerinə başqası olsaydı, çox güman ki, həmin adam həmin tarixi səyahətdən sağ qayıtmayacaqdı. Çünki heç kim naviqasiya elmini məşhur dəniz səyyahı kimi peşəkarcasına bilmirdi. Admiral həm qərb, həm də ki, şərq istiqamətində əsən Passat küləklərindən peşəkar bir naviqator kimi istifadə edirdi. Deyək ki, başqa bir səyyah qərb istiqamətində üzərək Yeni Dünya sahillərini kəşf etsəydi, şübhəsiz həmin səyyah vətənə sağ qayıtmayacaqdı. Ona görə ki, Haiti və yaxud Antil arxipelaqında hər hansı bir ada kəşf ediləndən sonra, həmin yerdən şərq istiqamətində əsən Passat küləklərini tuta bilməyəcəkdi və İspaniya sahillərinə hər bir üzmək cəhdi boşa çıxacaqdı. Nəticədə gəmidə olanlar təbii fəlakətlə üzləşib okeanda həlak olmalıydılar.

Kolumb həmin zəmanədə yaşamasaydı, çox güman ki, Amerika qitəsi nə 1492-ci ildə, nə də ki, həmin tarixdən 40-50 il sonra bəşəriyyət üçün kəşf edilməyəcəkdi. Həmin qitənin kəşf edilməsi üçün naviqasiya aparatlarının təkmilləşməsi, naviqasiya sisteminin inkişafı və açıq dənizdə coğrafi uzunluğunun təyin edilməsi lazım idi. İşdir, Kolumb həmin səyahətdən sonra öz vətəninə sağ qayıtmasaydı, onda həqiqətən də Yeni Dünya sahillərinin kəşfi xeyli müddət uzanacaqdı. Çünki Atlantik okeanının

qərb hissəsinə yollanan səyyahların siyahısı – Voqado, Ferdinand van Olmen və Xristofor Kolumb – çoxalacaq və ondan sonra təhlükəli səyahətə yollananların sayı sıfır həddinə enəcəkdi. Hətta həmin uğursuz ekspedisiyadan sonra da Kolumb kimi peşəkar naviqator, qorxmaz dənizçi öz həyatını risqə qoyub okeanın o tayına səyahətə yollanmağa hazır olsaydı, şübhəsiz ki, həmin ekspedisiyanın maliyyələşdirilməsini heç bir monarx öz öhdəsinə götürməz və hamı üçün perspektivsiz görünən həmin səyahətə razılıq verməzdi.

Maraqlı cəhət oldur ki, Kolumbun 1492-ci ildə səyahətə yollanması, dünya əhəmiyyətli coğrafi kəşflər tarixində uğurlu il sayılır. Ona görə ki, həmin dövrə qədər Portuqaliyanın dəniz səyyahı Bartolomeo Diaş Afrikanın cənubunda, Avropadan Hindistana gedən dəniz yolunun üstündəki, Ümid burnunu 1488-ci ildə kəşf edir. Hindistana yol açıq olsa da, qızılların və ədviyyat mallarının diyarı sayılan həmin ölkəyə dəniz yolu kəşf edilməmişdir. İşdir, Vasko da Qama Hindistana gedən yolu 1498-ci ildə deyil, 1492-ci ilə qədər kəşf etsəydi, onda ola bilsin ki, İspaniyanın monarxları Kolumbun ekspedisiyanın hazırlanmasına və ümumiyyətlə, qərb istiqamətində həmin səyahətə yollanmasına heç bir razılıq verməyəcəkdilər. Axı, onun səyahəti Atlantik okeanını qərb istiqamətində üzməklə, Hindistana

gedən dəniz yolunun kəşf etmək adı ilə təşkil olunmuşdur. Deməli, Kolumb portuqal dəniz səyyahı Vasko da Qamanı 6 il qabaqlamaqla, Amerika qitəsinin təxminən 100 il sonra baş verəcək kəşfinin qarşısını almış və Yeni Dünyanın kəşfini Köhnə Dünya üçün 100 il sürətlənmişdi. Bu o deməkdir ki, Kolumb həmin kəşfi həyata keçirməklə, həqiqətən də coğrafi kəşflər sahəsində əsil möcüzə yaratmışdı.

Kolumb olmasa idi və Hindistana gedən şərq yolu Portuqaliyanın dəniz səyyahları tərəfindən tez kəşf olunsaydı, onda Yeni Dünya sahillərinə kəşf edilmiş müxtəlif ekspedisiyalarda iştirak edərək, coğrafi kəşflər sahəsində mühüm rol oynamış dünya ensiklopediyasının tarixi səhifələrinə düşmüş Fransisko Pisarro, Ernan Kortes, Vasko de Balboa, Alonso de Oxeda, Pedro Alonso (Peralonso) Ninyo, Visente Yanyes Pinson, Xuan Dias Solis, Fransisko Ernandes Kordova, Alvaro Nunyes Kavesa de Vaka, Martin Ernandes Ensiso, Andres Urdaneta, Diyeqo Lepe, Alonso Veles de Mendosa, Rodriqo Bastidas, Sebastyan Okampo, Xuan Ponse de Leon, Fransisko Orelyana, Xuan Qrixalva, Qaspar Espinosa və s. kimi məşhur dəniz səyyahlarının adları heç vaxt eşitməyəcəkdik. Onların hamısı bir nəfərə kimi adları tarixə düşdüklərinə görə Kolumba borcludurlar.

Portuqaliya kralı II Juanın məsləhətçiləri izah edirdilər ki, Kolumbun ekspedisiyası iflasa uğrayacaq. Çünki **"Riyaziyyatçılar Xuntası"**nın üzvləri də, hamısı bir nəfərə kimi qətiyyətlə bildiriblər ki, Hindistana qərb yolu ilə getmək mümkün deyil. Atlantik okeanı həddindən artıq böyük olduğundan onu qərb istiqamətində qət etmək sadəcə olaraq absurddur. Kolumb öz layihəsini həyata keçirməyə cəhd göstərsə də yalnız okeanda, Azör və Madeyra adalarının yaxın olan bir neçə xırda adaları kəşf edərək geri qayıdacaq. Belə bir nəticə isə portuqalların Atlantik okeanında apardıqları tədqiqat işlərinə heç bir xələl gətirməyəcək.

Tarixdən göründüyü kimi hər şey tərsinə baş verir. Kolumb qərb istiqamətində səyahətə yollanaraq, okeanın həmin hissəsində naməlum iri bir torpaq ərazisini kəşf edir və vətənə triufator kimi qayıdır. Lakin geri qayıdarkən portuqallar ispanlara maneəçilik törətmək istəyirlər.

Yeni Dünya sahilləri kəşf ediləndən sonra Kolumb geri qayıdarkən, 1493-cü ilin fevralın 18-də *"Ninya"* gəmisi ilə Azör adalarının tərkibində olan Santa-Mariya adasının şimal-şərqində yerləşən Nossa-Senyora-Duş-Anjuş qəsəbəsi yaxınlığında sahilə yan alır. Ertəsi günü admiral heyətinin yarısını, sağ-salamat qayıtdıqlarına görə Allaha dua etməkdən ötrü kilsəyə göndərir, lakin portuqal əsgərləri onları həbsə alaraq dustaqxanaya salırlar. Dənizçilərin azad

olunması üçün Kolumb portuqallarla danışıqlara başlayır. Söz yox ki, Azör adalarına nəzarət edən portuqalların ixtiayrında kifayət qədər qüvvə olsaydı, onlar *"Ninya"* gəmisinə hücum edərək, karavellanı da ələ keçirərdilər. Lakin Kolumb danışıqlarda izah edir ki, hazırda İspaniyaya iki gəmi yollanıb. İşdir, *"Ninya"* portuqallar tərəfindən ələ keçirilsə, onda *"Pinta"*nın kapitanı bu haqda İspaniyanın monarxlarına xəbər verəcək. Belə olan halda Pireney yarımadasındakı hər iki krallıq – Portuqaliya ilə İspaniya nəzərdə tutulur – arasında silahlı münaqişə baş verə bilər. Bu izahatdan sonra portuqallar çəkinərək, *"Ninya"*nı bütün heyəti ilə birlikdə azad edirlər. Fevralın 24-də ispan karavellası Azör adalarını tərk edir.

Avropaya çatanda Kolumb yenə də bir problemlə üzləşir. Lissabonda kral II Juan onu sonuncu dəfə yanına dəvət edəndə aralarındakı söhbət konfedensial xarakter daşımışdı. Əlbəttə, Portuqaliyanın kralı ispan ekspedisiyasının İspaniyaya qayıtmasını istəmirdi. O, çox güman ki, admirala Portuqaliyada qalmaq təklifini də vermişdi. Çünki elə birinci görüşdən II Juan məşhur dəniz səyyahını səmimi qəlbdən, xoş təbəssümlə qarşılamışdır. Əlbəttə, Kolumbun cavabı birmənalı olmalıydı. Ona görə ki, admiralı İspaniyada bu müvəffəqiyyətə görə tamtəraqla qəbul gözləyir və onun şərəfinə ziyafət görüşləri təşkil edəcəklər. Kral istəsə

idi, Kolumbu İspaniyaya buraxmazdı və min-bir bəhanə ilə aradan götürərdi. Lakin bunun üçün heç bir ehtiyac yox idi. Ona grə ki, portuqalları Atlantikada fəaliyyət göstərdikləri məxfi missiyaları ciddi-cəhdlə Hindistana su yolunu axtarır və hələlik müvəffəqiyyət əldə edə bilməmişdilər və kral da əmin idi ki, genuyalı dənizçi Atlantikanın qərb hissəsində Asiyanın bir hissəsi yox, məhz naməlum xırda adaları kəşf etmişdi.

İş ondadır ki, II Juan ilk növbədə ekspedisiyanın nəticələri ilə maraqlanırdı. Maraqlandıran suallardan da biri o idi ki, görəsən Kolumbun başçılıq etdiyi ekspedisiya gedib Hindistana və yaxud da Asiya qitəsinin hər hansı bir ölkəsinə çıxıb, ya yox? Kolumb nə qədər iddia etsə ki, gedib Hindistana, Yaponiyaya və Çinə çıxıb, həmin ölkələr üzrə ekspertlər və mütəxəssislər başqa fikirdə idilər. İspaniya monarxlarına nisbətən məşhur dəniz səyyahı Portuqaliyanın monarxını aldada bilməmişdi. Ən azı ona görə ki, həmin ölkələr üzrə II Juanın güclü və bacarıqlı məsləhətçiləri vardı. Onlar izah edirdilər ki, əgər, Kolumb adı çəkilən ölkələrə gedib çıxsaydı, onda o, hökmən oralardan çoxlu qızıl və ədviyyat malları gətirməli idi. Admiral isə Avropaya yalnız azacıq qızılla və bir neçə nəfərdən olan aborigenlə qayıtmışdı. Deməli, ispan ekspedisiyası Atlantik

okeanın qərb hissəsində yalnız bir neçə adanı kəşf edərək, səyahətdən geri dönmüşdü.

Elə gələcəkdə, poruqalların Atlantik okeanının qərb hissəsinə təşkil olunacaq ekspedisiyalardan imtina etmələri bu amil ilə bağlı idi. Onlar elə bilirdilər ki, okeanın həmin hissəsində kiçik adalardan başqa iri bir torpaq ərazisi yerləşmir.

Belə olan halda kral II Juan Kolumbu yüksək səviyyədə öz sarayından yola salır. Necə olsa da, o, məşhur dəniz səyyahının dahiliyinə inanırmış və anlayırdı ki, Kolumb "xırda adalar" belə kəşf etsə də, lakin ağır bir səyahətdən qayıtmışdı. Axı, kral yaxşı bilirdi ki, okeanın qərb hissəsinə bir neçə portuqal ekspedisiyası yollanıb, lakin onların heç birisi müvəffəqiyyət qazanmamışdılar. Məhz bu səbəbdən Portuqal kralı Hindistana qədər şərq yolunun kəşf edilməsinə tələsməmişdilər. Həmin yolun da Kolumbun birinci səyahətindən 6 il sonra 1498-ci ildə Vasko da Qama tərəfindən kəşf edilməsi təsadüf deyildi. Lakin Portuqaliya gecikmişdi.

## Dördüncü qitənin şərq qurtaracağının koordinatları Alonso Pinsona da məlum imiş

Kolumb Yeni Dünya sahillərinə 4 dəfə səyahət edib və hər dəfə də Karib dənizinin başqa-başqa yerlərində tədqiqat işləri aparıb. Birinci səyahət zamanı (1492-1493) admiral, Haiti, Kuba və Baham adalarını kəşf edir. İkinci səyahət zamanı (1493-1496) o, Kiçik Antil adalarının şimal-şərq hissəsində yerləşən Puerto-Riko və Yamayka adalarını kəşf edir. Bundan əlavə admiral Espanyola və Kuba adalarının cənub sahillərini tədqiq edərək həmin kəşfi başa çatdırır. Üçüncü səyahət zamanı (1498-1500) Kolumb Kiçik Antil adalarının cənub hissəsini, Cənub materikinin şimal sahilini və Orinoko çayının mənsəbini kəşf edir. Dördüncü səyahət zamanı (1502-1504) o, Kiçik Antilin Dominika və Martinika adalarını və Qızıl Kastiliyanın bütün şərq sahillərini kəşf edir. Bununla da məşhur dəniz səyyahı Karib dənizi akvatoriyasında yerləşən mühüm coğrafi mövqelərin kəşfini başa çatdırır.

Göründüyü kimi Kolumb hər səyahət zamanı kəşf etdiyi qitənin başqa-başqa yerlərini tədqiq edərək öz fəaliyyətini genişləndirmək planını nəzərdə tutmuşdu. Onun ömrü imkan versəydi hələ bilmək olmazdı Kolumb beşinci dəfə də Yeni Dünya sahillərinə üz tutar və Allah bilir o, hansı

ərazilər kəşf edərdi? Ancaq buna baxmayaraq o, kəşf etdiyi bütün torpaqların varisi sayılır və həmin vərəsəlik onun övladlarına keçirdi. Səyyahın imzaladığı müqavilədə belə göstərilmişdir. Kolumb öz sağlığında həmin torpaqların vərəsəliyi haqqında İspaniyanın taxt-tacında əyləşən nə Ferdinand Araqonlu ilə, nə də ki, İzabella Kastiliyalı ilə mübahisələr apara bilməzdi. Çünki o, faktiki olaraq İspaniyanın monarxlarını hiyləgərcəsinə aldatmışdır. Sübut olunub ki, Kolumb öləndən sonra övladları kəşf edilmiş torpaqlara dair vərəsəlik haqqında qanunun hüquqa minməsini tələb etməyə başladılar. Məlumdur ki, bu işlər üzrə İspaniyada böyük məhkəmələr getmişdir.

Bu açıqlamalar vaxtı bir çox həqiqətlər üzə çıxmağa başlayır. Belə çıxır ki, Kolumb nəinki İspaniyanın monarxlarını, hətta dünya ictimaiyyətini də aldatmağa çalışmışdır. Dahi səyyahın kral sarayında gözdən düşməsinə səbəb bunlar idi. Kolumbun dövri fəaliyyətinə aid sənədləri nəzərdən keçirən zaman mən də belə bir qənaətə gəldim ki, səyyah müqaviləyə imza atan zaman bilərəkdən İspaniya monarxlarını aldatmağa çalışmışdır. Düzdür o, Ferdinand Araqonlunu və İzabella Kastiliyanı aldadanda monarxlar başa düşməmişdilər ki, peşəkar dənizçi onları aldadır. İspaniyanın monarxları Kolumba istədiyi imtiyazları verməklə və müqaviləyə imza atmaqla elə bilmişdilər

ki, onlar özləri entuziast dənizçini aldadıblar. Bayaqları qeyd edildiyi kimi müqavilənin şərtlərinə əsasən, Kolumb yalnız kəşf edəcəyi torpaqların varisi sayılacaq və həmin vərəsəlik nəsildən-nəsilə geçəcək. Torpaq kəşf edilən kimi o, formal cəhətcə həm admiral, həm də həmin ərazinin vitse-kralı sayılacaq.

Tarixə nəzər salsaq görərik ki, Quanaxini adası kəşf edilən kimi Kolumb, *"Pinta"* gəmisinin kapitanı Martin Alonso Pinson, *"Ninya*" gəmisinin kapitanı Visente Yanyes Pinson, notarius və kral nəzarətçisi sahilə çıxırlar və Kastiliyanın bayrağı yerə sancılan kimi dəniz səyyahına onun titulları elan edilir. Məlum olduğu kimi Ferdinand Araqonlu ilə İzabella Kastiliyalı öz dediklərinin üstündə dururlar, ancaq onu da bilirlər ki, Kolumb faktiki olaraq heç bir torpağın varisi ola bilməyəcək. Çünki müqaviləyə əsasən admiral kəşf edəcəyi torpaqların varisi sayıla bilər. Asiya qitəsində bu mümkün deyildi. Ona görə ki, Kolumb Şərqi Asiyada ya Yaponiya, ya Çin, ya da ki, Hindistan ilə üzləşə bilərdi. Onların isə hər biri Asiyada güclü, qüdrətli müstəqil dövlətlər idi. O, heç vaxt müstəqil dövlətin ərazisini yuridik yol ilə mənimsəyə bilməzdi. İspaniyanın monarxları bütün bunları alimlərin şurasında dəqiq öyrənir və elə başa düşürlər ki, onlar Kolumbu aldatmağa müvəffəq olublar. Uzaqgörən siyasətçi və bacarıqlı sərkərdə sayılan

Ferdinand Araqonlu həyat yoldaşının təkidi ilə Kolumba, həyata keçməyə mümkün olmayan imtiyazları verir, əvəzində isə dəniz səyyahı İspaniya taxt-tacı üçün hava-su kimi lazım olan Asiya qitəsinə qərb yolunu kəşf etməli idi. Lakin monarxlar ağıllarına belə gətirə bilməzdilər ki, Avropa ilə Asiya arasında qərb yarımkürəsində yeni bir qitə var. Onlar belə bir qlobal səhvə yol verəcəklərini gözləmirdilər.

Həqiqətən də İspaniya kralı Ferdinand Aaraqonlu zəmanəsinin ən uzaqgörən siyasətçisi və bacarıqlı sərkərdəsi olub. Krallığının bütün mühüm işlərində o, ehtiyatla hərəkət etmişdi və tələsik addımlara üstünlük verməyi xoşlamırdı. Elə Kolumb ilə bağlanan müqavilə zamanı da Ferdinand düşünülməmiş addımlar atmaq istəməmişdir. Lakin İzabella Kastiliyanın Kolumbun prinsipial hərəkətləri, gördüyü işdə qətiyyətli addımları və gələcəyə nikbinliklə baxışı qarşısında tab gətirməməsi, dənizçinin işlərini xeyli yüngülləşdirir. İş ondadır ki, kraliça Kolumbun bacarığına və təcrübəsinə qibtə edirdi və onun gördüyü işdə müvəffəqiyyət qazanmasına inanırdı. Məhz kraliçanın sayəsində Kolumb Ferdinand Araqonluya bütün şərtlərini yeridir.

O vaxt kralın və kraliça İzabella Kastiliyalının buraxdığı qlobal səhh təsadüf nəticəsində baş verib. Kolumb ilə

monarxların arasındakı müqavilə 1492-ci ildə bağlanıb. Bayaqları qeyd etdiyim kimi 1492-ci ildə kim bilərdi ki, Avropa ilə Asiya qitələri arasında Atlantik okeanında nəhəng bir torpaq ərazisi yerləşir. Məhz buna görə kral səyyahı aldatmaq əvəzinə özü aldanır. Sonradan Ferdinand özü izah edir ki, Yerin kürə şəklində olduğuna inanırdı, ancaq bizim planetin indiki həcmdə iri olduğunu o, heç təsəvvür də etməmişdi. Çünki kral florentsiyalı alim Toskanellinin verdiyi hesabtlara istinad etmişdir. Ona inanmaq olardı, çünki Toskanelli əsrin ən istedadlı alimi sayılırdı. Xəritə Avropada peyda olan zaman (alimin 1474-cü ildə tərtib etdiyi xəritə) bütün qabaqcıl alimlər Yerin kürə şəklində olmasına şübhə etmirdilər. Kim ki, Yerin kürə şəklində olmasına inanırdısa, elə bilirdi ki, Atlantik okeanın o tayında məhz Asiya qitəsi yerləşir.

Sual verilə bilər ki, nəyə görə mən belə fikirləşirəm?

Ona görə ki, o vaxtı Avropanın bütün qabaqcıl alimləri Yer kürəsini belə təsəvvür edirdilər. Yunan alimi Eratosfen e. ə. III əsrdə qeyd etmişdir ki, Atlantik dənizi nəhəng olmasaydı, eyni paralel ilə İberiya yarımadasından Hindistana kimi üzmək olardı. Bu cür Toskanelli və hamı fikirləşirdi. Yalnız Kolumbdan başqa; Nəsirəddin Tusinin sayəsinə yalnız o, bilirdi ki, Atlantik okeanın o tayında namə-

lum iri bir torpaq yerləşir. Lakin səyyah öz layihəsində Atlantik okeanın o tayında Asiya qitəsini göstərir.

Burada bir məsələyə toxunmaq istərdim: sual verilə bilər ki, əgər Tusi dördüncü qitənin mövcudluğu barəsində dürüst məlumat vermişdisə, bundan başqaları bəhrələnə bilməzdi? Daha doğrusu həmin məlumata digər dənizçi və ya alimlər malik idi, ya yox? Mənim zənnimcə, Toskanelli və Kolumbdan başqa digər, adamlar da azərbaycanlı alimin **"Zic Elxani"** koordinatlar cədvəli ilə tanış idi və indiki Braziliyanın ucqar şərq sahilinin harada yerləşməsini dəqiq bilirdilər. Bir neçə namizədlə yanaşı, mən Alonso Pinsonun da adını çəkə bilərdim. Bunu söyləməkdə mənim əsasım var.

Məlumdur ki, Kolumbun birinci səyahəti zamanı Martin Alonso Pinson oktyabrın 6-na kimi ekspedisiya rəhbərinin bütün göstərişlərini qeyd-şərtsiz halda icra edirdi, lakin həmin tarixdən sonra o, inadkarlıq göstərməyə başlayır. Hər halda həmin tarixə kimi ekspedisiyanın qərb kursu ilə hərəkət etməsi Pinsonu qane edirdi, sanki bu marşrut ona tanış idi. Kolumb səyahət zamanı geilən real məsafəni ekspedisiya iştirakçılarından gizlətsə də, demək olar ki, Pinsonun qət edilən məsafənin həqiqi ölçüsündən hali idi. Onun müstəqil hesablamalarına görə gəmilər təxminən

5000 km-lik məsafəni arxada qoymuş, amma torpaq hələ də görünmürdü.

Tarixi qaynaqlardan məlumdur ki, oktyabrın 6-na keçən gecə Martin Alonso genuyalı dənizçi ilə danışıqlara başlayır və ondan kursu qərb, cənub-qərb istiqamətinə döndərməyi tələb edir. Axı, Braziliya sahilləri məhz həmin səmtdə yerləşirdi.

İllər sonrası, daha doğrusu 1515-ci ildə maraqlı hadisə baş verir: Kolumbun varisi Diyeqo Kolon Yeni Dünyaya olan vərəsəlik hüququnu irəli sürəndə İspaniya taxt-tacını məhkəməyə verir. Belə olan halda ispan kralına yaxın olan Xuan de Fonseka (o, Yeni Dünya sahillərində kəşf edilən yeni torpaqları idarə edirdi), Kolumbun şöhrətini heçə endirmək üçün 24 bənddən ibarət olan sorğu-sual kitabçasını hazırlayır. Əsas bəndin birində kəşf edilən torpaqlarda Kolumbun mühüm rol oynamadığı önə çəkilirdi. Həmin şərəf gətirməyən işi saray fiskalı Pedro Ruis öz öhdəsinə götürmüşdü şahid tapmaq üçün Əndəlüsün şəhərlərini dolanmışdı.

Pedro Ruisin əsas vəzifəsi ondan ibarət idi ki, o, dindirdiyi şahidlərin böynuna qoymaq istəyirdi ki, guya Kolumbdan əvvəl Atlantik okeanının o biri tayında məhz Kastiliyanın dənizçiləri olmuş və genuyalı dənizçi məhz onların köməyinə arxalanaraq, öz kəşfini reallaşdıra

bilmişdi. Maraqlıdır ki, taxt-tac üçün lazımi olan cavabı Martin Alonso Pinsonun oğlu Arias Peres vermişdir. O, izahatında bildirmişdi ki, 1491-ci ildə atası ilə birlikdə Pomada olmuş və orada papaya məxsus olan kitabxanada, bir kosmoqraf tərəfindən naməlum sayılan torpaqlar barəsində məlumatlar əldə etmiş və atası həmin məlumatı admirala göstərəndən sonra, Kolumb da öz növbəsində ekspedisiyanın kursunu cənub-qərbə döndərmişdir.

Arias Peres hamını inandırmağa çalışırdı ki, Kolumb yox, məhz Alonso Pinson ekspedisiyanın gəmilərini, Roma papasının kitabxanasında tapılan sirli "yazıda" göstərilən marşrut ilə idarə etmişdir.

Bəzi alimlər bildirirlər ki, Martin Alonsoda da Kolumb-da olduğu kimi dördüncü qitənin konturları göstərilən xəritədən vardı. Onda belə çıxır ki, Apennin yarımadasında yeləşən bir çox şəhərlərin, xüsusən də Romanın və yaxud da Vatikanın kitabxanalarında belə xəritələrin sayı bir neçə nüsxədən ibarət idi.

Beləliklə, Kolumb oktyabrın 7-də ekspedisiyanın kursunu qərb-cənub-qərbə döndərir, lakin o, bunu Martin Alonsonun təkidi ilə yox, şəxsi gündəliyində göstərdiyi kimi həmin istiqamətdə uçan quşların sayəsində etmişdir. Lakin buna baxmayaraq, uzun keçidli səyahətdən narazı olan dənizçilər Martin Alonsonun təhriki ilə qiyam qaldırır

və Kolumbdan ekspedisiya-nın kursunu geriyə İspaniyaya qaytarmağı tələb edirlər. Nəticədə isə o, narazı olanlardan daha üç gün vaxt istəyir və oktyabrın 12-də dördüncü qitəni aşkarlayır. Bu faktı Xuan Ninyonun birinci səyahətinin iştirakçısından Fransisko Morales adlı bir nəfər qeyd etmiş və Martin Alonsonun məkrli niyyətini ifşa etməyə məcbur olmuşdu.

Söz yox ki, antikolumbçular mənim bu qənaətlərim ilə razılaşmayacaqlar. Onlar belə bir sualla müraciət edə bilərlər ki, mən Kolumbu elə qələmə verirəm ki, guya o, zəmanəsinin ən ağıllı və bilikli adamı olub. Elə bir qənaətə gəlmək üçün fenomenal bir adam olmalısan. Kolumbun isə belə bir savada malik olmasına dair tarixi qaynaqlarda az məlumatlara rast gəlmək olar. Kolumb yunan alimi Eratosfenin dövrü fəaliyyəti ilə dərindən maraqlanmışdı deyəndə, bir çoxları bu fikrim ilə razılaşmaq istəmirlər. Belə olan halda əks tərəf belə bir fikir söyləyir: əgər Kolumb Eratosfenin Yer kürəsinin çevrəsinin uzunluğunun ölçüsünə dair öz fikrini müsbət söyləmişdirsə, deməli Atlantik okeanının o tayında məhz Asiya qitəsinin yerləşməsinə biganə qala bilməzdi.

## Qurulan hiyləyə görə mükafat

İstər İtaliyada, istər Portuqaliyada, istərsə də İspaniyada olsun, Kolumb boş vaxtlarında həddindən artıq çox kitablar oxuyurdu. Düzdür o, elmi nəzəriyyələrə əsaslanan Strabonun, Plutarxın, Böyük Plininin, Ərəstunun, Əflatunun, Sofoklun, Tusinin, İbn-Sinanın, Biruninin və başqa alimlərin əsərlərini nəzərdən keçirmişdir. Eratosfenin verdiyi ölçülərini və Tusinin verdiyi Yer kürəsinin quruluşunu əsas götürərək, Kolumb Yeni Dünya sahillərinə yola düşmüşdü. O, həmin əsərləri oxumaqla bir çox sirlərə yiyələnmiş, lakin həmin sirlər barəsində heç kimə məlumat verməmişdi. Təəssüflər olsun ki, Kolumb həmin sirləri haqq dünyasına aparıb.

Kral Ferdinand onun təklifinə qulaq asanda, sadəcə olaraq Portuqaliyanın kralı II Juan kimi onu özündən rədd edə bilərdi. Bildiyimiz kimi Kolumb öz layihəsini ilk dəfə kral II Juana təqdim edib. Portuqaliya kralı da öz növbəsində həmin layihəni 1484-cü ildə alimlər şurasının müzakirəsinə vermişdi. Şura da ki, Kolumbun bütün sübutlarını rədd etmişdir. Qeyd etməliyəm ki, onun layihəsinin Portuqaliyada rədd edilməsinin əsas səbəblərindən biri o idi ki, Kolumb kraldan həddindən artıq böyük imtiyazlar istəmişdi. Bundan əlavə Portuqaliya kralı istəmirdi ki, onun



*İspaniya kraliçası İzabella Kastiliyalı*

gəmiləri təhlükəli şəraitdə, qərb tərəfdə sahili bəlli olmayan bir okeanda səyahətlərə yollansın. Hindistana dəniz yolu tapmaq üçün ən münasib yol Afrikanın sahil zolağı ilə üzməkdir. Qəza vaxtı həm gəmilər, həm də gəmilərin komandaları Afrikanın sahil zolağında özlərinə təhlükəsiz sığınacaq tapa bilərdilər.

1492-ci ildə İspaniyada təşkil olunan birinci ekspedisiya öz səyahətini başa çatdırandan sonra, İspaniyada Kolumbun müvəffəqiyyətinə qısqanclıqla yanaşanların sayı birdən-birə çoxaldı. Kral evinə yaxın olan əyanlar ad-san qazanan admirala qarşı paxıllıq toxumu səpməyə başladılar. Onsuz da Ferdinand Araqonluqunun Genuyadan gələn dəniz səyyahına, səmimi və optimist söhbətlərinə görə heç bir müsbət münasibəti yox idi. Lakin İspaniyanın başqa bir monarxı İzabella Kastiliyanın Kolumbun entuziast və ümidverici hərəkətlərinə mat-məəttəl qalaraq, onun gələcək planlarına ümidlə yanaşırdı. Məhz bu səbəbdən entuziast dənizçi hər bir çətin məqamda krala yox, yalnız kraliçaya müraciət etməyi üstünlük verirdi. İzabella Kastiliyanın həyata reallıq baxımından yanaşmasına görə Kolumb onun bu hərəkətlərinə pərəstişkarcasına yanaşırdı. İş ondadır ki, birinci və ikinci səyahət zamanı admiral kəşf elədiyi torpaqlarda kraliçanın adını əbədiləşdirmək üçün bir neçə coğrafi məntəqələrini İzabellanın adı ilə bağlayırdı – Haiti

adasının Espanyola (ispan qızı), hindular tərəfində Espanyola adasında yandırılmış Navidad fortundan şərq tərəfdə İzabella şəhərinin əsasını qoyur (1494-cü il mart ayı), Kuba adasının cənubunda yerləşən balaca bir arxipelaqı İzabellanın şərəfinə Xardines-de-la-Reyna (kraliçanın bağları) adlandırır. Belə bir misalları çox sadalamaq olar. Sadəcə olaraq mən onu bildirmək istəyirəm ki, Kolumb Ferdinand Araqonludan çox, İzabella Kastiliyalıya ən çox pərəstiş edirdi.



***İspaniya kralı Ferdinand Araqonlu***

Antikolumbçular qeyd edirlər ki, Kolumbda səyahət zamanı xeyli imkanlar yaranırdı ki, kəşf nəticəsində səhv etdiyi coğrafi məntəqələrin düzgünlüyünü dərk etsin. Yəni, onda kifayət qədər dəlillər var ki, səhvən adlandırdığı Asiya qitəsinin Yeni Dünya sahilləri olduğunu başa düşsün. Mən yuxarıda qeyd etdiyim kimi Kolumb elə yola düşməmişdən əvvəl başa düşmüşdür ki, Atlantik okeanın o tayındakı torpaq Köhnə Dünya üçün naməlum bir ərazidir. Bunu isə birinci səyahət zamanı əyani sübut etmişdir, lakin dünya ictimaiyyətindən gizlətməyə məcbur olmuşdur.

Mən, bir daha Kolumbun üçüncü səyahətinə toxunmaq istəyirəm. Antikolumbçular iddia edirlər ki, işdir, Kolumb kəşf etdiyi torpağın naməlum bir ərazi olduğunu bilirdisə, bəs nəyə görə o, üçüncü səyahətinə yola düşməmişdən əvvəl, alim zərgərdən qiymətli metalların, kəşf etdiyi torpaqların harasında yerləşdiyini soruşaraq, ondan lazımi məsləhətlər alır?

Bunun yalnız bircə səbəbi vardı. Kolumb çox yaxşı bilirdi ki, Yer kürəsinin quru torpaq təşkil etdiyi hər bir qitənin müəyyən hissələrində qiymətli metallardan ibarət olan təbii sərvətlər yerləşir. Məşhur dəniz səyyahının kəşf etdiyi nəhəng torpaq çox sahılı enliklərdə yerləşir. Sadəcə olaraq qiymətli metalların hansı enliklərdə yerləşdiyi onu yaman möhkəm maraqlandırırdı. Bundan əlavə Kolumb

növbəti səyahət zamanı özü üçün, lap dəqiq şəkildə sübut etməli idi ki, kəşf elədiyi irili və xırdalı hansısa bir materikin tərkib hissəsidir. O, yəqin bilirdi ki, həmin adalar hansısa bir materikin yaxınlığında yerləşir. Sadəcə olaraq növbəti səyahət zamanı ekspedisiyanın kursunu əvvəlkinə nisbətən xeyli başqa istiqamətə tutmalı idi. Kurs Antil adalarından ya şimal, ya da ki, cənub istiqamətinə tuşlanmalıydı.

Mən, tarixçilərin buraxdığı əsas səhvlərinə düzəliş gətirmək istəyirəm. Onlar əasrlər boyu iddia edirlər ki, Kolumb kəşf elədiyi torpaqların həqiqətən də Asiya qitəsi olduğunu zənn etmişdi. Əgər, bu belədirsə, onda Kolumb üçüncü səyahətinə yola düşməzdən əvvəl heç vaxt bir zərgərdən, qiymətli metalların harada yerləşdiyini soruşmazdı. Çünki qiymətli metallar ilə zəngin olan Yaponiyanın (həmin dövrdə avropalılar Marko Polonun yazdığı **"Səyahətnamə"** kitabına əsasən, zənn edirdilər ki, Yaponiyada tikilən evlərin dirəkləri və qapıları qızıl lövhələrdən düzəldilmişdi. Bu ondan xəbər verir ki, Yaponiyanın hər bir yeri təbii qızıl ehtiyatları ilə boldur), Çinin və Hindistanın hansı enliklərdə yerləşdiyi təcrübəli dənizçiyə məlum idi. Məhz bunun əsasında o, heç kimdən məsləhət almadan ekspedisiyanın kursunu lazımi istiamətdə tutub öz istədiyinə nail ola bilərdi.

Kolumb, hələ özünün birinci səyahətinə başlamazdan əvvəl təxmini bilirdi ki, şimaldan cənuba doğru uzanan Yaponiya Şimal yarımkürəsinin $30^0$ və $40^0$, Çin $20^0$ və $40^0$, Hindistan isə $10^0$ və $30^0$ enliklər arasında yerləşirlər. Marko Polonun yazdığı kitabdan və səyahət zamanı tərtib etdiyi xəritədən o da məlum idi ki, dəniz yolu ilə Çindən Hindistana getmək üçün hökmən Cənubi-Çin və Andaman dənizlərinin arasında yerləşən Hind-Çin yarımadası ilə Malakka yarımadalarını dövrə vurmaq lazımdır. Lakin kəşf elədiyi torpaqlarda o, böyük ərazili yarımadalar ilə rastlaşmamışdır. Bundan əlavə Kolumb səyahət zamanı Yeni Dünya sahillərində 22-$23^0$ ş.en. dairəsindən yuxarı qalxmamışdı. Əgər, ona Yaponiya yaxud da Çin lazım idisə (Hindistandan söhbət gedə bilməzdi. Ona görə ki, Kolumbda olan məlumata əsasən Hindistan Çindən təxminən 4000 km. qərb istiqamətində yerləşirdi. Hindistana isə çatmaq üçün admiral çatdığı coğrafi məntəqələridən hələ 4000 km. qərb istiqamətində üzməli idi), onda kəşf elədiyi adalardan ən azı 800 km. şimala doğru yol qət etməli idi. Əgər, ekspedisiya Asiya qitəsinə gəlib çatıbdırsa, onda Haiti ilə Kuba adalarından şimal tərəfdə Çinin cənub sahilinin materik baryeri görünməliydi.

Artıq etiraf etmək lazımdır ki, Kolumb həqiqətən də Atlantik okeanın qərb hissəsində yerləşən nəhəng ərazinin,

naməlum bir torpaq kimi əvvəlcədən dərk etmişdi. Çünki onu bu cür fikirləşməyə Tusinin Marağa rəsədxanansında tərtıib etdiyi xəritə vadar etmişdi. Yuxarıda qeyd etdiyim kimi azərbaycanlı alim Atlantik okeanının qərb hissəsində yerləşən nəhəng torpaq ərazisinin şərq sahilinin konturlarını çəkmiş və həmin sahilin coğrafi koordinatlarını da göstərmişdir.

Belə olan tərzdə həqiqətən də Yeni Dünya sahilləri, başqa bir səyyahın kəşfini oğurlamış bir adamın adına "Amerika" yox, yalnız həmin kəşfin baş tutması və onu həyata keçirmək üçün təkrarolunmaz və misilsiz rol oynamış Xristofor Kolumbun şərəfinə "Kolumbiya" adlandırılmalıydı. Yeni Dünya sahillərinin "Kolumbiya" adlandırılmamasının əsl səbəbkarı, məhz həmin qitəni kəşf etmiş Kolumbun özüdür. İş ondadır ki, o, elə əvvəlcədən elə bir zəmin yaratmışdır ki, Ameriqo Vespuççi kimi bir avantürist özü üçün dünya şöhrətli bir müvəffəqiyyət əldə etsin. Mətləbə keçəndə mən onu qeyd etmək istəyirəm ki, məşhur dəniz səyyahı birinci səyahətin bütün nəticələrini xırda detallarına qədər, onun səyahətinin təşkil olunmasında bilavasitə iştirak etmiş maliyyəçi Luis Santanhelə təqdim edəcəyi, səyahət gündəliyində qeyd etmiş və hər dəfə də kəşf etdiyi torpaqları Asiya qitəsinin bir parçası sayılan Yaponiyanın, Çinin və Hindistanın bir hissəsi kimi

göstərmişdir. 1493-1494-cü illərin bir neçə ayında həmin tarixi hesabat düz otuz dəfə nəşr edilir. Həmin hesabatın müsbət cəhəti ondan ibarət olmuşdu ki, nəşrlərdən sonra ikinci ekspedisiyanın təşkil olunmasına sürətlə təkan verilir. Lakin admiral anlaya bilmirdi ki, öz xeyri üçün bir çox yalançı ölkə adlarına əl atmaqla, o, öz-özünə quyu qazır.

Buna baxmayaraq yeni torpaqların kəşfi yavaş-yavaş bir çox yerlərə - nəinki həmin kəşf haqqında maraqlanan İspaniyada və Portuqaliyada, hətta Romada və ticarət əlaqələri ilə möhkəm bağlı olan İtaliyanın bir çox liman şəhərlərinə də - yayılır. Santanhelə latın dilində ünvanlanan məktub tezliklə Parisdə, Bazeldə və Antverperdə nəşr olunur. Məktub o dərəcədə həvəsləndirici olur ki, italyan dilinə onu şeirlərlə tərcümə edirlər. Alman dilinə onu yalnız 1497-ci ildə tərcümə edirlər. Akademik Çarlz Verlindenin dediyi kimi "elə bil şimal ölkələrini həmin kəşf çox az maraqlandırırdı. Gərək, Covanni Kabotto, ya da ki, Con Kabot adlı ikinci genuyalı peyda olmalı idi ki, İngiltərə özünə "Hindistana" yol açsın". Həqiqətən də biganəlikdən İngiltərə ilə Fransa Yeni Dünya sahillərinə bir neçə ildən sonra gedib çıxırlar. Lakin mən bunu başqa cür izah edərdim. İspaniyaya nisbətən İngiltərə həmin torpaqların mənimsəməsi üçün xeyli ciddi hazırlıq görürdü və ona görə də Yeni Dünya sahillərinə, Kolumbun getdiyi marşrut ilə

yox, yalnız şimal enliklərlə ekspedisiyalar göndərir. Lakin İspaniya ilə silahlı münaqişəyə girməməkdən ötrü, İngiltərə həmin kəşfləri bir neçə il məxvi saxlamlı olur. Necə olsa da, Roma papası Yer kürəsini iki katolik dövlətləri sayılan İspaniya ilə Portuqaliya arasında iki hissəyə bölmüşdü – 1494-cü ildə.

Kolumbun dövrü fəaliyyətini izləyən Vespuççi bu fürsətdən səmərəli istifadə etməkdən ötrü, daxilində eqoistlik hissi ilə dolu olan planlar tərtib etməyə başlayır. Qəribə olsa da, admiral florentsiyalı kosmoqrafa bir çox şeylərdə etibar etmiş və bəzən də tədqiqatlara aid olan bir çox məlumatları söyləmişdir. Aktiv fəaliyyətə başlamaq üçün Vespuççi yaxşı bir məqam axtarırdı. Kolumb, kraliça İzabella Kastiliyalı öləndən sonra himayədarsız qalır və dördüncü səyahət zamanı istifadə etdiyi maliyyə xərclərinin kompensassiasını Ferdinand Araqonludan ala bilmir. Ondan əlavə heç saraya da buraxılmır. Məhz həmin dövrdən də Vespuççi meydana daxil olur, admiral vəfat edəndən sonra isə daha da aktivləşir. Başqalarının kəşflərini mənimsəməklə, o, İspaniyada məşhurlaşmağa başlayır. Avropada elə bir iyrənc mühit yaradır ki, bəzi alimlərin köməyi ilə Kolumbun kəşf elədiyi qitəni "Amerika" adlandırılmasına məcburi zəmin yaradır. İş ondadır ki, bu işdə florentsiyalı

kosmoqrafa nəinki admiralın şəxsi düşmənləri, hətta kral Ferdinandın özü də köməklik göstərir.

## Amerika qitəsinin Normanlar tərəfindən kəşf edilməsi və həmin kəşfə ciddi əhəmiyyət verilməməsi

Şübhə yox ki, həm Toskanelli, həm də Kolumb Azərbaycan alimi Tusinin elmi nailəyyətləri ilə qismən də olsun tanış idilər. Lakin maraqlı cəhət ondadır ki, görəsən onlar normanların (vikinqlərin) Amerika qitəsinin şimal-şərq sahillərinə təşkil etdikləri ekspedisiyalardan agah idilər, ya yox?

Kolumb öz layihəsini hazırlayarkən tarixi və coğrafi kitablar oxuyaraq, bir çox araşdırmalarla məşğul olmuşdu. İlk növbədə onu bir neçə sual maraqlandırırdı: qərb istiqamətində neçə kilometr üzmək lazımdır ki, Atlantik okeanın qərb hissəsində böyük bir torpaqla üzləşəsən? Voqado ilə van Olmendən başqa Atlantikanı qərb istiqamətində üzməyə cəhd göstərən olub, ya yox? Peşəkar

naviqator Asiya qitəsi barəsində yazılmış Marko Polonun və başqa səyyahların əsərlərində əlavə, Skandinaviya tarixçilərinin bir çox səyahətlər haqqında yazılan səlnamələri oxumuşdu. Söz yox ki, o, vikinqlərin Atlantikanın şimal-qərb hissəsinə səyahətlər təşkil etmələrindən agah idi. Lakin vikinqlərin təşkil etdikləri ekspedisyalar sanki bir çox dənz səyyahlarını maraqlandırmırdı. Buna səbəb danimarkalı xəritəşünas Klavusun 1427-ci ildə tərtib etdiyi xəritə idi. Klavus öz xəritəsində Qrelandiyanı və ***"Vinland"***ı Avropanın şimal-qərb hissəsi ilə biri-birilərinə bitişik şəkildə göstərmişdir. Bir sözlə, quru torpaq Atlantik okeanının şimal hissəsində demək olar ki, bütün dənizçilər üçün böyük baryeri xatırladırdı. Bundan əlavə həmin torpaqların böyük bir hissəsi Qütb dairəsinin içərisində göstərilirdi. Deməli, həmin yerlərə gəmi ilə ekspedisiyalar təşkil etməin heç bir xeyiri yox idi.

Kolumbun dövri fəaliyyəti barəsində araşdırma ilə məşğul olarkən, həmişə normanların həmin dövrdən 500 il əvvəl Amerika sahillərinə getmələrini xatırlatmaq lazımdır. Bu məsləyə aydınlıq gətirmək üçün mən tarixi qaynaqlara müraciət etməli olacağam.

Normanların fəaliyyətini tədqiq etməkdən ötrü son 30-40 il ərzində böyük işlər görülüb. XX əsrin 60-cı illərində Norveç alimi Xelqe İnqstad, Nyufaunlend adasının

şimalında, vikinqlərin X-XI əsrlərdə yaratdıqları yaşayış məntəqələrini tapır və bununla da bütün dünyaya anladır ki, avropalılar (vikinqlər nəzərdə tutulur) Kolumbdan 500 il əvvəl Amerikanın şimal-şərq hissəsinə gedib çıxıblar və hətta orada məskunlaşamağa çalışıblar. Əlbəttə, Amerika qitəsində yaşayan italyan mənşəli əhali belə bir fikir ilə razılaşmaq istəmirdilər. Lakin tədqiqat mexanizmi işə düşmüşdür.



***Vikinqlər Skandinaviya yarımadasını tərk edirlər***

ABŞ-da Kolumb gününə iki gün qalmış yəni, 1965-ci ilin oktyabrın 10-da ölkənin nüfuzlu mətbu orqanı sayılan ***"Nyu-York tayms"*** qəzetində alimləri riqqətə gətirən sensassion bir məqalə çıxır: "Yeliy universitetinin alimləri bu gün səhər xəritəşünaslıq sahəsində füsunkar bir kəşf – Kolumbdan əvvəl, Leyf Eriksonun XI əsrdə Yeni Dünya sahillərində kəşf etdiyi ölkələrinin yeganə xəritəsinin tapıntısını – ediblər". Məqalə ilə yanaşı həmin xəritə də yerləşdirilmişdi. Xəritənin sol tərəfindəki yuxarı hissədə aydın şəkildə *"Vinıand"* yazısını oxumaq olurdu. Mütəxəssislər müəyyən edirlər ki, həmin xəritə 1440-cı ildə tərtib olunubdur, yəni, Kolumbun Amerika qitəsinə təşkil etdiyi birinci səyahətdən 50 il əvvəl. [1]

Bir çox elmi əsərlərin müəllifi Veleri Qulyayev **"Amerikaya Kolumba qədər olan səyahətlər: miflər və reallıqlar"** kitabında həmin məqaləyə dair yazır: "həmin sensassion materialın Kolumb gününün ərəfəsində çap edilməsi italyan-amerikalılarını hiddətə gətirir və onlar bunu ən azı mərifətsizlik sayırlar. Düzdür, bir qədər keçəndən sonra həmin "***Vinland"*** xəritəsinin həqiqi olmasında bəzi şübhələr yaranır. Lakin bütün işlər görülmüşdür, Amerikanın kəşf edilməsində norman prioriteti lazımı dəstək alır". [1]

[1] Гуляев В. И. Доколумбовы плавания в Америку: Мифы и реальность. «Международные отношения», Москва, 1991. стр. 10

Həmin xəritənin həqiqi olmasına da şübhə oldu-olmadı, artıq bu problemə ciddi yanaşmaq məsələsi ortaya çıxmışdır. İş ondadır ki, belə bir saxtakar sənədlərin və xəritələrin ABŞ-da, Kanadada və Qrenlandiyada peyda olması, adi hala çevirilmişdir.




***Normanların Atlantik okeanını Şimal-qərb sahillərinə təşkil etdikləri səyahətlər***

Vaxtı ilə Avropanın şimal hissəsində meydan oxuyan normanların hegemonluğundan XV əsrin sonu üçün heç bir əsər-əlamət qalmamışdı. Lakin onlar mərd, cəsur və qorxmaz bir xalq kimi okeanın şimalında yerləşən adaların kəşfinə başlamışdılar. İrlandiyanın ərta əsrlər səlnaməçisi Dikuil yazır ki, "VIII əsrin sonlarında irland monarxlarının bir qrupu İslandiyaya yollanırlar və nəticədə onların bir hissəsi orada qalıb məskunlaşırlar".

867-ci ildə vikinqlərin başçılarından biri sayılan Naddod öz drucinası ilə Norveçdən Farrer adalarına qayıdarkən fırtınaya düşür və onun drakarı-ucuşiş norveç ladiyası-qeyri-ixtiyari olaraq, şimal-qərb istiqamətində uzaqlaşır. Nəhayət o, qarla ötürülmüş dağları olan bir ada ilə üzləşir və onu İslandiya (Soyuq torpaq) adlandırır.

Maraqlı cəhət odur ki, vikinqlərin başqa bir dəstəsi Qardarın başçılığı altında İslandiyanı dövrə edir və bu ölkənin adada yerləşdiyini üzə çıxardır. 981-ci ildə və ya 982-ci ildə Eyrik Rıciy (Sarışın) İslandiyanı tərk edərək, qərbdə Qrenladiyanın (Yaşıl torpaq) kəşfinə nail olur. O, adanın 600 km-lik cənubdakı sahil zolağını yoxlayır. Bu haqda ətraflı məlumat **"Eyrik Rıciy haqqında saqa"**da verilir. Lakin bu hadisəni norveç səlnaməçisi Ari Torgilsson Frode belə şərh etmişdi:



*Vikinqlər Amerika qitəsinin şimal-şərq sahillərinə yaxınlaşırlar*

“985-ci ildə ev heyvanları və başqa əşyalarla yüklənmiş 25 gəmidən ibarət olan böyük bir donanmanı Eyrik yeni adaya aparır. Elə həmin ildə Byarni Qrenlandiyanın cənub sahilindən 800-1000 km. qərb istiqamətində Yeni Dünya sahillərinin şimal-şərq hissəsini kəşf edir. Bu kəşfin səs-sorağı Norveçə kimi gedib çıxır və Xoşbəxt ləqəbli Layf

1000-ci ildə 35 adamla Yeni Dünya sahillərinə yollanır. Bu haqda ətraflı məlumat **“Qrinlandiyalılar haqqında hekayət”** adlı saqada verilib. Lakin dəqiq bilinmir Layf Labrador yarımadasına, yoxsa Nyufaundlend adasına gedib çıxıbdır?

1007-ci ildə Tarfin Karlsfenin başçılığı altındakı ekspedisiya növbəti dəfə Yeni Dünya sahillərinə yollanır”.

Ümumiyyətlə, normanlar Atlantik okeanının şimal-şərq hissəsində kəşf etdikləri torpaqlarda yaşayış məntəqələri yaradır və bu haqda, hətta Roma papasına da məlumatlar verirdilər. Yeni müstəmləkələrdə yaşayış həddi yüksək səviyyəyə çatanda, Roma papası 1112-ci ildə Qrenladiyada öz yeparxiyasını təsis edir və Eyrik Qnufssonu Dünyanın ən böyük adasının birinci yepiskopu təyin edir. Adada bir neçə dənə kilsə salınır. Qrenladiyanın axırıncı yepiskopu Alf 1377-ci ildə vəfat etmişdi. Artıq həmin ərəfədə oradakı müstəmləkə həyatı tənəzzülə uğramağa başlayaraq, yavaş-yavaş məhvə düçar olur.

1347-ci ildəki island mənbəsindəki qeyd olunub ki, vikinqlərin Şimali Amerikanın kəşfindən 347 il sonra Qrenladiyadan yeni kəşf edilmiş qitəyə kimi gəmi vasitəsi ilə gediş-gəliş adi hal sayılırdı.

Lakin Qrenladiyanın qərb tərəfdə yerləşən torpaqlar barəsində, Avropanın cənubundakı ölkələrdə demək olar ki,

heç bir məlumat yox idi. Yəni, həmin kəşflərin nəticələri Şimal ölkələrindən kənara çıxmayırdı.



***Normanlar Nyufaundlend adasına qədəm qoyurlar***

"Normanların okeanın qərb hissəsindəki kəşfləri, yalnız Avropanın şimalında hiss olunur. – bu haqda tarixçi R. Xenninq yazmışdı. – Roman ölkələrində çox güman ki, bu haqda heç nə, heç bir şey bilmirdilər. Hətta Vatikanın arxivlərində, çoxsaylı axtarışlara baxmayaraq, indiyənə qədər Qrenlandiyadan qərb tərəfdə yerləşən ölkələr və orta

əsrlərdə oradan alınan məlumatlar barəsində, dəqiq sübutlar yox idi”. [1]

Məhz buna görə də Kolumb normanların Atlantik okeanının şimal-qərb hissəsinə etdikləri ekspedisiyalarından xəbərsiz idi. Belə olan təqdirdə çox güman ki, o, məşhur transatlantik layihəsini tərtib edərkən vikinqlərin istifadə etdikləri marşuruta diqqətlə fikir yetirərdi. İşdir, məşhur dəniz səyyahının həmin ekspedisiyalardan xəbəri olsaydı, onda məhz həmin yoldan istifadə edilməsinə bir o qədər inanmaq çətindir. Ona görə ki, Qrenlandiyaya və Amerika qitəsinin şimal-şərq hissəsinə gedən yollar soyuq enliklərdən keçir və həmin marşurut Pireney yarımadasında yaşayan dənizçilər üçün çətin və təhlükəli sayılırdı. Həm də müəyyən səbəblərə görə heç kimə və heç bir elmi təşkilata qəti surətdə bildirilməmişdi ki, Atlantik okeanının şimal-qərb hissəsindəki naməlum torpaq Dünyanın dördüncü qitəsidir.

Normanların Yeni Dünya sahillərinə təşkil etdikləri ekspedisiyalar Avropa ölkələrində geniş vüsət almır. Lakin bu haqda izahat vermək üçün mən bir nüansa toxunmaq istəyirəm. Rudolf Balandin iddia edir ki, böyük italyan şairi və mütəfəkkiri Dante Aligyeri Kolumbdan, Kabraldan və

---

[1] Хенниг Р. Неведомые земли. Том II. Москва, 1961. стр. 353

Vespuççidən 200 il qabaq Yeni Dünya sahillərinin kəşf edilməsini öz şeirlərində əks elətdirmişdir.

Balandinə görə şeirdə yazılmış Herkulesin Dabanları – yunan mifalogiyasına əsasən Cəbəllütariq boğazının hər iki sahilində Herakl tərəfindən salınmış iki hündür ucuşiş qayalardır. Setta (seuta) – Cəbəllütariq boğazının Afrika sahilində Abila burnundakı limandır. "İnsansız dünya" – açıq okeandır. "Sola burulan istiqamət" – deməli, Cəbəllütariq boğazından cənub-qərb istiqaməti. "Başqa xəttin işığı" – Cənub yarımkürəsində, Cənub qütbünün üstündə yerləşən ulduz bürcü. Deməli, dənizçilər ekvator xəttini keçiblər. "Ayın aşağısında beş dəfə işıq parıldadı və söndü" – 5 ayın keçməsi bildirilir.

Dənizçilər Cəbəllütariq boğazını keçəndən sonra cənub-qərb istiqamətində Atlantik okeanında ekvator xəttini qət edirlər. – yenə də Balandinin qeydi. – Daha sonra onlar öz yollarını davam etdiriərək, ya Cənubi Amerikanın şimal sahilinə, ya da ki, hündür dağları olan Braziliya sahillərinə çatırlar...

Atlantik okeanının qət edilməsini və ümumiyyətlə, bütün bunları Dante haradan bilərdi? O, təhsil almış bir adam kimi Yerin kürə şəklində olmasına inanırdı və bilirdi ki, Atlantik okeanını qərb istiqamətində keçəndən sonra ya Asiyanın şərq qurtaracağına, ya da ki, hər hansısa bir adaya

(materikə) yan almaq olar. Əgər, Danteyə vikinqlərin *"Vinlanda"* gedib çatmaları xəbəri çatsaydı, onda o, dənizçilərin yolunu cənub-qərbə nisbətən, şimal-qərb istiqamətində göstərirdi.

Çox güman ki, Dantenin hekayəsində, dünyanın sonunda bağların arxasında Cənnətin yerləşdiyi barəsində orta əsrlər xristian təsəvvürləri, elmi biliklər, keçmiş əfsanələr bir-biri ilə birləşdirilmişdi. Kolumb birinci transatlantik səyahətinə yollananda, yalnız bu cür oriyentirlərə arxalanmışdır".

Bu problemlə ciddi maraqlandığıma görə mən Balandinin fikirləri ilə razılaşa bilmirəm. Birincisi, zəmanəsinin bacarıqlı və ağıllı şairlərindən biri olan Dante çox güman ki, başqa səyahəti nəzərdə tuta bilərdi və yaxud da ki, vaxtı ilə həyatda olmuş bir səyahəti başqa bir səhnədə təsəvvür etmişdi. Bütün bunları araşdırmaq, hər hansı bir tədqiqatçı üçün elə də çətin bir məsələ deyil.

Həmin dövrdə Afrikanın Mərakeş sahillərinə və Kanar adalarına bir neçə ekspedisiyalar təşkil edilmişdi. Şübhəsiz ki, dənizçilərin yan aldıqları sahillər dağlarla əhatə olunur. Lakin ekvator xəttini keçərək səyahəti davam etdirmək və Cənub qütbündə ulduz bürclərini görmək, bu məsələni bir qədər çətinləşdirir. Deməli, Dante elə bir ekspedisiyanı nəzərdə tutmuşdu ki, səyahət iştirakçıları həqiqətən də, ekvator xəttindən cənubda üzmüşdülər.

Tarixi qaynaqlardan bilmək olur ki, Dantenin yaşadığı dövrə qədər qədimdə bir neçə ekspedisiya Afrikanın sahilboyu ilə cənub istiqamətində səyahətə ollanmış və ekvator xəttini keçərək, Cənub yarımkürəsinin sularında üzmüşdülər.

## Afrikanı dövrə vuran qədim dənizçilər

Hindistana və Afrikanın şərq hissəsində yerləşən ölkələrdən Misirə gəmi vasitəsi ilə qızıl gətirməkdən ötrü, həmin ölkənin fironu II Ramzes b.e. əvvəl XIII əsrdə, Nilin əsas qolundan Qırmızı dənizə qədər, həmin dövr üçün möhtəşəm tikinti sayılan, böyük bir kanal çəkdirir. Gəmilər Qırmızı dənizə çıxandan sonra iki yol qarşısında olurlar biri şərq, o biri isə cənub istiqamətində. Həm təhlükəsizlik baxımından, həm də çoxlu qızılın 2000 km. aralıda Afrikanın şərqində yerləşdiyinə görə, dənizçilər cənub yoluna üstünlük verirlər. Qızıl metal Viktoriya gölünün şərqində yerləşən dağlardan çıxardılaraq, yerli əhalinin vasitəsi ilə sahilə gətirdilirdi. Bunun üçün finikiyalılar ya yunan, ya da

ki, misir gəmilərində (həmin dövrdə əsasən Yunanıstanın şəhərlərində istehsal olunmuş trirema (qalera tipli) həmin gəmidə avarçəkənlər bir neçə mərtəbədə yerləşirdilər. Triremalar Yunanıstanda, Misirdə və Karfagendə geniş istifadə olunurdu) $5^0$ c.en. dairəsinə kimi cənuba tərəf üzürdülər, bu ondan xəbər verir ki, 3000 il bundan əvvəl finikiyalılar Yer planetinin Şimal yarımkürəsindən Cənub yarımkürəsinə kimi uzun müddət gəmilərlə üzmüşdülər. Hindistana və yaxın regionda yerləşən ölkələrə gedib-gəlmək, Misir fironlarının və mülkədarlarının yanında xidmət edən finikiyalılar üçün adi hal sayılırdı.

Assuriyalıları Misirdən qovan I Psammetihin oğlu II Nexo b.e. əvvəl 609-cu ildə ölkənin fironu (609-595) elan edilir. Ofir ölkəsini axtarıb tapmaqdan ötrü e.əvvəl 597-ci ildə Qırmızı dənizdən Afrikanın şərq sahil boyu ilə bir neçə gəmidən ibarət olan ekspedisiya göndərir. Əvvəllər olduğu kimi həmin ağır iş finikiya dənizçilərinə tapşırılır. Həmin ekspedisiyaların iştirakçıları, bir çox yerlərdə uzun müddətli dayanacaqlar təşkil etməklə, üç il müddətinə (e.ə. 597-594) Afrikanı dövrə vuraraq, Cəbəllütariq boğazından Aralıq dənizinə daxil olur və oradan Misirə Nil çayının deltasına çatır. Beləliklə, dənizçilər sübut edirlər ki, Afrika böyük bir torpaq ərazisidir və onu demək olar ki, hər

tərəfdən yalnız Sinay yarımadasının Asiya qitəsi ilə birləşdiyi yerdən başqa, su hövzəsi ilə əhatə olunubdur.

Həmin səyahəti, tarixin atası Herodot öz yazılarında əks elətdirmişdi. O, yazırdı: "İş ondadır ki, Liviya hər tərəfdən su ilə olunmuş yalnız Asiya ilə birləşən yerdən başqa, böyük bir ada (nəinki Herodot üçün, hətta bütün antik alimləri üçün həmin nəticə gözlənilməz idi) imiş. Bildiyimizə görə, ilk dəfə bunu Misir çarı Nexo sübut etmişdir. Nildən Ərəb körfəzinə (Qırmızı dəniz) çəkilən kanalın tikintisini dayandıraraq, o, finikiyalıları gəmilərdə səyahətə göndərərək, göstəriş verir ki, geriyə Heraklın Dabanlarını keçib Şimal dənizi (Aralıq dənizi) ilə Misirə qayıtsınlar. Finikiyalılar Eritreya dənizindən (Hind okeanı) yola düşərək, Cənub dənizinə (Afrikanın cənub qurtaracağında Atlantik və Hind okeanlarının birləşdiyi yerdəki su hövzəsi) daxil olurlar...

Bəzi alimlər həmin səyahətin varlığına şübhə ilə yanaşsalar da, tarixi qaynaqlardan bilinir ki, həqiqətən də belə bir unikal səyahət baş vermişdir. Həmin səyahət barəsində coğrafiya elminin məşhur ingilis tarixçisi C. Beyker öz yazılarında belə qeyd edir. "Bu səyahət ətrafında bir çox diskussiyalar yaranıbdır və nəticə etibarı ilə bunu nə sübut etmək olur, nə də ki inkar... Bu məsələ ilə bağlı bildirmək olar ki, həmin səyahət sonrakı coğrafi fikirdə heç bir dönüş

yaratmamış və insan fəaliyyətinə heç bir təsir göstərməmişdir.”

Təxminən 2500 il bundan əvvəl Herodot da belə bir nəticəyə gəlmişdir.

C. Beyker nədənsə, Nexo fironun göndərdiyi ekspedisiyanın, səyahət zamanı əldə etdiyi coğrafi nailiyyətlərin mühüm bir kəşfə gətirib çıxardığını, boynuna almaq istəmir. Halbuki həmin ekspedisiyanın əldə etdiyi kəşf, Afrikanın hansı formada olmasının sirrini açmış və gələcəkdə həmin qitənin tədqiq edilməsində, Köhnə Dünyanın alimləri üçün həddindən artıq əhəmiyyətli rol oynamışdır.

Birinci, Nexonun ekspedisiyası müəyyən etmişdir ki, Afrika şərqdən, cənubdan və qərbdən su ilə əhatə olunubdur. Bu, qədim dövrdə bir çox alimlərin Yer kürəsinin quruluşu barəsində və quru torpağın su hövzəsindən üstün olması fikirlərini alt-üst edilməsinə, gətirib çıxarırdı.

İkincisi, Avropadan, Afrikanın cənub-qərbdən dönərək, Hindistana dəniz yolu ilə getməyinin mümkünlüyünü sübuta yetirmişdir. Həmin yolu da ki, Nexonun ekspedisiyasından, 2000 il keçəndən sonra həyata keçiməyə yalnız Vasko da Qama nail olmuşdur.

Qədimdə, Homerin yaşadığı dövrdə yunan alimlərinin fikirləşdikləri kimi Dünyavi okeanın varlığı sübuta yetirilmişdir. Lakin onlardan 200-300 il sonra yaşamış

qədim Dünyanın tanınmış və məşhur coğrafiyaşünası və tarixçisi Herodot nədənsə, həmin fikri müdafiə etməmişdi. O, Yer kürəsində quru torpağın su hövzəsinə nisbətən böyük üstünlük təşkil etməsi zərurətindən çıxış edərək, həmin ekspedisiyanın (Liviyanın) Afrikanın ətrafında dövrə etməsinə inanmamışdır. Çünki həmin dövrdə həyata keçirilən səyahətlərin əksəriyyəti quru torpaqda həyata keçirilirdi və antik səyyahların fikirlərinə istinadən bir çox alimlər elə hesab edirdilər ki, Yer kürəsində quru torpaq su hövzəsinə nisbətən böyük üstünlük təşkil edir. Əlbəttə, məşhur yunan alimi öz fikirlərində yanılmış böyük bir səhvə yol vermişdir. Bununla da Avropadan Afrikanı dəniz yolu ilə (cənub-qərb yolu) dövrə vururaq, Hindistana getmək planı xeyli müddət yubadılmışdır.

Dante öz şeirində yazdığı misralarda heç də Atlantik okeanın o tayında indiki Amerika qitəsini gösərməmişdir. Misir fironu II Nexonun təşkil etdiyi ekspedisiyadan məlum olur ki, ekvator xətti Yer kürəsini iki hissəyə ayırır – Şimal və Cənub yarımkürəsinə. Deməli, Şimal yarımkürəsində yerləşən ulduz bürclərini Cənub yarımkürəsində, Cənub yarımkürəsində yerləşən ulduz bürclərini isə əks tərəfdə görmək mümkün deyildi. Dante həqiqətən də dənizçilərin ekvator xəttindən cənubda və həmin yarımkürədən naməlum torpaqlarda olduqlarını bildirmişdi. Lakin bu o

demək deyil ki, həmin dənizçilər Atlantik okeanının o biri tayında yerləşən naməlum torpağa gedib çıxmışdılar.

Antik dövrlərdə baş vermiş səyahətlər barəsində, Apennin yarımadasında kifayət qədər arxiv materialları vardı. Çox güman ki, Dante İtaliyanın mədəniyyət və incəsənət cəhətcə inkişaf etmiş şəhərlərdə, özü üçün bir çox maraqlı sənədli materiallar əldə edə bilərdi. Elə bir materialların içərisində firon II Nexonun göndərdiyi ekspedisiya barəsində qiymətli məlumatlar əldə etmişdi. Artıq qətiyyətlə bildirmək olar ki, Kolumba qədər heç bir ekspedisiya ekvator xəttindən cənubda, hazırda Amerika adlandırdığımız Qərb materikinə gedib çıxmamışdır. Əgər, belə olsaydı, onda bu hadisə ilə bağlı, Dünyanın bir neçə şəhərlərinin arxivlərində tarixçilər və coğrafiyaşünaslar üçün, elm cəhətcə hədsiz dərəcədə maraqlı olan sənədli materiallar aşkarlanıb üzə çıxarılardı.

Yuxarılarda qeyd etdiyim kimi Kolumb öz möhtəşəm səyahətinə yola düşməmişdən əvvəl həmin ekspedisiyaya çox ciddi hazırlaşmış və öz dövrünə qədər yaşamış bütün alimlərin, tarix və coğrafiya elmi ilə maraqlanan mütəfəkkirlərin, filosofların və yazıçıların əsərlərini diqqətlə nəzərdən keçirmişdir. Şübhə yox ki, o, bütün Avropada məşhur sayılan Dantenin əsərləri ilə tanış idi.

İtalyan şairi heç bir zaman həyatda olmayan bir səyahəti öz əsərində əks elətdirməzdi. Ona görə ki, real səhnələrlə əhatə olunmamış bir hadisəni, Dante peşəkar bir yaradıcı adam kimi qələmə almazdı. Düzdür, tərəqqipərvər bir ziyalı kimi o, Yer planetinin kürə şəkilində olmasına inanırdı və əmin idi ki, yaşadığı həmin planetin iri torpaqlarının hamısı bir-birilərilə su hövzəsi ilə birləşdirilir.

Kolumb çox yaxşı bilirdi ki, Atlantik okeanının o biri tayında torpaq ərazisi yerləşir və həmin ərazi heç bir səyyahın səyahəti sayəsində kəşf edilməyibdir. Vikinqlərin isə Amerika qitəsinə gedib çıxmalarından, müəyyən səbəblərə görə məşhur dəniz səyyahı xəbərsiz idi. Çünki Avropanın cənubunda yerləşən ölkələrdə, tarixi əhəmiyyətli sayılan həmin kəşf barəsində heç bir məlumat yox idi. Ola bilsin ki, həmin kəşflər bilavasitə Avropanın soyuq sayılan şimal hissəsinə aid olduğundan, heç kimi maraqlandırmamışdır.

## Kolumbun coğrafiya və tarix qarşısındakı nailiyyətləri lazımınca bəşəriyyət tərəfindən qiymətləndirilmir

İllər keçdikcə, zaman ötdükcə yeni gəmi konstruksiyaları yaradılır, naviqasiya alətləri təkmilləşir və məlum olan sahil zolağlarının xəritələri tərtib edilirdi. Böyük coğrafi kəşflərin həyata keçirilməsinə böyük zəmin yaradılmışdır.

Dənizçiləri əsasən, Hindistana, Çinə və Yaponiyaya gedən yol, tacirləri və Avropa monarxlarını isə orada bitən ədviyyat malları, qiymətli metallar və ipək parçalar maraqlandırırdı. Həmin dövrdə adı çəkilən ölkələrə iki yol ilə getmək olardı: biri mövcud olan, şərq istiqamətində uzanan quru yol, o birisi isə Afrikanın cənub hissəsini dövrə vurmaqla, şərq istiqamətində uzanan dəniz yolu. XV əsrin sonunda birinci yol tacirlər və ekspedisiyanı hazırlayan maliyyəçilər üçün təhlükəli sayılırdı. Ona görə ki, Yaxın Şərqdən keçən məşhur "İpək yolu" adlanan həmin yol Osmanlı Türkiyəsinin nəzarət altında saxladığı ölkələrdən keçirdi. İkinci yol peşəkar dənizçilər və şturmanlar tərəfindən təxmini təsəvvür olunsa da, lakin hələlik kəşf edilməmişdi. Portuqaliyanın dənizçilik və naviqasiya məktəbinin mütəxəssisləri əsasən dəniz yolunun kəşf edilməsi üzərində bir çox elmi – praktik işlər görür və

Afrika ilə Ərəbistan dənizinin şimal sahilinin konturları çəkilmiş xəritələrin əldə edilməsi üçün, qabaqcıl xəritəşünaslara və coğrafiyaşünaslara sifarişlər verirdilər.

Həmin dövrdə tərtib edilmiş xəritələr arasında Böyük Venetsian xəritəsi dənizçilər və alimlər üçün xüsusi əhəmiyyət kəsb edirdi. Məhz həmin xəritədə Hindistana gedən şərq yolu aydın şəkildə göstərilmişdir. Belə olan halda qərb yolu barəsində fikirləşməyə heç bir ehtiyac olmur. Lakin elə alimlər və dənizçilər olur ki, məlum olan Yer kürəsinin qurluşunda yeniliklər əldə etmək üçün böyük bir səy göstərməyə başlayırlar. Toskanellinin tərtib etdiyi xəritədə, Hindistanı Avropadan qərb istiqamətində göstərmiş və aydın şəkildə bildirmişdi ki, Yaponiyaya, Hindistana və Çinə qərb yolu ilə getmək mümkündür. Hətta Yer planetinin kürə şəklində olmasını Diyeqo Kanın  Afrikanın qərb sahilinə təşkil etdiyi ekspedisiyanın iştirakçısı, Nürnberqli astronom və səyyahı Matin Behaym 1492-ci ildə yaratdığı qlobusda göstərməyə çalışmışdır. Lakin maraqlı cəhət ondan ibarətdir ki, Kolumb birinci səyahətə yollanmamışdan əvvəl Behaymın qlobusunu görməmişdi. Artıq Şərq ölkələrinə qərb yolu ilə getmək planı və marşurutu Toskanellinin xəritəsində əks olunmuşdur, sadəcə olaraq həmin missiyanı həyata keçirmək lazım idi.

Yerin kürə şəkilində olması ideyasını, lap antik dövrün alimləri də irəli sürürdülər. İş ondadır ki, həmin ideyanı həyata keçirmək üçün heç bir dənizçi risqə getmək istəmirdi. Ümumiyyətlə, həmin ideyanı həyata keçirmək üçün hər hansı bir dənizçi xüsusi dənizçilik məktəbi keçməli, naviqasiyanı peşəkarcasına bilməli və geniş hazırlıq işləri görməli idi.

**“100 böyük coğrafi kəşflər”** kitabında Rudolf Balandinin **“Şərqə gedən qərb yolu”** fəsilindəki bir abzası xüsusi ilə qeyd etmək istəyirəm: “Həqiqətdə Kolumb, Yerin kürə şəklində olunması, Atlantikada insan həyatı olan torpaqların (Əflatun (Platon) Atlantidası) mövcudluğu və qərb istiqamətində üzməklə şərqə düşməyin mümkün olmasının (keçmiş antik ideya) üzə çıxarılmasında müstəsna rol oynayıb. Bunu Eratosfen bildirmiş, Strabon isə alimin fikirlərini tam bölüşdürürdü. [1]

İmperator Neronun yetirməsi məşhur roma mütəfəkkiri Seneka fəlsəfi işlərində və hətta yazdığı faciədə bu haqda aydın şəkildə göstərmişdir. Vest-Hind adaları Kolumb tərəfindən kəşf ediləndən sonra Senekanın sözləri – 1500 il əvvəl gələcəyi görmək bacarığını – peyğəmbərcəsinə gösərilən nümunə kimi işlədilirdi. O, xalqların izdihamlı

---

[1] Баландин Р. К. Маркин В. А. Сто великих географических открытий. Москва, «Вече», 2000 стр. 68-69

köçmələrindən uzaq səyahətlərdən yazmış və bildirmişdir ki, okean bütün insanların əlaqələndiricisi olacaq:

Əvvəlki yerlərində heç nə qoymamışdı
Hərlənən dünya.
Hindus su içir soyuq Arazdan,
Fars isə su doldurur Elbadan, Reyndən.
İllər keçəcək, əsrlərdən sonra
Okean dağıdacaq möhkəm şeyləri
Nəhəng görünəcək torpaq, göz qarşısında...

Ptolemeyin və Kosma İndopoklovun fikirlərindən fərqli olaraq, Kolumb Yer kürəsini alma formasında yox, azacıq hündürlükdə yerləşən cənnəti xatırladan armud formasında təsəvvür etmişdi. Elmi məlumatlara arxalanaraq məşhur dəniz səyyahı "cənnətin çıxıntısı" olan həmin yeri, özünün üçüncü səyahəti zamanı tapmışdı. Həmin yer Orinoko çayının mənsəbi sayılırdı. Dəqiq ölçülər apararkən o, əmin olmuşdur ki, burada çay suyunun səthi, dəniz suyunun səthindən bir qədər hündürlükdə yerləşir".

Üçüncü səyahət zamanı (1498-1500) Kolumb həmin yeri (Orinoko çayının mənsəbini) kəşf etmişdi, bu haqda İspaniyada olan öz sələflərinə ətraflı məlumat göndərmişdi və qətiyyətlə bildirmişdi ki, Yer kürəsinin "cənnət məkanı" məhz Pariya körfəzinin sahəsi sayılır.

Əldə olunan səyahətlər nəticəsində Kolumbun şan-şöhrəti nəinki İspaniyaya, hətta qonşu ölkələrə də yayılmağa başlayırdı. Onun düşmənləri admiralın parlayan ulduzunu söndürməkdən ötrü ona qarşı bir çox ittihamlar sürürlər. İş o yerə çatır ki, Ameriqo Vespuççini Yeni Dünya sahillərini kəşf etmiş ilk dəniz səyyahı adlandırırlar. Həm süni, həm də təbii halda şişirdilmiş həmin məsələ, sonrakı illərdə və müasir dövrdə, ictimaiyyət və xüsusən də alimlər arasında geniş vüsət alır. Kimləri Kolumbdan qabaq Yeni Dünya sahillərinin ilk dəniz səyyahları adlandırmırlar: həm finikiyalıları, yəhudiləri, yunanları, romalıları, irlandları, ərəbləri, həm də ki, skandinaviya vikinqlərini. ABŞ-da həm italyanlar, həm də ki, skandinaviya ölkələrindən çıxan vətəndaşlar çoxluq təşkil etdiyindən bu məsələ həddindən artıq ciddi xarakter alır.

Polineziya dənizçilərinin Amerika qitəsinin kəşfində bilavasitə əsas rol oynadıqlarını iddia edən, italyan mənşəli amerikan tarixçisi F. Kuiliçi **"Okean"** əsərində yazır: "Məğrur dənizçilər sayılan finikiyalıların varisləri Aralıq dənizində uzaq səyahətlərə yollananda, onlar birdəfəlik 200 mildən bir qədər artıq məsafəni arxada qoyaraq, təhlükəsizlik baxımından həmişə sahilə yaxın bir yerdə üzməyə üstünlük verirdilər. Qısaca olaraq, finikiyalılar sahildən çox aralanmağa cürət etmirdilər.

Portuqal dəniz səyyahları Atlantik okeanı barəsində çoxlu məlumatlar əldə etmişdilər. Lakin 600 il lazım oldu ki, Avropa sahillərindən bir o qədər aralı olmayan Madeyra və Azör adaları kəşf olunsun. Bəzi gəmilər Afrikanın şimal-qərb sahillərinə də gedib çıxırlar. Lakin həmin yerlərdən çox aralanmağa cürət etmirdilər, çünki ekvator xəttini keçəndən sonra dənizçilərb Qütb ulduzunu itirəcəklər və bu da ki, onların məhvinə gətirib çıxaracaqdır...

Şərqi Asiyada çin conkaları materikdən çox da aralanmadan bir adadan o biri adaya üzürdülər. Ərəbistanın və Hindistanın tacirləri cəsarətli səyahətlər təşkil edirdilər, lakin onlar da sahildən çox aralanmırdılar. Yalnız Avropanın şimalında vikinqlər polineziyalılar kimi qorxmaz səyahətlər təşkil edirdilər...

Axırıncıların payına çətin məsələ düşmüşdü – Sakit okean ilə təkbətək qalaraq, onun sularını qət etməkdən ötrü mübarizəyə qalxmışdılar. Xəritələr olmadan, bütün naviqasiya alətlərindən məhrum olmuş, yalnız Allahın rəhminə arxalanaraq və göydəki ulduzlardan oriyentir kimi istifadə edərək, onlar əsl möcüzələr yaradırdılar..."

Norveç alimi Tur Xeyerdal isə iddia edir ki, Cənubi Amerika da vaxtı ilə yaşamış hindular təxminən 550 il bundan əvvəl, qayıqları xatırladan gəmilərdə, Okeaniyada yerləşən adalara səyahətlər etmişdilər. İlk dəfə bu

fərziyyəni XVI əsrdə Meksikada və Peruda etnoqrafiya ilə məşğul olmuş peşəkar astronom və mühəndis Pedro Sarmiyento de Qamboa irəli sürmüşdür. Lakin həmin ideya alimlər arasında geniş vüsət tapmır. Bütün bunlara baxmayaraq, bir çox alimlər Amerikanın kəşfinə dair sensassion çıxışlar edərək, Kolumbun dünya əhəmiyyətli səyahətlərinə xələl gətirirlər.

Bir çox elmi əsərlərin müəllifi kimi tanınan Valeriy Qulyayev **"Kolumba qədər Amerikaya səyahətlər" miflər və reallıqlar"** kitabında yazır: "Kolumba özü heç vaxt Şimali Amerikanın sahilinə çıxmamış və hətta onu uzaqdan da görməmişdir. O, yalnız Karib dənizində adaları və Mərkəzi Amerikanın şərq sahil zolağının bir hissəsini (Honduras, Nikaraqua, Kosta-Rika, Panama) kəşf etmişdir, o da ki, 1502-ci ildə özünün dördüncü səyahəti zamanı. Məhz buna görə də Şimali Amerikanın ilk səyyahını başqa avropalını zənn etmək olar – İngiltərədən Con Kabotu. 1497-ci ilin iyunun 24-də o, Nyufaundlend adasının Bold burnunda sahilə çıxır və həmin adanın Reys burnunu tədqiq edir. Bu nailiyyətlərinə görə Nyufaundlend adası ilə Yeni Şotlandiya yarımadasının arasındakı boğazı onun şərəfinə adlandırırlar. Bununla belə qitənin ilk səyyah titulu yenə də italyanlar qazanırlar: Con Kabotu əslində Covanni Kaboto çağırırdılar – o italyan dənizçisi kimi ingilis xidmətində idi.

Kolumb Şimali Amerika qitəsini gömməsə də o, ömrünün axırına kimi elə bilib ki, Hindistanı kəşf edibdir. Bununla da o, böyük coğrafi kəşflər dövrünün əsas fiqurlarından biri sayılır. Onun insanlıq qarşısındakı xidmətləri, vikinqlərin törətdikləri əməllərdən qat-qat böyükdür. Dahi genuyalı qərbdə nəinki yeni, "mədəni insanlıq" üçün torpaqlar kəşf edibdir, hətta Köhnə və Yeni Dünya aralarında möhkəm və intensiv əlaqələrin yaradılmasının əsasını qoymuşdur".[1] Lakin bununla o demək deyil ki, vikinqlərin Amerika qitəsinin kəşfində rolları çox az olub.

Alman yazıçısı K. V. Keram yazırdı ki, "Bu gün biz bircə şey deyə bilərik, vikinqlərin Amerikaya gedib çıxmaları həddindən artıq maraqlıdır, lakin onlar dünyanın quruluşunda, nə avropalıların, nə də ki, Amerika qitəsinin aborigenlərinin iqtisadi həyatında köklü dəyişikliyin öhdəsindən gələ bilmişdir." Bu cür optimist fikirlə bir çox alimlər razılaşmışdı. Həqiqətən də Amerika qitəsinin, gələcəkdə inkişaf etməsində vikinqlərin səyahətləri yox, məhz Kolumbun səyahətləri böyük təkan vermişdi.

Amerika qitəsinin kəşfinə dair iki cildlik fundamental əsərin müəllifi amerikan tarixçisi C. Fiske bu haqda yazır: "İki dünya arasındakı birləşmə həqiqətən də 1492-ci ildə

[1] Гуляев В. И. Доколумбовы плавания в Америку: Мифы и реальность. «Международные отношения», Москва, 1991. стр. 10-11

baş veribdir. Lakin mən, həmin müddətə qədər, Köhnə Dünyanın adamlarının təsadüfi olaraq, Amerika qitəsinə gedib gəlmələrini təkzib edə bilmərəm. Əksinə olaraq, mən bildirmək istəyirəm ki, həmin təsadüfi gediş-gəliş biz bildiyimizdən çox olubdur." Vikinqlərin Qrenladiyadakı və İslandiyadakı müstəmləkələrindən Şimali Amerika ərazisinə getmələri barəsində o, yazır: "Kolumba qədər olan bütün bu səyahətlərin heç bir tarixi əhəmiyyəti olmamışdı... XIV əsrin sonları üçün Vinlanda təşkil edilən səyahətlər yaddan çıxarılmışdır... Kolumbun 1492-ci ildəki məşhur səyahətinə qədər, bizim planetin qərb və şərq hissəsi arasındakı təsiredici həqiqi əlaqələr olmamışdır".

Deməli, Kolumb Avropadan Atlantik okeanının qərb hissəsinə səyahətlər təşkil etməsəydi, onda hələ uzun müddət bizim planetimizin qərb və şərq yarımkürələri arasında heç bir əməli əlaqələr olmayacaqdı. Yəni coğrafi kəşflər sahəsində əsl dönüşü, tarixdə müsbət iz qoymuş Kolumbun özü etmişdi və hamı da bu həqiqət ilə hesablaşmalıdır. Məşhur dəniz səyyahının göstərdiyi misilsiz uğurlarına yalnız bircə şey kölgə gətirirdi, o da ki, kəşf elədiyi torpaqların Asiya qitəsinin şərq hissəsi olmasını dünya ictimaiyyətinə bəyan etməyi olmuşdur.

Sona yaxın mən yenə də Yeni Dünya sahillərinin kəşfində əsas rol oynamış Nəsirəddin Tusi, Paolo Toska-

nelli və Xristofor Kolumb üçlüyünə qayıtmaq istəyirəm. Demək olar ki, bu yazının əvvəlində mən onların arasında olan əlaqəni qeyd etmişdim. Tusi, hələ Yeni Dünya sahilləri kəşf edilməmişdən əvvəl dünyanın dördüncü qitəsinin şərq sahillərinin konturunu çəkmiş və koordinatlarını qeyd etmişdi. Yuxarıda, Tusinin tərtib etdiyi xəritənin Toskanellinin əlinə necə düşdüyünü, aydın şəkildə göstərmişəm. Bəs, Tusinint xəritəsi Kolumbun əlinə necə gəlib düşə bilərdi? Axı, Kolumb öz layihəsini tərtib edəndə bilavasitə azərbaycanlı alimin xəritəsindən istifadə etmişdi.

Bildiyiniz kimi Kolumb doğma şəhəri Genuyanı tərk edəndən sonra müvəqqəti olaraq Portuqaliyada və yaxud da həmin krallığa məxsus olan müstəmləkələrdə məskunlaşmış və naviqasiya ilə ciddi maraqlanmışdı. Onun qardaşı Bartolomeo da İtaliyanı tərk edərək Avropa ölkələrinə üz tutur. Bartolomeo hansı ölkədə olursa-olsun, həmişə də xəritəşünaslıq ilə məşğul olmuşdu. Ticarət ilə məşğul olan adamların ən savadlı təbəqəsi demək olar ki, Apennin yarımadasında populyarlaşan həmin sənətə yiyələnirdilər.
Həmin dövrdə xəritəşünaslıq və xəritə ilə alver etmək, Avropa ölkələrində ən gəlirli sənət sayılırdı. Bartolomeo müasir xəritələrlə yanaşı, keçmişdə tərtib olunmuş ən nadir nüsxələrin də xəritələrini alıb satırdı. Aralıq dənizində üzməkdən ötrü naviqasiyanı və sahil zolaqlarının konturunu

bilmək dənizçilər üçün ümdə məsələ sayılırdı. Xəritəşünaslıq üzrə əsasən katalon və italyan mütəxəssisləri rəqabət aparırdılar. Bartolomeo xəritələrin axtarışı ilə İtaliyanın bir çox şəhərlərinə üz tutaraq bir çox xəritəşünaslarla və kitabxana müdirləri ilə ünsiyyət yaradırdı.




***Kolumbun qardaşı Bartolomeo***

Beləliklə, o, Florentsiya şəhərinə gəlib çıxır və orada məşhur coğrafiyaşünas və astronom Paolo Toskanelli ilə tanış olur. Bildiyiniz kimi florentsiyalı alim öz işi ilə məşğul olmaqdan əlavə, humanist Nikkolo Nikkolininin şəhər ictimaiyyətinin istifadəsi üçün yaratdığı kitabxanaya sahiblik edirdi. Əlbəttə, həmin kitabxanada coğrafiya və astronomiya elmləri üçün yararlı sənədli materiallar çox idi.

Ümumiyyətlə, Toskanellinin adı dənizçilər və coğrafiya elmi ilə maraqlanan mütəxəssislərin arasında dillər əzbəri olmuşdu və hər bir adam çalışırdı ki, onunla qısa bir müddət ərzində sıx dostluq əlaqələri yaratsın. Bartolomeo Florentsiyada olarkən maraqlanan bir adam kimi Toskanellinin başçılıq etdiyi kitabxanaya baş çəkir və oradakı lazım olan materialları nəzərdən keçirir. Söz yox ki, eksponat qismində saxlanılan xəritələr onun diqqətini xüsusi ilə cəlb etmişdi. Belə olan tərzdə şüşə altında saxlanılan qəribə bir xəritə onun fikrindən yayınmazdı. Çünki Bartolomeo xəritəşünaslıq sahəsində püxtələşmiş bir mütəxəssis kimi, Atlantik okeanının qərb hissəsində heç kimə bəlli olmayan bir torpağın sahillərinin konturları çəkilmiş xəritə ilə xüsusi olaraq maraqlanır və çox güman ki, Marağa rəsədxanasında tərtib edilmiş Nəsirəddin Tusinin əl işini əldə etmək üçün Toskanelliyə müraciət edir. Əlbəttə, kitabxananın müdiri

Marko Polonun yadigarı sayılan həmin eksponatı Bartolomeoya sata bilməzdi.

Tusinin xəritəsinin Kolumbun əlinə keçməsi iki variantda ola bilərdi. Birincisi Bartolomeo yaxşı pul məbləğində Toskanelliyə pul verərək, Tusinin xəritəsinin üzünü çıxardıb qardaşına verir. İkincisi isə Kolumb özü Toskanelli ilə yaxından da olmasa, lakin tanış idi. Qardaşı həmin xəritəni kitabxanada görərək, Xristofora xəbər verir, o, da ki, öz növbəsində Tusinin xəritəsini, çox güman ki, ikinci üzünü çıxarıb, həyatında böyük dönüş yaradan materialı əldə edib. Mən əminəm ki, Toskanelli bir alim kimi artıq Tusinin xəritəsi üzərində işləmişdir və öz təcrübəsi ilə naviqasiya və coğrafiya elmi ilə dərindən maraqlanan Xristofora bu haqda bəzi məlumatlar vermişdi.

İngiltərə, İrlandiya, Afrikanın Qvineya sahillərində və Madeyra adalarında üzən Kolumb üçün Tusinin xəritəsi xüsusi əhəmiyyət kəsb edirdi, ona görə ki, orada çəkilən sahil zolağı onun üçün böyük bir yenilik sayılardı və səyahət həvəsində olan dənizçiyə ekspedisiyaya yollanmaq üçün böyük bir stimul yaratmışdı. O, nəyin bahasına olursa-olsun, həmin sahili tapıb aşkarlamaq əzmində idi. Əgər, həmin sahil, həqiqətən də Atlantik okeanının həmin hissəsində aşkarlansa, onda Tusi bütün dünyanın fenomenal bir alimi sayılar. Dahi alimin xəritəsi sayəsinə həmin sahil

zolağı kəşf edilir, lakin Kolumb şəxsi mənafeyinə, ambisiyalarına görə dünya bəşəriyyəti üçün lazımlı olan həqiqəti gizlətməli olur.

Xristofor Kolumb tarixi əhəmiyyətli coğrafi kəşfi həyata keçirmək üçün həmin yalana əl atmışdı. Onu dünyanın ən mərd, qorxmaz, cəsarətli, ağıllı, bacarıqlı, naviqasiyanın ustadı, ən entuziast, qarşısına qoyduğu məqsədi böyük bir ehtirasla həyata keçirməyi bacaran, astronomiya elmində böyük nailiyyət əldə edən, Yer kürəsinin coğrafi quruluşunu necə təsvir etməyi bacaran, fenomenal qənaətlər əldə etməyi və qərarlar çıxarmaqda tayı-bərabəri olmayan unikal bir adam idi. Portuqal dəniz səyyahları coğrafi kəşflərin həyata keçirən zaman heç vaxt Atlantik okeanın içərilərinə daxil olmamış, həmişə də Afrikanın sahil zolağından təhlukəsiz zona kimi istifadə edirdilər. Beləcə Afrikanın Qızıl Sahili (Qvineya körfəzinin şimal sahili) və Ümid burnu, eləcə də Hindistan və Ədviyyat adaları (Molukk adaları) kəşf edilmişdi. O, həm XV, həm də XVI əsrin ən qabaqcıl və peşəkar dəniz səyyahı olmuşdur. O vaxtı Paolo Toskanelli bir çox adamlara öz layihəsini təqdim etmişdi. Lakin ondan başqa heç kim Atlantik okeanını şərqdən-qərbə tərəf üzməyə cürət etməmişdi. Belə bir hərəkətə əl atmaq qəhrəmanlıqdan başqa bir şey deyil.

Kolumbun bacarığına və dərrakəsinə şübhə etməmək olar. Uzun səyahətə yola düşməmişdən əvvəl o, 1245-1247-ci illərdə fransiskan ordeninin üzvləri Covanni del Plano Karpininin və Benedikt Polşalının (Vrotslavdan), 1249-cu ildə dominikan monarx Andre Lancümonun, 1252-1255-ci illərdə fransiskan ordeninin üzvü fləməngli Gilyom (Villem) Rubrukun, 1260-1269-cu illərdə Venetsiyalı tacirlər Nikkolo və Maffeo Poloların, 1271-1295-ci illərdə Marko Polonun və 1325-1349-cu illərdə Əbu Abdullah Mühəmməd ibn Bətutinin Şərqi Asiyaya etdikləri səyahətlərdən və həmin səyahətlərə dair yazılan əsərlərlə və toplanan materiallarla qismən də olsa tanış idi. Paolo Toskanellinin xəritəsindən əlavə məşhur səyyah Ptolemeyin, Marko Polonun, Portuolono Mediçinin, Əbu Abdullah Mühəmməd ibn Bətutinin, Z. Pittisiqanonun, Q. Beninkazanın, Martin Bexaymın və Nəsirəddin Tusinin tərtib etdikləri xəritələri diqqətlə nəzərdən keçirmişdi. Aydınlıq gətirmək üçün onu da xüsusi ilə qeyd etməliyəm ki, Kolumb hamıdan çox məhz Tusinin tərtib etdiyi xəritəyə möhkəm bel bağlamışdır və bununla da heç kimdən çəkinmədən bəyan edə bilərəm ki, məşhur dəniz səyyahı Kolumb Yeni Dünya sahillərini, Tusinin yüksək ustalıqla tərtib etdiyi xəritənin köməyi ilə kəşf edib. Mənimlə razılaşmaya bilərsiniz, lakin alimlər kimi gərgin əməyimin zəhmətinə mən bunu araşdırıb üzə

çıxarmışam. İstərdim ki, hazırda dünyada yaşayan xəritəşünaslar tərtib etdikləri öz xəritələrində Yeni Dünya sahillərini **“Kolumbiya”** kimi göstərsinlər. Əgər, bu belə olsa, onda haqq-ədalətin bərpa olunmasının şahidi olacayıq.

Bu yerdə mən Kolumb ilə İspaniyanın monarxları arasında bağlanan müqavilənin balaca bir abzasına toxunmaq istəyirəm. Monarxlar qeyd edirlər: “Hərçənd ki, siz Kolumb, bizim gəmilərdə, bizim əlaltılarımızla və bizim əmirimiz ilə okeanda materiki və bəzi adaları kəşf etməyə yollanırsınız... bu ədalətli və ağıllı bir fikirdir... bunun üçün siz mükafatlandırılmalısınız”. Bəli Kolumb öz layihəsinə əsasən ağır və uzun səyahətə yollansa da, o, ispan monarxlarının əmirlərini artıqlaması ilə yerinə yetirmişdi, lakin həmin xidmətlərə görə məşhur dəniz səyyahı sənəddə göstərildiyi kimi nə ispan monarxları, nə ispan ictimaiyyəti, nə də ki, dünya ictimaiyyəti tərəfindən layiqincə mükafatlandırılmamışdı.

Kolumbun xidmətlərinə sonrakı əsrlərdə istənilən qədər olmasa da, lakin qiymətləndirilmişdir. Məşhur səyyahın xatirəsini əbədiləşdirməkdən ötrü, onun adına ölkə, dairə, çay, ştat və s. coğrafi və inzibati obyektlər adlandırılmışdır.

60-cı illərdə, norveç arxeoloqu X. İnqstad, Nyufaundlend adasının şimalında, normanların X-XI əsrlərdə məskunlaşdıqları yaşayış məntəqəsini tapandan sonra,

avropalıların Kolumbdan 500 il əvvəl Yeni Dünya sahillərinə gedib çıxmaları və hətta orada məskunlaşmağı haqda bir fakt öz geniş əksini tapmışdır. Əlbəttə, söhbət vikinqlərdən gedir. Bu barədə arqumentlərin əsaslı olduğunu görən ABŞ-ın prezidenti Lindon Conson 1964-cü ilin payızında konqres-sin təqdimatına əsasən, hər il oktyabrın 9-da Leyf Eyrikson Gününün keçirilməsinə dair, qanun layihəsinə qol çəkir. Bununla əlaqədar olaraq, Leyf Erikson rəsmi şəkildə Yeni Dünya sahillərinin ilk kəşf edəni sayılmağa başlayır.

Düzdür, Kolumbun Günü bayramı da saxlanılır. İş ondadır ki, "norman qanun layihəsinə" 9 oktyabrda qol çəkilibdir və ABŞ-da yaşayan milyonlarla italyan mənşəli amerikanların haqlı etirazına baxmayaraq, Leyf Erikson Günü Kolumb Günündən üç gün tez keçirilməlidir. Hətta iş elə gətirir ki, 1965-ci ilin oktyabrın 12-də, Kolumbun tərəfdarları sayılan italyan mənşəli amerikanlar ABŞ-ın bir çox şəhərlərində izdihamlı nümayişlərə çıxırlar. Əlbəttə, bu işdə italyan mənşəli amerikanlıların mosiyalarını başa düşmək çətin deyil. Ona görə ki, uzun müddət Kolumb Gününü bayram kimi qeyd edilən bir zamanda buna oxşar, lakin başqa adamın adı altında, digər bayramın üzə çıxması hamını qıcıqlandırmalıydı.

Şəxsən mən bir yazıçı-tədqiqatçı kimi prezident Lindon Consonu imza atdığı sənəd ilə razılaşa bilmirəm. Ona görə

ki, Yeni Dünya sahilləri dahi Xristofor Kolumb tərəfindən, konkret bir tarixdə, məhz 1492-ci ilin oktyabrın 12-də kəşf edilibdir. Vikinqlərin həmin torpağa gedib qədəm qoymalarının isə dəqiq gün tarixi heç kimə bəlli deyil. Lakin bütün bunlara baxmayaraq, mən bildirmək istəirəm ki, Amerika qitəsinin kəşf olunma gün tarixi yeganədir, o da ki, oktyabrın 12-si! Həmin tarix Amerika qitəsində yerləşən bir çox ölkələrdə Kolumb Günü kimi və qitənin kəşf etdiyi gün kimi qeyd edilir. Yəni italyan mənşəli amerikalıların iradlarını başa düşmək çətin deyil.

## Kolumb ətrafında yaranan bir çox məsələlərin həll olunması

1. Bir çoxları bildirirlər ki, Kolumb İtaliyada olarkən Toskanellinin bütün məsləhətlərinə diqqətlə qulaq asmış və onun verdiyi göstərişlərinə tam əməl etmişdir. Lakin bir neçə əsaslar var ki, Kolumb florentsiyalı alimin dediklərinə tam əməl etməsin. Müəyyən fikirləri ilə razılaşa bilərdi, ancaq bəzi şeylərdə o, fikrindən dönmürdü. Yuxarıda qeyd

etdiyim kimi Toskanellinin fikrinə görə Yer Kürəsinin ölçüsü indiki ölçüyə nisbətən çox az (təxminən 29000 km) verilmişdi. Halbuki bir çoxları Yer Kürəsinin ölçüsünü başqa rəqəmlərlə (onların biri yunan alimi Eratosfenə görə Yer Kürəsinin ölçüsü 43625 km) verirdi. Kolumb Toskanelliyə inansaydı elə, onda bir çox alimlərin hesab etdikləri kimi o, Atlantik okeanını qərb istiqamətində üzməklə bir başa Şərqi Asiyaya tərəf üz tutmuşdu. Öz sirrini və məqsədi-məramını gizlətməkdən ötrü, admiral Kolumb hamıya bəyan edir ki, kəşf etdiyi torpaq Şərqi Asiya ərazisidir. Halbuki o, Nəsirəddin Tusinin hesablamalarına əsasən qarşısındakı torpağın Köhnə Dünyaya məlum olmayan ərazi olduğunu bilirdi. Lakin öz istədiklərini həyata keçirməkdən ötrü, İspaniya monarxlarını bir neçə illiyə aldatmağa çalışan Kolumb, dünya ictimaiyyəti qarşısında özünü bir neçə əsirliyə aldatmış olur.

Ölənə qədər o, əsl həqiqəti söyləmir və elə bilir ki, dünyasını dəyişəndən sonra bir neçə il keçmiş onun tərəfdarları həmin həqiqəti üzə çıxararaq, Kolumbun hansı kəşfləri həyata keçirdiyi dünya ictimaiyyətinə bəyan edəcəklər.

2. Mən açıq-aydın bəyan edirəm ki, Yeni Dünyanın sahillərinin kəşf edilməsində Azərbaycanın dahi astronomu və riyaziyyatçısı, dünya şöhrətli alim Nəsirəddin Tusinin böyük rolu olub. Ulduzların və fəza cisimlərinin köməyi ilə

o, fenomenal qənaətə gələrək, Amerika qitəsinin konturunu çəkmiş və koordinatlarını yazmışdır. Xristofor Kolumb da məhz onun xəritəsinə əsaslanaraq, əvvəlcədən təyin etmişdi ki, Atlantik okeanın o tayında, təxminən 5500-6000 km. aralıda Avropa aləminə məlum olmayan nəhəng torpaq ərazisi yerləşir və həmin yerə böyük səyi nəticəsində ekspedisiya təşkil edir. Marağa rəsədxanasında tərtib olunan xəritəyə əsasən, Tusi həqiqətəndə Qərb dünyasında nəhəng torpaq ərazisini göstərir. Unutmaq lazım deyil ki, okean keçidi zamanı gəmidəki bütün coğrafi ölçülər Ayın, Günəşin və ulduzların köməyi ilə aparılır. Kolumb kimi təcrübəli dənizçi və peşəkar astronom üçün həmin torpaq ərazisini təyin etmək heç də çətin deyildi.

3. Maraqlandıran suallardan biri odur ki, Kolumb kəşf elədiyi torpaqları nəyə görə Şərqi Asiya adlandırmışdı? Çox güman ki, o, bu həqiqəti gizlətməklə istəmirdi ki, yeni-yeni kolondatorlar Yeni Dünya sahillərinə axışıb gəlsinlər. Bunun nəticəsində isə İspaniyadan gələn kolondatorlar admiralın kəşf etdiyi torpaqları yavaş-yavaş mənimsəməyə başlayacaqlar. Sözsüz ki, bu cür hal Kolumbun bütün planlarına zidd idi. Yenə də sual verilə bilər ki, kəşf olunan torpaqların Şərqi Asiya və ya Yeni Dünya adlandırılmasında nə fərq var. Həmin torpaqlar Şərqi Asiya adlandırılanda məgər kolondatorlar kəşf olunan əraziləri mənimsəməyə-

cəklər? İş ondadır ki, Kolumb İspaniyanın hökmdarları İzabella Kastiliyalı və Ferdinand Araqonlu ilə bağladığı müqaviləyə əsasən o, kəşf etdiyi torpaqların varisi sayıla bilərdi. Kəşf olunacaq torpaqlar isə Asiya qitəsinin şərq sahilləri sayılırdı. Deməli, Asiya qitəsindən əlavə ekspedisiya Avropa dünyasına məlum olmayan hər hansı bir ərazisini kəşf etsəydi, onda həmin torpaqlara ekspedisiyalar təşkil etmək monopoliyası Kolumbun əlindən alınacaqdı. Belə olan halda Atlantik okeanının həmin hissəsinə başqa rəislər tərəfindən ekspedisiyalar təşkil olunmalıydı.

4. Kolumb əvvəlcədən bilirdi ki, qarşısındakı torpaq Avropa dünyasına məlum olmayan bir ərazidir və həmin ərazinin Pireney yarımadasından qərb istiqamətində neçə kilometr aralıda yerləşir. Bunun üçün əyani sübut matrosların Yeni Dünya sahillərinə çatmağa az qalmış qaldırdıqları qiyamdır və ekspedisiya rəisinin komandadan beş gün yox, bir həftə yox, məhz üç gün möhlət istəməsidir. Yuxarıda qeyd edildiyi kimi Baham adaları sisteminə daxil olan Quanahini adası verilən möhlətdən düz iyirmi altı saat sonra kəşf edilir. Deməli, Kolumb qiyam qalxmamış əvvəlcədən bilirdi ki, Qərb yarımkürəsindəki nəhəng torpaq haradasa yaxınlıqda yerləşir. Çünki Tusinin xəritəsinə əsasən, nəzərdə tutulan naməlum torpaq ekspedisiya çatdığı yerdən xeyli şərq tərəfdə yerləşməliydi. Həmin dövrdə

texnikanın azlığı və ölçü cihazlarının dəqiq işləməməsi Kolumbda belə bir təəssürat yarada bilərdi ki, ekspedisiyanın getdiyi marşurut məsafəsi düzgün ölçülməyibdir. Məhz bu səbəbdən onda belə bir şübhə yaranardı ki, Tusinin xəritədə göstərdiyi naməlum torpaq heç də şərq tərəfdə qalmayıbdır. Kolumb oktyabr ayı girəndən hər an torpaqla üzləşəcəyinə əmin idi.

5. Abzasların birində qeyd edilir ki, Nəsirəddin Tusinin həyatını tədqiq edən professor H.C.Məmmədbəyli belə ehtimal sürmüşdür ki, "o dövrün astronom və coğrafiya mütəxəssisləri hələ Kolumbdan çox-çox qabaq Qərb yarımkürəsində, sonralar Amerika adlandırılmış materikin varlığından xəbərdar imişlər". Onda belə çıxır ki, Nəsirəddin Tusinin Marağa rəsədxanansında tərtib etdiyi xəritə Çindən Apennin yarımadasına gətiriləndən sonra, heç də Pololar nəslinin şəxsi əmlakı arasında uzun müddət saxlanılmır. Xəritə tez bir zamanda Venetsiyanın hüdudlarından kənara çıxır və astronomiya ilə, coğrafiya elmləri ilə dərindən maraqlanan adamların əllərinə keçir. Xəritə ilə tanış olanlar elə bilirdilər ki, Atlantik okeanının qərb sahilində göstərilən sahil zolağı Uzaq Şərqi Asiyanın sahil zolağıdır. Nəyə görə, onlar o cür fikirləşə bilərdilər?

Həmin dövrdə mütərəqqi insanlar çox yaxşı dərk edirdilər ki, Yer planetinin quruluşu kürə şəkilindədir. Kolumb

Yeni Dünya sahillərinə yola düşməmişdən əvvəl, Köhnə Dünyanın üç qitədən ibarət olduğu məlum idi. Həmin üç qitədən başqa Yer kürəsində əlavə materikin olduğunu təsəvvür etmək çətin idi. Əgər Atlantik okeanın qərb hissəsində iri bir torpaq ərazisi göstərilirsə, onda həmin torpağın Asiya qitəsinin şərq hissəsinin olduğunu zənn etmək olar. İşdir, Sakit okeanının şərq hissəsnində iri bir torpaq ərazisi göstərilərsə, onda həmin torpağın Avropanın qərb hissəsinin olduğunu başa düşmək çətin olmazdı. Deməli, Tusinin xəritəsi Florentsiya kitabxanasına düşməmişdən əvvəl mütəxəssislər üçün məlum idisə, həmin torpağın Asiya qitəsi olduğu güman edilirdi. Elə həmin ehtimallara əsasən Paolo Toskanelli də elə bilirdi ki, həmin torpaq Asiya qitəsinin ucqar Şərq hissəsidir. Belə olan halda Yer kürəsinin səthinin süni sürətdə xeyli kiçildilirdi.

6. Paolo Toskanellidən fərqli olaraq, Xristofor Kolumb Yer Kürəsinin balaca olmasına şübhə ilə yanaşmış və Tusinin xəritəsində göstərilən, Atlantik okeanının qərb hissəsində göstərilən ərazinin, naməlum bir torpaq olduğuna inanmışdır. Lakin həmin torpağın naməlum olduğunu müəyyən səbəblərə görə hamıdan gizlətməyə məcbur olmuşdur. Əgər, Kolumb florentsiyalı alimin tərtib etdiyi xəritəyə bel bağlasa idi, onda o, elə 35-40$^0$ ş.en dairəsi ilə qərb istiqamətində hərəkət edərək, donanmanı Zipanquya

çatdırardı. Çünki həmin dövrdə çıxan xəritələrə əsasən Yaponiya və Çin 35-40$^0$ şimal enliklərində yerləşirdi. Lakin Kolumb Atlantik okeanını qət edərkən, birdən-birə kursu bilərəkdən cənubi-qərb istiqamətinə tərəf tutaraq 20-25$^0$ ş.en dairəsinə üstünlük vermişdi. Və bununla da həmin səyahət zamanı ekspedisiya Baham adaları ilə üzləşmişdi.

7. Kolumb əvvəlcədən nəzərdə tutduğu marşurut üzrə hərəkət edərək, hər hansı bir coğrafi məntəqəni kəşf edəndə, əvvəlcədən təsəvvürünə gətirirdi ki, həmin kəşfin aqibəti necə olacaq. Bir çox kəşflərin əsl mahiyyətini isə o, ekspedisiya iştirakçılarından və himayədarlarından gizlədirdi.

Admiral Belendə olarkən, artıq bir neçə mil qərb istiqamətində nəhəng bir su hövzəsinin yerləşməsindən hali idi və həmin su hövzəsi çox güman ki, onun kəşf elədiyi materiki Asiya qitəsindən ayırır. Belə olan halda məşhur dəniz səyyahı, yunan alimi Eratosfenin Yer kürəsinin ölçüsü barəsindəki verdiyi hesabatın həqiqətə uyğun olduğuna daha da inanır və təxmini olsa da, Asiya qitəsinin Yeni Dünya sahillərindən nə qədər aralıda yerləşdiyini bilirdi.

Bundan əlavə Kolumb hər hansı bir sahilə çıxanda yerli hindularla bir çox şeylər barəsində sorğu-suallar aparırdı, ən əsas suallardan da biri o idi ki, ən çox qızıl harada var?

Panamada olarkən çox güman ki, aborigenlər çoxlu qızılın, cənubda yerləşən ölkə olan “Biru”dan gətirdiyini izah edərdilər. Bu maraqlı məlumat hər halda admiralın fikirindən yayınmazdı və o, gələcəkdə həmin ölkəyə gedib çıxacağını hökmən planlaşdırmalıydı. Çünki tarixdən göründüyü kimi istər Martin Ernandes Ensiso, istər Diyeqo Nikuesa, istər Vasko Nunyes de Balboa, istər Pedro Arias Avila (Pedrarias), istərsə də Fransisko Pisarro Panamaya ayaq basanda, yerli hindualrdan, cənubda külli-miqdarda qiymətli metalları olan, ən varlı ölkə sayılan “Biru” haqqında çoxlu söz-söhbətlər eşidirdilər. Kolumb “Biru”ya getməklə çoxlu qızıl əldə etməli və bununla da öz imicini İspaniyanın monarxlarının qarşısında qoruyub saxlamalı idi. Əlbəttə, o, öz fikirləri ilə qardaşı Bartolomeonu tanış etməmiş olmazdı.

Kolumb çox yaxşı bilirdi ki, Karib dənizinin qərbində yerləşən sahil zolağı onun gələcək planlarının həyata keçirilməsinə xeyli təkan verəcək və o, övladlarını İspaniyanın ən varlı və vəzifəli şəxslərinə çevirəcək. İş ondadır ki, admiral gələcəkdə oğlu Ferdinandı Belenin varisi elan etməklə, “Biru”nun kəşfini öz varislərinə həvalə edir. Lakin tarixdən göründüyü kimi Karib dənizinə olan monapoliya Kolumblar nəslindən alınır, Fransisko Pisarro isə “Biru”nu 1532-ci ildə kəşf edən avropalılardan ilk adam sayılırdı.

8. Alimlərin əksəriyyətinin, Xristofor Kolumbun guya kəşf elədiyi torpağın Asiya qiəsinin bir parçası olduğu haqqında verdikləri məlumatın yanlış olduğunu sübuta yetirmək üçün bir təkzib verməklə kifayətlənmək olar. Yuxarıda qeyd edildiyi kimi Kolumb səyahətə yola düşməmişdən əvvəl çox yaxşı bilirdi ki, Asiya qitəsində yerləşən Yaponiya, Çin və Hindistan ölkələrində yaşayan əhalinin necə geyinib keçindikləri, hansı adət-ənənələrə malik olması və sifət quruluşlarının hansı şəkildə olur. Lakin birinci səyahət zamanı o, Haiti, Kuba və Baham adalarını kəşf edir və onların heç birisində hər hansısa bir uyğunluq tapmır.

Coğrafiyaşünasların fikirləri ilə o halda razılaşmaq olardı ki, genuyalı admiral yalnız təkcə Baham adalarını kəşf edərək, ondan sonra kursu dərhal geriyə, İspaniyaya döndərsin. Hətta buna baxmayaraq, Kolumb Mərkəzi Amerika sahillərinə bir neçə dəfə səyahət edir və onun tədqiq etdiyi ərazi həddindən artıq böyük olur. Onun tədqiq etdiyi nəhəng ərazidə Asiya qitəsindən heç bir əsər-əlamət tapmaq olmur. Başqa səbəblər olmasa belə, corafiya elmindən yaxşı başı çıxan bir adam kimi Kolumb heç vaxt Asiya qitəsini Yeni Dünya sahilləri ilə səhv sala bilməzdi. Əgər o, Asiya qitəsinin Yeni Dünya sahilləri ilə səhv salsaydı, onda Kolumb heç vaxt Atlantik okeanının qərb hissəsinə təşkil

edilən, mahiyyət etibarı ilə çox ağır sayıaln bir ekspedisiyanın öhdəsindən gələ bilməzdi. Coğrafiya elmində elementar bir səhv buraxan adam üçün bunu praktik cəhətcə etmək mümkün deyildi.

9. Kolumbun əlindən qələbə əklinini almaqdan ötrü, Ameriqo Vespuççi admiral üçün gözlənilməz zərbəni endirməyi çalışırdı. Florentsiyalı kosmoqraf bu xain zərbəni endirməkdən ötrü illərlə hazırlıq görmüşdü.

Hələ Karib dənizi akvatoriyasında səyahətə başlamazdan əvvəl Alonso Oxeda şəxsən özü, X.Kolumbun İspaniyanın krallarına göndərdiyi Pariya körfəzinin və Mirvari sahillərinin (Cənubi Amerika qitəsinin şimal-şərq sahili) xəritəsini görmüşdü. Çox güman ki, Vespuççi də bir astronom və şturman köməkçisi kimi həmin xəritəni nəzərdən keçirməyə imkan tapmışdır. Çünki o, Yeni Dünyanın hər hansı bir hissəsinə aid olan bir yerin xəritəsi tərtib ediləndə, həmişə özü üçün xüsusi maraq kəsb edən həmin materialı öz gözləri ilə görməyə böyük səy göstərmişdir. Koordinatlar göstərilməsə də, sahil konturunun cizgilərini görmək peşəkar naviqator üçün kifayət idi.

Öz planlarını həyata keçirmək üçün Vespuççi əks hücuma keçir. Kolumbun xəritəsi ilə tanış olduqdan sonra o, qondarma “birinci” səyahəti (1497-1498) haqqında Avropada xəbərlər yaymağa başlayır. Guya ki, o, hamıdan

birinci olaraq Karib dənizinin şimal-qərb sahillərini tədqiq edib. Vespuççi admiralın buraxdığı səhvdən çox öz mənafeyi üçün çox səmərəli istifadə edir. Çünki Kolumb elə üçüncü səyahətindən sonra da Asiya qitəsinin şərq sahil zolağını kəşf etdiyini bəyan etmişdi. Vespuççi isə hamıya bəyan edir ki, özünün "1497"-ci ildə kəşf etdiyi torpaq Asiya qitəsi yox, naməlum bir qitədir. Lakin maraqlısı da odur ki, həmin dövrdə florentsiyalı kosmoqrafın sadaladığı ekspedisiya barəsində heç kim heç nə eşitməmişdi.

10. Kolumb birinci səyahət zamanı Espanyoldan sonra Kubanı kəşf edir və olduğu yerin coğrafi koordinatını müəyyən edərkən, həmin yerin $42^0$ ş.en dairəsində yerləşdiyini təyin edir. Naviqasiya sahəsində böyük ustad sayılan məşhur dəniz səyyahı nə az, nə çox, düz $20^0$ səhv etmiş olur. Əlbəttə, onun bu cür kobud səhv buraxmasına inanmaq çox çətindir. Söz yox ki, Kolumb bu səhvi bilərəkdən buraxaraq, öz gündəliyində məhz $42^0$ ş.en dairəsi kimi xüsusi ilə qeyd edir. Sonrakı səyahətlər zamanı Antil adalarındakı coğrafi məntəqələr kəşf ediləndə, məlum olur ki, o, həmin yerlərin coğrafi koordinatlarını düzgün göstərir. Bəs, nəyə görə admiral Kubanın coğrafi koordinatlarını təyin edəndə $20^0$ səhvə yol verir? İş ondadır ki, məşhur dəniz səyyahı birinci səyahət zamanı kəşf elədiyi torpaqların yerini səhv rəqəmlərlə təyin etməklə, həmin yerlərin

məxfiliyini saxlamaq istəmiş və başqa səyyahların həmin yerlərə, ondan xəbərsiz getmək şanslarını, onların əlindən almış olurdu. Çünki İspaniyanın monarxları Karib dənizi akvatoriyasında müsəqil şəkildə, admiraldan xəbərsiz ekspedisiyalar təşkil edə bilərdilər. Məhz bu səbəbdən ikinci ekspedisiya vaxtı Kolumb təkbaşına iri bir donanmaya başçılıq etmiş və çətinlik çəkmədən gedib Haiti adasına çıxmışdır. Sonrakı ekspedisyalar vaxtı kəşf edilən coğrafi məntəqələrin coğrafi koordinatları düzgün verilir, artıq Alonso de Oxeda, Pedro Alonso (Peralonso) Ninyo və Visente Yanyes Pinson müxtəlif ekspedisiyalara başçılıq edərək, admiralın köməyinə arxalanmadan müstəqil şəkildə, Karib dənizinin cənub sahilində yerləşən nəhəng torpağa (Cənubi Amerikanın şimal və şimal-şərq hissəsi) səyahətlərə yollanmış və orada tədqiqat işləri ilə məşğul olmuşdular.

11. Kolumb öz həyatını risqə qoyaraq, Köhnə Dünyada yaşayanların bir çox üçün müəmmalı sayılan bir sirri açır – Atlantik okeanının qərb hissəsində yerləşən nəhəng torpaq parçası Asiyanın şərq hissəsi deyil, Yer Kürəsinin dördüncü qitəsidir. O, səyahətləri zamanı əyani sübut edir ki, Nəsirəddin Tusi hələ XIII əsrdə öz xəritəsində Atlantik okeanının o biri tayında göstərdiyi nəhəng torpaq  parçası naməlum bir ərazidir. Deməli, azərbaycanlı alimin Marağa

rəsədxanasında apardığı tədqiqatlar, əsl dünyavi kəşfə gətirib çıxarıbmış.

Kolumb özmüvəffəqiyyətində yalnız əsrlərin dahi alimi sayılan Nəsirəddin Tusiyə minnətdar olmalı və çox güman ki, o, həmin istedadlı alimin xəritəsini ömrünün sonuna kimi saxlamışdır. Çünki məhz Tusi Azərbaycanda işləyə-işləyə, Atlantik okeanının o biri tayında iri bir torpağı koordinatları ilə birlikdə göstərmiş, okeanlarda və dənizlərdə baş verən qabarma və çəkilmələr Ayın çəpəki hərəkətindən və Yerin qütblərdəki batıqlığından irəli gələn vaxtaşırı, yəni il ərzində 24 dəfə özünü göstərən cazibə sızılmasının sonucu kimi özünü büruzə verdiyini, Yer kürəsinin şərti olaraq 24 meridiana bölərək və birinci meridianın Atlantik okeanına yaxın bir yerdən keçdiyini göstərir, okean və dənizlərdə baş verən fırtınalar, qasırğalar və sunamilər heç də küləklərin, tufanların törəməsi yox, tam əksər hallarda Ay dövriyyəsinin fəsadları olduğunu göstərmişdir. Həmin o tədqiqatlar və araşdırmalar hər hansı bir coğrafiyaşünas və naviqator üçün yaxşı vəsait sayılırdı.

Məhz həmin elmi əsaslara görə Kolumb əvvəlcədən havanın nə dərəcədə dəyişəcəyini, yəni sakit və ya küləkli keçəcəyini bilirdi. Elə 1498-ci ildə Espanyola adasına gələndə havanın sakit olmasına baxmayaraq o, qətiyyətlə bildirirdi ki, Karib dənizinin bi hissəsində fırtına baş

verəcəyindən, Ovando İspaniyaya yola salmaq istədiyi donanmanı bir neçə günlüyə adada saxlasın. Lakin inadkar qubernator məşhur dəniz səyyahının məsləhətinə qulaq asmadı və nəticədə donanmanın tərkibində olan gəmilərin əksəriyyəti gözlənilməz halda başlayan qasırğadan məhv edilir.

12. Elə ki, bütün ictimaiyyətə, Atlantik okeanının o biri tayındakı iri torpağın naməlum olduğu çatdırılanda, əsas məsələlərdən biri o idi ki, həmin ərazini bir adla işıqlandırmaq lazımdır. Kolumbdan fərqli olaraq Vespuççi bu işdə çox çevik tərpənir. O, elə hey səy göstərir ki, həmin torpaqlar **"Amerika"** adlandırılsın.

Yeni Dünyaya **"Amerika"** adının verilməsini və bu ada etiraz edilməsinin əsas səbəbi ondan ibarət idi ki, o vaxt Kolumbun övladları İspaniyanın krallarına qarşı, kəşf edilmiş torpaqların mənimsəməsi üçün vərəsəlik haqqında mübarizə aparırdılar. Kəşf olunmuş qitəyə **"Amerika"** adının verilməsi Ferdinand Araqonlunun lap ürəyindən idi, bəlkə də onlar bu məsələylə bağlı Vespuççinin özü ilə separat danışıqlar aparmış və Kastiliyanın baş şturmanının adından istifadə olunmasına ümidlə yanaşırdı. Belə bir vəziyyətdə yeni qitəyə Kolumbun adının verilməsi heç cürə İspaniyanın monarxı üçün sərfəli deyildi. Qitənin "Kolumbiya" adlandırılması vərəsəlik uğrunda gedən məhkəmədə

dahi admiralın nəslinin qələbəsi ilə başa çata bilərdi. Bir sözlə, məşhur dəniz səyyahının adının yeni qitəyə verməklə əbədiləşdirilməsi, İspaniya kralının məğlubiyyəti ilə nəticələnəcəkdi.

13. Florentsiyalı kosmoqraf vaxt məkandan, Kolumb ilə Ferdinand Araqonlu arasında yaranan ədavətdən əsl hiyləgər bir adam kimi istifadə edə bilmişdi.

Ucuz şan-şöhrətin sahibi olmaq istəyən Vespuççi üçün əsl karyera, A. Oxedanın ekspedisiyasında iştirak etdiyi bir vaxt yaranır. Bilə-bilə ki, səyahət zamanı bir çox marşurutların və kəşf edilən sahil zolaqlarının konturları məxvi halda saxlanılacaq, o, fürsətdən istifadə etməli olur. Həmin səyahət zamanı bir çox kəşfləri o, öz adı ilə bağlayır. Bu haqda geniş və ətraflı məlumat, yazdığım **“Amerika qitəsi və Ameriqo Vespuççinin avantürası”** adlı elmi əsərimdə verilib. Lakin bəzi məqamları mən açıqlamalı olacağam.

A. Vespuççi sonuncu səyahətini (1503-1504) başa vurandan sonra Pireney yarımadasında tanınmış xəritə-şünaslarla, astronomlarla, şturmanlarla, kral məmurlar ilə dostluq əlaqələri yaratmağa başlayır. Belə dostların siyahısına alman alimi Martin Valdzemüller də daxil olur. Çox güman ki, alman alimi Vespuççinin “təlimatından” sonra, 1507-ci ildə Fransanın Sen-Dye şəhərində keçirilən

coğrafi dərnəkdə yenicə kəşf edilmiş qitəyə **"Amerika"** adının verilməsi ilə çıxış etmişdi.

M. Valdzemüller, X. Kolumbun ilk dəfə 1492-ci ildə sahilinə çıxdığı, yeni qitənin kəşf olunmasında Vespuççinin rolunun danılmaz olduğunu öz həmkarlarına sübuta yetirmək üçün florentsiyalı kosmoqrafın yazdığı məhz ikinci məktubunu hamıya nümayiş elətdirir. Elə yalnız ondan sonra hamıda belə bir təəssürat yaranır ki, Vespuççi dahi Kolumbdan bir il əvvəl, 1497-ci ildə Cənub materikinə birinci olaraq ayaq basmışdır. Belə olan halda Cənub materikinə **"Amerika"** adının verilməsinə haqsız zəmin yaratmışdır. Çünki dərnək iştirakçıları çox yaxşı bilirdilər ki, Kolumb sözü gedən Cənub materikinə ilk dəfə 1498-ci ildə gedib çıxmış və bu azmış kimi məşhur dəniz səyyahı həmin torpağı Asiya qitəsinin bir parçası hesab etmişdir.

14. Bir çox araşdırmalardan sonra mən belə bir nəticəyə gəldim ki, Vespuççiyə şan-şöhrət gətirdiyi ikinci məktubdakı əsas yazılar bilavasitə Kolumbun ikinci səyahəti zamanı baş verən hadisələri əks elətdirir. Dahi admiralın kəşf elədiyi adalardakı adamyeyən hinduların əks-sədası florentsiyalı kosmoqrafa çatanda o, da məktubda qeyd edir ki, Braziliyanın şimal-şərq sahillərində yaşayan hinduların əksəriyyəti adamyeyənlərdir. Halbuki Braziliyanın sahillərində elə bir hindu tayfası yoxdur ki, "Kannibalizm" adət-

ənənələrinə üstünlük versinlər. Öz məktublarına populizm gətirmək üçün Vespuççi belə bir mövzuya əl atmalı olmuşdu.

"Yeni ölkələrdən" qayıtdıqdan sonra Vespuççi Florentsiyanın bank müdiri Lorensi di Pyer Françesko del Mediçiyə yazdığı məktubda (1503) belə bir izahat verir: "Həmin ölkələri "Yeni Dünya" adlandırmaq lazımdır... Qədimdə yaşayan müəlliflərin əksəriyyəti belə hesab edirlər ki, dənizdən savayı ekvatordan cənubda heç bir materik yoxdur, əgər varsa da, həmin yerdə insan yaşayışı yoxdur. Lakin mənim axırıncı səyahətim sübuta yetirdi ki, qədimdə yaşayan müəlliflər öz fikirlərində yanılırlar. Onların gətirdikləri faktların əksinə olaraq mən cənub ərazilərdə, əhalisi Avropadan çox olan bir materik tapdım, hansının ki, iqlimi, tanıdığımız ölkələrin iqlimindən xoş və mülayimdir".

Bütün Dünyaya yayılan bu ifadələr əsas etibarı ilə Yeni Dünyanın "Kolumbiya" yox, məhz "Amerika" adlandırılmasında sonuncu arqument oldu. Çünki Avropanın bir çox ölkələrində nəşr edilmiş həmin məktublarda qeyd olunurdu ki, həmin materiki məhz Ameriqo Vespuççinin özü kəşf edibdir. Belə olan halda Kolumbdan heç bir hissəsini bu işə həsr etmiş dahi səyyah bilərəkdən buraxdığı bağışlanılmaz "səhvlərə" görə bütün dünyaya bəyan etmişdir ki, kəşf

etdiyi torpaqlar Şərqi Asiyadır. Bu cür çaşdırıcı fikirlər bütün dünya ictimaiyyətini çaş-baş salmışdı və indiyənə kimi bu düyünü açmaqda çətinlik çəkirlər.

15. Məşhur dəniz səyyahından fərqli olaraq, Vespuççi nə etdiyini çox yaxşı bilirdi. Bilə-bilə ki, Cənub materikinə ilk dəfə Kolumb yaxınlaşıb (1498) və həmin torpağın materik olduğunu ilk dəfə Alonso Oxedanın 1499-1500-cü illərdə təşkil etdiyi ekspedisiyada iştirak etmiş bask miliyyətindən olan tanınmış şturman Xuan-de-la-Kosa anlayıb (1500), ona dünya şöhrətini gətirən bütün bu nailiyyətləri öz adı ilə bağlamağa xəcalət hissi keçirmədi. La-Kosa həmin qənaətdən sonra Seviliyada yerləşən "Hindistan şurası"na bu haqda məlumat verir. Lakin Vespuççi onu qabaqlayaraq həmin kəşfi həyasızcasına özününküləşdirir və bu haqda beynəlxalq aləmdə yayılacaq məktubunda yazılar vermişdi.

O vaxtın alimləri özlərinə əziyyət verib aktual sayılan bu məsələdə xırda detalları yoxlamağa səy göstərməmişdilər. Sadəcə olaraq alimlər tarixi günlərə diqqətlə nəzər yetirməmişdilər. Onda başa düşərdilər ki, bu qənaətə hamıdan qabaq ilk dəfə Xristofor Kolumb (1498) gəlmişdir.

16. Kolumb ilə Oxedadan fərqli olaraq, Vespuççi onlardan öz dövrünün vəziyyətini nəzərə alaraq çevik tərpənir. Yeni Dünya sahillərindən qayıdan bir çox ekspedisiyaların nəticələri məxvi sürətdə gizlin saxlanılırdı. Florentsi-

yalı kosmoqraf isə bu haqda dost-tanışları ilə məsləhətləşir və cəfəngiyyat dolu ifadələrlə yazılan məktublarını öz “emissarlarının” vasitəsi ilə xarici ölkələrdə nəşr elətdirirdi. Alman alimi Martin Valdzemüller, 1507-ci ildə Fransanın Sen-Dye şəhərində keçirilən coğrafi dərnəkdə, yazdığı “Kosmoqrafiyaya müqəddimə” adlı elmi əsərini və həmin əsərinə daxil etdiyi Yeni Dünya sahillərinin xəritəsini nümayiş elətdirir. Qəribəsi də odur ki, alim həmin xəritədə, Kolumbun kəşf elədiyi yeni torpağı, daha doğrusu “Cənub” materikini (Cənubi Amerika) Amerika kimi göstərir. M. Valdzemüller çox güman ki, bilərəkdən tarixi və bağışlanılmaz bir səhvə yol vermiş və həmin dövrün alimləri həmin kobud səhvi bir həqiqət kimi başa düşərək, Yeni Dünya sahillərini “Amerika” kimi göstərməyə başlamışdılar.

Məhz bu səbəblərdən bir çox adamlarda elə bir təəssürat yaranmışdır ki, “Cənub” materikinin kəşf edilməsində Vespuççinin rolu çox böyük olubdur. Sen-Dye şəhərində məşhur dəniz səyyahı sayılan Kolumba qarşı böyük bir xəyanətkarlıq, daha doğrusu onun şan-şöhrətinə və ləyaqətinə qarşı sui-qəsd edilmişdir. Bir tədqiqatçı kimi mən bu ittihamın məsuliyyətini dərk edir və ədalətli qərarın çıxarılması zərurətindən çıxış edirəm. Çünki həmin şəhərdə alimlər üzlərini Femidaya tərəf tutaraq, yenicə kəşf edilmiş torpaqları məhz “Kolumbiya” adlandıra bilərdilər.

17. Kolumbun, zəmanəsinin ən təcrübəli, bacarıqlı dənizçi olmasına şübhə etməmək olar, on agörə ki, o, yola düşməmişdən əvvəl okeandakı cərəyanlardan və küləklərdən necə istifadə etməsini bütün dənizçilərdən yaxşı bilirdi. Admiral ağır səyahətə yola düşməmişdən əvvəl İngiltərəyə, İrlandiyaya və Afrikanın Qvineya sahillərinə üzmüş və Atlantik okeanın şərq hissəsindən qərb istiqamətində hərəkət edən cərəyanların və küləklərin əsmə istiqamətinə bələd olaraq, bu barədə hətta gündəlik də tutmuşdu. O, əvvəlcədən Kanar cərəyanı ilə Atlantik okeanının qərb hissəsinə üzməyi və oradan həm ekvatora yaxın, həm də ki, 30-cu, 40-cı paralellərdə Avropa istiqamətində hərəkət edən cərəyanlar ilə necə geriyə qayıtmağı da bilirdi.

Əlbəttə, Kolumb birinci səyahət zamanı geriyə qayıtmaq üçün ekvator yaxınlığında fəaliyyət göstərən cərəyandan da istifadə edə bilərdi, lakin Roma papasının qoyduğu qanunlara intizamla riayət edən admiral Kolumb, Portuqaliya ilə İspaniya arasında bağlanan Tordelyasdakı müqaviləni (1494) rəhbər tutaraq, şiamldakı cərəyandan istifadə etməli olur. Çünki o, Portuqaliyanın nəzarəti altında olan cərəyandan istifadə etmək fikirindən uzaq idi. Deməli, Kolumb hara getdiyini və oradan necə qayıdacağını əvvəlcədən bilirdi, lakin bu haqda heç kiminlə fikirlərini böüşdürmək istəmirdi. Tusinin əsərlərində aydınca göstərilib ki, Atlantik

okeanında təbii prosses kimi həm qərb, həm də ki, şərq istiqamətində hərəkət edən bir neçə güclü cərəyan fəaliyyət göstərir. Belə bir lazımlı məlumatdan Kolumb peşəkar bir dənizçi kimi istifadə etmişdi.

Kolumb bənzərsiz bir dəniz səyyahı kimi İspaniyanın qarşısında misilsiz xidmətlər göstərsə də, onun bu xidmətlərini İspaniyanın monarxı Ferdinand Araqonlu layiqincə qiymətləndirmədi. Dünya əhəmiyyətli səyahətləri başa çatdırandan sonra o, bir çox işlərini səliqə-səhmana salmaqdan və müqavilənin şərtlərinə əməl olunmasından ötrü, 1505-ci ilin may ayında xəstə vəziyyətdə kralın müvəqqəti iqamətgahı olan Seqoviyaya yollanır. Kral onu mehribancasına qarşılasa da, lakin heç bir xahişini yerinə yetirmir. Buna baxmayaraq, admirala əvvəlcədən verilmiş imtiyazların əvəzinə Kastiliyada yekə bir mülkün verilməsi qərara alınır. Lakin o, bundan imtina edir və qətiyyətlə bildirir ki, ya onun bütün hüquqları bərpa edilsin, ya da ki, heç bir şey verilməsin.

1506-cı ilin mayın 19-da o, özünün axırıncı vəsiyyətini edir, ertəsi günü isə admiralın halı xeyli pisləşir. Artıq dördüncü səyahətin qəhrəmanı Diyeqo Mendes və genuyalı kapitan Fiyeski onun yanına çağırılmışdılar. Kolumbun hər iki oğlu və qardaşı Diyeqo əvvəlcədən onun yanında idilər. Təkcə qardaşı Bartolomeo Yeni Dünyanın “adelantado”su

burada yox idi, o, kral sarayında, qardaşının bütün imtiyazlarını bərpa etmək üçün İspaniyanın monarxı ilə mübarizə aparırdı.

Mayın 20-də corafi kəşflər sahəsində misilsiz rol oynamış məşhur dəniz səyyahı Valyadolid şəhərində vəfat edir, onun dəfnində hakimiyyət dairəsinin heç bir nümayəndəsi iştirak etmir. Admiralı Valyadolid şəhərinin fransiskan monastırında dəfn edirlər. Sonrakı illərdə onun cənazəsi bir yerdən başqa yerə köçürülür. 1507-ci və ya 1509-cu ildə cənazəni Seviliya şəhərinə aparırlar. XVI əsrin ortasında admiralın qəbri qazılaraq, Seviliyadan Santo-Dominqoya (Haiti adası) köçürülür. Elə həmin şəhərdə də Kolumbun qardaşı Bartolomeonu, oğlu Diyeqonu və nəvəsi Luisi basdırırlar.

1792-ci ildə İspaniya Espanyola (Haiti) adasının şərq hissəsini Fransaya verməli olur və bunun nəticəsində ispan donanmasının komandoru admiralın cənazəsini Havanaya köçürməyə əmr verir. Elə orada da məşhur dəniz səyyahını dördüncü dəfə basdırırlar. Lakin Havana da Kolumbun axırıncı mənzili sayılmır. 1898-ci ildə müharibə nəticəsində İspaniya Kubanı itirir və admiralın cənazəsini yenidən Seviliyaya aparırlar. Hazırda məşhur dəniz səyyahının cənazəsi Seviliyanın kafedral məbədində saxlanılır.



***Xristofor Kolumbun Seviliyanın Kafedral məbədindəki qəbri***

Dahi Kolumb vəfat edəndən 390 il sonra uzun müddət yaşadığı torpaqda rahatlıq tapır. Lakin onun ruhu hələlik heç də rahatlıq tapmayıbdır. İş ondadır ki, onun bəşəriyyət tarixi qarşısında göstərdiyi xidmətlər, dünya ictimaiyyəti tərəfindən layiqincə qiymətləndirilməyibdir. Bütün ömrünü iki okean arasında (Atlantik və Sakit) yerləşən iri bir torpaq ərazisinin kəşfinə həsr etmiş bir adamın bəşəriyyət qarşısındakı göstərdiyi əvəzsiz xidməti və zəhməti yerə vurularaq,

planetimizin Qərb yarımkürəsindəki qitəni, tamamilə başqa bir adamın şərəfinə (Ameriqo Vespuççinin), adlandırılmışdır.

Hazırda həm X. Kolumbun, həm də N. Tusinin nəsilindən olan nümayəndələr Dünyanın bir çox ölkələrində yaşayıb-yaradır, onlar kimi öz ölkələrinin qarşısında əvəzsiz xidmətlər göstərirlər. Xristoforun varisi indiki dövrdə İspaniyanın admiralıdır və ulu babası kimi İspaniyanın şərəf və ləyaqətini qorumaq üçün, məşhur dəniz səyyahının layiqli bir nümayəndəsi kimi bütün səy və bacarığından istifadə edir. Eləcə də Tusinin varisləri iki yerə parçalanmış Azərbaycan ölkəsinin (müstəqil Azərbaycan Respublikası və İranın 1828-ci ildə işğal etdiyi Cənubi Azərbaycan) ərazisində yaşayaraq, dünya şöhrətli alimin nəsil genini davam etdirirlər. Vaxtı ilə Marağa şəhərində yaşamış dahi alimin nəsili Azərbaycanın bir çox şəhərlərinə köçmüş, elm və mədəniyyət sahələrində fəaliyyət göstərirlər. Tusinin, Cənubi Azərbaycandan Şimali Azərbaycana (Ordubad, sonradan isə Bakı şəhərləri) köçən varislərinin əksəriyyəti tibb elmində əvəzsiz xidmətlər göstərmişdilər. Bakıda yaşayanlar əsasən tibbə meyl göstərərək, Səhiyyə sahəsində xidmət edirlər. Bir sözlə, həm X. Kolumb, həm də N. Tusi kimi şəxsiyyətlərlə nəinki yaşadıqları ölkələrin vətəndaşları, hətta bütün dünya ictimaiyyəti fəxr etməlidirlər.

Təzadlarla bol olan Yer Kürəsinin quruluşu, orta əsrdə yaşayan mütərəqqi və tərəqqipərvər insanlar üçün əsrarəngiz görünsə də, həmin adamlar duman pərdəsi altında olan səhnənin hansı şəkildə olmasını üzə çıxartmaqdan ötrü, coğrafi kəşflərin baş verməsinə böyük canfəşanlıq göstərirdilər. Möhkəm qapını xatırladan okean sularının arxasında gizlədilən dördüncü qitənin kəşf edilməsi üçün Kolumb həmin qapını açmağa müəssər olmuşdur. Lakin Yeni Dünyanın astanasında yerləşən həmin qapının açılması üçün, açarları dahi Azərbaycan alimi Nəsirəddin Tusi hazırlayıb bəşəriyyətə təqdim etmişdir.

# Ədəbiyyatlar

**Абрамсон, М. Л. Кириллова, А. А. Колесницкий Н. Ф**. и др.; Под ред. Колесницкого Н.Ф. История средних веков: 2-е изд. испр. и доп. Москва, «Просвещение», 1986.

**Андре М**. Подлинное приключение Христофора Колумба. Пер. с фран. М-Л., Земля и фабрика, 1928

**Azərbaycan Beynəlxalq Universiteti.** N. Tusinin 800 illik yubileyinə həsr edilmiş Respublika konfransının materialları. Bakı-2001

**Афанасьев. В. Л.** Текст воспроизведен по изданию: Бартоломе де Лас Касас. История Индии. Ленинград, «Наука», 1968.

**Bakıxanov A. A.** Gülüstani-irəm. Bakı, 1951

**Bakıxanov A. A**. Seçilmiş əsərləri. Bakı, “Yazıçı”, 1984

**Белый Ю. А.** Тихо Браге. М. «Наука», 1982.

**Берри А**. Краткая история астрономии. 1946.

**Бертельс Е. Я**. Суфизм и Суфийская литература. М., 1965

**Бейкер Дж**. История географических открытий и исследований. Пер. с англ. М., «Иностранная литература», 1950

**Бейклесс Дж**. Америка глазами первооткрывателей. Пер. с англ. М., «Прогресс», 1969

**Велиев С. С**. Древний, древний Азербайджан. Баку, «Гянджилик», 1983

**Верлинден Ч.** Христофор Колумб, Эрнан Кортес. Ростов-на-Дону, «Феникс», 1997

**Веселовский, Н. Белый. Ю. А**. Николай Коперник. М.:1974. «Наука», стр. 65

**Qabusnamə.** Bakı, "Azərnəşr", 1989

**Qacar Ç.** Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı, "Nicat", 1997

**Голант В. Я.** Планету открывали сообща. М., «Наука», 1971

**Qasımov R**. Əsrləri qabaqlamış alim – Nəsirəddin Tusi. Bakı, "Yurd", 2003. səh. 267

**Гуляев В. И.** Доколумбовы плавания в Америку: мифы и реальность. Москва, «Международные отношения», 1991

**Гумилевская М. А.** Как открывали мир. Москва, «Д.Л.», 1997

**Дитмар А. Б.** Родосская параллель. Жизнь и деятельность Эратосфена. Москва, «Мысль», 1965

**Hüseynov R. Ə.** Astronomiya. Ali məktəblər üçün dərslik. Bakı, "Maarif", 1997

**Hüseynov R. Ə.** "Bilgi" dərgisinin "fizika, riyaziyyat, yer elmləri" seriyası. Nəsirəddin Tusinin astronomiya elmində xidmətləri. Bakı, 2002, №2

**Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk.** Siyasətnamə. H. Məmmədzadənin əlavəsi. Bakı, "Elm", 1989

**Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk.** Siyasətnamə. R. Sultanovun yazdığı müqqədimədən. Bakı, “Elm”, 1989

**Ионина Н. А**. Автор-составитель. Сто великих чудес света. Москва, «Вече», 2000

**Исаченко А. А**. Развитие географических идей. Москва, «Мысль», 1971

История античности. Сост. **Томашевская М. Н.** Москва, «Правда», 1989, II том

**Клацко-Рындзиун**. Журнал Ассоциации искусственного интеллекта. Новости искусственного интеллекта. М., 1993

**Коротцев О.** Как измеряли мир. Глобус. Л., «Д.Л», 1980

**Купер Ф. Дж.** Мерседес из Кастилии или путешествие в Катай. Одесса, «Маяк», 1985

**Kəndli-Herisçi Q.** Xaqani Şirvani. Bakı, 1988

**Лас Касас Б.** История Индии. Пр. с исп. Л., «Наука», 1968

**Магидович И. П.** Христофор Колумб. М., «Географгиз», 1956

**Магидович И. П.** История открытия и исследования Северной Америки. Москва, «Географгиз», 1962

**Магидович И. П.** История открытия и исследования Цен-тральной Южной Америки. Москва, «Географгиз», 1965

**Магидович И. П., Магидович В. И.** Очерки по истории географических открытий том I, Москва, «Просвещение», 1983

**Магидович И. П., Магидович В. И.** Очерки по истории географических открытий том II,Москва, «Просвещение», 1983

**Максудов Ф. Г., Маммедбейли Г. Дж.** Мухаммед Насирэддин Туси. Баку, «Гянджилик», 1981

**Марко Поло. Книга Марко Поло.** Пер. старофранцузского текста. Москва, «Мысль», 1965

**Məmmədbəyli H. C.** Mühəmməd Nəsirəddin Tusi. Bakı, "Gənclik", 1980

**Məmmədbəyli H. C. və Haşımzadə M.** "Şəklül-qita" kitabının fiyaziyyat tarixində əhəmiyyəti. Az.SSR EA., Xəbərləri, 1951 №8

**Морисон С. Э.** Христофор Колумб – мореплаватель. Пер. с англ. Москва, «Иностранная литература», 1958

**Муромов И. А.** Сто великих путешественников. Москва, «Вече», 2000

**Рашид-ад-дин.** Сборник летописей том III, Москва, 1946

**Самин Д. К.** Сто великих научных открытий. Москва, «Вече», 2002

**Самин Д. К.** Сто великих ученых. Москва, «Вече», 2002

**Страбон.** География. Пер. с гречес. Москва, «Наука», 1964

**Строева Л. В**. Государство Исмаилитов в Иране в XI-XIII вв. Москва, «Наука», 1978

**Субботин М. Ф**. Работы Мухаммеда Насирэддина по теории движения Солнца и планет. «Известия АН Азерб. ССР», №5, 1951

**Свет Я. М**. Колумб. Москва, «Молодая гвардия», 1973

**Свет Я. М**. Севильская западня. (Тяжба о Колумбовом нас-ледстве) Москва, «Молодая гвардия», 1969

**Томашевская М. Н.,** Составитель, Историки античности. Москва, «Правда», 1989, том II

**Фукидид.** История том I, Москва, 1915

**Xacə Nəsirəddin Tusi.** Rəhim Sultanovun farscadan tərcüməsi. Əxlaqi-Nasiri. Bakı, "Lider nəşriyyat", 2005. səh. 235

**Ханке X.** Люди, корабли, океаны. Москва, «Прогресс» 1984

**Харт Г.** Венецианец Марко Поло. Перевод с англ. Москва, «ИЛ», 1956

**Хауз. Д.** Гринвичское время и открытие долготы. Москва, «Мир», 1983.

**Хепгуд Ч.** Древние карты морских королей.

**Христофор Колумб.** Путешествие. 1952

**Шкловский В.** Земли разведчик. М., «Молодая гвардия», 1966

## Mündəricat

**Ön söz……………………………………….. 4-11**

**Genuyada anadan olan Xristofor Kolumb və onun Portuqaliya səfəri……………………….. 13-32**

**Xristofor Kolumbun İspaniya səfəri………… 33-46**

**Van Olmen, Kolumbun Portuqal kralı II Juana təqdim etdiyi layihəyə əsasən, Atlantikanın qərb hissəsinə səyahət etmişdi………………………….. 47-57**

**Kolumbun layihəsini müdafiə edən varlı maliyyəçilər…………………………………………… 57-66**

**Nəsirəddin Tusinin hesablamaları və Paolo Toskanellinin tərtib etdiyi məşhur xəritəsi……… 67-70**

**Florentsiyalı kosmoqraf Paolo Toskanellinin Yer kürəsi barəsində verdiyi ölçülər Kolumbun həyatında böyük dönüş yaradır………………….. 71-77**

**Azərbaycandan olan məşhur alim Nəsirəddin Tusi və onun bəşəriyyət elmi qarşısındakı xidmətləri... 77-89**

**Marağa rəsədxanası XIII əsrdə dünyanın ən böyük akademiyası sayılırdı………………………. 89-100**

**Xristofor Kolumbun birinci səyahəti………… 100-112**

**İspan ekspedisiyası Yeni Dünya sahillərini kəşf edir…………………………………………………. 112-121**

**Amerika qitəsinin kəşfi və həmin kəşf zamanı baş verən bir çox sirlərin üzə çıxarılması............ 122-133**
**Alonso Sançes de Uelva və Xristofor Kolumb.. 134-143**
**Nəsirəddin Tusinin elmi fəaliyyəti və Marağa rəsədxanasında tərtib olunmuş xəritə.................... 144-152**
**Venetsiyalı səyyah Marko Polo və Nəsirəddin Tusinin məşhur xəritəsi........................................ 152-160**
**Kolumbun sirri nədən ibarət idi?................... 160-171**
**Xristofor Kolumbun ikinci səyahəti................ 171-185**
**Espanyola adasındakı Navidad fortunun darmadağın edilməsi və ispanların hiddəti........... 185-205**
**Xristofor Kolumbun üçüncü səyahəti............. 206-214**
**Kolumba qarşı qurulan xəyanət..................... 214-225**
**Nikolas Ovandonun Espanyolanın hakimi təyin edilir və hindulara qarşı başlanan soyqırım.......... 226-236**
**Xristofor Kolumbun dördüncü səyahəti.......... 237-254**
**Xristofor Kolumbun əldə etdiyi tarixi nailiyyətlər monarxlar tərəfindən lazımi səviyyədə qiymətləndirilmir................................................. 255-266**
**Qurulan hiyləyə görə mükafat....................... 267-275**
**Dördüncü qitənin şərq qurtaracağının koordinatları Alonso Pinsona da məlum imiş.............. 276-286**
**Amerika qitəsinin Normanlar tərəfindən kəşf edilməsi və həmin kəşfə ciddi əhəmiyyət verilməməsi.......................................................... 286-298**

**Afrikanı dövrə vuran qədim dənizçilər........... 298-304**
**Kolumbun coğrafiya və tarix qarşısındakı nailiyyətləri lazımınca bəşəriyyət tərəfindən qiymətləndirilmir................................................ 305-322**
**Kolumb ətrafında yaranan bir çox məsələlərin həll olunması...................................................... 322-346**
**Ədəbiyyatlar.................................................. 347-351**

**Ramiz Dəniz**

# *Xristofor Kolumb, Nəsirəddin Tusi və Amerika qitəsinin həqiqi kəşfi*

**Nəşriyyatın direktoru F. Q. Kərimov**

**Çapa imzalanmışdır: 26.09. 2014**
**Formatı: 60x84 1/16**
**Fiziki çap vərəqi: 22**
**Tiraj: 500**
**"Nasir" nəşriyyatı**

**Tel: (050) 314 09 37**
**(012) 431 11 00**